Biz maddi dəyərləri insan kapitalına çevirməliyik.
İlham Əliyev

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

Cild 7, №4, 2024
Vol. 7, №4, 2024
Том 7, №4, 2024
İldə dörd dəfə nəşr olunur.

Peşə təhsili və insan kapitalı

Vocational education and human capital

Профессиональное образование и человеческий капитал

***Elmi-praktiki, metodiki jurnal* ∗ *Scientific-practical and methodological journal* ∗**

Научно-практический, методический журнал

*****

Baş redaktor
Balakişiyev Ş.Ş. (f.e.f.d.)

Redaksiya heyətinin sədri
Mamedov S.T. (Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor müavini)

Redaksiya heyətinin üzvləri

Ataşov B.X. (i.e.d., prof., Əməkdar elm xadimi)**, Əlizadə H.Ə.** (p.e.d., prof.), **Əlizadə R.İ.** (t.e.d., prof.), **Ağayev F.H.** (t.e.f.d.), **İlyasov M.İ.** (p.e.d., prof.), **Quliyev N.Ə.** (p.e.d., prof.), **Əmiraslanov T.İ.** (t.e.f.d., Əməkdar mədəniyyət işçisi), **Əsgərov R.B.** (Əməkdar müəllim), **Quliyev C.Ə.**, **Axundov Y.M., Zeynalov V.E., Mehdiyeva N.B., Camalov H.E.**

*****

Chief editor
Balakishiyev Sh.Sh. (a.s.s.dr.)

Chairman of the editorial board: Mamedov S.T.
(Deputy director of the State Agency for Vocational Education)

Members of the editorial board

Atashov B.Kh. (prof., dr., Honored scientist), **Alizade H.A.** (prof., dr.), **Alizadeh R.I.** (prof., dr.), **Aghayev F.H.** (a.s.s.dr.), **Ilyasov M.I.** (prof., dr.), **Guliyev N.A.** (prof., dr.), **Amiraslanov T.I.** (a.s.s., dr., Honored cultural worker), **Asgarov R.B.** (Honored teacher), **Guliyev J.A., Akhundov Y.M., Zeynalov V.E., Mehdiyeva N.B., Jamalov H.E.**

*****

Главный редактор
Балакишиев Ш.Ш. (д.ф.ф.н.)

Пред. ред. коллегии: Мамедов С.Т. (Заместитель директора Государственного Агентства Профессионального Образования)

Члены редакционной коллегии

Аташов Б.Х. (д.э.н., проф., Заслуженный деятель науки), **Ализаде Х.А**. (д.п.н., проф.), **Ализаде Р.И.** (д.т.н., проф.), **Агаев Ф.Г.** (д.ф.т.н.), **Ильясов М.И.** (д.п.н., проф.), **Гулиев Н.А.** (д.п.н., проф.), **Амирасланов Т.И.** (д.ф.и.н., Заслуженный деятель культуры), **Аскеров Р.Б.** (Заслуженный учитель), **Гулиев Дж.А., Ахундов Ю.М., Зейналов В.Е., Мехтиева Н.Б., Джамалов Х.Е.**

"Peşə təhsili və insan kapitalı" jurnalında pedaqogika, texnika, iqtisadiyyat, informatika, ekologiya və digər fundamental elm bölmələri üzrə məqalələr, metodiki yazılar dərc edilir.

*****

The journal "Vocational Education and Human Capital" publishes clauses, and other pieces of information on pedagogy, technology, economics, informatics, ecology and other fundamental sciences, including methodical articles.

*****

В журнале "Профессиональное образование и человеческий капитал" публикуются статьи по педагогике, технике, экономике, информатике, экологии и других фундаментальных науках, а также методологические статьи.

Jurnalın indekslənməsi / Indexed by

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası

ROAD DIRECTORY OF OPEN ACCESS SCHOLARLY RESOURCES

MŞ Azərbaycan Mətbuat Şurası Azerbaijan Press Council

doi Crossref

ISSN 2664-4770 *(Print)*
E-ISSN 2706-7858 *(Online)*
DOİ: 10.30546/2706-7858

http: // www.jurnal.vet.edu.az
e-mail: peshetehsili.jurnali@vet.edu.gov.az

MÜNDƏRİCAT

Pedaqogika

6 **M.İlyasov.** Təhsilin modernləşdirilməsi şəraitində müəllim hazırlığının bəzi məsələləri
12 **A.Süleymanova.** Müəllimlərin tədris və təcrübəsində süni intellektdən istifadə imkanları
26 **K.Quliyeva.** Heydər Əliyev və Azərbaycan müəllimi
31 **N.Əhmədova.** Tələbələrdə kommunikativ bacarıqların formalaşdırılmasının mahiyyəti, məqsəd və vəzifələri
38 **M.Əsgərova.** Muxtariyyət dövründə Naxçıvanda təhsil və elmin inkişafı: Tarixi təcrübə və müasir çağırışlar
41 **A.Ağayeva.** Ali təhsil sisteminin iqtisadi səmərəliliyinə töhfə verən amillərin təhlili və modelləşdirmə

İqtisadiyyat

47 **R.Əsgərov.** Azərbaycanın dəstəyi ilə təbii qaz təchizatı mənbələrinin şaxələndirilməsi
56 **Ş.Məmmədov.** Azərbaycanda quşçuluq: problemləri və inkişaf perspektivləri
64 **E.İbrahimov.** Regional siyasət strategiyasının əsas istiqamətləri
70 **G.Quliyeva, N.Mirzəzadə.** Turizm fəaliyyətinin formalaşmasının elmi-nəzəri aspektləri
76 **K.Əlizadə.** Ali və peşə ixtisas təhsilinin əmək bazarına uyğunlaşdırılmasının müasir parametrləri

Texnika

80 **N.Məmmədov.** Ətraf mühit və mikroiqlim: problemlər, mülahizələr
84 **N.Zülfüqarova, A.İsayeva.** İntellektual avtomobil nəqliyyat sistemlərinin təhlükəsizlik tələblərinin aktuallığı
88 **S.Rzayeva.** Günəşin fiziki xassələri və günəş enerjisindən elektrik enerjisinin alınması yolları

Beynəlxalq əlaqələr (layihələr, təcrübələr)

93 **G.Əhmədova, K.Bayramova.** "Qida məhsullarının istehsalı üzrə texnik-texnoloq" ixtisasının kurikulumunun hazırlanması ilə bağlı Belarus təcrübəsi
97 **T.Əliyeva.** Kiçik və orta biznesin maliyyələşdirilməsində dünya təcrübəsi

Metodika və innovasiyalar

102 **L.Vahabova.** Yüksək texniki-peşə təhsili istiqamətində estetik tərbiyənin formalaşdirilmasinda müvafiq fənlərin tədrisi məsələləri
106 **R.Qarayeva.** Hər kəs üçün inklüziv və keyfiyyətli təhsil – BMT-nin dayanıqlı inkişaf məqsədlərinin hədəflərindən biri kimi
110 **K.Allahverdiyev.** Peşə təhsili sahəsində çalışan müəllimlərin rəqəmsal səriştələrinin dərs prosesində rolu

115 **"Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı**

117 **Məqalələrin tərtibatı qaydaları**

CONTENTS

Pedagogy

6 **M.Ilyasov.** Some issues related to teacher's training in terms of educational modernization
12 **A.Suleymanova.** Possibilities of using artificial intelligence in teacher's teaching and practice
26 **K.Guliyeva.** Heydar Aliyev and Azerbaijani teacher
31 **N.Ahmadova.** The essence, goals and tasks of forming communicative skills in students
38 **M.Asgarova.** Development of education and science in Nakhchivan during the period of autonomy: historical experience and modern challenges
41 **A.Aghayeva.** Analysis and modeling of factors contributing to the economic efficiency of the higher education system

Economy

47 **R.Asgarov.** Diversification of natural gas supply sources with the support of Azerbaijan
56 **Sh. Mammadov.** Poultry farming in Azerbaijan: problems and development prospects
64 **E.Ibrahimov.** The main directions of the regional policy strategy
70 **G.Guliyeva, N.Mirzazade.** Scientific-theoretical aspects of tourism activity formation
76 **K.Alizadeh.** Modern parameters of adaptation of higher and professional education to the labor market

Technology

80 **N.Mammadov.** Environment and microclimate: problems and considerations
84 **N.Zulfugarova, A.Isayeva.** Relevance of safety requirements of intelligent vehicle transport systems
88 **S.Rzayeva.** Physical properties of the Sun and the ways of obtaining solar energy

International Relations (Projects & Practices)

93 **G.Ahmadova, K.Bayramova.** Belarusian experience in developing the curriculum of the specialty called "Technician-Technologist of the production of food products"
97 **T.Aliyeva.** World experience in financing small and medium businesses

Methodology & Innovations

102 **L.Vahabova.** Issues of teaching relevant subjects in the formation of aesthetic education in the direction of higher technical-vocational education
106 **R.Garayeva.** Inclusive and quality education for all – as one of the targets among UN sustainable development goals
110 **K.Allahverdiyev.** The role of teacher's digital competences who works in the field of vocational education in the teaching process

115 **Decision of the Cabinet of Ministers of the Republic of Azerbaijan on making changes in the "Classification of Vocational Education Qualifications"**

117 **Rules for the layout of the premises**

ОГЛАВЛЕНИЕ

Педагогика

6 **М. Ильясов.** Вопросы подготовки учителей в условиях модернизации образования
12 **А.Сулейманова.** Возможности использования искусственного интеллекта в обучении и практике учителей
26 **К.Гулиева.** Гейдар Алиев и учитель Азербайджана
31 **Н.Ахмедова.** Сущность, цели и задачи формирования коммуникативных навыков у студентов
38 **М.Аскарова.** Развитие образования и науки в Нахчыване в период автономии: исторический опыт и современные вызовы
41 **А.Агаева.** Анализ и моделирование факторов, способствующих экономической эффективности системы высшего образования

Экономика

47 **Р.Аскеров.** Диверсификация источников поставок природного газа при поддержке Азербайджана
56 **Ш.Мамедов.** Птицеводство в Азербайджане: проблемы и перспективы развития
64 **Э.Ибрагимов.** Основные направления стратегии региональной политики
70 **Г.Гулиева, Н.Мирзазаде.** Научно-теоретические аспекты формирования туристической деятельности
76 **К.Ализаде.** Современные параметры адаптации высшего и профессионального образования к рынку труда

Техника

80 **Н.Мамедов.** Окружающая среда и микроклимат: проблемы, соображения
84 **Н.Зульфугарова, А.Исаева.** Актуальность требований безопасности интеллектуальных транспортных систем транспортных средств
88 **С.Рзаева.** Физические свойства Солнца и способы получения солнечной энергии

Международные отношения (проекты и практики)

93 **Г.Ахмедова, К.Байрамова.** Белорусский опыт разработки учебной программы специальности «Техник-технолог производства пищевых продуктов»
97 **Т.Алиева.** Мировой опыт финансирования малого и среднего бизнеса

Методика и инновации

102 **Л.Вахабова.** Вопросы преподавания актуальных предметов при формировании эстетического воспитания по направлению высшего технического профессионального образования
106 **Р.Гараева.** Инклюзивное и качественное образование для всех – как одна из целей устойчивого развития ООН
110 **К.Аллахвердиев.** Роль цифровых компетенций преподавателей, работающих в сфере профессионального образования, в учебном процессе
115 **Постановление Кабинета Министров Азербайджанской Республики о внесении изменений в «Классификацию квалификаций профессионального образования»**
117 **Правила составления статей**

Peşə təhsili və insan kapitalı. Cild 7, №4, 2024, s.6-11

TƏHSİLİN MODERNLƏŞDİRİLMƏSİ ŞƏRAİTİNDƏ MÜƏLLİM HAZIRLIĞININ BƏZİ MƏSƏLƏLƏRİ

Müseyib İlyasov,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri,
pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim
e-mail: müseyibilyas@gmail.com
https://doi.org/10.30546/2706-7858.7.4.2024.03

UOT: 37

Xülasə. *Yüksək peşəkarlığa və səriştələrə malik olan müəllim hazırlığı problemi pedaqogikada həmişə aktual problemlər sırasında olmuş və bu gün də aktual olaraq qalmaqdadır. Cəmiyyətin gələcəyinin müəyyən mənada müəllimdən asılı olduğunu əsas götürsək, bu problemin cəmiyyətin bugünkü inkişaf dönəmində nə qədər aktual və vacib olduğunu dərk etmək o qədər də çətin olmaz. Ona görə də müəllim hazırlığına müasir tələblər səviyyəsində, təhsilin modernləşdirilməsi şəraitində yanaşılması, yeni paradiqmalarla həllinə nail olunması olduqca vacib və əhəmiyyətlidir. Bütün imkanların səfərbər edilməsi və artırılması kadr hazırlığının və tədris fənlərinin keyfiyyətinin yüksəldilməsi, müəllim hazırlığının məzmununun dərinləşdirilməsində qabaqcıl dünya təcrübəsindən istifadə və s., eləcə də problemin həllinə mane olan bir sıra çatışmazlıqların (tədris resurslarının az olması, müəllimlərin səriştəliliyinin kifayət qədər olmaması, müəllimlərin peşə hazırlığına xidmət edən fənlərin saatlarının az olması, gələcək müəllimlərin tərbiyə işlərinin metodikası və texnologiyalarına zəif hazırlanması və s.) aradan qaldırılması təqdim olunan məqalənin əsas mahiyyətini təşkil edir.*

Açar sözlər: *müəllim hazırlığı, təhsil texnologiyaları, vəzifə, tədqiqat, kommunikasiya.*
Key words: *teacher training, educational technologies, duty, research, communication.*
Ключевые слова: *подготовка учителей, технологии образования, задача, исследования, коммуникация.*

Sosial-mədəni həyatımızın bütün sahələrində olduğu kimi, təhsil sahəsində də gedən köklü dəyişikliklər, xüsusən təhsilin informasiyalaşdırılması və qabaqcıl dünya ölkələrinin təhsil sistemlərinə inteqrasiyası yönümündə aparılan modernləşdirmələr müasir müəllimlərin peşə hazırlıqlarına da yeni tələblər qoyur, onun yönümünü dəyişir, məzmununu təkmilləşdirir və yeniləşdirir. Müasir təhsil texnologiyalarını və metodikasını mənimsəmək, onları yaradıcılıqla tətbiq etmək, təhsili layihələndirməyi bacarmaq, pedaqoji prosesi müasir tələblər səviyyəsinə qaldıra bilmək müasir müəllimlərin qarşısında duran ən ümdə vəzifələrdəndir. Bunlar müəllimlərdən yeni-yeni bacarıqlara və səriştələrə yiyələnməyi tələb edir ki, bunların da əsasında ali məktəbdə aparılan müəllim hazırlığı zamanı alınan bilik və bacarıqlar, səriştələr durur. Odur ki, hazırda müəllim hazırlığının müasir dövrün tələbləri səviyyəsinə qaldırılması bu sahədə fəaliyyət göstərən təhsil müəssisələrinin qarşı-

sında duran ən başlıca problem və vəzifədir.

Müəllim hazırlığı qlobal əhəmiyyətli, nəsillərin gələcəyə necə hazırlanması ilə bağlı problemdir. Onda olan boşluqlar və çatışmazlıqlar sonradan çox çətin düzəldilən, çox zaman isə düzəlməyən elə deformasiyalara səbəb olur ki, onlar özünü təhsilalanların təhsilində, tərbiyəsində və həyati bacarıqlarında göstərir.

Respublikamızda müəllim hazırlığı problemi həmişə aktual olmuş və bu iş hər zaman dövlətimizin diqqət yetirdiyi məsələlərdən olmuşdur. Ölkəmizdə ilk yüksəkixtisaslı müəllim kadrlarının hazırlanmasının başlanılmasından keçən yüz dörd il ərzində də bu sahədə xeyli müsbət təcrübə toplanılmışdır. Dünya təhsil sisteminə inteqrasiyanın sürətləndiyi, informasiya texnologiyalarının inkişaf etdiyi, yeni-yeni təlim metodlarının, texnologiyaların tədrisə gətirildiyi, gənc nəslin həyata hazırlanmasına, bir vətəndaş-şəxsiyyət kimi formalaşmasına yüksək önəm verildiyi müasir dövrdə bu məsələ daha da aktuallaşmış, onun məzmunu və istiqamətləri zənginləşmişdir. Bunlarla yanaşı, müəllim hazırlığına verilən tələblər də çoxalmış, dünyanın bir sıra qabaqcıl ölkələrinin və təhsil müəssisələrinin təcrübəsinin öyrənilib tətbiq edilməsinə maraq artmışdır.

Müasir müəllim təkcə fənn biliklərinə, müasir təlim texnologiyalarına və metodik biliklərə deyil, eyni zamanda yüksək peşə keyfiyyətlərinə, pedaqoji səriştələrə malik olmalı, informasiya təhsil texnologiyalarına yiyələnməlidir. Ona görə də gələcək müəllimlər təkcə fənn biliklərinə, ixtisas hazırlığına deyil, yüksək İKT hazırlığı və peşə səriştələrinə yiyələnməli, orta məktəbə hazır müəllim kimi getməlidirlər. Başqa sözlə desək, ümumi və geniş dünyagörüşünə malik olmalı, həyati bacarıqlar və səriştələrə yiyələnməli, eləcə də ümumpedaqoji səriştələr qazanmalı-dırlar.

Müasir informasiya və kommunikasiya texnologiyalarından səmərəli şəkildə istifadə edə bilmək müəllimin mürəkkəb pedaqoji vəzifələrinin həllində və ümumi peşə fəaliyyətində əsas yerlərdən birini tutur. Nə müasir təhsil prosesini, nə də müasir müəllimi bunlarsız təsəvvür etmək çətindir. Bu baxımdan hazırkı müəllim hazırlığı prosesində gələcək müəllimlərin müasir informasiya və kommunikasiya texnologiyalarına yiyələnmələrinin təmin edilməsi (təhsil resurslarının olması, müəllimlərin İKT bacarıqlarına yiyələnməsi və s.), bu istiqamətdə səriştələrə yiyələnməsi olduqca vacib məsələlərdəndir. Qeyd edək ki, hazırda müəllimlərimizin əksəriyyəti pedaqoji fəaliyyətdə çətinlik çəkmədən informasiya-kommunikasiya texnologiyalarından ən yüksək səviyyədə istifadə edə bilirlər. Lakin çatışmazlıqlar da az deyildir.

Müəllimlərin İKT bacarıqları müəyyən səriştələrlə özünü göstərir. Bunlar əsasən İKT üzrə *ümumi səriştələr* (internetdən istifadə etmək, onlayn formada əlaqələr qura bilmək, müəyyən əməliyyatları icra edə bilmək, qrafiklər, cədvəllər qurmaq, testlər hazırlamaq, müəyyən məsələləri redaktə etmək, layihələr tərtib etmək, təqdimatlar hazırlamaq, elektron cədvəllər qura bilmək, sistemləşdirmə apara bilmək və s.), *ümumpedaqoji səriştələr* (müxtəlif proqramlardan istifadə etməklə yazmaq, təqdimatlar hazırlamaq, cədvəllərlə, diaqramlarla işləmək, qruplar yaratmaq və s.), *ixtisas fənni üzrə səriştələr* (bilavasitə ixtisası və tədris etdiyi fənlər üzrə yenilikləri əldə etmək, mətnlər, cədvəllər, materiallar hazırlamaq, onları təqdim etmək və s.) kimi səriştələri əhatə edir. Bu da onu göstərir ki, müasir müəllimlər təkcə öz tədris etdiyi fənni deyil, müasir təlim, o cümlədən informasiya-kommunikativ texnologiyalarını, təlimin yeni forma və metodlarını yüksək səviyyədə bilməli, onları tətbiq etməyi bacarmalı və bu sahədə mühüm səriştələrə malik olmalıdırlar. Müasir müəllim özü innovativ olmaqla səriştə və bacarıqlarını təkmilləşdirmək üçün daim öz üzərində çalışmalı, qarşılıqlı pedaqoji əlaqə və ünsiyyət qurmağı bacarmalı, təhsil, informasiya və sosial əlaqələrdə İKT üzrə bacarıqlarını və pedaqoji ustalığını artırmağa maraqlı olmalı, eləcə də tədris prosesini layihələşdirmək və şagirdlərin idrakının inkişafı üçün yeni-yeni metodikadan və metodlardan istifadə etməyə və sinifdəki bütün şagirdlərin təhsil prosesinin fəal iştirakçısına çevrilməsinə nail olmalıdır. Bunların nəticəsi olaraq gələcək müəllimlər müəyyən problemin həlli üçün məlumatlar toplayıb, onları təsnif etmək və sistemləşdirmək, layihələr hazırlayıb onların təqdimatını etmək, didaktik problemlərin həllində müəyyən vasitələrdən istifadə etmək, müəllim və yoldaşları ilə qarşılıqlı pedaqoji əlaqələri qura bilmək və s. səriştələrə malik ol-

malıdırlar. Bütün bunlar onu göstərir ki, İKT bacarıqlarının daha da mükəmməl olması üçün gələcək müəllimlərin bu istiqamətdə daha dərin və hərtərəfli hazırlanması diqqətdən kənarda qalmamalı, əksinə, bu daha da dərinləşdirilməlidir.

Ali məktəb cəmiyyətin və dövlətin sosial sifarişini yerinə yetirir. Dövlət və cəmiyyət hazırlanan müəllim kadrlarının yüksək hazırlıqlı, peşəkar və səriştəli olmalarında maraqlı olduğu kimi, ali pedaqoji təhsil müəssisələri də bu sosial sifarişi yüksək səviyyədə reallaşdırmağa, yaradıcı, öz ixtisasını, peşəsini, işini, yüksək səviyyədə yerinə yetirməyi bacaran, yeni təhsil modelləri axtaran, onları tətbiq edə bilən yaradıcı müəllimlərin hazırlanmasında maraqlı olmalıdırlar. Həm də təkcə maraq deyil, yüksək vəzifə borcu kimi bu tələbləri yerinə yetirməlidirlər. Ona görə də hazırda pedaqoji ali məktəblərin qarşısında duran ən başlıca, bir nömrəli vəzifə bu sosial sifarişdən gələn tələblərlə müasir müəllim hazırlığı arasında olan bəzi çatışmazlıqları aradan qaldırmaq, yüksək peşəkarlığa və səriştələrə malik olan müəllim kadrları hazırlamaqdan ibarətdir. Bunun üçün, əlbəttə, mövcud olan bir sıra problemlərin həlli də vacibdir. Bunlardan daha vacib olanlardan aşağıdakıları göstərmək olar:

1. Hazırda orta məktəblərdə fənlərin inteqrativliyini və inteqrasiyasını təmin etmək məqsədi ilə vaxtilə ayrı-ayrı öyrədilən təbiət fənlərinin, o cümlədən fizika, kimya, biologiya fənlərinin "təbiət" fənni kimi tədris olunması çox mütərəqqi bir addım kimi qiymətləndirilməlidir. Lakin bu gün ali pedaqoji təhsil müəssisələrində bu fənni tədris etmək üçün kadr hazırlanırmı? Təəssüf ki, yox. Təbii ki, bu fənni orta məktəblərdə tədris edən müəllimlər yalnız bir fənn üzrə (məsələn, biologiya müəllimi, yaxud fizika müəllimi, kimya-biologiya müəllimi və s.) ixtisas müəllimi olacaqdır ki, o da təbii ki, bu proqram çərçivəsində digər fənlərə aid məsələləri tələb olunan səviyyədə, yüksək peşəkarlıqla tədris edə bilməyəcəkdir. Bunun da nəticəsini təsəvvür etmək yəqin ki, çətin deyildir.

2. Ötən tədris ilində dörd minədək müəllimin ikinci dəfə MİQ imtahanlarında aşağı bal toplamaları məktəblərdəki vəziyyətlə bağlı həyəcan təbili deyilmi? Fikrimizcə, burada yaranmış vəziyyətin əsas səbəbləri yalnız müəllimlərin öz peşə və ixtisaslarını dərindən bilməmələri deyildir. Düzdür, bu, əsas amildir. Lakin ikinci bir səbəb də ali pedaqoji təhsil müəssisələrində hazırlanan gənc kadrlara pedaqogikadan, fənlərin tədrisi metodikaları və texnologiyalarından öyrədilən metodlar, metodika və texnologiyalar ilə MİQ imtahanları üçün tərtib edilən imtahan sualları arasında koordinasiyanın olmaması, bir-birindən kəskin fərqlənməsidir. Sual olunur: bu, kimin üçün faydalıdır? Yəqin ki, heç kimin: nə sifarişçi, nə kadr hazırlayan, nə də işəgötürən üçün. Ona görə də ya imtahan sualları ali məktəblərdə müvafiq fənlər üzrə öyrədilən proqramlara uyğunlaşdırılmalı, ya da əksinə, ali məktəb proqramlarında bu istiqamətdə yeniliklər edilməlidir. Zənnimizcə, Azərbaycan Respublikası Təhsil İnstitutu buna xüsusi diqqət ayırmalıdır.

3. Yaxşı iş üçün yaxşı mühit və normal şərait də lazımdır. Lakin bu sahədə görülməli işlər heç də az deyildir. Bu sahədə bir sıra universitetlərdə müsbət iş təcrübəsi, normal şərait formalaşsa da, bütövlükdə ali təhsil müəssisələrinin hamısının auditoriyalarının kompüter (bir tələbə bir kompüter), internet, smart lövhələr, proyektorlar və digər resurslarla təchiz edilməsi bu baxımdan vacib hesab edilməlidir.

4. Müəllimin peşə fəaliyyəti gələcəyə yönəlmiş fəaliyyətdir. Onun məzmununda şəxsiyyətin formalaşdırılması əsas yer tutur. Cəmiyyətin dinamik inkişafı şəraitində təhsilin məzmununun yeniləşməsi, cəmiyyətin informasiyalaşması müəllimin peşə hazırlığının xarakterini dəyişdirdiyindən müasir müəllim hazırlığında da müəyyən məzmun və xarakter dəyişmələrinə ehtiyac yaranır. İnformasiya texnologiyalarının təhsilə daxil olması cəmiyyətdə olduğu kimi, təhsildə də bir sıra yenilikləri zəruri edir. Bu da öz növbəsində müəllim hazırlığının məzmununun daha da dərinləşdirilməsini, onu müasir dövrün tələbləri səviyyəsinə qaldırmağı, gələcək müəllimlərin müasir təhsil texnologiyaları ilə silahlandırılmasını, onları əsl yenilikçi və zəruri səriştələrə yiyələnmiş praktik pedaqoq kimi formalaşdırmağı tələb edir. Ona görə də ixtisasından asılı olmayaraq, bütün fakültələrdə tələbələrin İKT üzrə hazırlığının daha da təkmilləşdirilməsinə diqqət artırılmalı və tələbələrə yeni təhsil texnologiyaları ilə işləmək

bacarıqlarının aşılanması sahəsində yeniliklər edilməli və onların müxtəlif proqramlardan istifadə edə bilmələri təmin olunmalıdır.

5. Pedaqoji təhsilin magistratura səviyyəsində təhsil alan magistrantlardan gələcəkdə müəllim işləmək arzusunda olanları dissertasiya yazmaqdan azad etmək və bunun əvəzində onlarla daha çox müəllim hazırlığı ilə bağlı işlər aparılmalıdır. Ali məktəb pedaqogikasının tədrisi genişləndirilməli, eləcə də tələbələrə ali və orta ixtisas məktəblərində işləmək üçün zəruri olan bacarıq və vərdişlər aşılanmalıdır.

6. Son dövrlər yeniyetmələr və gənclər arasında cinayət hallarının artması, hətta məktəblərimizdə şagirdlərin davranışında neqativ halların çoxalması orta təhsil müəssisələrində sinifdən və məktəbdənkənar tərbiyə işlərinin səviyyəsinin yüksəldilməsinə zərurət yaradır. Bu baxımdan müəllim hazırlığında da müəyyən təkmilləşmələrin aparılması, tələbələrin tərbiyə işləri aparmaq sərişt-ələrinə yiyələnmələri üçün onlarla aparılan tədris və tərbiyə işlərinin məzmununun zənginləşdirilməsinə diqqət artırılmalıdır.

7. Etiraf edək ki, müəllimlik diplomuna sahib olmaq hələ müəllim olmaq demək deyildir. Gənc müəllimlərin əksəriyyəti sinifdə baş verə biləcək müxtəlif situasiyalara necə yanaşmaq, problemləri necə aradan qaldırmaqla bağlı pedaqoji sərişt-ələrə kifayət qədər malik olmurlar. Bunlar haqqında ali məktəblərdə də kifayət qədər hazırlıq keçirilmir. Ona görə də tələbələrin ixtisas hazırlığı prosesində müəllim kimi bilməli və etməli olduqları bütün fəaliyyət onlara öyrədilməlidir. Bunun üçün ali pedaqoji təhsil müəssisələrində "Praktik pedaqogika", "Pedaqoji peşəkarlıq və sərişt-ə-lilik", "Müəllimin pedaqoji ustalığı", "Müasir pedaqoji texnologiyalar" və s. fənlərin tədrisinə verilən saatların həcmi və keyfiyyəti artırılmalı, tələbələrdə praktik pedaqoji bacarıq və sərişt-ə-lərin formalaşdırılması önə çəkilməlidir.

Təhsilin inkişafı cəmiyyətin inkişafıdır. Cəmiyyət inkişaf etdikcə onun təhsil səviyyəsi yüksəldiyi kimi, təhsilin inkişaf etdirilməsi də cəmiyyətin inkişafına səbəb olur. Təhsil bir dəyər olaraq insanların mədəni səviyyəsini yüksəldir, cəmiyyətdə mənəvi-əxlaqi keyfiyyətlərin, qarşılıqlı münasibətlərin daha da inkişaf etməsinə səbəb olur və cəmiyyət dəyərlərin qoruyucusu kimi monolitləşir. Ali pedaqoji təhsil burada ən önəmli yerdə durur. Çünki bu təhsil gələcəyin vətəndaşlarını formalaşdıracaq gələcək ruhlu müəllimlərin hazırlanması kimi məsuliyyətli və şərəfli bir missiyanı həyata keçirir. Belə müəllimlərin hansı məsuliyyəti daşıdıqları və təhsildə nələrə nail olmaları haqqında ümummilli lider Heydər Əliyev deyirdi: ***"Azərbaycan müəlliminin bir məqsədi, bir amalı olmalıdır: Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən əqidəli, milli ruhlu nəsil yetişdirmək" [1, s.413].***

Dünyanın inkişaf etmiş ölkələrinin inkişaflarının başlıca səbəblərindən birincisi onların təhsilinin, məktəbinin və müəllimlərinin güclü olması böyük həqiqətdir. ABŞ-nın 32-ci prezidenti B.Ruzveltin dediyi: *"Amerika universitetlərinin güclü olmasının səbəbi onda deyil ki, Amerika güclüdür. Amerika ona görə güclüdür ki, onun güclü universitetləri vardır"* – sözləri bu həqiqəti bir daha təsdiq edir.

Cəmiyyətin savadlı müəllimlərə həmişə ehtiyacı olmuşdur. Bu gün də belədir. Bütün dərs deyənlər "müəllim" adlansalar da, onların içərisində əsl usta və ustad müəllimlər, öz peşəsinin fövqündə dura bilən müəllimlər həmişə seçilmiş və onlar öz işi, fəaliyyəti və şəxsiyyəti ilə gənc nəslə örnək olmuş, onların formalaşmasında müstəsna xidmətlər göstərmişlər. Fitrətən müəllimliyə yönəlişlik, peşəsini sevmək, müntəzəm özünütəhsil və özünüinkişaf, özünüaktuallaşdırma və s. kimi amillər belə müəllimlərin uğur qazanmalarında mühüm rol oynamışdır. Müəllim hazırlığının yüksək səviyyədə olması, gələcək müəllimlərin pedaqoji təhsil mərhələsini yüksək səviyyədə keçə bilmələri də bu amillər içərisində müstəsna rola və əhəmiyyətə malikdir.

Almaniyada müəllim hazırlığı sistemini nəzərdən keçirək.

Almaniyada pedaqoji təhsil iki mərhələdə aparılır. Birinci mərhələdə akademik fənn bilikləri və müvafiq fənn didaktikası keçirilir. İkinci mərhələ praktik xarakter daşıyır, gələcək müəllimlər peşə vəzifələrini və məktəb işlərini öyrənməyə yönəldilirlər. İkinci mərhələ 1,5-2 ilə-

dək davam edir və bu mərhələ universitetlərdən asılı olmur. Hər bir ərazidə Təhsil Nazirliyi tərəfindən idarə olunan xüsusi "Müəllim hazırlığı seminarları" və "Tədris məktəbləri" təşkil olunur.

Birinci mərhələ universitet çərçivəsində aparılır və "ilk dövlət imtahanı" ilə başa çatır. Baden-Vürtemberqdə isə ibtidai və orta məktəb müəllimlərinin hazırlanması üçün başqa imtahan (Pedagogishe Hoshşuhulen) təşkil edilir. Universitet təhsilinin ilk mərhələsi ibtidai sinif müəllimləri üçün 6-7 semestr, orta məktəb müəllimləri üçün isə 8-9 semestrə qədər davam edir. Tələbələrə seçdikləri ixtisasla sıx bağlı olaraq 2-3 fənn keçirilir. Gələcək müəllimlər, həmçinin "Məktəb pedaqogikası", "Təhsil psixologiyası", "Təhsil fəlsəfəsi", "Təhsil sosiologiyası" fənlərini öyrənir və məktəblərdə müntəzəm olaraq təcrübə də keçirlər. Bu mərhələdə tələbələr planlaşdırma, tədrisin təşkili, müəllim fəaliyyəti və s. ilə bağlı öz bacarıqlarını nümayiş etdirməlidirlər. Bunların fəaliyyətinə müntəzəm olaraq təcrübədə olduqları məktəblərin rəhbəri, yaxud müəllim səriştələri üzrə xüsusi seminarlarda iştirak etmiş müəllimlər tərəfindən nəzarət olunur və qiymətləndirilir.

"Zveites Ştaatsexamen" adlanan ikinci dövlət imtahanı ikinci mərhələ uğurla başa çatdıqdan sonra verilir. Həm birinci, həm də ikinci dövlət imtahanları universitetlər tərəfindən deyil, Təhsil Nazirliyi tərəfindən verilən qaydalara uyğun olaraq hər bir ərazinin səlahiyyətli orqanları tərəfindən aparılır [4].

Müəllim hazırlığı yeniliklərlə müşayiət olunmalı, bunun üçün də qabaqcıl ölkələrin müsbət təcrübəsindən yararlanmaq lazımdır. İnqilabi şəkildə deyil, müəyyən islahatlarla, eksperimental tədqiqatlarla, təcrübə ilə təsdiq edilmiş və fayda gətirə biləcək yeniliklər edilməlidir. İnnovasiyalara açıq olmaq, mövcud olanları daha da inkişaf etdirmək, əldə olunanlarla kifayətlənməyərək daim irəliyə addımlar atmaq bu prosesin daha da inkişafına və təkmilləşməsinə gətirib çıxarar.

Respublikamızın ali məktəbləri özünün elmi potensialı ilə də zəngindir. Fəlsəfə və elmlər doktorlarının xeyli hissəsi, məhz ali məktəblərimizdə cəmlənmişdir. Bunların sayəsində son illər ali məktəblər tədris müəssisələri statusundan daha da irəliyə gedərək, həm də tədqiqat institutları kimi inkişaf edir, tədris-tədqiqat mərkəzlərinə çevrilir. Ali məktəb müəllimlərinin apardıqları elmi-tədqiqat işləri heç də Azərbaycan Milli Elmlər Akademiyasının və sahə institutlarının apardıqları elmi-tədqiqatlardan az deyildir. Hər il istər ölkəmizdə, istərsə də xarici ölkələrdə onların yüzlərlə elmi məqalələri, kitabları nəşr olunur. Lakin əsas məsələlərdən biri həmin tədqiqat işlərinin tədrislə əlaqələndirilməsi və tədris prosesinə bilavasitə tətbiqinə nail olmaqdan ibarətdir. Çox təəssüf ki, tələbələrimizin əksəriyyəti bu tədqiqatlardan xəbərsiz olurlar. Ona görə də müəllim hazırlığında bu tədqiqatların praktik tətbiqi olduqca vacib məsələlərdəndir.

Nəzəri hazırlıq müəllim hazırlığının əsas bazasını və sütununu təşkil edib, onun metodologiyasının formalaşdırılmasına xidmət edirsə, praktik hazırlıq da bunların reallaşdırılmasının keyfiyyət göstəricilərini özündə təcəssüm etdirir, eləcə də gələcək müəllimlərin təməli bacarıq və səriştələrə yiyələnmələrini təmin etmiş olur. Formalaşmış praktik səriştələr və bacarıqlar nəzəri bilikləri "hərəkətə gətirir" və onları fəaliyyətə çevirir. Ona görə də bu proseslər biri digərini tamamlamaqla həyata keçirilməli, nəzəri hazırlıqla praktik hazırlıq kompleks şəkildə reallaşdırılmalıdır.

Nəticə. Ali təhsilli pedaqoji kadrların hazırlanması prosesi dinamik bir proses olduğundan onun təkmilləşdirilməsinə də dinamikada baxmaq lazımdır. Qabaqcıl təcrübələrdən bəhrələnməklə yanaşı, alternativ təhsil texnologiyalarından və proqramlarından istifadə, təhsilin qeyri-ənənəvi formalarının genişləndirilməsi, innovasiyaların tətbiqi və ən əsası bunlar üçün əlverişli mühitin yaradılması və mövcud tədris-metodiki və texnoloji proseslərin təkmilləşdirilməsi olduqca vacibdir. Xüsusi olaraq onu da vurğulamaq yerinə düşər ki, mövcud müəllim hazırlığında tədrisin tələbəyönümlülüyünün gücləndirilməsinə də ciddi yanaşılmalı və ona nail olunmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Bakı, "Təhsil" nəşriyyatı, 2002.

2. İlyasov M. Müasir təhsil: ənənədən innovasiyaya (monoqrafiya). Bakı, "Elm və təhsil" nəşriyyatı, 2021.

3. Зенкина С.В. Педагогические основы ориентации информационно-коммуникационной среды на новые образовательные результаты (автореферат диссертации доктора педагогических наук). Москва, 2007.

4. Ewald T. Teache. Education in Germany: traditonal structurestrengths and weaknesses, current reforms. Scuola democratia, 2013.

M.Ilyasov

Some issues related to teacher's training in terms of educational modernization

Abstract

The problem of teacher training with high professionalism and competence has always been among the most relevant problems in pedagogy and is still relevant today. If we assume that the future of the society depends on the teacher in a certain sense, it is not so difficult to understand how relevant and important this problem is in the current period of development of the society. Therefore, it is very important and important to approach teacher training at the level of modern requirements, in the conditions of modernization of education, to achieve a solution with new paradigms. Mobilization and increase of all opportunities (increasing the quality of personnel training and teaching subjects, using advanced world experience in deepening the content of teacher training, etc.) and the main essence of the presented article is to eliminate the lack of hours of the subjects served, the poor preparation of future teachers for the methods and technologies of educational work, etc.

М.Ильясов

Вопросы подготовки учителей в условиях модернизации образования

Аннотация

Проблема подготовка учителей высокого профессионализма и компетентности всегда была в числе наиболее актуальных проблем педагогики и актуальна и сегодня. Если предположить, что будущее общества в определенном смысле зависит от учителя, то не так уж сложно понять, несколько актуальна и важна эта проблема в современный период развития общества. Поэтому очень важно подходить к подготовке учителей на уровне современных требований, в условиях модернизации образования, добиваться решения с помощью новых парадигм. Мобилизация и увеличение всех возможностей (повышение качества подготовки кадров и преподавания предметов, использование передового мирового опыта в углублении содержания подготовки учителей и т.д.) и устранение ряд недостатков, препятствующих решению проблему (недоставка часов по обслуживаемым предметам, слабая подготовка будущих учителей к методам и технологиям воспитательной работы и т.д.) делает основная суть представленной статьи.

MÜƏLLİMLƏRİN TƏDRİS VƏ TƏCRÜBƏSİNDƏ SÜNİ İNTELLEKTDƏN İSTİFADƏ İMKANLARI

Afət Süleymanova,
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin
Məktəbəqədər və ümumi təhsil siyasəti şöbəsinin aparıcı məsləhətçisi,
Xəzər Universitetinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru
e-mail: Afet.Suleymanova@edu.gov.az
https://doi.org/10.30546/2706-7858.7.4.2024.06

UOT: 37

Xülasə. *Müasir dövrdə süni intellektin (Sİ) müxtəlif sahələrdə təsir gücü sürətlə artmış və bu tendensiya təhsil sektoruna da təsir göstərmişdir. Bu məqalədə müəllimlərin təhsili və peşəkar fəaliyyətində süni intellektin rolu araşdırılır, onun tədrisdə istifadəsi üçün yaranan imkanlar və risklər müzakirə olunur. Gənclərin süni intellekt texnologiyalarından istifadə baxımından müəllimlərini qabaqladığı müşahidə edilir və bu vəziyyət həm təhsilverənlər, həm də təhsilalanlar üçün ciddi maarifləndirmə ehtiyacını gündəmə gətirir. Tədqiqatda Sİ-nin müəllim hazırlığında və dərs prosesinin təşkili zamanı fərdiləşdirilmiş öyrənmə, qiymətləndirmə, tədris materiallarının hazırlanması və inklüziv təlim mühitinin yaradılması sahəsində tətbiq imkanları qiymətləndirilmişdir. Həmçinin süni intellektdən istifadə ilə bağlı metodologiyalar, innovativ yanaşmalar və dərs planlarının effektivliyi təhlil edilmişdir.*

Tədqiqat keyfiyyət metodologiyasına uyğun olaraq, tələbələrlə aparılan müsahibələr, iştirakçı müşahidələr və məzmun təhlilinə əsaslanmışdır. Nəticələr göstərir ki, təhsil prosesində süni intellektin dəstəkləyici deyil, əsaslı yardım funksiyasını yerinə yetirən texnologiya kimi mənimsənilməsi tələb olunur. Məqalədə həmçinin, müəllim və tələbələrin süni intellekt texnologiyalarından düzgün istifadəsi üçün maarifləndirmə tədbirləri və təlimatların əhəmiyyəti vurğulanır. Bu araşdırmada müəllimlərin tədris fəaliyyətində süni intellektin istifadəsini optimallaşdırmaq və bu texnologiyaların inteqrasiyası ilə təhsilin keyfiyyətini artırmaq məqsədilə təkliflər təqdim edilir.

Açar sözlər: *süni intellekt, müəllim təhsili, təhsil resursları, yaradıcı təfəkkür.*
Key words: *artificial intelligence, teacher education, educational resources, creative thinking.*
Ключевые слова: *искусственный интеллект, педагогическое образование, ресурсы в сфере образования, творческое мышление.*

"Kurikulum və qiymətləndirmə strategiyaları" fənnini tədris etdiyim Xəzər Universitetində tələbələrimə sual verdim: *"Kim layihələrin və ev tapşırıqlarının icrasında süni intellekt vasitələrindən istifadə edir?"* Əvvəl tələbələr bu sualımdan narahat oldular, sonra bir neçə tələbə əlini qaldırdı: – *"Mən"* dedilər. Daha kimin əlini qaldıracağını görmək üçün auditoriyaya nəzər saldım. Tələbələr bir-bir əllərini qaldırırdılar. Çox keçmədi ki, bütün tələbələrin süni intellekt vasitələrindən yararlandığı məlum oldu. Öz-özümə düşündüm: *"Gənclik bizi qabaqlayıb. Artıq tələbələr müəllimlərin onlara nə təqdim edəcəklərini gözləmirlər. Onlar günün nəbzini tutmağı, faydalı, səmərəli, rahat olanı müəyyən etməyi və yararlanmağı bacarırlar"*. Demək ki, biz müəllimlər tələbələrimizlə ayaqlaşmalıyıq. Öz müəllimlik fəaliyyətimizi yenidən götür-qoy etməliyik. Həm öz tədris metodikamıza, həm də tələbələrimizə öyrətdiyimiz təlim strategiyalarına yenidən baxmalıyıq.

Süni intellekt (Sİ) insan həyatının bütün sahələrində yeni imkanlar yaratmışdır. Ötən illər ərzində bu imkanlar və mümkün risklər haqqında çoxsaylı müzakirələr aparılmışdır. Bu gün süni intellekt tədqiqatının ən qaynar və perspektivli sahələrindən biri də təhsil sahəsidir. Bu tədqiqatda öyrənənlərə öyrənmənin daha effektiv yolları təqdim edilir, müəllim təhsili və təcrübəsinin inkişafında süni intellektdən istifadə imkanları araşdırılır. 16-18 may 2019-cu ildə Pekində keçirilmiş "Süni intellekt və təhsil, süni intellekt dövründə təhsilin planlaşdırılması üzrə beynəlxalq konfrans" materiallarında (https://unesdoc.unesco.org/search/N-EXPLORE-27fffb3b-9329-4f94-b9ea-98cb8c9ed1a8) göstərilir ki, "bəzi ölkələrdə artıq milli süni intellekt strategiyaları və təşəbbüsləri mövcud olsa da, bəziləri hələ də maarifləndirmə mərhələsində qalmaqdadır". Qabaqcıl milli təcrübələri olan ölkələrə Çinin "Yeni Nəsil Sİ İnkişaf Planı", Yaponiyanın "Cəmiyyət 5", Sloveniyanın Beynəlxalq Süni İntellekt Tədqiqat Mərkəzi və AB-nin Sİ strategiyası daxildir. Elə həmin konfransda süni intellektin "müəllimləri əvəz etmək əvəzinə onları gücləndir"diyi qeyd edilir. Süni intellektin müəllimlərin intellektinin yüksəldilməsinə təsirləri önə çəkilir. Konfransın hesabatında yazılır: "Müəllimlər əsaslandırılmış qərarlar qəbul etmək üçün lazımi Sİ və məlumat bilik və bacarıqları ilə təchiz edilməlidir". Bunun üçün təhsil sahəsində yürüdülən siyasətlərin – "bacarıqların inkişafı, idarəetmə, kurikulumların və ixtisasların idarə edilməsi, tədris və təlimin təşkili daxil olmaqla, təhsilin əsas təməli üçün süni intellektin təsirlərinin araşdırılması" zəruri hesab edilir. Bu baxımdan müasir təhsil tendensiyaları müstəvisində süni intellektdən səmərəli istifadə ilə bağlı hələ də cavablandırılmamış çoxsaylı suallar mövcuddur. Elm və texnologiyaların həyatımıza radikal dəyişikliklər gətirdiyi bir zamanda müəllimləri dəyişən təhsil mühitində işləməyə hazırlamaq üçün ilkin müəllim hazırlığı və peşəkarlığının inkişafı ilə məşğul olan təhsil müəssisələri qarşısında yeni vəzifələr durur. Rəqəmsal cəmiyyətdə müəllim təhsilinə baxış bucağının yenilənməsinə ciddi ehtiyac var. Belə bir deyim var: "Süni intellekt insanları əvəz etməyəcək, süni intellektlə işləyən insanlar süni intellektlə işləməyən insanları əvəz edəcək". Təcrübə də onu göstərir ki, gənclər müxtəlif məqsədlər üçün süni intellektin imkanlarından yararlanmağa böyük maraq göstərirlər. Süni zəkanın imkanlarından istifadənin faydaları ilə yanaşı, risklərin də olduğu nəzərə alınarsa, təhsilalanların bu texnologiyalardan təlimatlandırılmamış şəkildə istifadəsi də öz növbəsində, narahatlıq doğurur. Bu istiqamətdə bütün təhsil iştirakçılarının maarifləndirilməsi məsələsi günün ehtiyacına çevrilir.

Bu **tədqiqatın əsas məqsədi** müəllimin təhsilində, eləcə də müəllimlik fəaliyyətində süni intellektin istifadə imkanlarını müzakirə etmək, bu texnologiyaların artıq dəstəkləyici deyil, əsaslı yardım funksiyası daşıdığına dair təkliflər verməkdən ibarətdir. Bunun üçün "genişləndirilmiş öyrənmə", "sorğu yanaşmaları", Sİ tətbiqləri ilə tanışlıq və təlim-tədrisin təşkilində onlardan istifadənin innovativ yollarını araşdırmaq əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

Metodologiya. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün keyfiyyət tədqiqatının metodlarından istifadə edilmişdir. ***Müsahibə üsulunun fərdi və qrup müsahibəsi texnikaları*** tələbələrin süni intellektdən istifadə ilə bağlı düşüncələrini və münasibətlərini öyrənməyə yardım etmişdir. Müsahibəyə "ingilis dili müəllimliyi" ixtisası üzrə Xəzər Universitetində təhsil alan 54 nəfər dördüncü kurs tələbəsi cəlb edilmişdir. Bu mərhələdə fərdi müsahibə yazılı şəkildə aparılmış, qrup müsahibəsi isə bir qrupun müəyyən mövzu ətrafında müzakirəsi təşkil olunmaqla tələbələrin müxtəlif fikir və rəylərini bir arada təhlil etməklə həyata keçirilmişdir. Həmçinin ***Müşahidə üsulunun İştirakçı Müşahidə*** texnikasından da istifadə edilmişdir. Bu zaman "Kurikulum və qiymətləndirmə strategiyaları" kursu tədris edilən qruplarda müşahidə edilən qrupun bir hissəsi kimi hərəkət edilmiş və bu yolla məlumat toplanılmışdır. ***Məzmun Təhlili üsulundan*** dərslik və metodik vəsaitlərdə təlim materialları və dərs planlarını təhlil etmək üçün istifadə olunmuşdur. Tədqiqat zamanı həmçinin ***Fəaliyyət Tədqiqatının*** imkanlarından da istifadə edilmişdir. Bu, tədqiqat metodu ilə praktiki problemlərin həlli və təkmilləşdirilməsi baxımından əhəmiyyətli hesab edilmişdir. Bu tədqiqatın məqsədi yalnız süni intellektin imkanları ilə bağlı nəzəriyyələrdən söz açmaq deyil, həm də praktikaya birbaşa təsir göstərməkdən ibarət olmuşdur. Sözügedən üsul müəllimlərin və tədqiqatçıların tədris metodlarını yeniləmək və ya yaxşılaşdırmaq baxımından faydalı hesab edilmişdir.

Süni intellekt (Sİ) artıq gələcəyə baxış deyil, gündəlik həyatımızın bir hissəsidir. Təhsildə həm tədris, həm də intellektual öyrənmə yardımı üçün getdikcə daha çox proqramlardan istifadə olunur: məsələn,

nitqin tanınması sistemləri, virtual tədris köməkçiləri, chatbotlar, öyrənmə analitikası və qiymətləndirmə dəstəyi. Süni intellektin tədrisdə istifadəsi üçün geniş imkanlar mövcuddur: fərdiləşdirilmiş öyrənmə, avtomatik qiymətləndirmə, dərs planlaşdırılmasında kömək, şagirdlərin performansını izləmə və bir sıra tətbiqlər. Bununla belə, bəzi süni intellekt vasitələri hələ də inkişaf və sınaq mərhələsindədir, tam funksional məhsul kimi istifadə olunmur. Həmçinin tam təkmilləşmiş Sİ vasitələri ilə yanaşı, təkmilləşsə də, genişmiqyaslı istifadəyə hələ hazır olmayan nümunələr də mövcuddur. Üstəlik, məhsulların böyük bir hissəsi hər şeydən əvvəl müəllimlərin təhsili və inkişafına deyil, tədrisin keyfiyyətinin yüksəldilməsinə yönəlmişdir. Yalnız müəllimlər öz işlərində süni intellektdən istifadəyə maraq göstərsə və bu prosesə tələbələri cəlb etsə, bu vasitələrin düzgün istifadəsinə, effektivliyinə və səmərəliliyinə zəmanət verilə bilər.

Süni intellektin hansı imkanlarından və nə şəkildə yararlandıqlarını müəyyənləşdirmək üçün 54 tələbə arasında müsahibə keçirilmişdir. Müsahibə vərəqi aşağıda qeyd edilən məzmunda tərtib edilmişdir:

1. Süni intellektdən necə istifadə edirsiniz və bu sizə təhsilinizdə necə kömək edir?

2. Süni intellekt sizin öyrənmə motivasiyanıza necə təsir edir?

3. Süni intellekt ilə tədris və ya öyrənmə prosesində hansı əsas üstünlükləri müşahidə edirsiniz?

4. Süni intellekt sizin peşəkar gələcəyinizə necə təsir edə bilər?

5. Süni intellektdən istifadə ilə təhsildə hansı çətinliklər yarana bilər?

Müsahibə vərəqlərinə əsaslanaraq, 54 nəfər iştirakçının Sİ texnologiyasına münasibətini ümumiləşdirə bilərik:

1. Süni intellektdən necə istifadə edirsiniz və bu sizə təhsilinizdə necə kömək edir? 48 nəfər Sİ vasitələrindən öyrənmə zamanı tez-tez, 6 nəfər bəzən istifadə etdiklərini bildirirlər. Bu texnologiyanın, əsasən, məlumatların tez əldə olunmasına, dərs mövzularının daha asan başa düşülməsinə və gündəlik dərs hazırlıqlarının asanlaşmasına kömək etdiyi bildirilmişdir.

2. Süni intellekt sizin öyrənmə motivasiyanıza necə təsir edir? İştirakçılardan 45 nəfər süni intellektin vasitələrinin öyrənmə prosesini sadələşdirərək motivasiyaya müsbət təsir göstərdiyini qeyd etmiş, ancaq 9 iştirakçı motivasiyanın əsasən şəxsi iradə ilə əlaqəli olduğunu göstərmişlər.

3. Süni intellekt ilə tədris və ya öyrənmə prosesində hansı əsas üstünlükləri müşahidə edirsiniz? 51 tələbə Sİ-nin əsas üstünlükləri olaraq vaxt qənaətini, məlumatın tez əldə olunmasını və dərs prosesinin sadələşdirilməsini vurğulayır. Bu üstünlükləri öyrənmə prosesini sürətləndirmək və dərsləri daha effektiv şəkildə hazırlamaq üçün əhəmiyyətli hesab etmişlər. 3 tələbə bu məsələyə münasibət bildirməmişdir.

4. Süni intellekt sizin peşəkar gələcəyinizə necə təsir edə bilər? İştirakçıların hamısı Sİ-nin peşəkar gələcəkdə əhəmiyyətli rol oynayacağını düşünürlər. Sİ vasitəsilə daha yaxşı ixtisaslaşma və dərslərin daha effektiv keçirilməsinin mümkün olduğuna inandıqlarını bildirmişlər.

5. Süni intellektdən istifadə ilə təhsildə hansı çətinliklər yarana bilər? Təhsil prosesində Sİ-nin istifadəsi müəyyən çətinliklər yarada bilər. 9 nəfər iştirakçı Sİ-dən asılılığın artacağını, 7 tələbə tənbəllik yaradacağını, 8 tələbə müəllim-şagird münasibətlərinə mənfi təsir göstərə biləcəyini vurğulasa da, 30 tələbə süni intellektdən düzgün yararlandıqda problem olmayacağını ifadə etmişlər.

Keçirilmiş müsahibənin nəticələri göstərmişdir ki, Sİ-in təhsilə təsirini müsbət qəbul edən iştirakçılarla yanaşı, bu texnologiyanın yaratdığı bəzi riskləri də təxmin edən tələbələr var. Aydın olur ki, məsələni tənqidi dəyərləndirən, üstün və zəif cəhətlərini dərk edən tələbələr düzgün təlimatlandırılarsa, Sİ vasitələrin şüurlu istifadəçilərinə çevrilə bilərlər. Bu baxımdan həm müəllim təhsilinin təşkilində, həm də müəllimlərin peşə fəaliyyətində Sİ vasitələrindən istifadə imkanlarının öyrənilməsi əhəmiyyətli hesab edilmişdir. Süni intellektin müxtəlif vasitələrindən təlimin planlaşdırılmasında, tədris resuarlarının hazırlanmasında istifadə yolları araşdırılmış, mövcud imkanlar dəyərləndirilmişdir.

Dərsin planlaşdırılması. Müəllimlərə hər zaman bildirilir ki, onlara metodik vəsaitlərdə təqdim edilən dərs planları tövsiyə xarakteri daşıyır. Yəni müəllim sinfində mövcud vəziyyəti dəyərləndirəndən sonra tövsiyə edilmiş dərs planı nümunəsinə yaradıcı yanaşmaqla onu real və işlək etmək üçün sinfin spesifik xüsusiyyətlərinə uyğunlaşdıra, dəyişə bilər. Əksər hallarda belə uyğunlaşdırmaların həyata keçirilmədiyinin şahidi oluruq. Ən yaxşı halda müəllimlər tövsiyə edilmiş dərs planlarını olduğu kimi tətbiq etməyə çalışırlar. Bu da dərsin məqsədinin reallaşmasında çətinliklər yaradır. Axı heç bir sinfin mövcud vəziyyəti (şagirdlərin hazırlıq, idrak imkanları, psixoloji vəziyyəti, fiziki-fizioloji vəziyyəti, sosial

statusu) digər siniflə eyni ola bilməz. Bu zaman müəllimin ən yaxşı yardımçısı https://scite..ai; https://chatgpt.com/ və digər Sİ vasitələri ola bilər. Gərəkli tapşırıq verməklə müəllim sinfin mövcud vəziyyətinə uyğun dərs planları tərtib edə bilərlər. Bu dərs planındakı məsələləri aydınlaşdırmaq və ya resurslar əldə etmək üçün də adıçəkilən və digər çoxsaylı vasitələrdən yararlana bilər. https://scite.ai/assistant/teaching-techniques-with-ai-YpXK3.

Bu istiqamətdə kiçik bir sınaq keçirdik. Metodik vəsaitdə bir dərs planının mövzu və tətbiq edilən məzmun standartını rəhbər götürərək, sinfin mövcud vəziyyətini də nəzərə almaqla dərs planı tərtib etmək üçün yuxarıda adları qeyd edilən Sİ vasitələrindən tapşırıq verdik:

Sinifdə 24 şagird var. Şagirdlərdən ikisinin xüsusi qayğıya ehtiyacı var. Birinin hərəkət, digərinin əqli inkişaf çətinlikləri var. Digər 3 şagirdin təlim nailiyyətləri aşağıdır. Bunları nəzərə alaraq Həyat bilgisi fənni üzrə "Məzmun Standartı: 1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir. Mövzu: Bitkilərin həyatımızda rolu" dərs planı hazırla.

Müraciətlə bağlı Dərs planı hər iki Sİ (Aİ) tərəfindən təqdim edilmişdir.

https://chatgpt.com/g/g-idg3IFLO1-gpt-chat-free-online/c/66fa59f1-16b8-8007-9619-c062328a9577	https://scite.ai/assistant/teaching-techniques-with-ai-YpXK3	**Metodik vəsait** https://www.trims.edu.az/noduploads/book/quot-hayat-bilgisi-quot-fanni-uzra-4-cu-sinif-ucun-metodik-vasait-1697805095-566.pdf
Dərs planı 1 **Fənn:** Həyat bilgisi **Sinif:** 4-cü sinif (24 şagird) **Mövzu:** Bitkilərin həyatımızda rolu **Məzmun standartı:** 1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir. **Ümumi məqsəd:** Şagirdlərə bitkilərin insan həyatında əhəmiyyətini izah etmək və onların təbiətdəki rolunu dərk etmələrinə kömək etmək. **Xüsusi məqsədlər:** 1. Şagirdlər bitkilərin əsas funksiyalarını (oksigenin ifrazı, qida mənbəyi, tibbi məqsədlər) dərk edəcək. 2. Şagirdlər bitkilərin ekosistemlərdə oynadığı rol haqqında məlumat əldə edəcək. 3. Şagirdlər bitkilərin insan həyatında iqtisadi və ekoloji əhəmiyyətini izah edəcək. **Dərsin gedişi:** **1. Təşkilati hissə (5 dəqiqə):** Şagirdlərlə salamlaşma və dərsə hazırlıq. Şagirdlərə bugünkü mövzunun "Bitkilərin həyatımızda rolu" olduğunu elan etmək. **2. Motivasiya (10 dəqiqə):** Sinfə bir neçə müxtəlif bitki nümunəsi gətir (məsələn, otaq bitkiləri və ya	**Dərs planı 2** **Məzmun standartı:** 1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir. **Mövzu:** Bitkilərin həyatımızda rolu **Sinif:** 4 (24 şagird) **Şagirdlərin xüsusi ehtiyacları:** 2 şagirdin hərəkət və əqli inkişaf çətinlikləri var, 3 şagirdin təlim nailiyyətləri aşağıdır. **Dərsin məqsədi:** Şagirdlərə bitkilərin insan həyatında, ekosistemlərdəki rolunu, qida istehsalındakı əhəmiyyətini, psixoloji və sosial təsirlərini başa salmaq. **Dərs planı:** **1. Dərsin girişi (10 dəqiqə)** - Tələbələrlə tanışlıq. - Dərsin məqsədinin və mövzusunun təqdimatı. - Tələbələrdən bitkilərlə bağlı biliklərini soruşmaq. **2. Bitkilərin insan həyatındakı rolu (20 dəqiqə)** **- Müzakirə:** Bitkilərin qida istehsalında, oksigen istehsalında və ekosistemlərin balansında rolu. - Tədqiqat: Bitkilərin insanların psixoloji sağlamlığına təsiri (yaşıl	**Dərs planı 3** **Fənn:** Həyat bilgisi **Sinif :** 4 **Mövzu:** Bitkilərin həyatımızda rolu **Məzmun standartı:** 1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir. **Məqsəd:** Bitkilərin insan həyatındakı rolunu izah edir. **İş formaları:** kollektivlə iş, qrupla iş **İş üsulları:** beyin həmləsi, şaxələnmə, müzakirə, cədvəllərlə iş **Resurslar: d**ərslik, iş vərəqləri, "Ayna" uşaq ensiklopediyası, "Azərbaycanın dərman bitkiləri" kitabı, bitkilərin şəkilləri **İnteqrasiya:** Texn. 3.1.2. **Motivasiya:** Müəllim MİMİO qurğusundan istifadə etməklə (interaktiv lövhə və yaxud adi lövhədə də sxem qurula bilər) şagirdlərə aşağıdakı sxemi göstərir: Şagirdlər adları verilmiş dərman bitkiləri sürüşdürməklə müvafiq bəndin altına yerləşdirməlidirlər. Şagirdlər qruplaşdırmanı apardıqdan sonra bu bitkilərin şəkillərindən ibarət slayd (tablo da ola bilər) hazırlayırlar. **Tədqiqat:** "Bitkilərin insan həyatında başqa nə kimi rolu vardır" sualı ətrafında aparılır.

meyvələr).
"Bu bitkilərsiz biz necə yaşaya bilərik?" sualını verərək sinfi müzakirəyə cəlb et. Şagirdlərdən bitkilər haqqında bildiklərini paylaşmalarını xahiş et.

3. Yeni mövzunun izahı (15 dəqiqə):

- **Bitkilərin oksigen ifrazı:** Bitkilərin fotosintez prosesi zamanı oksigen ifraz etməsi haqqında məlumat ver. Qısa animasiya və ya şəkillərlə dəstəklə (vizual təqdimatlar şagirdlərin marağını artırar).
- **Qida mənbəyi kimi bitkilər:** İnsanların gündəlik həyatında qida kimi istifadə olunan bitkilər haqqında danış (meyvə, tərəvəz, taxıllar). Şəkillər göstər və ya həqiqi nümunələr gətir.
- **Tibbi məqsədlər:** Bəzi bitkilərin dərman kimi istifadə olunduğu haqqında məlumat ver (məsələn, aloe vera, zəncəfil). Şagirdlərə evdə istifadə etdikləri bitkilərlə bağlı suallar ver.

İnteqrasiya (xüsusi qayğıya ehtiyacı olan şagirdlər üçün dəstəkləyici fəaliyyətlər):

- **Hərəkət çətinliyi olan şagird üçün:** Sadə animasiyalardan istifadə edərək, izahları vizual materiallarla dəstəklə. Şagirdin cəlb olunmasına kömək etmək üçün müzakirə zamanı ona uyğun suallar ver.
- **Əqli inkişaf çətinliyi olan şagird üçün:** Sadə, qısa cümlələrdən istifadə et və izahları daha asan dildə izah et. Məlumatları qısa fraqmentlər halında təqdim et.

4. Tapşırıqlar və qrup işi (10 dəqiqə):
Şagirdlər **4** qrupa bölünür:

1. **Birinci qrup:** Bitkilərin oksigen ifrazı ilə ağlı qısa bir təqdimat hazırlayır.
2. **İkinci qrup:** Bitkilərin qida mənbəyi kimi rolu haqqında qısa təqdimat edir.
3. **Üçüncü qrup:** Bitkilərin tibbi istifadəsi barədə məlumat toplayır.
4. **Dördüncü qrup:** (təlim nailiyyətləri aşağı olan şagirdlər də daxil olmaqla): Bitkilər haqqında sadə şəkillər çəkir və bu şəkillərdən qısa şərhlər verir. Onlara təlim zamanı əlavə köməklik göstərilir və asanlaşdırılmış tapşırıqlar verilir sahələrdə vaxt keçirmək).

- İnteraktiv qrafika: Bitkilərin insan həyatındakı rolunu vizuallaşdıran qrafiklər təqdim etmək.

3. Xüsusi ehtiyacı olan şagirdlər üçün dəstək (15 dəqiqə)

- Hərəkət çətinliyi olan şagird: Dərs zamanı fiziki aktivliklər (məsələn, bitki şəkillərini kəsmək, yapışdırmaq) təşkil etmək.
- Əqli inkişaf çətinliyi olan şagird: sadə və aydın dil istifadə edərək, bitkilərin rolunu izah etmək; vizual materiallardan istifadə.
- Aşağı nailiyyətli şagirdlər: Qısa və sadə məlumatlar təqdim etmək, qrup işləri ilə onların aktiv iştirakını təmin etmək.

4. Qrup işləri (15 dəqiqə)

- Tələbələr kiçik qruplara bölünür (hər qrupda müxtəlif bacarıqlara malik şagirdlər).
- Hər qrup bitkilərin insan həyatındakı rolunu müzakirə edərək, təqdimat hazırlayır.

5. Təqdimatlar (15 dəqiqə)

- Hər qrup öz təqdimatını sinfə təqdim edir.
- Tələbələr arasında müzakirə və sual-cavab.

6. Nəticə və yekun (10 dəqiqə)

- **Dərsin yekunu:** Bitkilərin insan həyatındakı əhəmiyyəti.
- Tələbələrdən dərs haqqında fikirlərini soruşmaq.
- Dərs planının sonunda bioloji müxtəlifliyin qorunmasının vacibliyini vurğulamaq.

Dərs resursları:

- Məqalələr:

- "Bitkilərin insan həyatında rolu" (Hüseynli, 2022) – bitkilərin ekosistemlərdəki rolu.
- "Yaşıl sahələrin psixoloji təsiri" (Zedda, 2023) – bitkilərin insan psixologiyasına təsiri.

- Vizuallar:

- Bitkilərin fotosintez prosesi, qida zənciri və ekosistem xidmətləri ilə bağlı qrafiklər.

Tədqiqatın aparılması: Bu mərhələdə müəllim videoçarxdan, elektron təqdimatdan istifadə etməklə şagirdlərlə kiçik müzakirə təşkil edir. Müzakirə zamanı onlara əvvəlcədən hazırlanmış suallarla müraciət olunur: İnsanlar bitkilərdən necə istifadə edirlər? Bəzək bitkilərinin ziyanlı olanı varmı? Nə kimi ziyanı vardır? Texniki bitkilər hansılardır? Nə üçün belə adlandırılırlar? Boyaq bitkilərindən nə məqsədlə istifadə olunur?
Növbəti mərhələdə şagirdlər qruplara bölünür və onlara iş vərəqləri verilir. Şagirdlər paylama materiallarından və dərslikdən istifadə etməklə verilən tapşırıqları yerinə yetirirlər.

I qrup. Dərsliyə və paylama materiallarına əsasən (müxtəlif bitkilərin adlı şəkilləri) aşağıdakı bitkiləri qruplaşdırın:

Bitkinin adı	Xüsusiyyəti	İnsan həyatında rolu
Diffenbaxiya		
Aloe		
Pambıq		
Zəfəran		
Heyva		

II qrup. Dərslikdən və paylama materialından istifadə etməklə tapşırığı yerinə yetirin.



III qrup. Uyğunluğu müəyyən edin.

(məsələn, sadə suallar).

5. Nəticə və müzakirə (10 dəqiqə):

- Hər qrup öz tapşırığını sinfə təqdim edir.
- Müəllim qrupların təqdimatını ümumiləşdirir və bitkilərin insan həyatındakı rolunu təkrar vurğulayır.

6. Ev tapşırığı (5 dəqiqə):

- Şagirdlərdən evdə ailələri ilə bitkilərin həyatımıza necə təsir etdiyini müzakirə etmələri və bir bitki haqqında qısa məqalə yazmaları tapşırılır. Təlim nailiyyətləri aşağı olan şagirdlər üçün isə evdə bitkilərin təsvirini çəkmək və ya sadə bir cümlə yazmaq tapşırığı verilir.

Dəyərləndirmə:

- Şagirdlərin qrup işi zamanı aktivliyi və təqdimatları qiymətləndiriləcək.
- Xüsusi qayğıya ehtiyacı olan şagirdlərin dərsə inteqrasiyası müşahidə olunacaq.
- Təlim nailiyyətləri aşağı olan şagirdlərin tapşırığı yerinə yetirmə səviyyəsi nəzərə alınacaq.

Bu dərs planı müxtəlif ehtiyacları olan şagirdlər üçün nəzərə alınaraq hazırlanmışdır. Hər bir şagirdin təlim fəaliyyətinə aktiv şəkildə qoşulması təmin edilir. Daha çox seçim üçün https://hix.ai/chat platformasından da istifadə edə bilərsiniz!

- Materiallar:

- Bitki şəkilləri, yapışqan, kağız, markerlər.

Bu dərs planı, tələbələrin bitkilərin insan həyatındakı rolunu anlamağa kömək edəcək, eyni zamanda xüsusi ehtiyacı olan şagirdlərin də dərsə aktiv iştirakını təmin edəcəkdir. Tələbələrin müxtəlif bacarıqlarını nəzərə alaraq, dərs interaktiv və cəlbedici olacaqdır.

IV qrup. Dərslikdən və açar sözlərdən istifadə etməklə fikirləri tamamlayın. (texniki, boyaq, müalicə, bəzək, qida)

- Kəklikotunun çiçəklərindən, itburnunun meyvələrindən insanlar _____ məqsədilə istifadə edirlər.
- Qarpız, yemiş, pomidor bitkilərindən insanlar_____ kimi istifadə edirlər.
- Avtomobil təkərlərinin, kəmərlərin istehsalında pambıq lifindən istifadə edilir. Pambıq _____ bitkidir.
- Kalla, diffenbaxiya, kaktus bitkilərini insanlar zövq almaq üçün yetişdirir. Bu bitkilər _____ bitkiləridir.
- Narın, tutun, zəfəranın, heyvanın meyvəsindən, yarpaqlarından, kökündən geyimlərin, bəzək əşyalarının solmayan rənglərlə boyanmasında istifadə olunur. Bu bitkilər _____ bitkiləridir.

Məlumat mübadiləsi və müzakirəsi. Hər bir qrupun işi müzakirə olunur. Hər qrup digər qrupların işinə əlavələr edir. Bu mərhələdə əyani vəsaitlərə, şəkillərə, elektron təqdimatlara istinad olunur, müzakirə sualları verilir:

– Bitkilərin insan həyatında nə kimi əhəmiyyəti vardır?

– Onları şərti olaraq necə qruplaşdırmaq olar?

Nəticələrin çıxarılması və ümumiləşdirmə. Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Dərsin bu mərhələsində şaxələndirmə üsulundan istifadə olunur.



Bu cədvəlin sonuncu xanası təkrar şaxələndirilir və hər bir bitkinin insan həyatında rolu qeyd olunur. Şagirdlərin əlavə sadalaya biləcəkləri bitkilər də bu cədvələ daxil edilir və əhəmiyyəti qeyd olunur.

Ev tapşırığı. Təbiətdə rast gəlinən zəhərli quşüzümü, xanımotu bitkiləri haqqında araşdırma aparın. İnsanın necə zəhərlənə biləcəyi, zəhərlənmənin əlamətləri haqqında məlumat toplayın.

Qiymətləndirmə meyarı: izahetmə



Göründüyü kimi, bu dərs planları Metodik vəsaitdə təqdim edilmiş dərs planından fərqlidir. Ən maraqlısı odur ki, ilk iki plan süni intellekt vasitəsi ilə yaradılmışdır. Hər bir planın özünəməxsus üstün və zəif cəhətləri vardır. Metodik vəsaitdə təqdim edilmiş dərs planı 4-cü sinif şagirdlərinin maraq və ehtiyaclarının orta hesabla nəzərə alınması ilə tərtib edilmişdir. Lakin birinci və ikinci sütunlardakı dərs plalarında hər hansı "N" sinfinin spesifik xüsusiyyətləri nəzərə alınmışdır. Məlum olduğu kimi, heç bir 4-cü sinif tərkibinə görə (şagirdlərin fiziki-fizioloji vəziyyəti, psixoloji və əqli inkişaf səviyyəsi, sosial vəziyyəti, yetirmə səviyyəsi və s.) digər 4-cü sinfə bənzəməz. Süni intellekt vasitəsi ilə sinfi səciyyələndirən cəhətləri vurğulayaraq dərsin planlaşdırılmasına dair tövsiyələr almaq mükündür. Əqli, psixoloji, fiziki-fizioloji və s. inkişaf məhdudiyyətləri olan uşaqlarla işin təşkili ilə bağlı zəruri tövsiyələr bütün şagirdlərə bərabər təlim şəraitinin yaradılmasında az təcrübəli müəllimə belə yardım etmiş olar.

Araşdırmalarımızın növbəti mərhələsində yuxarıda təqdim edilmiş hər üç dərs planı yenə süni intellektin Sider.ai vasitəsilə təhlil edilmiş, hər bir planın üstün və zəif cəhətlərini göstərməsi tapşırılmışdır.

	Chat GPT-nin dərs planı	**Scider.ai-ın dərs planı**	**Metodik vəsaitdə dərs planı**
Güclü cəhətlər	**1. Müxtəlif qruplar:** Hər bir şagirdin ehtiyaclarına uyğun qruplar yaradılması. Bu, fərqli səviyyədə öyrənən şagirdlərin iştirakını təmin edir. **2. Praktiki tapşırıqlar:** Şagirdlərə təqdimat, şəkil çəkmə və müzakirə etmə kimi müxtəlif tapşırıqlar verilir. Bu, öyrənmənin aktiv və əyləncəli olmasına kömək edir. **3. Müxtəlif öyrənmə üslubları:** Şəkillər, animasiyalar və qrup təqdimatları vasitəsilə müxtəlif öyrənmə üslublarını nəzərə almaq. **4. Dərsin interaktivliyi:** Şagirdlərin müzakirələrdə iştirak etməsi, suallara cavab verməsi və fikir bildirməsi üçün imkanlar yaradılması. Yardım: Xüsusi qayğıya ehtiyacı olan şagirdlər üçün əlavə kömək və asanlaşdırılmış tapşırıqların verilməsi.	**1. İnteraktivlik:** Dərs planında müzakirələr, qrup işləri və təqdimatlar kimi interaktiv elementlər var ki, bu da tələbələrin aktiv iştirakını təmin edir. **2. Xüsusi ehtiyacı olan şagirdlər üçün dəstək:** Dərs planı xüsusi ehtiyacı olan şagirdlərin ehtiyaclarını nəzərə alaraq hazırlanmışdır. Hərəkət çətinliyi olan şagirdlər üçün fiziki aktivlik, əqli inkişaf çətinlikləri olanlar üçün sadə dil və vizuallar təqdim edilir. **3. Müxtəlif tədris metodları:** Müzakirə, tədqiqat, qrup işləri və təqdimat kimi müxtəlif metodların bir araya gəlməsi, müxtəlif öyrənmə stilinə sahib şagirdlər üçün effektiv bir öyrənmə mühiti yaradır. **4. Dərs resurslarının çeşidi:** Məqalələr, vizuallar və praktiki materialların (bitki şəkilləri, yapışqan və s.) istifadəsi dərs zamanı tədrisi daha cəlbedici edir. **5. Psixoloji sağlamlığa təsir:** Yaşıl sahələrin insan psixologiyasına təsirini öyrənmək, tələbələrin emosional sağlamlıqlarına diqqət yetirməsi üçün vacibdir.	**1. Məzmun standartına uyğunluq:** Plan,1.3.2 standartına tam uyğun və əlaqəli olaraq hazırlanmışdır ki, bu da dərsin məqsədini dəstəkləyir. **2. İnteraktiv tətbiqetmə:** Müəllimin müasir texnologiyalardan (MİMİO qurğusu, videoçarxlar) istifadə etməsi dərsin interaktivliyini artırır və şagirdlərin motivasiyasını yüksəldir. **3. Dörd fərqli tapşırıq:** Müxtəlif qruplar üçün müxtəlif tapşırıqların verilməsi, şagirdlərin fərdi bacarıqlarını inkişaf etdirmək və onların müstəqil düşünmələrini təşviq etmək üçün geniş imkanlar yaradır. **4. Tədqiqat və kollektiv müzakirələr:** Tədqiqat suallarının verilməsi və müzakirə mərhələləri, dərs mühitində qarşılıqlı öyrənmə və əməkdaşlığı təşviq edir. **5. Geniş resurs istifadəsi:** Dərs planında çoxsaylı resursların (dərslik, iş vərəqləri, ensiklopediyalar) inteqrasiyası öyrənmə prosesini daha zəngin və müxtəlif edir. **6. Ev tapşırığı:** Təbii bitkilərlə bağlı ev tapşırığı şagirdlərin biliklərini daha da dərinləşdirmək və öz tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün əla bir yol təqdim edir.

Zəif cəhətlər	1. Zaman idarəsi: Qrup işləri və təqdimatlar üçün ayrılan10 dəqiqə zamanın kifayət olmaması riski var. Şagirdlər təqdimat üçün daha çox zaman tələb edə bilər. 2. Çətinlik səviyyəsi: Bəzi şagirdlər üçün müzakirə olunan mövzuların daha çətin olması onların tam anlamaqda çətinlik çəkməsinə səbəb ola bilər. 3. Dəyərləndirmə çətinliyi: Qrupların aktivliyini və təqdimat keyfiyyətini qiymətləndirmək çətin ola bilər. Müəllimlər üçün aydın meyarlar tələb oluna bilər. 4. Təqdimat bacarıqları: Qrup təqdimatının tələbləri daha az təcrübəsi olan şagirdlərdə narahatlıq yaratma potensialına sahibdir. 5. Ev tapşırığı: Evdə tapşırıqların icrası üçün ailə dəstəyi lazımdır. Bəzi şagirdlər bu dəstəyi ala bilməyə bilər.	1. Zamanın idarə edilməsi: Dərs planında fəaliyyətlər üçün ayrılmış vaxt bəzi qruplar üçün kifayət etməyə bilər. Buna görə də vaxtın idarə edilməsi çətin ola bilər. 2. Qrup işlərində düzgün idarəetmə: Müxtəlif bacarıqlara malik şagirdlər arasında qrup işinin effektivliyi bəzən müəyyən qruplarda balanssızlığa səbəb ola bilər, bu da bəzilərinin aktiv iştirakını məhdudlaşdıra bilər. 3. Təqdimatların sıxlığı: Təqdimatlar və müzakirələr bir-birini izlədiyindən, tələbələrin kifayət qədər vaxtı olmaya bilər, bu da dərsin qammasını azalda bilər. 4. Aydınlıq və anlaşıqlılıq: Xüsusi ehtiyacı olan şagirdlər üçün sadələşdirilmiş məlumatların təqdim edilməsi digər şagirdlər üçün isə daha dərinləşmiş müzakirələrə imkan verə bilər ki, bu da bəzən tələbələrin bərabər öyrənmə səviyyəsini poza bilər. 5. Tədqiqat aparılmasının çətinliyi: Bəzi tədqiqatlar şagirdlər üçün çox mürəkkəb və ya mənasız ola bilər, bu da şagirdlərin mövzuya marağını azalda bilər.	1. Zamanın idarə edilməsi: Çoxsaylı fəaliyyətlərin və müzakirələrin dərs saatında yerinə yetirilməsi zamanın idarə edilməsi ilə bağlı çətinliklər yarada bilər. Bəzi tapşırıqları tamamlayacaq qədər vaxt olmaya bilər. 2. Xüsusi ehtiyaclara uyğunlaşma: Xüsusi ehtiyacı olan şagirdlər üçün əlavə dəstək və fərdi yanaşma təqdim edilməməsi onların dərs prosesinə tam inteqrasiya olmasına mane ola bilər. 3. Qrup dinamikası problemləri: Fərqli bacarıqlara və bilik səviyyələrinə sahib şagirdlərin qruplarda yerləşdirilməsi müzakirələrdə bəzən balanssızlığa səbəb ola bilər. 4. Şəkil və materialların interaktivliyi: Bitkilərin şəkilləri və bəzi materialların interaktiv şəkildə təqdim edilməməsi vizual öyrənmə üslubuna malik şagirdlər üçün məlumatın qavranılmasını çətinləşdirə bilər. 5. Qiymətləndirmə mezanizminin aydınlığı: Şagirdlərin işlərinin qiymətləndirilməsi üçün konkret meyarların verilməməsi onların öz nailiyyətlərini daha yaxşı başa düşmələrini əngəlləyə bilər. 6. Məlumatın yükü: Dərsdəki müzakirələrdə və tapşırıqlarda tələb olunan biliklərin çox və mürəkkəb olması bəzən şagirdlərin başa düşməsini çətinləşdirə bilər.

Beləliklə, Chat GPT-nin yan paneli olan Sider.ai. süni intellekt vasitəsi ilə aparılan təhlillər göstərdi ki, Chat GPT vasitəsi ilə tərtib edilmiş dərs planı şagirdlərin bilkilərin həyatımızdakı rolu ilə bağlı dərindən düşünmələrini təmin edən, interaktivliyi və kollektivi təşviq edən bir yanaşma təqdim edir. Güclü cəhətləri dərsin motivasiya və iştirakını artırır, ancaq zəif cəhətlər dərsin daha effektiv olması üçün diqqət yetirilməsi gərəkən sahələrdir. Bu mərhələdə zamanın düzgün idarə olunması və öyrənmənin fərqli üslublarını nəzərə almaq dərs planının müvəffəqiyyətini daha da artırardı. Beləliklə, süni intellekt hər zaman istənilən elmi-metodik məsələ ilə bağlı ikinci, üçüncü rəyi almaq imkanı yaradır. Bununla yanaşı, müxtəlif məsələlərlə bağlı alternativlər yaratmaqla seçim imkanlarını artırmaq da mümkündür.

Mətnlər əsasında şəkillərin yaradılması

Tədris resursları arasında vizuallığı, əyaniliyi təmin edən materialların xüsusi yeri var. Mətnin oxusu zamanı məcazinin konkretləşdirilməsi (mətn oxusundan yaranmış təsəvvürlərin rəsm və yapmalarda ifadəsi), öyrənənin nəticələrinin Sİ nəticələri ilə qarşılaşdırılması və dəyərləndirilməsi (Picture Generator), Sİ-in bu imkanlarında təlimin keyfiyyətinin yüksəldilməsi, mətndə ifadə edilən fikrin təsəvvürdə canlandırılması, mətnin mahiyyətinin dərk edilməsi baxımından xeyli əhəmiyyətlidir. Əlbəttə, ana dili, xarici dillər, riyaziyyat və s. fənlər üzrə tədris resurslarında ayrı-ayrı mətnlərdən fraqmentlərin vizuallaşdırılması ilə bağlı təsvirlər daxil edilir. Lakin mətndə verilən bütün məsələləri təsvirlərdə əks etdirmək mümkün deyil. Şagird ona maraqlı olan hadisələrin öz təsəvvüründə canlandırdığı rəsmi boyalarla ifadə edib, sonra öz təsəvvürlərinin Sİ təsvirləri ilə nə qədər yaxın olduğunu müqayisə etmək üçün bu imkanlarından geniş istifadə edə bilər. Yaxud, müəllim monitorda bu təsvirləri təqdim

edib, *"şəkillərinizdə daha nəyi əlavə etmək istərdiniz"* - deyə şagirdin yaradıcılıq fürsətlərini genişləndirə bilər. Bir nümunə təqdim edirik: Əliağa Kürçaylının "Bakı" şeirində sözlərlə verilmiş təsvirlərin boyalarla ifadəsi NOVA tətbiqinin İmage Generator menyusunda aşağıda təqdim edildiyi kimi təsvirlərlə təqdim edilmişdir:

Uzaq elli əziz dostum soruşdu:
– Sizin Bakı söylə, necə şəhərdir?
Dedim: – Qardaş, mənim doğma şəhərim,
Yazılmamış, oxunmamış əsərdir.

Çiçək desən – könül açan çiçəyi,
Külək desən – ev uçuran küləyi,
Qasırğada ağ dalğalar ləçəyi,
Sakit gündə gözü mavi Xəzərdir.

Nəğməsidir zavodların fit səsi,
Suya düşüb buruqların kölgəsi.
Ətirlidir bağlarının meyvəsi,
Ağ şanısı elə bil ki, şəkərdir.

Dost görəndə tükənməyir hörməti,
Düşmən görsə, dərya olur nifrəti,
Bir qədər də dəlisovdur adəti,
Əziz dostum, Bakı belə şəhərdir.

Bu şeirdə canlandırılan mənzərəni sözügedən proqram təminatı aşağıda təqdim edilən şəkildə təsvir edir. Göründüyü kimi, Bakının boyalarla bədii təsviri verilmişdir. Bununla belə, real Bakı mənzərələrinin əsas elementləri təsvirdə müşahidə edilə bilər, bir çox məqamlarda oxşar və yaxındır.

Ədəbiyyat dərslərində şagirdlərə təsviri xarakterli mətnlərdən ibarət hekayələr öyrədilir. Mixail Prişvinin "Tala" hekayəsi məkan təsvirinin uğurlu nümunələrindən hesab edilə bilər. Hekayə Azərbaycan dilində NOVA tətbiqinin Picture Generator menyusuna daxil eildi. Tətbiq hekayədəki mənzərəni bu şəkildə təsvir etmişdir. Həmin hekayə üzrə rəssamın çəkdiyi şəkil bu şəkillə müqayisəli təqdim edilir.

"Dan yeri yeni sökülmüşdü. Gəmilər sahilə yaxınlaşırdı" cümlələrinə aşağıdakı şəkildə təsvir təqdim edilmişdir.

Mətnlərin səsləndirilməsi

İstər Azərbaycan dili, istərsə də xarici dil dərsliklərində dinləyib-anlama mətnləri ilə qarşılaşmaq olur. Belə mətnlər şagirdlərin dinlədikləri mətnləri anlamalar kimi vədişlərinin inkişafına xidmət edir. Dinləyib-anlama bacarığı dil tədrisi üzrə fənn kurikulumlarında əhəmiyyətli bacarıqlardan biri kimi təqdim edilir. Müəllimlər şagirdlərinin maraq və ehtiyacları nəzərə alınmaqla uyğun mətnləri seçib müvafiq Sİ proqram təminatı vasitəsi ilə səsləndirməyə nail ola bilər.

Şeirlərin ritmik səsləndirilməsi

Süni intellektin mahnı yaratmaq üçün müxtəlif vasitələri mövcuddur ki, müəllimlər həmin vasitələrdən istifadə etməklə həm həvəsləndirici, həm də öyrədici məqsədlərlə mahnılar yarada bilər. 13 yaşı olan Cəlalın ad gününü təbrik etmək üçün müəllim tərəfindən verilən açar sözlərdən yararlanaraq SUNO səhifəsində mahnı yaradılmışdır: https://suno.com/song/e718f1c6-3ab6-4647-b99d-f88ce5e58d51. Şagirdin zövqünə və yaş xüsusiyyətlərinə görə mahnının sözləri və musiqisi də dəyişə bilir. Şagirdlərə rəqəmlər, rənglər və s. öyrədiləndə də ritmik mahnılar yadda saxlamağa yardımçı olur. Bu baxımdan rənglərin adlarını yadda saxlamaq üçün şagirdlərə Rənglər mahnısı tərtib edilə bilər: https://suno.com/song/9db3fe10-45f7-46e5-9c4c-3f588776fb4f.

Kimya fənninin tədrisində yadda saxlanılması çətin olan təriflər, qaydalar və s. şagirdin öyrənməsi üçün https://ilovesong.ai/ vasitəsi ilə müxtəlif mahnılar şəklində təqdim edilə bilər https://ilovesong.ai/musics/2703319. Bu nümunədə "Birbirində həll olmuş iki və daha çox mayeni ayırmaq üçün fraksiyalı distillə üsulundan istifadə olunur. Bu üsul ayrılan mayelərin qaynama temperaturlarının fərqinə əsaslanır. Məsələn, etil spirtinin

su ilə qarışığını ayırmaq üçün fraksiyalı distillə üsulundan istifadə edilir. Bunun üçün qarışıq kolbaya əlavə olunur və qızdırılır". Qaydanın mahnı variantını dinləmək olar. Ədəbiyyat dərsliyində Əliağa Kürçaylının "Vətən" şeiri də bu vasitə ilə mahnı şəklinə gətirilmişdir: https://ilovesong.ai/musics/2703918.

Mən səndən bir yaşıl budaq istədim,
Sən mənə bəxş etdin zümrüd meşələr.
Mən səndən kiçik bir otaq istədim
Sən mənə bəxş etdin dilbər guşələr.
Mən səndən adicə həyat istədim
Sən məni çıxardın min-min səhərə.
Mən səndən kiçik bir qanad istədim
Sən məni uçurdun ənginliklərə.
Mən səndən bir dəstə çiçək istədim
Mənim üçün dörd fəsil yaz eylədin sən.
Mən səndən ilhamlı ürək istədim
Sən mənə təb verdin milyon ürəkdən.
Mən səndən istədim açıq bir alın
Sən mənə bəxş etdin əzəmət, vüqar.
Mən də başıaçıq, ayağı yalın
Yolunda can qoysam, yenə az olar.

Mahnı middle-east, country, vocaloid, male voice üslubu seçilməklə tərtib edilmişdir.

Bu və digər şeir parçalarının ritmik musiqi əsasında yadda saxlanılmasının daha asan olduğunu nəzərə alaraq, müəllim şagirdlərə musiqi yaradan müxtəlif süni intellekt vasitələrindən istifadə etməklə mahnılar yaratmaq tapşırığı da verə bilər. Şagirdlər mahnının üslubu ilə bağlı fərqli seçimlər etməklə eyni şeir parçası üzrə maraqlarına uyğun olan fərqli mahnılar yarada bilərlər.

Bu yolla müxtəlif musiqi yaradan süni intellektlər vasitəsi ilə ayr-ayrı fənlər üzrə yadda saxlanmalı məsələlərin asan və sevərək öyrənilməsini təmin etmək olar.

İngilis dili 9-cu sinif (ikinci xarici dil kimi) dərsliyinin 24-25-ci səhifəsində (trims.edu.az) süni intellektlə bağlı şagirdlər aşağıda qeyd edilən məsələləri müzakirə edirlər:



Belə mövzuların dərsliklərə daxil edilməsi və məsələnin müzakirə formatında təqdim edilməsi şagirdlərin süni intellektin imkanları ilə bağlı maarifləndirilmsinə şərait yaradır. Dərsliklərə belə tapşırıqların daxil edilməsi müəllimlərin özünütəhsilinin təşkili baxımından da hərəkətverici elementlər kimi dəyərləndirilə bilər. Əgər mən bir müəllim kimi bu mövzunu tədris etsəydim, mütləq şəkidə öncə özüm süni intellektin müvafiq vasitələrindən (SUNO, Music generator ai) istifadə edərək mahnı tərtib edər və dərsin uyğun məqamında şagirdlərə təqdim edərdim. Məsələn, SUNO Aİ "My friends" mövzusunda mahnını. https://suno.com/song/a004b578-60ad-4977-9068-1dc86c068b2c. Belə nəğmələr sinfin himni də ola bilər ki, bu da sinifdə birliyin, dostluğun möhkəmləndirilməsinə töhfə verərdi. Həmçinin yaradıcı tətbiqetmə çərçivəsində sevdikləri mövzuda mahnı yaratmaq tapşırığının da verilməsi şagirdlərin süni intellektin imkanları ilə yaxından tanış olmasına şərait yaradardı. Belə fürsətlər şagirdlə-


@Gulay 5 hours ago
The new AI online music generator is so much fun. I have created 4 songs with it and shared them with my close friends. They believed that I was singing the songs. In fact, I can't sing at all. I just recorded my voice as I read the text on the site and chose the genre and the theme of the lyrics. The AI generator created the song with my voice.
5.2k Reply
▼ 300 replies

A. Gulay recorded herself as she sang the songs.
B. The new AI music generator can create songs in different genres.
C. Gulay created songs together with her friends.

3 **Read the sentences taken from the text and answer the question. Which option paraphrases the given sentence best?**

1. It turns out that she has never recorded that song.
   a. Hamid learned about it later and it surprised him.
   b. Hamid knew about it from the beginning.

2. Music critics say that AI songs lack soul.
   a. Music critics think that AI generated songs have deep feelings.
   b. Music critics think that AI generated songs don't have deep feelings.

4 **Discuss the questions with a partner.**

- **Which information in the texts did you find more surprising? Explain your reason.**
- **Can AI create better songs than real singers? Why do you think so?**
- **Can an AI singer become as famous as a real singer? Why do you think so?**

rin maraqlarını, zövqünü daha yaxından tanımağa imkan verir.

Mətn yaradıcılığı və redaktəsi

Verilmiş mövzu üzrə kiçik mətnlərin (esse, inşa və s.) yazılması, öyrənən nəticələrinin Sİ vasitəsi ilə həmin mövzuda yaratdığı mətnlərlə qarşılaşdırılması və dəyərləndirilməsi (esse writer, Chat GPT, https://aithor.com/) və s. vasitəsi ilə həyata keçirilə bilər. Mətnlərin yazılması üslub, qrammatik və orfoqrafik, durğu işarələri baxımından yoxlanılması, redaktə edilməsi, mətnlərin genişləndirilməsi, qısaldılması da süni intellekt vasitəsilə yerinə yetirilə bilən fəaliyyətlərdir. Şagirdlər oxuduqları mətnləri süni intellektin yardımı olmadan genişləndirəndən və ya qısaldandan sonra bu fəaliyyətin Sİ vasitəsi ilə yerinə yetirilməsi tapşırıla bilər. Hər iki nümunəni qarşılaşdırmaqla şagird müqayisələr aparır, öz üstünlük və boşluqlarını görür, müqayisələrdən fərqli imkanların da mövcud olduğunu öyrənir. Beləliklə, tələbələrin təqdim edilən problemin həlli ilə bağlı ya gəldikləri qərarla bağlı əminlikləri artır, ya da fərqli baxış bucaqlarını öyrənirlər. Bu da öz nəticələrini dəyərləndirmək üçün öyrənənlərə geniş imkanlar yaradır. Bütün baş verənlər məsələnin daha dərindən dərkinə şərait yaradır.

Problem həlli. Xəzər Universitetində "Kurikulum və qiymətləndirmə strategiyaları" fənni çərçivəsində Sillabus üzrə "Kurikulum islahatları – Yaxın tariximiz" mövzusunun tədrisi nəzərdə tutulmuşdur. Əvvəlki illərdə ümumi təhsilin məzmunu ilə bağlı 4 mühüm dövlət sənədin tələblərini müqayisəli təhlil edib, oxşar və fərqli cəhətlərini müəyyən etmək üçün tələbələrə təqdim edilirdi. Onlar da hər qrupda iki sənəd olmaqla kiçik qruplarda sənədləri qarşılaşdıraraq təhlil edir, fərqli və oxşar cəhətləri müəyyən etməyə çalışırdılar. Beləliklə, sənəddən-sənədə ümumi təhsilin məzmununda həyata keçirilmiş islahatlar nəticəsində baş vermiş dəyişiklikləri, cəmiyyətdə, iqtisadiyyatda gedən proseslərin, ehtiyacların nəzərə alınması vəziyyətini öyrənirdilər. Məzmunla bağlı sənədlərin zaman-zaman dəyişilməsinin və ya təkmilləşməsinin zəruriliyinin səbəblərini anlayır, məzmun islahatında keçilmiş yolu aydın görürlər.

Bu tapşırığın yerinə yetirilməsi 90 dəqiqəlik dərsdə mümkün olmadığından, tapşırıq dərsdən sonrakı vaxtda qrup layihələri kimi işləmək üçün tələbələrə təqdim edilir. Onlar dərsdən sonrakı vaxtda kiçik qruplarda tapşırığı yerinə yetirir, növbəti dərslərdə gəldikləri nəticələri təqdim edirdilər. Bu minvalla sənədin təhlili həm çox vaxt, həm də çox enerji alırdı. 2024-2025-ci tədris ilində həmin mövzunu fərqli metodologiya ilə tədris etmək qərarına gəldim. Əvvəlcə, tələbələrin

Süni intellektlə tanış olub-olmadıqlarını araşdırdım. Məlum oldu ki, tələbələrin əksəriyyəti ev tapşırıqlarının, layihələrin icrasında süni intellektin müxtəlif vasitələrindən istifadə edirlər. Əksəriyyətinin tanış olduğu vasitə isə Chat GPT-dir. Belə olduqda açıq ödənişsiz Chat GPT səhifəsini tablet və ya telefonlarında açmağı xahiş etdim. İslahatlarla əlaqədar olan Nazirlər Kabinetinin təsdiq etmiş olduğu dörd əsas sənədi tələbələrə yönəltdim. Tələbələrə istiqamət verdim ki, onlar 1999-cu il sənədini birinci qrup 2006, ikinci qrup 2010, üçüncü qrup 2020-ci il sənədləri ilə müqayisə etsin. Çünki 1999-cu il sənədi ilə digər sənədlər arasında təhsil yanaşmaları, prinsipləri, məzmun və qiymətləndirmə baxımından ciddi fərqlər mövcuddur ki, bu da məzmunyönümlü təhsildən nəticəyönümlü təhsilə keçidin xüsusiyyətlərini qabarıq şəkildə əks etdirir. Aşkar edilmiş fərqlər məzmunda baş vermiş dəyişiklikləri dərindən dərk etməyə imkan yaradır. Dördüncü qrup isə 2006 və 2020-ci illərdə təsdiq edilmiş sənədləri müqayisə etməklə ildən-ilə məzmunun təkmilləşdirilməsi vəziyyətini müəyyən edir.

Tələbələr süni intellektin imkanlarından yararlanmaqla bu problemi həll etmək üçün səy göstərirdilər. Onlar dəqiq cavab almaq üçün konkret suallar verməli idilər. Bu baxımdan hər dəfə uğursuz nəticə alandan sonra sualların xarakterini dəyişir və daha dəqiq suallar və tapşırıqlar tərtib etməyə çalışırdılar. Tələbələr Chat GPT-də sənədləri yükləməklə "Sənədləri müqayisə et. Oxşar və fərqli cəhətlərini göstər", *"Sənədləri müqayisə et", "Fərqli cəhətləri göstər"* kimi tapşırıqlar verdilər. Sualların xarakterindən asılı olaraq süni intellektin təqdim etdiyi cavablar da fərqli idi. Axtarışlar nəticəsində tələbələr bu günə qədər heç bir elmi və metodik ədəbiyyatda olmayan məlumatları əldə edib, mərhələdən-mərhələyə Azərbaycanın ümumi təhsil sistemində məzmunun necə dəyişdiyini və ya təkmilləşdirildiyini, eyni zamanda, belə nəticələrin tələbələrə problemin bütün xüsusiyyətlərini nəzərə alaraq dəqiq suallar formalaşdırmaq bacarıqlarının əhəmiyyətli olduğunu öyrədirdi.

Paraphraser və Grammar Checker yazı bacarığını gücləndirmək üçün süni intellekt vasitəsidir. Bu vasitələr yazı zamanı dəyişikliklər təklif edir və onlara dair əsaslandırıcı məlumatlar verir. Məsələn, Qrammatika Yoxlayıcısı (Grammar Checker) nöqtəli vergül əlavə etməyi və iki cümləni birləşdirməyi təklif edə bilər. Yazı yazan bunun səbəbini başa düşmürsə və ya bu təkliflə razı deyilsə, dəyişikliyin niyə təklif edildiyi peyda olan kiçik qeyd lövhəsində izah edilir. Oxuyub qərar vermək yazı yazana aiddir. https://quillbot.com/, https://www.grammarly.com/. Bu adaptiv öyrənmə yanaşmasıdır, öyrənənlər yeni yazı qaydalarını və təcrübələrini yazı prosesində öyrənir və mənimsəyirlər. Bu da az vaxtda çox öyrənmə imkanları yaradır.

Mətnlərin ifadəli oxusunun təşkili, mətnlərin səsləndirilməsi, düzgün tələffüz qaydalarının öyrənilməsi, şagirdin öz tələffüzünün Sİ mətn oxusundakı tələffüzlə qarşılaşdırılması və boşluqların aradan qaldırılması; Luvvoice mətni təbii səsli nitqə çevirən pulsuz onlayn mətndən nitqə çevirən (TTS) alətdir. Sİ səslərinin geniş çeşidini təklif edir. Sadəcə olaraq mətn daxil edilir, səs seçilir, ya yaranan mp3 faylı endirilir, ya da birbaşa dinlənilir. Məzmun yaradıcıları, tələbələr və ya mətni ucadan oxumağa ehtiyacı olan, musiqi-səs intellekti (H.Gardner nəzəriyyəsi) yüksək olan hər kəs üçün mükəmməl imkandır. https://luvvoice.com/#myForm. Süni intellektin bu vasitəsi bütün xarici dillərin tədrisində dinləyib-anlama bacarıqlarının yüksəldilməsi baxımından böyük əhəmiyyət daşıyır. Sİ platformasında 70 dildə mətn səsləndirmək imkanı var ki, Azərbaycan dilində də mətn səsləndirmək imkanından istifadə olunur. Azərbaycan dili dövlət dili kimi 2-ci sinif dərsliyində səhifə 10-da təqdim edilən "Sevimli güllər" hekayəsi qeyd edilən süni intellekt vasitəsində hazırlanmışdır. Əlbəttə ki, adları və imkanları qeyd edilən Sİ vasitə və platformaları onlarla imkanlardan ən sadələri və əlçatanlarıdır. Bu siyahını istənilən qədər artırmaq mümkündür.

Sİ əsaslı tədris resursları

Bu resurslar Sİ-nin gücü ilə fərdiləşdirilmiş öyrənmə, dərs planlaşdırılması və tələbələrin inkişafının izlənilməsini təmin edir.

Dərsin planlaşdırılması

1. Canva AI: Tədris materiallarının dizaynı və təqdimat üçün interaktiv vizuallar yaratmaq üçün istifadə edilə bilər. Vebsayt: https://www.canva.com.

Öyrənmə analitikası və qiymətləndirmə

2. Edmodo: Sİ əsaslı şagird izləmə və fərdi öyrənmə planları qurmaq. Vebsayt: https://www.edmodo.com.

3. Kahoot! (AI dəstəyi ilə): Suallar və viktorinalar yaratmaq, dərs zamanı şagirdlərin öyrənmə səviyyəsini anlamaq üçün əyləncəli üsullar təqdim

edir. Vebsayt: https://kahoot.com.

Dinləyib-anlama və səsləndirmə

4. LuvVoice: Mətnləri təbii səsli nitqə çevirmək, düzgün tələffüz öyrənmək və dinləmə bacarıqlarını artırmaq. Vebsayt: https://luvvoice.com.

5. Speechify: Mətnlərin səsləndirilməsi üçün istifadə olunur, vizual oxuma çətinlikləri olanlar üçün xüsusilə faydalıdır. Vebsayt: https://speechify.com.

Tədris resurslarının vizuallaşdırılması

6. DALL·E (Open AI): Mətnlərdən şəkillər yaratmaq və ya hekayələri vizual şəkildə təsvir etmək. Vebsayt: https://openai.com/dall-e.

7. Google AutoDraw: Şəkillər çəkmək və sürətli vizual izahlar üçün Sİ-nin köməyi. Vebsayt: https://autodraw.com.

Müəllimlər üçün alətlər

Redaktə və yazı yoxlanışı

1. Grammarly: Yazıların qrammatikasını, üslubunu və tonu yoxlamaq üçün Sİ əsaslı vasitə. Vebsayt: https://grammarly.com.

2. Quillbot: Mətnlərin parafraz edilməsi, qısaldılması və genişləndirilməsi üçün vasitə. Vebsayt: https://quillbot.com.

Problem həlletmə

3. WolframAlpha: Riyazi məsələlər, statistik analiz və elmi problemlərin həlli üçün güclü bir alət. Vebsayt: https://www.wolframalpha.com.

İncəsənət və yaradıcılıq

4. Soundraw: Sİ ilə musiqi yaratmaq, dərs videolarına musiqi əlavə etmək üçün vasitə. Vebsayt: https://soundraw.io.

5. Runway ML: Şəkil, video və digər vizual kontentlər yaratmaq üçün istifadə olunur. Vebsayt: https://runwayml.com.

Nəticə. Beləliklə, aparılan araşdırmaların yekununda aşağıda qeyd edilən nəticələrə gəlinmişdir:

1. Süni intellektin imkanlarından öyrənmə zamanı istifadə baxımından təhsilalanlar təhsilverənlərdən bir addım öndədir. Bu səbəbdən təlim tapşırıqlarını yerinə yetirərkən zəruri təlimatları almadıqları üçün istifadə zamanı ciddi etik yanlışlara yol verirlər. Süni intellekt platformalarından və tətbiqlərindən istifadə mədəniyyəti ilə bağlı təhsilalanların maarifləndirilməsi zəruri ehtiyac kimi önə çıxır.

2. Müəllim hazırlığı və peşəkarlığın inkişafı proqramlarına, süni intellektin imkanlarından yararlanma metodologiyası ilə bağlı kurslara müəllimlərin daxil edilməsi günün ehtiyacıdır.

3. Artıq özünü doğrultmuş süni intellekt platforma və tətbiqlərindən yararlanmaqla hazırlanmış dərslik və metodik vəsaitlərdə təqdim edilmiş tövsiyə materiallarına alternativ tədris resurslarının texnologiyalarının işlənib hazırlanması da təlimin təşkilinə inklüziv yanaşma baxımından mühüm əhəmiyyət daşıyır.

Gəlinmiş nəticələri nəzərə alaraq aşağıda qeyd edilən təklifləri faydalı hesab edirik:

1. Təhsilalanların süni intellektin imkanlarından təlim və yaradıcılıq məqsədlərində istifadə etikası ilə bağlı normalara dair maarifləndirilməsi.

2. Müəllim hazırlığı proqramlarının tərtibində süni intellektdən istifadə metodologiyasına dair kursların daxil edilməsi.

3. Sinfin mövcud vəziyyəti nəzərə alınmaqla təlimin planlaşdırılması və resursların hazırlanmasına dair müəllimlərin maarifləndirilməsi.

İstifadə edilmiş ədəbiyyat

1. Süni intellekt və təhsil, süni intellekt dövründə təhsilin planlaşdırılması üzrə beynəlxalq konfrans. Pekin, 16-18 may 2019-cu il.
https://unesdoc.unesco.org/search/N-EXPLORE-27fffb3b-9329-4f94-b9ea-98cb8c9ed1a8

2. İngilis dili 9. Ümumi təhsil müəssisələrinin 9-cu sinifləri üçün İngilis dili (ikinci xarici dil fənni üzrə dərslik). Bakı, "Şərq-qərb" ASC nəşriyyatı, 2024, 120 s.

3.https://www.trims.edu.az/noduploads/book/quot-english-quot-ingilis-dili-ikinci-xarici-dil-fanni-uzra-9-cu-sinif-ucun-darslik.pdf

4.https://scite.ai/assistant

5.https://chatgpt.com/

6.https://scite.ai/assistant/teaching-techniques-with-ai-YpXK3

7. Nova, İmage generator

8.https://suno.com/song/e718f1c6-3ab6-4647-b99d-f88ce5e58d51

9.https://suno.com/song/9db3fe10-45f7-46e5-9c4c-3f588776fb4f

10.https://ilovesong.ai/

11.https://ilovesong.ai/musics/2703319

12.https://ilovesong.ai/musics/2703918

13.https://suno.com/song/a004b578-60ad-4977-9068-1dc86c068b2c

14.https://aithor.com/

15.https://quillbot.com/,
https://www.grammarly.com/

16. Canva AI Vebsayt:
https://www.canva.com

17. Edmodo Vebsayt:

https://www.edmodo.com
18. Kahoot! (AI dəstəyi ilə) Vebsayt: https://kahoot.com
19. LuvVoice: Mətnləri təbii səsli nitqə çevirmək, düzgün tələffüz öyrənmək və dinləmə bacarıqlarını artırmaq. Vebsayt: https://luvvoice.com
20. Speechify: Mətnlərin səsləndirilməsi üçün istifadə olunur, vizual oxuma çətinlikləri olanlar üçün xüsusilə faydalıdır. Vebsayt: https://speechify.com
21. DALL·E (Open AI): Mətnlərdən şəkillər yaratmaq və ya hekayələri vizual şəkildə təsvir etmək. Vebsayt: https://openai.com/dall-e
22. Google AutoDraw: Vebsayt: https://autodraw.com
23. Grammarly: Vebsayt: https://grammarly.com
24. Quillbot: Vebsayt: https://quillbot.com
25. WolframAlpha: Vebsayt: https://www.wolframalpha.com
26. Soundraw: Vebsayt: https://soundraw.io
27. Runway ML: Vebsayt: https://runwayml.com

A.Suleymanova

Possibilities of using artificial intelligence in teacher's teaching and practice

Abstract

In the modern era, the influence of artificial intelligence (AI) is rapidly expanding across various sectors, including education. This article explores the role of AI in teacher education and professional practice, discussing the opportunities and risks associated with its use in teaching. According to observations, young people have performed better than their teachers when it comes to using AI technologies, underscoring the urgent need for greater awareness and instruction among both students and educators. The study evaluates AI's application in teacher training and lesson planning, focusing on its potential to enable personalized learning, assessment, resource preparation, and inclusive teaching environments. Additionally, methodologies, innovative approaches, and the effectiveness of lesson plans involving AI are analyzed.

Based on qualitative research methods, including interviews with students, participant observation, and content analysis, the results reveal that AI should be embraced not merely as a supportive tool but as a fundamental aid in education. The article also emphasizes the importance of guidance and education for teachers and students to ensure the appropriate use of AI technologies. This research offers suggestions aimed at optimizing the integration of AI in teaching activities to enhance educational quality and teacher effectiveness.

А.Сулейманова

Возможности использования искусственного интеллекта в обучении и практике учителей

Аннотация

В современную эпоху влияние искусственного интеллекта (ИИ) стремительно распространяется на различные сферы, включая образование. В данной статье рассматривается роль ИИ в подготовке учителей и профессиональной практике, обсуждаются возможности и риски, связанные с его использованием в обучении. Наблюдения показывают, что молодёжь опередила своих учителей в использовании технологий ИИ, что подчёркивает необходимость просвещения и повышения осведомлённости как среди педагогов, так и учащихся. В исследовании оценивается применение ИИ в подготовке учителей и планировании уроков, с акцентом на его потенциал для персонализированного обучения, оценки, подготовки учебных материалов и создания инклюзивной образовательной среды. Кроме того, анализируются методологии, инновационные подходы и эффективность планов уроков, включающих ИИ.

На основе качественных методов исследования, включая интервью со студентами, наблюдение с участием и контент-анализ, результаты показывают, что ИИ следует воспринимать не просто как вспомогательный инструмент, но как основополагающий элемент в образовании. В статье также подчеркивается важность руководства и обучения педагогов и студентов для обеспечения правильного использования технологий ИИ. Это исследование предлагает рекомендации, направленные на оптимизацию интеграции ИИ в образовательную деятельность для повышения качества образования и эффективности учителей.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MÜƏLLİMİ

Kəmalə Quliyeva,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ümumi pedaqogika kafedrasının dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
e-mail: kamala.quliyeva51@gmail.com
https://doi.org/10.30546/2706-7858.7.4.2024.09

UOT: 342.5; 37

Xülasə. *Demokratik Azərbaycanın müasir təhsil sisteminin formalaşmasında, yeni məzmunun reallaşdırılmasında xüsusi rol oynayan səriştəli və peşəkar müəllim kadrlarının hazırlanması ümummilli lider Heydər Əliyevin hər zaman diqqət yetirdiyi məsələlərdən olmuşdur. Müəllim kadrları hazırlığında Azərbaycan Dövlət Pedaqoji Universitetinin rolu, Heydər Əliyevin bu təhsil ocağına verdiyi dəyər, həyata keçirdiyi önəmli tədbirlər məqalədə xüsusi olaraq diqqətə çatdırılır. Həmçinin Məqalədə Ulu Öndərin müəllimin cəmiyyətdə rolu və vəzifələri, xalq, Vətən qarşısında məsuliyyəti, yüksək intellektə və mənəvi saflığa malik olmasının vacibliyi haqqındakı fikirləri şərh olunur.*

Açar sözlər: *Ümummilli lider, müəllimin vəzifələri, mənəvi saflıq, müəllim hazırlığı, peşəkarlıq və səriştəlilik, müəllimə dövlət qayğısı.*
Key words: *National leader, teacher's duties, moral purity, teacher training, professionalism and competence, state care for teachers.*
Ключевые слова: *Национальный лидер, ответственность учителя, моральная чистота, подготовка учителя, профессионализм и компетентность, государственная забота учителя.*

"Mən yer üzündə müəllimdən yüksək ad tanımıram".
Heydər Əliyev

Azərbaycanın dövlətçilik, mədəniyyət, elm və təhsil tarixinə adı qızıl hərflərlə yazılmış ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütöv bir dövr ərzində təhsilin, məktəbin tərəqqisi naminə bir çox uğurlu islahatlara imza atmışdır. Təhsili millətin gələcəyini formalaşdıran ən mühüm amil hesab edən Heydər Əliyev bu prosesi həyata keçirən müqəddəs peşə sahiblərinə – müəllimlərə həmişə böyük hörmət və ehtiram göstərmişdir. *"Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi, müdriklik və səbrlə bizə öyrətmiş və öyrədir. ...Müəllim öz biliyini, təcrübəsini, qüvvəsini, qiymətli nəyi varsa, hamısını şagirdlərinə, xalqa bəxş edir. Rəşadətə bərabər bu nəcib, fədakar əməyinə görə müəllimin yetirmələri, valideynlər ona hədsiz dərəcədə minnətdardır" [1, s.374].*

Ulu Öndər məktəbi, təhsili, müəllimi həyatın bütün sahələrində qazanılmış nailiyyətlərin başında dayanan başlıca qüvvə hesab etmişdir. "Elm, təhsil, mədəniyyət sahəsində əldə etdyimiz

nailiyyətlər, ilk növbədə, müəllimlərin, məktəbin xidmətinin nəticəsidir. Bu, bizim milli sərvətimizdir və Azərbaycanı bu yüksək səviyyəyə gətirib çıxarmış Azərbaycan məktəbinə, xüsusilə müəllimlərin bütün nəsillərinə dərin minnətdarlığımı bildirirəm" [2, s.282].

Tarixin bütün mərhələlərində bu adın daşıyıcılarına xüsusi ehtiram və məhəbbət bəslənildiyini dönə-dönə vurğulayan Ümummilli Lider müəllimliyi bütün peşələrdən uca tutmuş, cəmiyyətin firavan, xoşbəxt yaşayışını təmin etmək üçün müəllimdən yüksək mənəvi keyfiyyətlərə – saf, nəcib əxlaqa, dərin elmi biliyə, mədəni davranışa malik olmağı tələb etmişdir. Onun fikrincə, demokratik və suveren Azərbaycan dövlətinin təhsil siyasətini həyata keçirən müəllimin başlıca vəzifəsi əməyi və şəxsi nümunəsi ilə bütün insanlıq üçün qiymətli olan mənəvi dəyərlərə hörmət və məhəbbət hissi aşılamaq, müasir təfəkkürlü, sağlam mənəviyyatlı və milli ruhlu gənc nəsil formalaşdırmaq, şagirdin şərəf və ləyaqətini qorumaq, onu şüurlu həyata hazırlamaqdır. Ona görə də müəllimlik "insanı kamilliyə aparan sənət" hesab olunur.

Bütün işıqlı həyatı, fəaliyyəti boyu özünün vurğuladığı kimi, heç bir tədris müəssisəsində müəllimlik etməsə belə, sözün həqiqi mənasında əsl xalq müəllimi olan Heydər Əliyev məktəb, təhsil haqqında hər bir təhsil işçisi ilə bərabərhüquqlu dialoqa girmək imkanına malik idi. Respublikaya rəhbərlik etməyə başladığı dövrdən 969-cu ildən etibarən, o, təhsil sahəsinin inkişaf etdirilməsini hər zaman fəaliyyətinin əsas hissəsi hesab etmişdir. Sonralar 1982-ci ildən başlayaraq 5 il keçmiş Sovetlər İttifaqında Nazirlər Soveti sədrinin birinci müavini kimi təhsilə aid olan üç nazirliyin – Ali Təhsil Nazirliyi, Maarif Nazirliyi və Texniki-Peşə Təhsili Komitəsinin fəaliyyətinə rəhbərlik etmiş, onların həyata keçirdiyi bütün dövlət səviyyəli tədbirlərinin bilavasitə iştirakçısı olmuşdur. O, Azərbaycan təhsilinin, məktəbinin inkişafında, xalqın intellektual potensialının formalaşmasında müəllimlərin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edir, onların qarşısında həlli vacib vəzifələr qoyurdu. Xalqın təhsilinin daha da təkmilləşdirilməsi və yüksəklərə qaldırılmasını müqəddəs vəzifə hesab edən Ulu Öndərin fikrincə, insan cəmiyyətində ən yüksək yerdə mənəviyyat durur, xalqın mənəviyyatını formalaşdıran isə, ilk növbədə, müəllimlərdir. O, ibtidai sinifdən başlayaraq ona dərs deyən müəllimləri böyük ehtiramla xatırlayır, müəllimlik peşəsinin şərəfini həmişə uca tutmağı tövsiyə edir, bütün varlığı və keçdiyi həyat yolu ilə məktəbə, müəllimə borclu olduğunu dönə-dönə vurğulayırdı. Ulu Öndər belə hesab edirdi ki, özünün daxili istedadı ilə yanaşı, müəllimlərinin ona verdikləri bilik, tərbiyə, göstərdikləri yol onun həyatdakı uğurlarının başlıca istiqamətverici qüvvəsidir. Ona görə də müəllimlik sənətini seçənlər öz peşələri ilə həmişə qürur duymalıdırlar.

"Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli, eyni zamanda qəhrəmanlıq göstərən insanlardır... Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimlərdir. Əgər belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi?" [1, s.546] deyən Heydər Əliyev bu fikirləri ilə müəllimin cəmiyyətdəki xüsusi mövqeyini bir daha diqqətə çatdırırdı. Onun fikrincə, müəllimlər xalqın savadlanmasının, təhsilin və elmi tərəqqinin əsasını qoyanlardır. Ulu Öndər hamının bütün həyatı boyu əldə etdiyi uğurlarda, nailiyyətlərdə məktəbin və müəllimin önəmli rol oynadığını təhsil işçiləri qarşısındakı çıxışlarında dəfələrlə qeyd edirdi.

Müstəqil Azərbaycan müəllimlərinin 25 sentyabr 1998-ci ildə keçirilən I-XI Qurultayındakı təbrik nitqində Heydər Əliyev ölkəmizin qarşısında duran problemlərin həllində müəllimlərin fəal iştirakının vacib olduğunu xüsusi qeyd etmişdir: *"Azərbaycan müəlliminin bir amalı olmalıdır. Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək" [3, s.48].* Bu qlobal vəzifənin həyata keçirilməsi isə, Ulu Öndərin fikrincə, müəllimdən yüksək intellektə və erudisiyaya, zəngin mənəviyyata malik olmağı, bütün qüvvə və bacarığını gənc nəslin təlim-tərbiyəsinə sərf etməyi tələb edirdi.

Müəllim şəxsiyyətinə xüsusi tələbkarlıqla yanaşan Heydər Əliyevə görə, hər bir müəllim şagirdlərində formalaşdırmaq istədiyi nəcib keyfiyyətləri, ilk növbədə, özünün timsalında əks etdirməlidir. O, özünü Vətən torpağının bir zərrəsi hesab edən gənclərin tərbiyəsində müəllimin

şəxsi nümunəsini yüksək dəyərləndirirdi. 1 sentyabr 1997-ci ildə Yasamal rayonundakı 18 nömrəli orta məktəbdə keçirilən görüşdə Ulu Öndərin söylədikləri bunun bariz ifadəsidir: *"Müəllimin vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli vətənpərvər hazırlayır. Şübhəsiz ki, ilk növbədə, müəllim özü bu xüsusiyyətlərə malik olmalıdır, daim özünü də təkmilləşdirməlidir, öz üzərində işləməyən müəllim yaxşı müəllim ola bilməz... Müəllim çalışmalıdır ki, uşaq nəinki yalnız bilik alsın, həm də cəmiyyətin bütün əxlaq normalarını, prinsiplərini mənimsəsin və onlara riayət etsin, öz həyatını yüksək əxlaqi dəyərlər əsasında qursun" [2, s.388].*

Heydər Əliyevin fikrincə, müəllim yeganə şəxsiyyətdir ki, cəmiyyət öz gələcəyi olan uşaqların tərbiyəsini ona etibar edir. O, gəncliyi millətin gələcək inkişafının bünövrəsi – təməl daşı hesab edirdi. Ulu Öndərə görə, Azərbaycan müəllimi gənc nəsli dilimizə, adət-ənənələrimizə, milli-mənəvi dəyərlərimizə hörmət və məhəbbət ruhunda tərbiyə etməlidir.

Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunda xüsusi rol oynayacaq gənc nəsli formalaşdıra bilən yeni təhsil sisteminin yaradılması, təhsilin məzmununun təkmilləşdirilməsi, yeniləşən məzmunu reallaşdırmağa qadir olan yüksək səviyyəli, peşəkar və sərişteli pedaqoji kadrların hazırlanması Heydər Əliyevin xüsusi diqqət yetirdiyi məsələlər idi. Təbii ki, bütün bunların müvəffəqiyyətli həlli, ilk növbədə, təhsil sahəsində əsaslı islahatlar aparılması zərurətini yaradır, bu məqsədlə təxirəsalınmaz vəzifələrin həll olunması problemini qarşıya qoyurdu. Azərbaycan təhsilinin gələcək inkişafı, məhz bu problemlərin uğurlu həlli ilə bağlı idi. Bütün bunları nəzərə alan Heydər Əliyevin 30 mart 1998-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı hazırlamaq üçün xüsusi Dövlət Komissiyası yaradıldı və həmin komissiyanın işləyib hazırladığı İslahat Proqramı Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli, 168 nömrəli Sərəncamı ilə təsdiq edildi.

Təhsil sahəsindəki İslahat Proqramında [4] nəzərdə tutulan əsas istiqamətlərdən biri, məhz cəmiyyətin intellektual potensialının formalaşmasında başlıca rol oynayan pedaqoji kadr hazırlığı ilə bağlı idi. Belə ki, yüksək pedaqoji və metodik ustalıq vərdişlərinə malik olan, ümumtəhsil məktəblərində fənləri inteqrasiya edilmiş qaydada tədris etməyi bacaran yeni müəllim kadrları hazırlığını təmin etmək o dövr üçün təxirəsalınmaz vəzifə idi. Pedaqoji sahədə fəaliyyət göstərənlərin ixtisasının artırılmasını təşkil etmək, əlavə pedaqoji təhsil sistemini genişləndirmək həlli vacib problemlər sırasında idi. Ulu Öndər müstəqillik dövrünün müəllim kadrlarına tamamilə yeni tələblər baxımından yanaşırdı, müəllimlərin yeni pedaqoji təfəkkür tərzinə yiyələnməsini, innovasiyaları müntəzəm izləməsini, ixtisası ilə bağlı yeniliklərlə yaxından maraqlanmasını, yeni texnologiyalardan istifadə bacarıqlarına malik olmasını vacib hesab edirdi. Çünki Heydər Əliyev təhsil sahəsində reallaşdırılması nəzərdə tutulan bütün yeniliklərin gerçəkləşməsində müəllim amilinin böyük əhəmiyyət kəsb etdiyini bilirdi. Onun fikrincə, islahatın uğurla həyata keçirilməsi də, ilk növbədə, rəhbər pedaqoji işçilərin, müəllimlərin və tərbiyəçilərin yeni təlim texnologiyalarına hansı səviyyədə yiyələnməsindən, onların yaradıcılığından çox asılıdır. Bütün bunlarla yanaşı, məktəbdə sağlam mənəvi-psixoloji mühitin formalaşmasına xüsusi əhəmiyyət verən Ulu Öndər kadr hazırlığı prosesində müəllim-şagird münasibətlərinin tənzimlənməsi mexanizminin yaradılmasını da vacib hesab edirdi. Onun fikrincə, ədalət hər yerdə lazımdır. Lakin şübhəsiz, uşağın, gəncin şüurlu formalaşma prosesinin getdiyi məktəbdə, həmçinin ali məktəbdə ədalətin, mənəvi saflığın hökm sürməsi daha vacibdir. Hər bir müəllim öz adının, peşəsinin müqəddəsliyini dərk etməli, ona ləkə gətirə biləcək hər cür naqislikdən uzaq olmalıdır. Ulu Öndərin fikrincə, mənəvi saflıq hamı üçün, xüsusilə də müəllimlər üçün ən yüksək insani keyfiyyətdir. Çünki insan nə qədər böyük mütəxəssis, alim, dövlət xadimi olsa belə, yüksək mənəviyyata sahib deyilsə, onun heç bir dəyəri yoxdur.

Heydər Əliyev ali məktəblərə, orada çalışan müəllimlərə də həmişə böyük diqqət nümayiş etdirmiş, onların fəaliyyətini yüksək dəyərləndirmişdir. *"Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır. Ali məktəb müəllimi, professor cəmiyyətdə ən hörmətli insan olmalıdır. Ona görə də mən xahiş edərdim ki. sizin hamınız bu şərəfli adı həmişə, ömrünüzün axırına qədər daşıyasınız" [3, s.207].* Ulu Öndərin fikrincə, ali məktəbdə müəllim kimi fəaliyyət göstərmək həm

şərəfli, həm də çox məsuliyyətlidir, çünki ali məktəbdə dərs demək üçün təkcə diplom və ya elmi dərəcə kifayət etmir. Tədris etdiyi fənni yaxşı bilmək, hərtərəfli biliyə, ideya-siyasi hazırlığa malik olmaq hər bir müəllimə verilən ən mühüm tələblərdir. O, belə hesab edirdi ki, ali məktəb müəllimi, eyni zamanda tərbiyəçidir və onun ən müqəddəs borcu yüksək mənəvi keyfiyyətlərə yiyələnmək, ünsiyyətdə olduğu gənclərə daim nümunə göstərməkdir.

Ümummilli Lider Azərbaycanda xalq maarifinin təşəkkülü və inkişafında, pedaqoji kadr hazırlığında ADPU-nun xüsusi rol oynadığını, bu elm və təhsil məbədgahının yetirmələrinin həyatın bütün sahələrində müvəffəqiyyətlə fəaliyyət göstərdiyini qeyd edərək bunu universitetin keçdiyi şanlı tarixi yolun uğurlu yekunu kimi qiymətləndirmişdir. Təhsilə böyük önəm verən Ulu Öndər ötən əsrin 70-80-ci illərində beş dəfə (1971, 1973, 1978, 1981, 1982-ci illərdə) universitetimizin professor-müəllim heyəti ilə görüşmüş, onların qarşısında çıxışlar etmiş, müəllim və tələbələrin əmək və təhsil şəraiti ilə tanış olmuş, bu ali təhsil ocağına verdiyi dəyəri belə ifadə etmişdir:

"Azərbaycan Dövlət Pedaqoji İnstitutu böyük və çətin yol keçmişdir. İnstitutun kollektivi Azərbaycan ümumtəhsil məktəbinin inkişafında böyük xidmət göstərmiş, institut xalq maarifi üçün yüksək ixtisaslı kadrlar ocağına çevrilmişdir. Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır. İndiyə qədər yaranmış təmənin üzərində dayanan Azərbaycan təhsili bundan sonra da təkmilləşəcəkdir. Azərbaycan müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hislərinə malik olan insanlardır" [5].

İlk dəfə 1971-ci ilin dekabr ayında institut partiya komitəsinin yığıncağında iştirak edən Heydər Əliyev professor-müəllim heyəti qarşısında çıxış edərək bu ali məktəbin fəaliyyətini təhlil etmiş və qarşıda duran vəzifələrdən danışmışdır. 1973-cü il fevral ayının 28-də universitetimizin 50 illik yubiley tədbirində iştirak edən Heydər Əliyev müəllim kadrlarının hazırlanması və pedaqoji elmin inkişafındakı müvəffəqiyyətlərinə görə dövlətin ali mükafatını – "Qırmızı Əmək Bayrağı" ordenini institutun bayrağına sancdı. O, həmçinin bu ali təhsil ocağının bir qrup müəllimini fəxri adlarla da təltif etdi. Onun pedaqoji instituta üçüncü səfəri 1978-ci ilin avqust ayına təsadüf edib. Bu dəfə Ulu Öndərin gəlişinin məqsədi qəbul imtahanlarının vəziyyəti ilə tanış olmaqdan ibarət idi. Sonrakı səfərində 1981-ci il dekabr ayının 23-də APİ-nin 60 illik yubileyi münasibəti ilə indiki Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Sarayında keçirilən təntənəli mərasimdə iştirak edən Heydər Əliyev institutun yetirmələrinin respublikanın gənc nəslinin təlim-tərbiyəsində aparıcı qüvvə olduğunu böyük razılıq hissi ilə qeyd etdi və institutu Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin "Fəxri Fərman"ı ilə təltif etdi. Ulu Öndər pedaqoji instituta son dəfə 1982-ci ildə yenə də qəbul imtahanlarının vəziyyəti ilə tanış olmaq üçün gəlmişdir.

"Müəllimlik işi həm şərəfli, həm də çətin işdir. Ali məktəb müəllimi olmaq, müəllimlər hazırlamaq, yəni müəllimlər müəllimi olmaq ikiqat şərəfli, eyni zamanda ikiqat məsuliyyətli işdir"[5] deyən Heydər Əliyev respublikada ali təhsil və elm sahəsində böyük xidmətləri olan elm və təhsil məbədgahlarını "Azərbaycan xalqının milli və mənəvi sərvəti" adlandırırdı.

Hazırda doğma universitetimizdə Ulu Öndərin xatirəsini əbədiləşdirmək üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, Universitetin əsas tədris korpusunun foyesində Ulu Öndərin xatirəsinə ehtiram əlaməti olaraq onun əzəmətli abidəsi qoyulmuş, eləcə də zəngin irsini gələcək müəllimlərə çatdırmaq üçün Heydər Əliyev Lektoriyası və universitetin ikinci korpusunda isə əlamətdar tədbirlərin keçirildiyi möhtəşəm Heydər Əliyev Mərkəzi yaradılmışdır. Həmçinin professor-müəllim heyətinin və tələbələrin ziyarətgahına çevrilən Heydər Əliyev Muzeyində bu dahi şəxsiyyətin həyat yolunu və fəaliyyətini işıqlandıran eksponatlar sərgilənir.

Cəmiyyətdə müəllim nüfuzunun aşağı düşməsi, pedaqoji kadrların sosial müdafiəsinin zəif təşkili, onların əməkhaqqının bazar iqtisadiyyatı ilə uzlaşmaması Ulu Öndəri daim düşündürmüş, o, müəllimə dövlət qayğısını artırmaq, onların maddi təminatı və iş şəraitinin səviyyəsini yüksəltmək üçün qüvvə və bacarığını əsirgəməmişdir. O, belə hesab edirdi ki, *"Cəmiyyət haradan olursa olsun, nədən olursa olsun, kəsib təhsilə xərcləməli, gənc nəslin tərbiyəsinə, müəllimə kömək etməlidir" [2, s.312].* Ulu Öndərin fikrincə, müəllimlər Azərbaycanın ziyalı təbəqəsi içərisində xüsisi yer tuturlar, hər cür ehtirama layiqdirlər və dövlət qayğısı ilə əhatə olun-

malıdırlar. O, məhz müəllimlərin qüvvəsi və səyi nəticəsində müstəqil Azərbaycanın gələcək inkişafını təmin edən fədakar gənc nəslin formalaşdırılmasını önəmli vəzifə hesab edirdi. Bununla belə, Heydər Əliyev müəllim əməyinin stimullaşdırılması ilə bağlı da önəmli tədbirlər həyata keçirmişdir. Belə ki, ölkəyə rəhbərlik etdiyi illər ərzində həm orta ümumtəhsil, həm də ali məktəblərin yüzlərlə müəllimi "Şöhrət" ordeni və "Tərəqqi" medalı ilə təltif olunmuş, "Əməkdar müəllim", həmçinin ali məktəbin professor və müəllimləri "Əməkdar ali məktəb işçisi", "Əməkdar elm xadimi" kimi fəxri adlara, onlarla müəllim Azərbaycan Prezidentinin fərdi təqaüdünə layiq görülmüş, müəllimlərin əməkhaqqı dəfələrlə artırılmışdır. Bunların nəticəsidir ki, hazırkı dövrdə çiçəklənən Azərbaycanımızın qarşısında duran bir sıra problemlərin həllində müəllimlərimizin də fəal iştirakı xüsusi önəm kəsb edir.

Nəticə. Bu gün Ulu Öndərin ruhu şaddır. Onun görmək istədiyi, müəllimlərimizin şah əsəri olan müasir Azərbaycan gəncləri xalqımızın müqəddəs arzularını doğruldaraq torpaqlarımızın azad olunması yolunda canlarından keçdi. Vətən məhəbbəti, ailələrinin, müəllimlərinin aşıladıqları vətənpərvərlik duyğusu onları Şəhidlik zirvəsinə ucaltdı. Ali Baş Komandanımızın düzgün düşünülmüş taktikası və qorxmaz Vətən oğullarımızın – igid hərbçilərimizin şücaəti sayəsində Qarabağın bütün ərazilərində dalğalanan Azərbaycan bayrağı milli qururumuzu bərqərar etdi. Bu qələbə, həm də o igid oğulları formalaşdıran Azərbaycan təhsilinin təntənəsidir. Bu gün biz fəxrlə qeyd edə bilərik ki, əsası Ulu Öndər tərəfindən qoyulan təhsil islahatları, Avropa təhsil sisteminə inteqrasiyanın təmin olunması, təhsilin məzmununun təkmilləşdirilməsi, tədrisin keyfiyyətinin yüksəldilməsi, milli təhsil konsepsiyasının həyata keçirilməsi, müəllim əməyinin stimullaşdırılması istiqamətində görülən işlər bu gün Heydər Əliyev kursunun ləyaqətli varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan müəllimlərinin qurultayları. I-XII. Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2008, 784 s.
2. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı, "Təhsil" nəşriyyatı, 2002, 580 s.
3. Mərdanov M., Şahbazov F. Azərbaycanın təhsil siyasəti (1998-2004). I kitab, Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2005, 832 s.
4. https://e-qanun.az/framework/5363
5. https://www.wikimedio.az
6. sia.az/ne.s/sosial

K.Guliyeva

Heydar Aliyev and Azerbaijani teacher

Abstract

The preparation of competent and professional teaching staff, who play a special role in the formation of the modern education system of democratic Azerbaijan and the implementation of new content, has always been one of the issues that the national leader Heydar Aliyev has always paid attention to. The role of the Azerbaijan State Pedagogical University in the preparation of teaching staff, the value that the Great Leader attached to this educational institution, and the important measures are specially brought to the attention of the article. The article also comments on the views of the Great Leader about the role and duties of a teacher in society, his responsibility to the people and the Motherland, the importance of having high intelligence and moral purity.

К.Гулиева

Гейдар Алиев и учитель Азербайджана

Аннотация

Подготовка компетентных и профессиональных учителей, играющих особую роль в формировании современной системы образования демократического Азербайджана и реализации нового содержания, всегда была одним из вопросов, на который всегда обращал внимание общенациональный лидер Гейдар Алиев. В статье особо освещены роль Азербайджанского государственного педагогического университета в подготовке учителей, значение, которое Гейдар Алиев придавал этому учебному заведению, а также важные меры, реализованные в статье. В статье также комментируются взгляды Великого Вождя на роль и обязанности учителя в обществе, его ответственность перед народом и Родиной, важность наличия высокого интеллекта и нравственной чистоты.

Peşə təhsili və insan kapitalı. Cild 7, №4, 2024, s.31-37

TƏLƏBƏLƏRDƏ KOMMUNİKATİV BACARIQLARIN FORMALAŞDIRILMASININ MAHİYYƏTİ, MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

Nərgiz Əhmədova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının baş müəllimi
e-mail: nargiz_ahmedova@mail.ru
https://doi.org/10.30546/2706-7858.7.4.2024.011

UOT: 37

Xülasə. *Ali pedaqoji təhsil müəssisələrində pedaqoji kadrların hazırlanmasında əsas məsələlərdən biri də tələbələrdə kommunikativ bacarıqların formalaşdırılmasıdır. Kommunikativ bacarıqların məqsədi, vəzifələri və mahiyyətinə görə müəllimin peşə keyfiyyətləri tələbələrdə kommunikativ bacarıqların içərisində başlıca yer tutur. Ona görə də ali pedaqoji təhsil müəssisələrində tələbələrdə bu keyfiyyətin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün də ilk növbədə, bu bacarıqların müəllim hazırlığında yerini müəyyənləşdirmək olduqca əhəmiyyətlidir. Təqdim edilən məqalədə kommunikativ bacarıqların mahiyyəti izah edilir, onun sərişta və ünsiyyət anlayışları ilə oxşar və fərqli cəhətlərinə aydınlıq gətirilir, ona müxtəlif yanaşmaların – ritorik, semiotik, fenomenoloji, kibernetik, qarşılıqlı əlaqə, sosiomədəni olduğu qeyd edilir və onların izahı verilir.*

Açar sözlər: *konstruktiv dialoq, kommunikativ bacarıq, mahiyyət, sərişta, informasiya.*
Key words: *constructive dialogue, communication skills, essence, competence, information.*
Ключевые слова: *конструктивный диалог, навыки коммуникации, сущность, компетентность, информация.*

Bu gün ali pedaqoji məktəblərdə tələbələrin konstruktiv dialoqa, başqa mədəniyyətlərin nümayəndələri ilə dialoqa hazırlığı, nitq mədəniyyəti sahəsində bilikləri, yeni, mədəni, peşə ünsiyyəti situasiyalarına adaptasiya etmək qabiliyyəti, komandada işləmək bacarığı heç də istənilən səviyyədə güclü deyildir. Hətta yeni məzun olmuş gənc müəllimlərin bir çoxu öz fikrini ifadə etməkdə çətinlik çəkir, diskussiya aparmağı, inandırmağı, dəlil və arqumentlər gətirib öz baxışlarını arqumentləşdirməyi bacarmırlar. Onlar tələbələrlə az təmasda olur, çox vaxt münaqişəli situasiyalarda düzgün qərarlar verə bilmir, fərdi iş aparmaqda çətinlik çəkir, həmkarları ilə əməkdaşlıq edə bilmirlər. Təcrübə təsdiq edir ki, bəzən onlarda işgüzar ünsiyyət, işgüzar sənədlərin yazılması qaydaları sahəsində elementar biliklər belə az olur. Kommunikasiya sahəsində praktiki bilikləri də aşağı səviyyədə özünü göstərir. Bunun nəticəsidir ki, gənc müəllimlərin, xüsusən də gənc ibtidai sinif müəllimlərinin əksəriyyəti avtoritar iş və ünsiyyət üslubuna üstünlük verirlər ki, bu da bir çox hallarda

öz fikir və iradəsini tələbələrə anladıb inandırmaqla aqressivlikdə öz ifadəsini tapır. Bu isə monoloji qarşılıqlı təsirlər üçün səciyyəvi olan ünsiyyət tipidir. Belə hallarda ünsiyyətin nəticəsi əvvəldən bəlli olur və bu hal yeganə mümkün və düzgün qərar kimi belə müəllimlər tərəfindən qəbul olunur.

Kommunikativ bacarıqların qıtlığı müəllimin öz şəxsi və peşə inkişafından, gündəlik emosional ünsiyyətdə əldə etdiyi uğurlarından məmnun qalmasına da mənfi təsir göstərir. Pedaqoji mühitdə işləməyə kommunikativ hazırlığın zəif olması və ya olmaması, kommunikativ bacarıqların qıtlığı gənc mütəxəssislərin məktəblərdən getməsinin ən geniş yayılmış səbəblərindən də biridir. Belə müəllimlər ünsiyyətin və münasibətlərin mümkün variantlarını seçməkdə çətinlik çəkdiklərindən çox vaxt öz peşəsindən ayrılmağa qərar verir və başqa sahələrə üz tuturlar. Zənnimcə, burada bir çox səbəblər (həm obyektiv, həm də subyektiv) vardır. Məsələn, tələbələrin praktiki hazırlığına verilən vaxtın azlığı, onların özlərinin müzakirələrdə, seminar və diskussiyalarda fəal iştiraka maraqlı olmaması, ünsiyyət bacarıqlarının zəif olması, fikirlərini ifadə etməkdə çətinlik çəkmələri, müəyyən kompleksin olması və s. Bu kimi səbəblərlə yanaşı, ali məktəblərdə şifahi imtahanların sayının azaldılması nəticəsində pedaqoq və tələbə arasında kommunikasiyanın qıtlığı da bu problemə təsir edən amillərdəndir. Biliklərin yoxlanılması kimi test metodikası həm orta məktəblərdə, həm də bir sıra ali məktəblərdə tədris prosesində dərin kök salmışdır. Testlər şəklində çoxlu sayda yoxlama materiallarında tələbəyə hazır cavab variantını verməklə, biz onu düşünmək, öz fikrini irəli sürüb onu ifadə etmək bacarığından məhrum etmiş oluruq. Yazılı yoxlamalar da bir çox ali məktəblərdə, o cümlədən ali pedaqoji məktəblərdə açıq-aşkar üstünlük təşkil edir. Fakültələrdə "Nitq mədəniyyəti" kursunun tətbiqi müəyyən dərəcədə kommunikativ bacarıqların formalaşmasına səbəb olsa da, bu, bütövlükdə problemi həll etmir, çünki bu gün yüksək tələbatın olduğu söhbət, diskussiya, layihə təlimi, kursu və s. bu kimi təlim metodlarına təkcə nitq ustalığına yiyələnmə baxımından deyil, həm də digər insanlarla səmərəli qarşılıqlı təsirlərdə olmaq baxımından da yiyələnmək tələb olunur.

Kommunikativ bacarıqların səriştəli müəllimin fəaliyyətinin strukturunda rolunu təyin etmək, fəaliyyət və səriştəəsaslı yanaşmanın tələbələrdə kommunikativ bacarıqların formalaşdırılmasının məqsədini üzə çıxartmaq və bu bacarıqların formalaşma mərhələlərini əsaslandırmaq, onların formalaşma səviyyəsinin qiymətləndirilməsi meyarlarını müəyyən etmək olduqca vacibdir. Bunun üçün ilk növbədə, pedaqoji fenomen olaraq kommunikativ bacarıqların aşağıdakı müəyyən ardıcıllıqla nəzərdən keçirilməsini vacib hesab edirik:

– bacarıq anlayışının mahiyyətinin üzə çıxarılması;

– bacarıqların növlərinin təsnifatının verilməsi;

– pedaqoji ali məktəb tələbələrinin "kommunikativ bacarıqları" anlayışının dəqiqləşdirilməsi.

Tələbələrdə kommunikativ bacarıqların inkişaf etdirilməsi probleminin mahiyyətini bu anlayışın, yəni "mahiyyət" anlayışının özünün təhlili ilə açılması kommunikativ bacarıqların da mahiyyətinin nələrdən ibarət olduğunu aydınlaşdırmaq baxımından maraqlı olar. Belə ki, fəlsəfi lüğətdə "mahiyyət maddi sistemin əsas inkişaf əlamətləri və tendensiyalarını müəyyən edən daxili əlaqə, münasibət və qanunlarının məcmusu" kimi səciyyələndirilir [11, s.550]. Buradan çıxış etməklə tələbələrdə kommunikativ bacarıqların inkişaf etdirilməsi prosesinin inkişaf əlamətlərini, bacarıqların mahiyyətini, onların parametrlərini və bu əlamətlərin qarşılıqlı bağlılığını təyin edə bilərik.

Ölkəmizdə pedaqoji və psixoloji elmlər sahəsində, eləcə də xarici ölkələrin ədəbiyyatlarında bacarıqlara kifayət qədər tədqiqatlar həsr edilmişdir. Onların təhlili göstərir ki, tədqiqatçılar arasında bu anlayışla bağlı vahid fikir yoxdur. "Bacarıq" anlayışı həm psixoloji, həm də pedaqoji kateqoriya kimi nəzərdən keçirilir. Ona görə də yanaşmalarda fərqlər gözə çarpır. Hər iki elmdə bu anlayışa çox rəngarəng fikirlər bildirilir. Psixoloji ədəbiyyatda bacarığa verilən tərifi aşağıdakı kimi ümumiləşdirmək olar: Bacarıqlar mövcud bilik və ya anlayışlarla predmetlərin əsas xassələrinin üzə çıxarılması və müəyyən nəzəri və praktiki məsələləri həll etmək

üçün əməliyyatlar aparmaq qabiliyyətidir. Psixoloqlar üçün bacarıqlar şəxsiyyətin dəyişkən şəraitdə hərəkət etmək qabiliyyətinin təminatı kimi çıxış edir ki, bu da pedaqoji fəaliyyətdə xüsusi əhəmiyyət kəsb edir. Bəzən psixoloqlar bacarıqla vərdiş arasında fərq qoymayıb "bacarıq" dedikdə, "vərdişin başqa əməliyyatlarla bir araya gətirilmiş və şəxsiyyətin davamlı xassəsinə çevrilmiş ali forması"nı başa düşürlər.

Pedaqoji ədəbiyyatda da "bacarıq" anlayışı müxtəlif cür izah olunur. Məsələn, pedaqoji lüğətdə bacarıqlar "subyektin əldə etdiyi bilik və vərdişlərlə hərəkətləri yerinə yetirmə üsulu", "sürətlə, dəqiq, şüurlu, mənimsənilmiş biliklər və həyat təcrübəsi əsasında yerinə yetirilən praktiki və nəzəri hərəkətlərə hazırolma" kimi səciyyələndirilir. Bacarıqlar məqsədə çatmaq üçün mürəkkəb davranış modellərini adekvat və şüurlu şəkildə həyata keçirtmək qabiliyyəti kimi də başa düşülür [13]. Y.K.Babanski də bacarığı müəyyən bir fəaliyyətə şüurlu yiyələnmə kimi müəyyənləşdirir. İ.F.Xarlamov "bacarıq" anlayışını müəyyən qayda (bilik) əsasında qurulmuş və müəyyən problemlərin həlli prosesində biliklərdən düzgün istifadə edilməsinə uyğun yeni bir hərəkət üsulunun mənimsənilməsində aralıq mərhələ kimi səciyyələndirir [13, s.148-151].

Müasir təhsil texnologiyalarını nəzərə alaraq Q.K.Selevko bacarıqları "insanın dəyişdirilmiş və ya yeni şərtlərdə mövcud biliklər əsasında müəyyən fəaliyyəti səmərəli həyata keçirtmək qabiliyyəti" kimi izah edir. S.Q.Vorovşikov isə bacarıqları fərdin dəyişdirilmiş və ya yeni şəraitdə mövcud biliklər əsasında müəyyən fəaliyyəti həyata keçirməsi kimi müəyyənləşdirir.

Beləliklə, həm pedaqogikada, həm də psixologiyada vərdişin bacarıqdan əvvəl, yoxsa bacarığın vərdişdən əvvəl gəlməsi məsələsi mübahisəli olaraq qalmaqdadır. Əksər müəlliflər bacarıqları bir tərəfdən biliklərin mənimsənilməsinin nəticəsi və onların tətbiq üsulu kimi, digər tərəfdən isə vərdişlərin formalaşmasının əsası kimi nəzərdən keçirirlər. Lakin onların fərqləndirilməsində əsas meyar kimi bacarıqların praktiki yönümlülüyü çıxış edir. Bacarıqlar həmişə əldə edilmiş biliklərin praktiki tətbiqini nəzərdə tutur. Bacarıqların daha bir xüsusiyyəti ondadır ki, hər bir bacarığın əsasında intellektual fəaliyyət durur. Avtomatizmə çatdırılmış bacarıq kimi başa düşülən vərdişlərdən fərqli olaraq burada proseslərə şüur, təfəkkür qatılmış olur ki, bu da pedaqoji fəaliyyətin uğurla həyata keçirilməsi üçün zəruri olan kommunikativ bacarıqların, o cümlədən müəllimin kommunikativ bacarıqlarının mahiyyətini üzə çıxartmaq üçün xüsusilə əhəmiyyətlidir. Müəllimin peşəkarlığı fəaliyyətini intuitiv səviyyədən çox, şüur səviyyəsində, psixoloji-pedaqoji qanunauyğunluqlara əsaslanmaqla qurması ilə ölçülür. Başqa sözlə, bacarığın vərdişdən fərqi ondadır ki, bacarıqlar intellektual nəzarət altında olur. Xarici şərait dəyişdikdə, qeyri-adi şərait yarandıqda, təcili rasional qərarlar vermək üçün intellektual nəzarət işə düşür. Yəni bacarıqlar dəyişən situasiyada formalaşır, daha doğrusu, köhnə bacarıqlar əsasında dəyişmiş situasiyada yeni bacarıqlar inkişaf edir. Vərdişlər isə eyni şəraitdə dəfələrlə yerinə yetirilən hərəkətlərə deyilir. Bacarıqların insanın həyat təcrübəsi ilə bağlı olmasının vurğulanması isə onu göstərir ki, bacarıqlara gələcək mütəxəssisin daşıyıcısı olduğu, habelə onun peşə hazırlığının baş verdiyi mədəniyyətdə ciddi təsir göstərir.

Bəzən pedaqoji və psixoloji ədəbiyyatlarda bacarıqlar səriştənin sinonimi kimi başa düşülür və səriştə bacarıqların məcmusu kimi səciyyələndirilir. Avropa Şurasının sənədlərində də səriştəlilik empatik və refleksiv qabiliyyətlərlə tamamlanmış bacarıqlar toplusu kimi səciyyələndirilir [8, s.109-110]. Lakin V.A.Kalney və S.Y.Şişkov səriştə ilə bacarıq anlayışları arasında ciddi fərq olduğunu bildirirlər: "Bacarıqlar spesifik situasiyada hərəkət etmək deməkdir. Səriştə isə bacarığı doğuran bir şeydir" [5, s.79]. Beləliklə, müasir pedaqogikada "bacarıq" və "səriştə" anlayışlarının məzmununa dair ziddiyyətli situasiya yaranmışdır ki, bu da həmin anlayışların müasir təhsil sistemində kifayət qədər işlənməməsindən xəbər verir.

"Bacarıq" anlayışına olan yanaşmaları nəzərdən keçirdikdən sonra onun fəaliyyətdən və biliklərdən ayrılmaz olduğunu qeyd etmək lazımdır. Bu tezis metodoloji müddəa kimi bizim üçün əhəmiyyətlidir, çünki bu, gələcək müəllimlərdə kommunikativ bacarıqları formalaşdırmaq üçün təlimin məzmununun nədən ibarət olmalı və onu necə strukturlaşdırmalı olduğunu təyin etməyə imkan verir.

Araşdırılan problem üçün "kommunikasiya" anlayışının əhəmiyyəti və mürəkkəbliyini nəzərə alaraq ona olan yanaşmaları bir neçə qrupa ayırmağı məqsədəmüvafiq hesab edirik. Kommunikasiyaya ilk nəzəri yanaşma kimi tədqiqatçılar ritorik yanaşmanı qeyd edirlər. Bu, ən qədim yanaşma olub, Aristotelin "Ritorika" əsərindən qaynaqlanan Qərb ənənəsinə söykənir. Bu yanaşmaya görə, kommunikasiyanın "əsas məqsədi publik (şifahi) çıxış olan praktiki diskurs sənətidir" [19, s.55]. Qeyd etmək lazımdır ki, ritorik ənənədə nitq situasiyasına "tək dilin özü deyil, həm də vizual, kinetik və s. elementlər" də daxil edilirdi [14, s.67].

Növbəti yanaşmanı semiotik yanaşma kimi şərh edə bilərik. Bu yanaşma çərçivəsində kommunikasiya işarələr sistemi ilə vasitələnən qarşılıqlı təsirlər kimi nəzərdən keçirilir, dil isə "fikrin ötürülməsi aləti" kimi başa düşülür [20, s.297].

Kommunikasiyaya daha bir yanaşmanın – fenomenoloji yanaşmanın baniləri E.Husserl, H.Q.Hadamer və başqaları olmuşdurlar. Onların fikirlərinə görə, kommunikasiya subyektin başqası ilə toqquşdurulmasından ibarətdir, onun məqsədi isə subyektlər arasında həqiqi və bilavasitə münasibətləri qurmaqdır. Həqiqi təmasa subyektlər arasında dualizmin aradan qaldırılması yolu ilə nail olmaq mümkündür. İnsan yalnız bu yolla başqasının aləmini duya, özünün bu aləmlə ortaq və fərqli olan məqamlarını hiss edə bilər.

XX əsrdə daha bir yanaşma – kibernetik yanaşma meydana gəldi. Onun baniləri (K.Çerri, K.E.Şennon və s.) süni intellekt və "insan-kompüter" dialoq sisteminin yaradılması problemləri ilə məşğul idilər. Bu riyazi və texniki yanaşma kommunikasiyanı mexaniki informasiya mübadiləsi kimi nəzərdən keçirir, kommunikasiyada hər hansı bir pozuntunu isə texniki səbəblərlə, məsələn, səs-küy, kanalın həddindən artıq yüklənməsi ilə izah edirdilər [15; 21].

Ötən əsrin sonlarından sosial psixologiya nəzəriyyəsinin əsasında daha bir yanaşma formalaşdı. Bu yanaşmaya görə kommunikasiya müəyyən emosional, koqnitiv və davranış effektlərini əldə etmək məqsədi ilə bir-birinə təsir göstərən şəxslərin qarşılıqlı əlaqəsidir [4; 9, s.99-111; 17, s.199-203]. Nəhayət, sosiomədəni yanaşma kommunikasiyanı diskursiv proses, sosial hadisə kimi nəzərdən keçirir, diqqəti müəyyən bir cəmiyyətin sosial və mədəni prioritetlərinin rolu üzərində cəmləşdirir [10, s.17-20; 12]. Beləliklə, biz burada yuxarıda adlarını qeyd etdiyimiz altı yanaşmanın: ritorik, semiotik, fenomenoloji, kibernetik, qarşılıqlı əlaqə, sosiomədəni yanaşmaların olduğunu görürük.

Kommunikasiya anlayışına aid olan nəzəri konsepsiyalar sadalanan bu yanaşmalarla bitmir. Onlar sadəcə bu tədqiqat sahəsinin yenə də açıq qalmasından və həmin anlayışın başqa nəzəri müstəvidə izahının mümkünlüyündən xəbər verir. Məsələn, simvolik interaksionizmə görə, insanlar cəmiyyətdə daima bir-biri ilə qarşılıqlı təsirlərdə olurlar və bu qarşılıqlı təsirlər də kommunikasiyaya söykənir. Kommunikasiya cəmiyyət və onun inkişafının zəruri şərtini təşkil edir. İnsan, onun sosial "Mən"i və cəmiyyət kommunikasiya prosesləri kontekstində daima yaranır və dəyişən sosial varlıq kimi inkişaf edir. İnsanların qarşlıqlı təsirləri prosesində yeni-yeni məsələlər, mahiyyət meydana çıxır və həmin insanların hərəkətləri onların qavradıqlarından və qavradıqlarını necə qiymətləndirməsindən və izah etməsindən asılı olur. Kommunikasiyanın şüurluluğu burada iştirak edən fərdlərin sözlərinə, jestlərinə, davranışlarına yeni məna verir. Şüurlu, müəyyən mahiyyətə malik olan kommunikasiya bununla da kommunikasiya iştirakçılarının sonrakı hərəkətlərini yönəldə bilir. Beləliklə, simvolik interaksionizmdə mərkəzi yeri fərd və ya cəmiyyət deyil, qarşlıqlı təsirlər tutur və bu qarşılıqlı təsirlərdə mənalar yaranır, şəxsiyyətin özü də bu prosesdə formalaşır.

Y.Habermas və digər bir sıra tədqiqatçılar kommunikasiya nəzəriyyəsini kommunikativ təsir nəzəriyyəsi çərçivəsində inkişaf etdirirlər. Onların fikirlərinə görə, kommunikativ təsir qarşılıqlı təsirlərə cəlb edilmiş insanların plan və məqsədlərinin koordinasiyasına xidmət edən sosial təsir formasıdır. Bu yanaşmalara əsaslanaraq kommunikasiyanın aşağıdakı aspektlərini qeyd edə bilərik:

Birincisi, kommunikasiya universal fenomendir və kommunikasiya insanın bütün fəaliyyət növlərini müşayiət edir.

İkincisi, kommunikasiya informasiyanın bir yerdən digər yerə ötürülməsi vasitəsidir.

Üçüncüsü, insanların qarşılıqlı təsirləri bir

məqsədə – birgə fəaliyyətin qurulması məqsədinə yönəldiyindən kommunikasiyada iştirak edən tərəflər bir-birinə onlara məlum olan işarələr sisteminin köməyi ilə təsir göstərə bilirlər. Kommunikasiya bacarığı olmadan hər hansı bir sferada fəaliyyət göstərməyin mümkünlüyünü təsəvvür etmək çətindir. Kommunikasiya dayanıqlı inkişaf təcrübəsində xüsusi rol oynayır. Belə ki, dayanıqlı inkişaf nəzəriyyəsi və təcrübəsinin inkişafına mane olan əsas problemlər yalnız kommunikasiyanın köməyi ilə həll edilə bilər. Bu baxımdan kommunikasiya iki mühüm məsələnin həllində mühüm rol oynaya bilər ki, bunlar da əsasən aşağıdakılardan ibarətdir:

Birincisi, kommunikasiya dayanıqlı inkişafın qlobal hədəfinə – hər bir insanın dəyər və davranış qaydalarının dəyişməsinə öz töhfəsini verir. Dayanıqlı inkişaf əslində kommunikasiya vasitəsilə insanların dünyagörüşünün, davranışının və həyat tərzinin dəyişdirilməsini nəzərdə tutur.

İkincisi, kommunikasiya özünün funksiyaları ilə tərəflər arasında qarşılıqlı anlaşmaya nail olmaq, əməkdaşlıq etmək üçün zəmin yaradır. Fəaliyyətin müxtəlif sahələrində əlaqələrin köməyi ilə "kommunikasiya proseslərinin etibarlı fəaliyyət göstərə biləcəyi" ahəngdar bir kommunikasiya mühiti yaradılır.

Təhsil prosesinin özü də kommunikativ, dialoji təbiətə malikdir. Mühazirə və seminarların təşkili, tərbiyə işi və s. öz qanunauyğunluqları, metodları olan mürəkkəb psixoloji-pedaqoji hərəkət olmaqla müəllimdən yüksək kommunikativ bacarıqlar tələb edir. Ona görə də bir sıra tədqiqatçılar (V.İ.Baydenko, E.F.Zeyer, İ.A.Zimnyaya, N.V.Kuzmina, A.K.Markova və s.) haqlı olaraq kommunikasiyanı peşə fəaliyyətinin bir hissəsi, bəzi peşə fəaliyyətlərinin isə, o cümlədən pedaqoji peşənin əsası, yəni nüvəsi hesab edirlər.

Bizə görə də bu belədir, pedaqoji peşə kommunikasiyanın birinci dərəcəli hadisəyə çevrildiyi peşə sahəsidir və təlim işinin uğurlu olması bir çox mənada kommunikasiyanın xarakterindən asılı olur. Bu baxımdan müəllim üçün kommunikativ bacarıqların yüksək olmasının onun pedaqoji fəaliyyətinin əsasında durduğunu desək, yəqin ki, səhv etmərik. Eyni zamanda ali təhsil müəssisələrinin tədris qruplarının fəaliyyətinin səmərəliliyində kommunikasiyanın yüksək olmasının da mühüm əhəmiyyət kəsb etdiyini də təsdiq etmək olar. Kommunikasiyanın səmərəliliyi isə bir çox amillərlə yanaşı, müəllimin kommunikativ bacarıqlarının səviyyəsindən də çox asılıdır. Professor Ə.Ə.Əlizadə bu məsələyə fikrini belə izah edir: *"Müasir təhsil konsepsiyası... təhsilin humanistləşdirilməsi şəraitində kommunikativ və perseptiv, ekspressiv və konstruktiv qabiliyyətlərin əhəmiyyətini xüsusi vurğu ilə dəyərləndirir. Müəllimin şagirdlərlə qarşılıqlı münasibətlərinin inkişafı baxımından, məhz bu qabiliyyətlər, ilk növbədə kommunikativ qabiliyyətlər və bilavasitə onunla bağlı olan qabiliyyətlər – perseptiv və ya ekspressiv qabiliyyətlər önəmli əhəmiyyət kəsb edir. Məktəb müşahidələri də şagird-müəllim münasibətlərinin əmələ gəlməsində və inkişafında, ilk növbədə, kommunikativ qabiliyyətlərin önəmli yer tutduğunu göstərir"* [1, s.230].

"Kommunikativ bacarıqlar" nədir və bu anlayış özündə nələri ehtiva edir? Psixoloji-pedaqoji ədəbiyyatın təhlili göstərir ki, indiyədək kommunikativ bacarıqlar, onların mahiyyəti və sistemi ilə bağlı yekdil fikir formalaşmamışdır. Psixoloji və pedaqoji ədəbiyyatda bu fenomen müxtəlif cür izah olunur. Belə ki, kommunikativ bacarıq "ünsiyyətə hazır olan və kommunikativ bilikləri gerçəkliyi əks etdirib dəyişdirmək üçün adekvat istifadə etməyə qadir olan şəxsiyyətin kommunikativ hərəkətlər kompleksi" [6, s.114], "şəxsiyyətin kommunikativ məsələ həlletmə situasiyasında öz fəaliyyətini idarəetmə qabiliyyəti", "şəxsiyyətin yüksək nəzəri və praktiki hazırlığına əsaslanan və bilikləri gerçəkliyin inikası və dəyişdirilməsi üçün yaradıcı şəkildə istifadə etməyə imkan verən dərk edilmiş kommunikativ hərəkətlər kompleksi" [2, s.53], "öz davranışını düzgün qurmaq, insan psixologiyasını anlama (lazımi intonasiyanı, jestləri seçmək, insanları tanımaq, həmsöhbətin reaksiyasını duymaq, özünü onun yerinə qoymaq, hər bir həmsöhbətə qarşı daha doğru rəftar üsulu seçmək) ilə bağlı olan bacarıqlar" [7, s.26] və s. kimi səciyyələndirilir.

Bu izahlardan da göründüyü kimi, "kommunikativ bacarıq" anlayışı birbaşa ünsiyyət fenomeni, onun dərki ilə bağlıdır və bilavasitə

onlardan asılıdır. Ona görə də kommunikativ bacarıqlarla ünsiyyət prosesinin qarşılıqlı əlaqəsinə diqqət yetirməyi məqsədəmüvafiq hesab edirik.

Əvvəlcə onu qeyd edək ki, "kommunikasiya" və "ünsiyyət" anlayışlarının sinonim olmasına dair məsələ də hələ tam işlənilməmişdir. Ünsiyyət probleminə yanaşmaların təhlili göstərir ki, ünsiyyət ədəbiyyatda "insanlar arasında məlumat mübadiləsi və onlar arasında qarşılıqlı anlaşmanın qurulması prosesi" (G.M.Andreeva, B.G.Ananyev, B.C.Vıqotski, B.D.Parıgin, Ə.Ə.Əlizadə və başqaları), "insanın sosial varlığının bir tərəfi" (B.F.Lomov), "insan fəaliyyətinin növlərindən biri" (M.I.Lisina, V.N.Myasişşev), "insanların müəyyən bir cəmiyyət çərçivəsində inteqrasiyası" (A.A.Bodalev), "iki və ya daha çox insanın qarşılıqlı davranışlarında bir-birlərini istiqamətləndirdikləri və dərk edə bildikləri proses" [18, s.463], "məlumatı qarşılıqlı ötürmək və qəbul etmək, fikir mübadiləsi aparmaq prosesi" [16, s.17] kimi səciyyələndirilir. Bununla bağlı ünsiyyətin əsas xarakteristikaları kimi onun sosial xarakter daşımasına, subyekt-subyekt təbiətli olmasına, ünsiyyətlə fəaliyyətin ayrılmaz bağlı olmasına, ünsiyyətin bir-biri ilə bağlı olan kommunikativ (infomasiya mübadiləsi), interaktiv (qarşılıqlı təsirlərin təşkili) və perseptiv (iştirakçıların bir-birini qavraması və bu əsasda qarşılıqlı anlaşmaya nail olması) kimi bir-biri ilə ayrılmaz bağlı olan üç elementdən ibarət olması da elmi- tədqiqatlarda öz təsdiqini tapmışdır.

Nəticə. Beləliklə, yazılanlardan göründüyü kimi, ünsiyyətlə kommunikasiya bir-birinə çox oxşar olsa da, onları sinonim hesab etmək olmaz. Bizcə, kommunikasiya ünsiyyətin bir elementini təşkil edir və ona görə də kommunikativlik ünsiyyət anlayışından dardır. Kommunikasiya bir insandan digər insana informasiyanın ötürülməsindən çox bir-biri ilə qarşılıqlı əlaqədə olan insanların davranışını ifadə edir.

"Kommunikativ bacarıqlar" termininin psixoloji, pedaqoji tədqiqatlarda və normativ sənədlərdə işlədildiyi kontekstin araşdırılması bizə hazırkı tələbə – gələcək müəllimin kommunikativ bacarıqlarına müəyyən tərif verməyə imkan verir. Fikrimizcə, kommunikativ bacarıqlar – kommunikasiyanın məqsəd və vəzifələrinə nail olmaq üçün həmsöhbətlərin bir-biri ilə qarşılıqlı informasiya mübadiləsinə, dəyişən situasiyalarda bilikləri yaradıcı şəkildə tətbiq etməyə yönələn hərəkətləridir. Kommunikativ bacarıqlar sosial psixologiyanın və pedaqogikanın əsas anlayışlarından biri olmaqla, şəxsiyyətlərarası münasibətlər sahəsində bilikləri, qrupda işləmək vərdişlərini, insanın özü ilə dialoqa daxil olmaq, başqası ilə dialoqu təşkil edib aparmaq, kollektiv qərarları qəbul etmək bacarığını ehtiva edir.

İstifadə edilmiş ədəbiyyat

1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, "Ozan" nəşriyyatı, 1998.
2. Андреева Г.М. Социальная психология. Москва, "Аспект Пресс", 2006, 384 с.
3. Бабанский Ю.К. Рациональная организация учебной деятельности. Москва, Знание, 1981.
4. Богданов В.В. Речевое общение: прагматические и семантические аспекты. Изд-во ЛГУ, 1990.
5. Кальней В.А., Шишов С.Е. Школа: Мониторинг качества образования. Москва, Педагогическое общество России, 2000.
6. Куницына В.Н., Казаринова Н.В., Погольша В.М. Межличностное общение (учебник для вузов). СПб: Питер, 2003, 544 с.
7. Мудрик А.В. Общение в процессе воспитания. Москва, Педагогическое общество России, 2001, 320 с.
8. Совет Европы: Симпозиум по теме «Ключевые компетенции для Европы»: док. DECS/SC/Sec (96) 43, Берн, 1996.
9. Сусов И.П. Космические мотивы в науке о языке и философии языка. Тверской лингвистический меридиан: теорет, сборник, тверь: Изд-во ТвГУ, 1998.
10. Сухих С.А. Механизмы манипулятивной коммуникации. Теоретическая и прикладная лингвистика. Вып. 2. Язык и социальная среда. Воронеж: ВГТУ, 2000.
11. Фролова И.Т. Философский словарь. Под ред. Москва, Изд-во «Республика», 2001.
12. Хабермас Ю., Скляднева Д.В., Маркова Б.В Моральное сознание и коммуникативное действие. пер. с нем. под ред. послесл. Москва, Наука, 2006.
13. Харламов И.Ф. Педагогика. 2-е изд.,

перераб. и доп. Москва, Высш. шк., 1990.

14. Чернявская В.Е. Лингвистика в медиальной парадигме: к постановке вопроса. Когниция, коммуникация, дискурс. №4, 2012.

15. Черри К., Кули В.И., Фридмана В.Я. Человек и информация. пер. с англ. Москва, Связь, 1972.

16. Condon J.C., Youself F.S. An introduction to intercultural communication. Indianapolis, İnd. p.17.

17. Craig R.T. Communication theory as a field. R.T. Craigb. Communication Theory. №9 (2), 1999.

18. Michael Jäckel, Interaction. Soziologische Anmerkungen zu einem Begriff. In: Rundfunk und Fernsehen: 43:1995, Heft 4.

19. Klyukanov I.E., Klyukanov E.A. Communication Universe; Manifestations of Meaning, Stagings of Significance 1 Lanham: Lexington Books, 2010.

20. Malinowski B. The problem of meaning in primitive languages. The meaning of meaning. NewYork: Harcourt. Brace and Co, 1953.

21. Shannon C.E., Weaver W. The Mathematical Theory of Communication. C.E.Shannon Champaign IL: University of Illinois Press, 1949.

N.Ahmadova

The essence, goals and tasks of forming communicative skills in students

Abstract

One of the main issues in the training of pedagogical staff in higher pedagogical educational institutions is the formation of communicative skills in students. Communicative skills are one of the main professional qualities of a teacher due to their purpose, tasks and nature. Therefore, the formation of this quality in students in higher pedagogical education is of particular importance. To do this, first of all, it is very important to determine the place of these skills in teacher training. The presented article explains the essence of communicative skills, clarifies its similarities and differences with the concepts of competence and communication, different approaches to it – rhetorical, semiotic, phenomenology, cybernetics, interaction, It is noted that there are socio-cultural approaches and their explanation is given.

Н.Ахмедова

Сущность, цель и задачи формирования коммуникативных навыков у студентов

Аннотация

Одним из основных вопросов при подготовке педагогических кадров в высших педагогических учебных заведениях было формирование у студентов коммуникативных навыков. Коммуникативные навыки являются одним из основных профессиональных качеств педагога в силу своего назначения, задач и характера. Поэтому формирование этого качества у студентов высшего педа-гогического образования имеет особое значение. Для этого, прежде всего, очень важно определить место этих умений в подготовке учителей. В представленной статье объясняется сущность коммуникативного умения, выясняются его сходства и различия с понятиями компетентности и общения, разные подходы к нему – риторический, семиотическая, феноменология; кибернетика, взаимодействие, отмечается наличие социокультурных подходов и дается их объяснение.

Peşə təhsili və insan kapitalı. Cild 7, №4, 2024, s.38-40

MUXTARİYYƏT DÖVRÜNDƏ NAXÇIVANDA TƏHSİL VƏ ELMİN İNKİŞAFI: TARİXİ TƏCRÜBƏ VƏ MÜASİR ÇAĞIRIŞLAR

Məhsəti Əsgərova,
Naxçıvan Dövlət Universitetinin
İqtisadiyyat və marketinq kafedrasının müəllimi
e-mail: mahsati554@gmail.com
esgerovamehseti@ndu.edu.az
https://doi.org/10.30546/2706-7858.7.4.2024.015

ORCİD: 0009-0001-1899-3325
UOT: 37

Xülasə. *Naxçıvan Muxtar Respublikası Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri olaraq həm təhsil, həm də elmi inkişaf baxımından əhəmiyyətli tarixi keçmişə malikdir. 1924-cü ildə muxtariyyət statusu əldə etdikdən sonra Naxçıvanda təhsil və elmin inkişafı yeni mərhələyə qədəm qoymuş, bu sahələrə dövlət səviyyəsində xüsusi diqqət yetirilmişdir. Məqalədə muxtariyyət dövründə Naxçıvanda təhsil və elmin inkişafı, bu sahədə aparılan islahatlar və nailiyyətlər araşdırılmışdır.*

Açar sözlər: *muxtariyyət, təhsil sistemi, elmin inkişafı, sosial-iqtisadi inkişaf.*
Key words: *autonomy, education system, development of science, socio-economic development.*
Ключевые слова: *автономия, система образования, развитие науки, социально-экономическое развитие.*

Muxtariyyətin ilk illərində – 1920-ci ilin sonunda sovet hökuməti təhsili kütləviləşdirməyə çalışırdı və Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da bu sahədə oxşar addımlar atılırdı. Əhalinin böyük hissəsi kənd yerlərində yaşadığından kəndlərdə məktəblərin yaradılması çox vacib idi. Bu dövrdə savadsızlıqla mübarizə kampaniyaları aparılaraq təhsil müəssisələrinin sayı sürətlə artmağa başlayırdı.

1924-cü ildə muxtariyyət statusunun verilməsindən sonra Naxçıvanda təhsil sahəsi xüsusi diqqət mərkəzinə çevrildi. Sovet İttifaqının mərkəzləşdirilmiş siyasəti çərçivəsində Naxçıvanda təhsilin təkmilləşdirilməsi və əhalinin maarifləndirilməsi məqsədi ilə genişmiqyaslı tədbirlər görülürdü. Təhsilin kütləvi xarakter alması və məktəblərin sayının artırılması bu dövrün əsas prioritetlərindən biri olmuşdur.

Sovet dövründə rus dili tədris dili olaraq geniş yayılmağa başladı. Lakin Naxçıvanda yerli dilin, yəni Azərbaycan dilinin qorunub saxlanılmasına xüsusi diqqət yetirilirdi. Bu, milli kimliyin qorunması və elmi biliklərin ana dilində tədrisinin təmin olunmasına şərait yaratmışdır. Təhsil sahəsində yeni məktəblər və texniki-peşə məktəbləri açılaraq əhalinin müxtəlif təbəqələrinə təhsilalma imkanı verilirdi. Kənd təsərrüfatı istiqaməti üzrə texniki-peşə məktəbləri Naxçıvanın sosial-iqtisadi inkişafı baxımından vacib rol oynayırdı [1].

1950-1980-ci illər arasında Sovet İttifaqında təhsil və elmin sürətli inkişafı müşahidə olunurdu. Naxçıvan da bu prosesdən geri qalmırdı. Bu dövr-

də təhsil və elmi-tədqiqatların genişlənməsi, yeni təhsil müəssisələrinin açılması, yerli alim və mütəxəssislərin hazırlanması istiqamətində əhəmiyyətli addımlar atılırdı. Sovet dövründə Naxçıvanda orta təhsil geniş vüsət aldı. Orta məktəblərdə təhsilalanların sayında artım müşahidə olunurdu və bu, regionun təhsil səviyyəsini yüksəldirdi. Naxçıvanda ali məktəblərin yaradılması ilə yerli gənclərə elmi fəaliy-yətə qatılmaq üçün yeni imkanlar açıldı. 1967-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (indiki Naxçıvan Dövlət Universiteti) yaradılması regionun təhsil və elmi həyatında əhəmiyyətli hadisə oldu. Bu ali təhsil müəssisəsi regionda peşəkar kadrların hazırlanmasına və elmi-tədqiqatların genişləndirilməsinə təkan verdi. Həmçinin sovet dövründə Naxçıvanda bir neçə elmi-tədqiqat institutları yaradıldı və bu institutlar müxtəlif sahələrdə – xüsusilə təbiət elmləri, tarix, arxeologiya və mədəniyyət sahələrində mühüm tədqiqatlar həyata keçirirdi. O dövrdə Naxçıvanın qədim tarixi və zəngin mədəni irsi elmi araşdırmaların əsas mövzularından idi.

Naxçıvan Muxtar Respublikası müstəqillik dövründə əldə etdiyi nailiyyətləri sayəsində təhsil və elm sahəsində əhəmiyyətli inkişaflara imza atmışdır. Son illərdə bu sahələrin modernləşdirilməsi, müasirləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə bir sıra strateji planlar həyata keçirilmişdir. Belə ki, bu dövr regionda təhsil islahatlarının həyata keçirildiyi, elmin daha da inkişaf etdiyi və yerli mədəniyyətin qorunub saxlanılmasına xüsusi diqqətin yetirildiyi dövr olmuşdur [2].

Regionun arxeoloji və tarixi abidələrinin tədqiqi sahəsində aparılan elmi işlər Naxçıvanın mədəni irsinin qorunmasına və təbliğinə böyük töhfə vermişdir. Yerli alimlər regionun bioloji müxtəlifliyi, geologiyası və ekologiyası sahəsində tədqiqatlar aparmışdır. Naxçıvanın zəngin təbiəti və coğrafiyası elmi araşdırmaların əsas mövzusuna çevrilmişdir. Müstəqillik illərində Naxçıvanda təhsil sistemində bir sıra islahatlar milli kurikulumun tətbiqi, tədris planlarının müasirləşdirilməsi və təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Təhsilin keyfiyyətinin artırılması və müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi regionun təhsil sahəsində əsas prioritetlərdən biri oldu [3].

Müasir dövrdə Naxçıvanın elmi və texnoloji potensialı durmadan artmaqdadır. Təhsil və elmi müəssisələrdə informasiya texnologiyalarının tətbiqi, yeni tədqiqat laboratoriyalarının yaradılması və gənc alimlərin innovativ layihələrə cəlb edilməsi, regionun elmi inkişafında mühüm rol oynayır. Təhsil müəssisələrində müasir tədris texnologiyalarının tətbiqi sürətləndirilir, interaktiv lövhələr, rəqəmsal dərsliklər və onlayn təhsil platformaları kimi yeni texnologiyalar tədrisin keyfiyyətini artırır.

Bugünkü dövrdə də Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı dövlətin prioritetlərindən biri olaraq qalır. Regionda müasir təhsil müəssisələrinin yaradılması, tədris keyfiyyətinin artırılması və beynəlxalq əməkdaşlıqların genişləndirilməsi istiqamətində fəaliyyətlər davam etdirilir.

Naxçıvan Dövlət Universiteti və digər təhsil müəssisələri xarici universitetlər və elmi-tədqiqat institutları ilə əməkdaşlıq edir. Bu əməkdaşlıqlar çərçivəsində tələbə mübadiləsi, birgə tədqiqat layihələri və konfranslar təşkil olunur. Naxçıvanda təhsil sisteminin müasirləşdirilməsi yerli və beynəlxalq standartlara uyğun mütəxəssislərin hazırlanmasına yönəlmişdir. Bu məqsədlə aşağıdakı istiqamətlərdə irəliləyiş planlaşdırılır:

Kurikulumun inkişafı. Müasir təhsil proqramlarının hazırlanması təhsilalanların analitik düşünmə və problem həlletmə bacarıqlarını inkişaf etdirmək məqsədini daşıyır.

Müasir texnologiyaların istifadəsi. İnformasiya texnologiyalarının təhsildə istifadəsi, eləcə də "onlayn dərslər" və "e-learning" platformalarının yaradılması tələbələrin biliklərini daha da genişləndirmək üçün imkanlar açır.

Naxçıvanın elm sahəsində irəliləyişini təmin etmək üçün tətbiq ediləcək yanaşmalardan gözlənilən nəticələr:

– Naxçıvan Dövlət Universiteti və digər elmi müəssisələrdə elmi-tədqiqatların mərkəzləşdirilməsi müxtəlif sahələrdə yeniliklərin əldə edilməsini təşviq edəcək;

– Naxçıvanın beynəlxalq tədqiqat şəbəkələrinə qoşulması yerli alimlərin qlobal elmi mühitdə iştirakını artıracaq;

– innovasiya və texnologiya Naxçıvanın gələcək inkişafında mühüm rol oynayacaq;

– gənc alim və mütəxəssislərin innovativ layihələrinin dəstəklənməsi iqtisadiyyatın və sosial

inkişafın müxtəlif sahələrinə töhfə verəcək;

– Naxçıvanda texnologiya parklarının yaradılması innovativ ideyaların reallaşması üçün mühit yaradacaq;

– Naxçıvanın elm və təhsil sahəsində beynəlxalq əməkdaşlığının genişləndirilməsi regionun inkişafına müsbət təsir göstərəcək;

– xarici universitetlərlə əməkdaşlıq tələbə və müəllim mübadilələri vasitəsilə bilik mübadiləsini artıracaq;

– xarici elmi-müəssisələrlə birgə tədqiqatların həyata keçirilməsi elmi biliklərin inkişafına töhfə verəcəkdir.

Naxçıvanda peşəkar kadr hazırlığını artırmaq və ixtisaslaşmanı gücləndirmək məqsədi ilə aşağıdakı addımlar atılmalıdır:

Peşəkar İnkişaf proqramları. Müəllimlərin peşəkar inkişafını təmin edən proqramlar təhsilin keyfiyyətini artıracaq.

Sahələrarası ixtisaslaşma. Müxtəlif sahələrdə ixtisaslaşma proqramları Naxçıvanın iqtisadiyyatında tələb olunan mütəxəssislərin hazırlanmasını təmin edəcəkdir.

Nəticə. Yekun olaraq qeyd etmək olar ki, muxtariyyət dövründə Naxçıvanda təhsil və elmin inkişafı böyük irəliləyişlərə nail olmuşdur. Sovet dövründə başlanılan islahatlar müstəqillik illərində də davam etdirilmiş və regionda təhsil sistemi daha müasir və çevik bir formaya gətirilmişdir. Bugünkü Naxçıvan həm təhsil, həm də elmi-tədqiqatlar sahəsində Azərbaycan Respublikasının mühüm mərkəzlərindən biri kimi çıxış edir. Umumiyyətlə, Naxçıvan Muxtar Respublikasının elm və təhsil sahəsindəki gələcək perspektivləri müasir dövrün tələblərinə uyğun olaraq formalaşdırılır. Təhsil sisteminin müasirləşdirilməsi, elmi-tədqiqatların inkişafı, innovasiya və texnologiyaların tətbiqi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və peşəkar kadrların hazırlanması Naxçıvanın irəliləyişi yolunda atılan mühüm addımlardır. İnanırıq ki, bu istiqamətlərdə həyata keçirilən strategiyalar regionun sosial-iqtisadi inkişafını təmin edəcək və Naxçıvanı müasir təhsil və elm mərkəzlərindən birinə çevirəcək, təhsilin və elmin davamlı inkişafı regionun gələcəkdə daha böyük uğurlara imza atmasına şərait yaradacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Babayev M. Naxçıvan Muxtar Respublikasında təhsil sistemi: Tarixi inkişaf və müasir dövrün çağırmaları. Bakı, “Elm və təhsil” nəşriyyatı, 2019.
2. Əsədov A. Naxçıvanda elmin inkişafı və təhsil siyasəti: Sovet dövründən müasir dövrə qədər. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 2018.
3. Məmmədov İ. Naxçıvanın elmi və təhsil tarixi: Muxtariyyət dövrünün töhfələri. Bakı, “Elm” nəşriyyatı, 2020.
4. Həsənov Q. Naxçıvan Muxtar Respublikasında ali təhsilin inkişafı və çağdaş elmi tədqiqatlar. Bakı, Naxçıvan Dövlət Universitetin nəşriyyatı, 2021.
5. Əliyev Ə. Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafı: Tarixi və müasir perspektivlər. Bakı, “Elm” nəşriyyatı, 2019.

M.Asgarova

Development of education and science in Nakhchivan during the period of autonomy: historical experience and modern challenges

Abstract

Nakhchivan Autonomous Republic, as one of the oldest cultural centers of Azerbaijan, has a significant historical past in terms of both education and scientific development. After obtaining the status of autonomy in Nakhchivan in 1924, the development of education and science entered a new stage, and special attention was paid to these areas at the state level. In this article, the development of education and science in Nakhchivan during the period of autonomy, reforms and achievements in this field will be examined.

М.Аскарова

Развитие образования и науки в Нахчыване в период автономии: исторический опыт и современные вызовы

Аннотация

Являясь одним из старейших культурных центров Азербайджана, Нахчыванская Автономная Республика имеет значительное историческое прошлое как с точки зрения образования, так и с точки зрения научного развития. После получения Нахчываном статуса автономии в 1924 году развитие образования и науки вступило в новый этап, и этим направлениям на государственном уровне уделялось особое внимание. В статье рассматривается развитие образования и науки в Нахчыване в период автономии, реформы и достижения в этой области.

Peşə təhsili və insan kapitalı. Cild 7, №4, 2024, s.41-46

ALİ TƏHSİL SİSTEMİNİN İQTİSADİ SƏMƏRƏLİLİYİNƏ TÖHFƏ VERƏN AMİLLƏRİN TƏHLİLİ VƏ MODELLƏŞDİRMƏ

Aytən Ağayeva,
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin
İqtisadiyyat İnstitutunun doktorantı
e-mail: a.c.aghayeva@gmail.com
https://doi.org/10.30546/2706-7858.7.4.2024.018

UOT: 33; 37; 378

Xülasə. *Məqalədə ali təhsilin iqtisadi səmərəliliyinə töhfə verən müxtəlif amillər – qiymətləndirmə və təkmilləşdirmə, ali təhsil sisteminin təkmilləşdirilməsi üçün Humboldt modeli, sosial-iqtisadi kontekst, texnologiyadan səmərəli istifadənin vacibliyi vurğulanır, həmçinin əməkdaşlıq və tərəfdaşlıq, tədqiqat və innovasiya, tədris və öyrənmə metodları, tələbələrə dəstək xidmətinin rolundan da bəhs edilir. Bundan əlavə, idarəetmə və liderlik, maliyyələşmə və resurs bölgüsü, keyfiyyət təminatı və akkreditasiyanın vacibliyindən də söhbət açılır. Ümumilikdə məqalədə iddia edilir ki, keyfiyyətli ali təhsil sistemi bir ölkənin iqtisadi uğurunun açarıdır.*

Açar sözlər: *ali təhsil, iqtisadi səmərəlilik, Humboldt modeli, Baldrige modeli, sosial-iqtisadi kontekst, əməkdaşlıq və tərəfdaşlıq, tədqiqat və innovasiya.*
Key words: *higher education, economic efficiency, Humboldt model, Baldrige model, socio-economic context, cooperation and partnership, research and innovation.*
Ключевые слова: *высшее образование, экономическая эффективность, модель Гумбольдта, модель Болдриджа, социально-экономический контекст, сотрудничество и партнерство, исследования и инновации.*

Bu gün cəmiyyətdə fərdlərin uğur qazanması üçün vacib vasitə olan ali təhsil gənclərə gələcək karyeralarını qurmaqla yanaşı, iqtisadiyyata töhfə vermək üçün lazımi bilik və bacarıqlar verir. Ona görə də hazırda ali təhsilin iqtisadi səmərəliliyi və bu səmərəliliyə təsir edən amillər müzakirə mövzusudur. Ali təhsilin iqtisadi səmərəliliyi iqtisadiyyatın inkişafına töhfə verəcək ixtisaslı kadrların hazırlanmasında təhsil sisteminin effektivliyidir. Bu da öz növbəsində universitet məzunlarının iş tapmaq qabiliyyəti ilə yanaşı, onların qazandıqları əməkhaqqı ilə ölçülür. Belə ki, məzunların qazandıqları əməkhaqqının yüksək olması ali təhsilin iqtisadi səmərəliliyinin yüksək olması deməkdir.

Ali təhsilin iqtisadi səmərəliliyinin artırılmasında mühüm rol oynayan qiymətləndirmə və təkmilləşdirmə faktorunda Humboldt modeli mahiyyət etibarilə təhsil müəssisələrinin idarə edilməsində sərbəstliyə və elmi araşdırmalara fokuslanır. Digər amil olan sosial-iqtisadi kontekstə mahiyyət etibarilə iqtisadi inkişaf, əmək bazarı və onun strukturu, məşğulluq və təhsillə bağlı dövlət siyasəti amilləri daxildir. Texnologiyanın təhsil sahəsinə gətirdiyi dəyişikliklər – təhsilin əlçatan olması, onun məsafə və vaxt limitlərinin aradan qaldırılması təhsilin monotonluqdan çıxaraq

cəlbedici və interaktivliyini təmin edir. Ali təhsildə iqtisadi səmərəliliyin artırılmasına təsir edən maraqlı tərəflər arasındakı əməkdaşlığa, ilk növbədə, bu universitetlər və kolleclər arasında olan əlaqə aiddir. Təhsilin mühüm faktorlarından olan ali təhsildə məqsəd tədqiqat və innovasiya anlayışlarını mahiyyət etibarilə tədqiqatlar, yeni bilik və təcrübələrdən, eləcə də texnologiyaların təsirindən istifadə edərək inkişaf etdirməkdir. Tələbələrə dəstək xidmətlərindən biri onların ali təhsillərini davam etdirmələridir. Bu faktor iqtisadi səmərəliliyin yüksəldilməsində əsaslı rola malikdir. Əgər universitetlər tələbələrə yüksək dəstək xidməti göstərirlərsə, bu onların tədrisdə qalmağa həvəsləndirilməsinə imkan verir. Həmçinin keyfiyyət təminatı və akkreditasiya ali təhsil müəssisələrində keyfiyyətli təhsil və uğurlu nəticələrin əldə edilməsinin təminatçısıdır. Keyfiyyət təminatı ali təhsil müəssisələrində yüksəkkeyfiyyətli təhsil üçün müəyyən proseslərin təşkil edilməsidir. Akkreditasiya isə ali təhsil müəssisələrinin müvafiq akkreditasiya orqanları tərəfindən qəbul edilmiş standartlara uyğun olaraq fəaliyyətlərinin rəsmi olaraq tanınması və onların akkreditasiya olunması haqqında rəsmi sənədin verilməsidir. Bu amillərin təhlili ali təhsilin iqtisadi səmərəliliyinin iqtisadiyyata töhfə verə biləcək məzunların hazırlanmasında mühüm əhəmiyyət kəsb edir.

Ali təhsilin iqtisadi səmərəliliyinə təsir edən faktorlar. Keyfiyyətli təhsil əmək bazarının tələblərinə cavab verən məhsuldar işçi qüvvəsinin hazırlanmasıdır. Bu, hər bir ölkənin iqtisadiyyatı və iqtisadi problemlərinin həll olunması üçün vacib faktorlardandır. Bir qayda olaraq ali təhsilin maliyyə ünsürləri ilə bağlı təhlil, onun əlçatanlığının artırılmasına kömək edərək iqtisadi səmərəliliyinin artırılması üçün vacib amillərdir. Bu amillərə aşağıdakılar aiddir.

Qiymətləndirmə və təkmilləşdirmə. Ali təhsil sisteminin keyfiyyət təminatı və onun nüfuzlu tədris müəssisəsinə çevrilməsinin əsas strategiyası qiymətləndirmə və təkmilləşdirmədir. *Qiymətləndirmə strategiyası* dedikdə, təhsilin keyfiyyətinin qiymətləndirilməsi nəzərdə tutulur. Tələbə rəyinin müsbət olması, fakültə qiymətləndirilməsi və akkreditasiya kimi müxtəlif proseslər təhsilin keyfiyyətini realizə edir.

Təkmilləşdirməyə gəldikdə isə tədqiqat və innovasiyalar da təkmilləşdirmə strategiyalarındandır. Bu amil xüsusi olaraq ölkənin iqtisadi inkişafında mühüm rol oynayır. Bunlardan əlavə, tədris prosesində tələbələrin biliyinin qiymətləndirilməsi üçün layihəəsaslı öyrənmək üçün effektiv qiymətləndirmə metodlarından istifadə olunur. Belə qiymətləndirmə ilə yanaşı, rubrikalar, həmyaşıdların qiymətləndirilməsi və özünüqiymətləndirmədən istifadə etmək daha dolğun nəticələr əldə olunmasına kömək edir. PBL mühitlərində tələbələrin anlayış və bacarıqlarını daha yaxşı qiymətləndirə bilərlər [10, s.156].

Ali təhsil sisteminin təkmilləşdirilməsi üçün Humboldt modeli daha yaxşı nümunədir. Əsrin əvvəlində Avropa, ABŞ və Yaponiya müasir universitetin alman modelini qəbul etmişdirlər [2, s.112].

Sosial-iqtisadi kontekst. Son illər qlobal miqyasda dövlətlərin siyasətlərində ali təhsil sisteminin iqtisadi səmərəliliyi, onun artırılması yolları və ona təsir edən amillərlə bağlı məsələlər xüsusi yer tutur. Sosial-iqtisadi kontekst ali təhsil sistemində iqtisadi səmərəliliyin artırılmasına təsir göstərən amillərdəndir. Həmçinin mahiyyət etibarilə sosial-iqtisadi kontekstə iqtisadi inkişaf, əmək bazarı və onun strukturu, məşğulluq və təhsillə bağlı dövlət siyasəti amilləri də daxildir. Bu amillər ölkədə iqtisadi səmərəliliyin artırılmasına əhəmiyyətli dərəcədə təsir göstərmək imkanına malikdir. Sadalanan amillərə görə sosial-iqtisadi kontekst çərçivəsində gəlir bərabərsizliyi təhsilin əlçatanlığı və əmək bazarı ilə təhsil arasında olan uyğunlaşma tələbləri təhsil müəssələrinə iki istiqamətdə təsir göstərə bilər.

Maliyyələşmə – sosial-iqtisadi kontekstdə mühüm yer tutan faktorlardandır. Ölkədə təhsilə əsaslı investisiya qoyuluşu ali təhsil infrastrukturunu təkmilləşdirməklə yanaşı, professor-müəllim heyətinin də cəlb olunması imkanlarını artırır. Bundan əlavə, müəyyən qurumlar tərəfindən tələbələrə subsidiyaların ayrılması ali təhsilin əlçatanlığını artırmaqla bərabər, ölkədə savadlılıq fazini yüksəldərək ixtisaslı kadrların hazırlanmasına, ölkənin iqtisadi inkişafına imkan yaradır.

Sosial-iqtisadi kontekstə təsir göstərən amillər sırasında qismən ali təhsilin *beynəlmiləlləşməsi* də yer almaqdadır. Cənubi Koreyada aparılan tədqiqatlarda ali təhsilin beynəlmiləlləşməsi zamanı yaradılan akademik mobillik, təqaüd proqramları ölkənin iqtisadi inkişafı və təhsilin keyfiyyətinin

artırılması kimi məsələləri ön plana çəkir. Bu faktorlar arasında ölkənin iqtisadi inkişafı, təhsil sahəsindəki keyfiyyətin artırılması, beynəlxalq təşkilatlarla daha çox əlaqələrin yaradılması və ölkənin inkişafında beynəlmiləlləşmənin önəmi sayılmaqdadır [6, s.11].

Texnologiyadan səmərəli istifadə. Bu gün İKT-nin sürətli inkişafı həyatımızın bütün sahələrinə nüfuz etmişdir. Son dövrlərdə bu, təhsildə də özünü qabarıq şəkildə büruzə verir. Artıq smartfonların genişzolaqlı internet və Wi-Fi şəbəkələri insanların məlumat axtarmaq metodlarını və imkanlarını dəyişdirmişdir. Bu faktor müəllimin auditoriyada yeganə bilik mənbəyi rolunu oynamasını ləğv edir. Ali təhsil müəssisələri bu inkişaf ilə ayaqlaşmaq üçün yeni texnologiyalara sərmayə qoyuluşlarını artırırlar.

Texnologiyanın sürətli şəkildə təhsilə inteqrasiyası artıq onlayn öyrənməni aktual etdi. 2020-ci ildə COVİD-19 pandemiyasında bu proses daha da sürətləndi. Bu prosesi sürətləndirən başqa bir amil isə mobil öyrənmənin geniş vüsət alması, internetə çıxış imkanlarının artırılması və digər ikinci dərəcəli faktorlardır. Gələcəyə nəzər saldıqda, uzaqdan (məsafədən) təhsilə çıxışı daha effektiv və cari ehtiyaclara uyğunlaşdırmaq üçün bu tendensiyanın bütün dünyada inkişaf etdirməyə davam edəcəyi inandırıcıdır [3, s.217].

Texnologiyanın təhsilə inteqrasiyası müəlliməsaslı öyrənməni qismən kölgədə qoydu. Belə öyrənmədə tələbələrin iştirakına daha çox diqqət yetirilmişdir. Mənalı öyrənmə prosesi əməkdaşlıq, interaktiv, araşdırma və yüksək səviyyəli düşünmə fəaliyyətləri ilə asanlaşdırılır [9, s.54].

Əməkdaşlıq və tərəfdaşlıq. Ali təhsil müəssisələrində maraqlı tərəflər arasında əməkdaşlıq və tərəfdaşlıq onun iqtisadi səmərəliliyinin artırılmasına təkan verən amillərdəndir. Maraqlı tərəflər arasında əməkdaşlıq və tərəfdaşlıq dedikdə, bu maraqlı tərəflərə akademik qurumlar, dövlət və özəl təşkilatlarla ali təhsil arasındakı əlaqədir. Ali təhsildə iqtisadi səmərəliliyin artırılmasına təsir edən maraqlı tərəflər arasındakı əməkdaşlığa, ilk növbədə, bu universitetlər və kolleclər arasında olan əlaqə aiddir. Dövlətin ali təhsil müəssisələrində maraqlı tərəf kimi əməkdaşlığa daxil edilməsi sosial-iqtisadi cəhətdən faydalı nəticələr yaradır. Cəmiyyətin iqtisadi rifahı naminə biliklərin yaradılmasında öz təcrübələrindən səmərəli istifadə etmək üçün qarşılıqlı əlaqəyə və ya tərəfdaşlığa ehtiyac var [1, s.21].

Universitet-sənaye əməkdaşlığında hər iki tərəf öz güclü imkanlarından effektli şəkildə istifadə edərək fərdi əldə edəcəkləri sərmayədən daha artığını əldə edərək ölkənin iqtisadi inkişafına nail ola bilərlər. Məsələn, birgə tədqiqat layihələri, patent lisenziyası və işçi mübadiləsi proqramları kimi müxtəlif əməkdaşlıq mexanizmləri Çin sənaye firmaları tərəfindən texnologiya transferini asanlaşdırmaq üçün istifadə edilir [4, s.3].

Tədqiqat və innovasiya. Ali təhsil tələbələrə gələcək karyeralarında uğur qazandırmaq üçün kompasdır. Ali təhsilli iqtisadi səmərəliliyi artırmaq üçün tədqiqat və innovasiyaların köməyindən istifadə etmək adekvat yoldur. Tədqiqatlar vasitəsilə yeni məhsul və xidmətlər yaradıla bilər ki, bu da iqtisadi inkişafa töhfə verərək ali təhsilin iqtisadi səmərəliliyini artıra bilər. İnnovasiyalar isə tədrisdə texnoloji yeniliklərin üstünlüklərindən istifadə edərək yeni tədris metodları ilə keyfiyyətli təhsillə tələbələri təmin edir.

Ali təhsildə innovasiyaların ən bariz nümunəsi "Silikon vadisi"nin yaradılmasıdır. Belə bir vadinin yaradılması maraqlı tərəflərin iştirakı ilə formalaşdırılan ekosistem vasitəsilə mümkündür. Silikon vadisi təhsili texnologiyanın inteqrasiyasında mühüm rol oynamaqla ənənəvi sinif mühitindən çıxarır. Silikon vadisindəki universitetlər sürətli texnoloji irəliləyişlərə uyğunlaşmaq və sənaye tələblərini ödəməkdə çətinliklərlə üzləşirlər. Bu, təklif edir ki, universitetlər aktual qalmaq üçün öz kurikulumlarını və tədqiqat fokuslarını təkmilləşdirməyə davam etsinlər [5, s.11].

Tədris və öyrənmə metodları. Universitetlər öz iqtisadi səmərəliliyini artırmaq üçün tədris və öyrənmə metodlarının effektivliyini nəzərə almalıdır. Son dövrlər tədris və öyrənmə metodlarında olan dəyişikliklər tələbələrin inkişafını ön plana çəkir. Yəni əvvəllər tədris prosesi müəllim tərəfindən idarə edilirdi, bu da tələbələrdə fikirlərini inkişaf etdirmək, müxtəlif problemlərin həll edilməsində aktivləri məhdudlaşdırırdı. Hazırda yeni tədris öyrənmə metodları təhsili daha maraqlı edir. Bu metodlara aiddir:

Qarışıq öyrənmə – bu, ənənəvi və onlayn öyrənmənin birgə inteqrasiyasıdır.

Flipped classroom – tələbələr dərsə başlamazdan öncə video mühazirələrə baxırlar və ya dərs materialını oxuyurlar. Sonra isə dərsdə müəyyən müzakirələrə qoşulurlar.

Layihəəsaslı öyrənmə – burada tələbələr onlara maraqlı olan çətin uzunmüddətli layihələr üzərində işləməlidirlər. Bu layihə onlarda tənqidi düşüncə, təhlil etmək kimi bacarıqlar formalaşdırır.

Oyunlaşdırma – bu metod oyun dizayn elementlərindən istifadə edərək dərsi daha maraqlı və cəlbedici edir.

Fərdiləşmiş öyrənmə – bu metod hər bir tələbənin fərdi ehtiyac və qabiliyyətinə uyğundur. Burada tələbənin güclü və zəif tərəflərinin müəyyən edilməsi üçün məlumat analitikasından istifadə edilir.

Tələbələrə dəstək xidməti. Ali təhsil tələbələrin gələcək rifahının yaxşılaşdırılmasının təməli olmasına baxmayaraq, bəzən universitetlərdə təhsil almaq onlar üçün stressli olur. Bunun səbəbi tələbələrin maddi qayğıları, digər tərəfdən professor-müəllim heyətinin tələbləri onlarda müəyyən emosional və psixoloji gərginlik yaratmağındadır. Bu gərginliyin aradan qaldırılması üçün universitetlərdə tələbələrə dəstək xidməti göstərilir ki, bu da təhsilin iqtisadi səmərəliliyinin artırılmasına töhfə verir. Tələbələrə dəstək xidmətlərindən biri də onların ali təhsillərini davam etdirmələrinə yardımçı olmaqdır.

İdarəetmə və liderlik. Ali təhsilin iqtisadi səmərəliliyinin artırılması üçün keyfiyyətli təhsilin təşkili vacib amildir. Bu təşkilati prosesə isə universitetlərdə tədris proqramlarının müasir tədris metodlarının cəlbediciliyinə effektiv idarəetmə və liderlik ilə nail olmaqla mümkündür. Effektiv idarəetmə liderlik vasitəsilə təhsil müəssisələrində şəffaflığı və hesabatlılığı təmin etmək, çatışmazlıqları vaxtında aşkara çıxarıb həll etmək mümkündür.

Təbii ki, yeni qurulan universitetlərdə köhnə idarəetmə metodlarından istifadə edərək nailiyyət əldə etmək absurddur. Universitetlər sürətlə dəyişən dünyanın tələblərinə cavab vermək, həmçinin də rəqabətqabiliyyətliliyini saxlamaq və iqtisadiyyatın inkişafına kömək etmək məqsədi ilə yeni idarəetmə metodlarını tətbiq etməlidir. Universitetlər üçün yeni idarəetmə metodları aşağıdakılardır:

Birincisi, çevik idarəetmə. Bu idarəetmə formasında sürətlə dəyişən tələblərə uyğun olaraq təkmilləşməyə, əməkdaşlıq etməyə, dəyişikliklərə sürətli reaksiya verilməlidir. Bu, xüsusilə texnoloji dəyişikliklərə tələbə ehtiyaclarının uyğunlaşma mərhələsində olan universitetlər üçün effektivdir.

İkincisi, məlumatlara əsaslanan qərarların qəbul edilməsi. Bu tip idarəetmə universitetləri istənilən qərarları qəbul edərək digər universitetlərin güclü və zəif tərəflərini müəyyən etməyə, əmək bazarının müasir vəziyyətini düzgün təhlil etməyə, o cümlədən tələbələrin demoqrafiyası akademik və performanslarla bağlı informasiyaları təhlil edərək müvafiq akademik qərarların verilməsini təklif edir.

Üçüncüsü, yalın idarəetmə. Bu, universitetlərdə mahiyyət etibarilə səmərəliliyin yüksəldilməsi üçün prosesləri sadələşdirərək lazımsız xərclərin azaldılması ilə xidmətin keyfiyyətinin artırılması istiqamətində tədbirlərin təşkil edilməsi üçün idarəetmə metodudur.

Dördüncüsü, dizayn təfəkkürü. Empatiya quraraq yaradıcılıq və təcrübəni önə çəkir. Bu idarəetmə metodu vasitəsilə liderlər tələbələrin istəklərini daha yaxşı mənimsəyərək innovativ liderlər vasitəsilə effektiv idarəetməni təşkil etməklə tələbə cəlb edilməsinə və onların universitetdə saxlanılmasına nail ola bilərlər.

Beşincisi, sahibkarlığın idarə edilməsi. Bu idarəetmə üsulu müəyyən qədər riskli sayılır. Çünki bu zaman universitetlər ehtiyaclarına cavab verən yeni proqram və xidmətləri inkişaf etdirə bilərlər.

Maliyyələşmə və resurs bölgüsü. Ali təhsil müəssisələrinin iqtisadi səmərəliliyinin artırılmasında maliyyələşmə və resurs bölgüsü vacib amildir. Bu, ali təhsil müəssisələrində tədrisin iqtisadi səmərəli təmin olunmasında başlıca ünsürlər sırasındadır. Ali təhsil müəssisələrində keyfiyyətli təhsilə texnoloji yeniliklərin tətbiqi, sahibkarlıq təhsili, maraqlı tərəflərlə əlaqə və s. kimi amillərin təşkil olunması üçün adekvat maliyyələşmədən asılıdır. Adekvat maliyyələşmənin olmadığı universitetlərdə yeniliklər və keyfiyyətli təhsilə nail olmaq mümkün deyil. Bu tip müəssisələr cəmiyyət üçün yenidir və məzunların iş tapması ilə yanaşı, ümumi iqtisadi səmərəliliyə də mənfi təsir göstərir.

Keyfiyyət təminatı və akkreditasiya. Ölkədə ali təhsil sisteminin keyfiyyəti biliklərə əsaslanan iqtisadiyyat üçün vacib ünsürlərdən biridir. Ali təhsil sisteminin keyfiyyəti ölkənin iqtisadi səmərəliliyinə təsir edən kritik amildir. Keyfiyyət təminatı və akkreditasiya ali təhsil müəssisələrinin reputasiyasının yüksəldilməsinə səbəb olur. Çünki akkreditə olunmuş müəssisənin tam təhsil standartlarına cavab verməsi onun hazırladıqları kadrların yüksək bilik və bacarıqlara malik olması

deməkdir. Bu da təhsil müəssisələrinin reputasiyasını yüksəldərək daha çox tələbə qəbulu deməkdir. Bu tip ali təhsil müəssisələri daha çox maliyyələşmə mənbələri tapa bilər və daha çox investorları cəlb edə bilərlər. Universitetlər tərəfindən hər il yüzlərlə akkreditasiya məşğələlərinə, hesabatların yazılmasına, məlumatların toplanılmasına və müxtəlif tələb olunan fəaliyyətlərə on minlərlə saat ayrılır [7, s.3].

Ali təhsildə ən çox istifadə olunan Avropa Keyfiyyət İdarəetmə Fondu (EFQM) mükəmməllik modeli davamlı olaraq bütün sahələrdə təmilləşməyə və mükəmməlliyə nail olunması üçün istifadə olunur. Mahiyyət etibarilə model özündə liderlik, insanların idarə olunması, tərəfdaşlıq, biznes, cəmiyyət və strategiyalar kimi komponentləri birləşdirir. Ali təhsildə bu modeldən istifadənin üstünlükləri rəqabətqabiliyyətinin artırılması, tələbələrin daha yaxşı nəticələr əldə etməsi, ali təhsil müəssisələrinin yüksək reputasiyası, universitetlərin daha yaxşı təkmilləşmiş performansları və s.-dir.

Ali təhsildə digər mükəmməllik modeli olan "Baldrige modeli" ABŞ-da əsasən sənaye və ticarət sahələrində mükəmməllik üçün yaradılmasına baxmayaraq, ali təhsil sahəsində daha geniş istifadə olunur. Modeldə mükəmməlliyə çatmaq üçün bir neçə kateqoriyadan istifadə edilir. Bunlara liderlik, strategiya, müştəri məmnuniyyəti, tələbə biliklərinin idarə edilməsi və s. daxildir. Model təhsil müəssisələrinin performansını yüksəldir və işəgötürənlərin, tələbələrin məmnuniyyəti üçün qayda və standartlar müəyyən edir.

Tədqiqat və innovasiya ali təhsilin iqtisadi səmərəliliyinin artırılmasının mühüm komponentləridir. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması, xərclərin azaldılması və ali təhsilin ümumi dəyərinin artırılması üçün yeni yanaşmalar və strategiyalar müəyyən etməklə tədqiqat və innovasiyalar ali təhsilin ölkələrin iqtisadi inkişafında mühüm rol oynamağa davam etməsini təmin etməyə kömək edir.

Effektiv tədris və təlim metodlarından istifadə, texnologiyanın inteqrasiyası, təcrübi təlimdən istifadə ali təhsilin iqtisadi səmərəliliyinin artırılmasında mühüm amillərdəndir. Bu öyrənmə yanaşmaları tələbələrə müasir iş yerində tələb olunan zəruri bacarıq və bilikləri inkişaf etdirməyə kömək edir ki, bu da son nəticədə məhsuldarlığın, innovasiyaların və iqtisadi artımın çoxalmasına gətirib çıxarır. Effektiv idarəetmə resurslardan səmərəli istifadəni təmin edir, liderlik isə professor-müəllim heyətini, o cümlədən işçi heyətini məqsədlərinə çatmaq üçün ruhlandıraraq ali təhsilin iqtisadi səmərəliliyini artırır.

Ali təhsilin iqtisadi səmərəliliyinin artırılmasında tələbələrə dəstək xidmətlərinin göstərilməsi məzuniyyət dərəcələrini yaxşılaşdırmağa, qeyri-akademik maneələri ləğv edərək akademiya ilə işçi qüvvəsi arasındakı boşluğu aradan qaldırmağa kömək edir.

Adekvat maliyyələşdirmə və səmərəli resurs bölgüsü tələbə nəticələrinin yaxşılaşmasına, tədqiqat məhsuldarlığının və innovasiyaların artmasına, eyni zamanda da bu öz növbəsində yeni sənaye sahələrinin, iş yerlərinin yaradılmasına və iqtisadi artıma səbəb ola bilər. Keyfiyyət təminatı və akkreditasiya ali təhsilin iqtisadi səmərəliliyini artıraraq təhsil müəssisələrinin yüksəkkeyfiyyətli təhsil verməsini təmin etməklə, bu proseslər məzunların əmək bazarında üstün olmaq üçün lazımi bacarıq və biliklərə yiyələnməsinə də kömək edə bilər.

Akkreditasiya, həm də potensial işəgötürənlər arasında etimad və etibarın yaranmasına kömək edir ki, bu da məzunlar üçün daha yaxşı iş imkanlarına, həmçinin daha yüksək əməkhaqqlarına səbəb ola bilər. Bundan əlavə, akkreditasiya daha çox tələbə və təhsil müəssisələrinə maliyyə cəlb edərək iqtisadi artıma, eləcə də bu amillərin ali təhsil müəssisələrində tətbiqi gələcək iqtisadi inkişafda effektivliyin artırılmasına töhfə verə bilər.

Nəticə. Yekun olaraq qeyd etmək olar ki, ali təhsilin iqtisadi səmərəliliyi qiymətləndirmə və təkmilləşdirmə, ali təhsil sisteminin təkmilləşdirilməsi üçün Humboldt modeli, sosial-iqtisadi kontekst, texnologiyadan, əməkdaşlıq və tərəfdaşlıq, tədqiqat və innovasiya, tədris və öyrənmə metodları, tələbələrə dəstək xidməti, idarəetmə və liderlik, maliyyələşmə və resurs bölgüsü, keyfiyyət təminatı və akkreditasiya daxil olmaqla bir neçə amildən asılıdır.

Ali təhsil sisteminin təkmilləşdirilməsi üçün Humboldt modeli akademik mükəmməlliyi, yaradıcılığı və innovasiyanı təşviq etmək üçün güclü vasitə ola bilər. Bu modeli mənimsəyən və onun prinsiplərini həyata keçirən ali təhsil müəssisələri tələbələrini sürətlə dəyişən dünyada uğura hazırlamağa kömək edə bilər.

Aztəminatlı ailələrdən olan tələbələr onların

ali təhsil almaq imkanlarını məhdudlaşdıran maliyyə maneələri ilə üzləşə bilər, yüksəkgəlirli ailələrdən olanların isə maliyyə resurslarına və təhsil imkanlarına daha çox çıxışı ola bilər. Ali təhsildə texnologiyadan səmərəli istifadə imkanlarını yaxşılaşdırmaq, xərcləri azaltmaq və məhsuldarlığı artırmaqla sektorun iqtisadi səmərəliliyini artırmaq potensialına malikdir.

Əməkdaşlıq və tərəfdaşlığın faydalarından aydındır ki, birgə işləməklə, onlar ali təhsilin keyfiyyətini yüksəldə, tələbələri mükafatlandırılan karyeraya hazırlaya və öz icmalarının uzunmüddətli iqtisadi uğurlarına töhfə verə bilərlər.

İstifadə edilmiş ədəbiyyat

1. Burbridge M., Morrison G.M. A Systematic Literature Review of Partnership Development at the University Industry Government Nexus. Sustainability, 2021, 13, pp.2-24.
2. Carla R.P., Zoltán R. Governance models of Hungarian higher education: from Humboldtian to State-controlled model. Rivista di Storia dell'Educazione, 2022, 9(2), pp.109-119.
3. Gizeh R.L., Josep M.D. Moving Learning: A Systematic Review of Mobile Learning Applications for Online Higher Education. Journal of new approaches in educational research, 2023, 12(2), pp.198-224.
4. Jiang J., Zhao Y., Feng J. University Industry Technology Transfer: Empirical Findings from Chinese Industrial Firms. Sustainability, 2022, 14, pp.2-18.
5. Josep M.P., Jasmina B.M., Henry E. The Role of Universities in Shaping the Evolution of Silicon Valley's Ecosystem of Innovation. Triple Helix Journal, 2020, pp.1-45.
6. Minjeong J., Yoonjung H., Moon S.H. Recontextualizing internationalization of higher education institutions in South Korea through the lens of the knowledge-policy-power interface. Journal of International Cooperation in Education, 2023, pp.2-18.
7. Romanowski M.H. The idolatry of accreditation in higher education: enhancing our understanding. Quality in Higher Education, 2021, pp.1-17.
8. Shiva H. Transfer of Learning and Teaching: A Review of Transfer Theories and Effective Instructional Practices. IAFOR Journal of Education, 2019, 7(1), pp.93-111.
9. Vargas-Hernández J.G., Vargas-González O.C. Strategies for meaningful learning in higher education. Journal of Research in Instructional, 2022, 2(1), pp.47-64.
10. Vijayalakshmi M., Preeti P., Girish K. Effective Assessment Strategies for Project-Based Learning. Journal of Engineering Education Transformations, 2022, 36, pp.154-160.

A.Aghayeva

Analysis and modeling of factors contributing to the economic efficiency of the higher education system

Abstract

The article highlights various factors contributing to the economic efficiency of higher education – assessment and improvement, the Humboldt model for improving the higher education system, socio-economic context, the importance of effective use of technology, as well as cooperation and partnership, research and innovation, teaching and learning methods, student support services role is also mentioned.

In addition, the importance of governance and leadership, funding and resource allocation, quality assurance and accreditation is discussed. Overall, the article argues that a quality higher education system is key to a country's economic success.

А.Агаева

Анализ и моделирование факторов, способствующих экономической эффективности системы высшего образования

Аннотация

В статье освещаются различные факторы, способствующие экономической эффективности высшего образования – оценка и улучшение, модель Гумбольдта совершенствования системы высшего образования, социально-экономический контекст, важность эффективного использования технологий, а также сотрудничества и партнерства, исследований и Также упоминаются инновации, методы преподавания и обучения, роль служб поддержки студентов. Кроме того, обсуждается важность управления и лидерства, финансирования и распределения ресурсов, обеспечения качества и аккредитации. В целом в статье утверждается, что качественная система высшего образования является ключом к экономическому успеху страны.

AZƏRBAYCANIN DƏSTƏYİ İLƏ TƏBİİ QAZ TƏCHİZATI MƏNBƏLƏRİNİN ŞAXƏLƏNDİRİLMƏSİ

Rəsul Əsgərov,
Azərbaycan Respublikası Təhsil İnstitutunun böyük elmi məsləhətçisi, Əməkdar müəllim
e-mail: resul1940@mail.ru
https://doi.org/10.30546/2706-7858.7.4.2024.021

Hər il fərqli ölkənin ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının ilk tədbiri 1995-ci ilin mart ayında Berlində, sonuncu, 28-ci sessiyası (COP28) isə 2023-cü ildə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilib. Tərəflər Konfransının 29-cu sessiyası (COP29) isə bu ilin noyabr ayında Azərbaycanda, Bakı şəhərində keçirildi. Bununla bağlı qərar COP28-in ötən il dekabr ayının 11-də Dubayda keçirilmiş plenar iclasda qəbul olunub. Bu, dünyanın bir nömrəli beynəlxalq tədbiridir, beynəlxalq konfransıdır və ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Konvensiyanın ali məqsədi iqlim sisteminə insanlar tərəfindən edilən və təhlükəli hesab oluna bilən bütün müdaxilələrin qarşısını almaqdır.

COP haqqında qısa məlumat

• *COP (Conference of the Parties; Tərəflərin Konfransı) ölkələr üçün fikir ayrılıqlarını bir kənara qoyub, iqlim dəyişikliyinin aradan qaldırılmasında ümumi məqsədə diqqət yetirmək üçün*

bir platformadır.

- *BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası üzərində ali qərarların verilməsi üçün yaradılmış ən üst qurumdur.*
- *Konvensiyaya tərəfdaş olan, onu ratifikasiya edən ölkələr (hazırda 198 ölkə) COP-da təmsil olunurlar.*

COP-un missiyası konvensiyadan irəli gələn tələblərin və tövsiyələrin icrasına nəzarət etməkdir. Bu tələblər aşağıdakılardır:

– əsasən qlobal istiləşmə tempini səngitmək;

– qlobal istiləşməyə məruz qalan ərazilərin adaptasiyasına dəstək olmaq;

– 2050-ci ilə qədər "0" – sıfır emissiyaya nail olmaq.

Hər il keçirilən COP-a rəhbərlik və ev sahibliyi BMT-nin 5 regional qrupunu təmsil edən 198 ölkənin səsverməsi ilə seçilir:

- *Afrika ölkələri;*
- *Asiya ölkələri;*
- *Latın Amerikası və Karib ölkələri;*
- *Mərkəzi və Şərqi Avropa ölkələri;*
- *Qərbi Avropa və digər ölkələr.*

COP iştirakçılarının tərkibini təşkil edən maraqlı tərəflər:

- *dövlət rəsmiləri;*
- *özəl sektoru təmsil edənlər;*
- *elm adamları;*
- *tədqiqatçılar;*
- *ekspertlər;*
- *jurnalistlər və digərləridir.*

COP 29-un elmi əhəmiyyəti

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCC) atmosferin tərkib qazlarını sabitləşdirməklə insanların iqlim sisteminə təhlükəli müdaxiləsi ilə mübarizə aparması üçün dünya ölkələri arasında imzalanmış beynəlxalq ekoloji sazişdir. Bu sənəd 1992-ci ildə BMT-nin Rio-de-Janeyroda keçirilən Ətraf Mühit və İnkişaf üzrə konfransında (UNCED) 154 dövlət tərəfindən imzalanıb və 1994-cü il mart ayının 21-də qüvvəyə minib. Müqavilənin əsas məqsədi atmosferə buraxılan istixana qazlarının qatılıqlarının iqlim sisteminə təhlükəli antropogen müdaxiləsinin qarşısını almaqdır.

İqlim dəyişikliyi ətraf mühitin bütün komponentlərinə, xüsusən də ekosistemlərin strukturunun pozulmasına təsir göstərir. Bu, iqtisadi inkişafın sürətlənməsi, sənayenin inkişafı, qida istehsalının güclənməsi kontekstində karbohidrogen ehtiyatlarından istifadənin artmasına gətirib çıxarır. Sənaye sahələrindən və karbohidrogen ehtiyatlarının çıxarılması zamanı ətraf mühitə külli miqdarda zərərli maddələr atılmasına səbəb olur və bütün bunlar atmosferdə emissiyaların çoxalması deməkdir. Müasir dövrdə baş verən iqlim dəyişiklikləri ətraf mühitdə su ehtiyatlarının azalması, xəstəliklərin çoxalması, temperaturun yüksəlməsi və s. dönməyən proseslərin yaranmasına səbəb ola bilər. Ona görə də dünya ölkələri bu sahədə öz qüvvələrini səfərbər etməli, iqlim dəyişikliyinə səbəb olan təhlükəli antropogen fəaliyyətlərin qarşısının alınması üçün Çərçivə konvensiyası, Kioto protokolu və 2016-cı ildə qüvvəyə minmiş Paris sazişi ilə götürdüyü öhdəlikləri yerinə yetirməlidirlər. Qlobal temperatur artımının 1,5°C aşağı saxlamaq kimi məsələnin icrası üçün atmosferə istixana qazlarının atılması minimuma endirilməlidir. Bunun üçün sənaye sahələrində ətraf mühitə "dost texnologiya"ların tətbiqi və bərpaolunan enerji mənbələrinin təşviqi mühüm yer tutur. Qeyd olunanları nəzərə alaraq atmosferə atılmaların azaldılması üçün müasir elmi-texniki tərəqqiyə əsaslanan yanaşmaların tətbiqi, elm və sənayenin vəhdəti şəraitində həyata keçirilməlidir. Eyni zamanda kənd təsərrüfatında yaranan və karbohidrogen istehsalı zamanı ətraf mühitə atılan metan kimi istilik effekti yaradan qazın tutulması üçün yeni yolların araşdırılmasının elmi əsaslarının hazırlanması əsas götürülür. Metan onun üçün təhlükəlidir ki, o karbon qazından 25 dəfə artıq istilikudma qabiliyyətinə malikdir. Beləliklə, atmosfer emissiyalarının minimuma endirilməsi yalnız elmi-texniki əsaslı olmalıdır. Məlumdur ki, inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi sahəsində planları ilə inkişaf etmiş ölkələrin planları arasında fərqlər mövcuddur. "Azərbaycanın ev sahibliyi etdiyi COP29 tədbirinin bu baxımdan mühüm əhəmiyyəti vardır. Ölkəmizdə "yaşıl enerjiyə keçid" sürətlə baş verir və bu baxımdan Azərbaycan qabaqcıl ölkələr sırasındadır. COP29 çərçivəsində ölkələr arasında körpü yaratmaqla öhdəliklərin daha sürətli icrası üçün çox yaxşı im-

kanlar yaradılacaq. Həmçinin bu imkan verir ki, ölkələr tətbiq etdikləri elmi yenilikləri öz aralarında bölüşsünlər və atmosfer emissiyalarının azaldılması üçün yeni texnologiyaların tətbiqi sahəsində təcrübə mübadiləsi aparsınlar. Belə olan halda, həm də elmi potensialın mübadiləsi baş verəcək ki, bu da atmosfer emissiyalarının azaldılması üçün daha mütərəqqi elmi yolların yaranmasına gətirib çıxaracaqdır.

COP29-un ölkəmizdə keçirilməsinin siyasi əhəmiyyəti

Azərbaycanın bir çox nüfuzlu beynəlxalq tədbirlər kimi COP29-a da ev sahibliyi etməsi ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisidir. Bu gün dünyanın siyasi proseslərində ən önəmli faktorlardan biri ölkələrin hərbi və iqtisadi güc sahibi olmasıdır. Azərbaycanın lideri İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasətinin nəticəsi olaraq ölkəmiz hər iki istiqamət üzrə inkişafın zirvəsindədir. Suveren hüquqlarımızın bərpası naminə həyata keçirilən 24 saatlıq antiterror əməliyyatını hayküylə qarşılayan, hər fürsətdə ona kölgə salmağa çalışan dairələr zaman ötdükcə daha çox qəbul edəcəklər ki, Azərbaycana qarşı tətbiq etdikləri selektiv yanaşma və ayrı-seçkilik siyasəti Cənubi Qafqazda geosiyasi maraqlarının təmin olunmasına xidmət etmir və haqlı olaraq əks-reaksiya doğurur. Həmin dairələr ictimai şəkildə etiraf etməsələr də, yaxşı bilirlər ki, Azərbaycanın beynəlxalq hüququn normaları çərçivəsində, o cümlədən humanitar hüququ gözləməklə əldə etdiyi qələbə, əslində dünya nizamının təhlükəsizliyinə verilən əhəmiyyətli töhfələrdən biridir. Dünya gücləri 35 ildən sonra nəhayət, görməyə başlayıblar ki, hansı coğrafiyada baş verməsindən və hansı etnik qrup tərəfindən törədilməsindən, hətta onların məlum fobiyaları və ayrı-seçkiliyi səbəbindən kimməsə tərəfkeşlik etmələrindən asılı olmayaraq, separatizm dünya birliyinin nizamına ciddi təhdid yaradan təhlükəli faktora çevrilib. COP29-un 2024-cü ildə ölkəmizdə keçirilməsi ilə bağlı qəbul olunmuş qərar, həm də bu gerçəkliyin etirafıdır.

Bu cür yüksək səviyyəli tədbirlər həm də imkan verir ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə bağlı yaratdığı reallıq təhrif edilmədən bir daha dünya ictimaiyyətinə çatdırılsın və geosiyasi maraqlarından asılı olmayaraq hər kəs görə bilsin ki, Azərbaycanın bərpa etdiyi tarixi ədalətin təməlində beynəlxalq hüququn aliliyinə sarsılmaz inam və bağlılığı, müstəqillik seçiminə sədaqəti dayanır. Bu tədbir dünyanın qorunmasına və gələcəyə hesablanan platforma mərkəzidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq bugünə qədər ölkəmizdə bir çox beynəlxalq tədbirlər keçirmişik. COP29-un da ölkəmizdə daha yüksək səviyyədə keçiriləcəyi şübhəsizdir. Aydın məsələdir ki, Azərbaycanın iqtisadi və geopolitik gücü imkan verir ki, qlobal problemlərin müzakirəsi və həlli yollarının araşdırılması Bakıda baş tutsun". Bu, belə də oldu. Planetin gələcəyini müəyyənləşdirən CO29-un Bakıda keçirilməsi bir daha ölkəmizin qlobal əhəmiyyətini və humanitar niyyətini təsdiq etmiş oldu.

Sözügedən tədbirə ev sahibliyi etməklə ölkəmiz ətraf mühitə verdiyi önəmi, böyük mənada isə sağlam bir dünyanın gələcək nəsillərə ötürülməsinə biganə qalmadığını göstərdi. Ermənilərin işğal zamanı viran qoyduqları ərazilərimiz də bu hədəflərdən kənarda qalmayıb. Təbii ki, ölkəmizin dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi üçün seçilməsi Azərbaycan Prezidentinin növbəti təntənəli qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Dövlət başçısı bu möhtəşəm tədbirin açılışındakı nitqi ilə bir daha bu spekulyasiyaları alt-üst etdi və Azərbaycanın müsbət imicinin üzərinə kölgə sala bilməyəcəklərini sübuta yetirdi. Azərbaycan Prezidenti bu təşəbbüsü ilə Azərbaycanın qüdrətini bir daha dünyaya göstərdi və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirdi. Ölkəmiz qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etmək və bu mübarizəyə töhfə verməklə dünyanın diqqət mərkəzində olacaqdır.

COP29-un Bakıda keçirilməsi qərarı, həm də Azərbaycanın yaşıl enerji siyasətinə qlobal dəstəyi ifadə edir. Buna uyğun olaraq, Azər-

baycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Neft-qaz ölkəsi olan Azərbaycan yaşıl enerji növlərinin yaradılmasını və yaşıl enerjinin dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyən edib. Bərpaolunan və yaşıl enerji əsasında istehsal edilən elektrikin ixracı Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasına səbəb olub. Azərbaycanın bərpaolunan enerji potensialı çox yüksəkdir. 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının Azərbaycanda 30 faizə çatdırılması gözlənilir. Statistik göstəricilərə görə, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 GVt-dır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 GVt, o cümlədən külək enerjisi üzrə 3 min MVt, günəş enerjisi üzrə 23 min MVt, bioenerji potensialı 380 MVt-dır. Dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

2020-ci ildə 44 günlük Vətən müharibəsindən dərhal sonra Prezident İlham Əliyev Qarabağı, Şərqi Zəngəzuru, Naxçıvanı "yaşıl enerji bölgəsi" adlandırıb və bu istiqamətdə genişmiqyaslı işlərə başlanılıb. Azərbaycanın bütün bölgələrində, eləcə də işğaldan azad edilmiş Kəlbəcər və Ağdərə rayonlarında yer qabığının müxtəlif dərinliklərində yığılmış isti su, buxar və qazlardan ibarət geotermal mənbələr və günəş enerjisi ehtiyatları, Laçın, Qubadlı və Zəngilan rayonlarında hidroenerji mənbələri, Şuşa, Xocavənd və Cəbrayıl rayonlarında külək enerjisi, Tərtər, Ağdam, Xocalı rayonlarında bioenerji ehtiyatlarının səmərəli istifadə edilməsi nəticəsində ölkəmiz "Yaşıl enerji" istehsalçısına və istehlakçısına çevrilə bilər. Artıq Qarabağda və Şərqi Zəngəzurda hidroenerji potensialından fəal şəkildə istifadə edilir. Yaxın illərdə burada hidroelektrik stansiyaların gücü 500 MVt olacaq ki, bu da yaşıl enerjiyə keçid prosesinə böyük töhfədir.

Ötən il işğaldan azad edilən ərazilərdə olan 12 bölgədə tikilən yarımstansiya və su elektrik stansiyalarının açılışı olub. Prezident İlham Əliyevin iştirakı ilə "Azərbaycan-Türkiyə-Avropa ölkələrarası beynəlxalq enerji dəhlizi" layihəsi çərçivəsində tikilən 330 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyası istismara verilib. Həmçinin yaşıl enerji strategiyasına uyğun olaraq 2023-cü ildə Kəlbəcər rayonunda 8,33 MVt gücündə "Çıraq-1", 3,6 MVt gücündə "Çıraq-2", 6,33 MVt gücündə "Qamışlı", 5,3 MVt gücündə "Soyuqbulaq" və 3,4 MVt gücündə "Meydan" kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub. Paralel olaraq "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Laçında yeni tikilən 110 kV-luq "Qorçu" yarımstansiyasının və "Laçın" şəhər qovşaq yarımstansiyasının da ötən il açılışı həyata keçirilib. Bununla yanaşı, Laçın rayonunda yenidən qurulan 8,25 MVt gücündə "Mişni" və 6 MVt gücündə "Alxaslı" kiçik su elektrik stansiyaları yenidən qurularaq istismara buraxılıb. Prezident İlham Əliyev, həmçinin "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin yeni tikilən 10,5 MVt gücündə "Cahangirbəyli" Su Elektrik Stansiyasının açılışında da iştirak edib. Ötən ilin dekabr ayında isə 110 KV-luq "Ağdam" qovşaq yarımstansiyasının açılışı həyata keçirilib. Bundan başqa, ötən il işğaldan azad edilən ərazilərdə "Azərenerji"Açıq Səhmdar Cəmiyyətinin 9 elektrik stansiyasının tikintisinə başlanılıb və hazırda həmin 9 stansiya da daxil olmaqla Qarabağ və Şərqi Zəngəzurda 12 yerdə ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal edəcək su elektrik stansiyalarının tikintisi davam edir və onların bir neçəsində işlər tamamlanıb. Göründüyü kimi, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinə çevrilmək Azərbaycan dövlətinin milli hədəflərindən biridir.

Azərbaycan regionda yaşıl enerjinin inkişafına ən çox investisiya qoyan ölkələrdən biridir. Son illər bu sahəyə yönəldilmiş sərmayələrin həcmi 1 milyard dollardan artıqdır. Bununla da Azərbaycan yaşıl enerji sahəsində bir sıra aparıcı şirkətlərlə, o cümlədən beynəlxalq qurumlarla əməkdaşlıq edir. 2026-cı ildən sonra Azərbaycan Avropa İttifaqının yaşıl enerjiyə olan ehtiyacının ödənilməsində xüsusi paya malik olacaq. Bu istiqamətdə də çox sürətli işlər həyata keçirilməkdədir.

Beləliklə, COP29 ölkəmizin potensialının və iqtisadi imkanlarının, o cümlədən Azərbaycanın dəstəyi ilə təbii qaz təchizatı mənbələrinin

şaxələndirilməsinin daha yaxından təqdim edilməsinə şərait yaradacaq ki, bu da çox vacib amillərdəndir. Çünki belə tədbirlər bir tərəfdən turizm-xidmət sektorunun dəstləklənməsi və inkişafına xidmət edir, digər tərəfdən isə ölkənin iqtisadi potensialı ilə daha yaxından tanış olmağa fürsət yaradır. Bütün bunlar COP29 kontekstində Azərbaycanın köməyi ilə təbii qaz təchizatı mənbələrinin şaxələndirilməsi üçün baza hesab olunur.

Avropanın qaz təchizatının vəziyyəti

Dünyada təbii qaz ehtiyatları

Dünyada təbii qaz ehtiyatları kifayət qədər böyükdür. Lakin ölkələrin təbii qaz ehtiyatları ilə qaz hasilatları və idxalı arasında böyük fərqlər mövcuddur. Aşağıdakı cədvəllərdə dünya ölkələrinin təbii qaz ehtiyatlarının miqdarı, hasilatı, ixracı və bu kimi digər göstəricilər öz əksini tapmışdır.

Cədvəl 1.

Dünya ölkələrinin potensial qaz ehtiyatları

Sıra №-si	Ölkə	Miqdarı *(trilyon kubmetr)*
Cəm	Dünya	187,300
1.	Rusiya	48,700
2.	İran	33,600
3.	Qatar	24,700
4.	Türkmənistan	17,500
5.	Amerika Birləşmiş Ştatları	9,860
6.	Səudiyyə Ərəbistanı	8,600
7.	İraq	6,400
8.	Venesuella	5,724
9.	Nigeriya	5,100
10.	Çin	4,643
11.	Əlcəzair	4,502
12.	Avstraliya	4,300
13.	İndoneziya	3,001
14.	Azərbaycan Respublikası	2,600
Cəmi:	**Dünya**	**187,300**

Mənbə: *Amerika Birləşmiş Ştatları enerji informasiyası administrasiyasının məlumatı*

Cədvəldən göründüyü kimi, potensial qaz ehtiyatlarına görə birinci yerdə Rusiya, sonrakı yerlərdə İran, Qətər, Türkmənistan, Amerika Birləşmiş Ştatları, Səudiyyə Ərəbistanı və s. ölkələr qərarlaşıblar. Siyahıdakı digər ölkələrdə təbii qaz ehtiyatları 10 trilyon kubmetrdən azdır. Nümunə olaraq cədvələ əsasən, Azərbaycanın təbii qaz ehtiyatları 2,6 trilyon kubmetr səviyyəsindədir. Lakin ölkələrin qaz hasilatı onların qaz ehtiyatlarından fərqlidir. Bunu növbəti cədvəldən də görmək olar.

Cədvəl 2.

Ən çox təbii qaz hasil edən 10 ölkənin illik qaz hasilatı, ümumdünya qaz hasilatında payı və qaz ehtiyatlarına görə yeri

Yer	Ölkə	İllik qaz hasilatı (milyard m^3)	İllik ümumdünya qaz hasilatında payı (faiz)	Dünyada qaz ehtiyatlarına görə yeri
1	ABŞ	934,2	23,1	5
2	Rusiya	701,7	17,4	1
3	İran	256,7	6,4	2
4	Çin	209,2	5,2	6
5	Qətər	177	4,4	3
6	Kanada	172,3	4,3	13
7	Avstraliya	147,2	3,6	15
8	Səudiyyə Ərəbistanı	117,3	2,9	8
9	Norveç	114,3	2,8	18
10	Əlcəzair	100,8	2,5	14

Mənbə: *BP Şirkətinin məlumatı*

Cədvəldən göründüyü kimi, potensial qaz ehtiyatlarına görə 5-ci yerdə qərarlaşan ABŞ dünya üzrə ən iri təbii qaz hasilatçısı kimi birinci yerdədir. Onun illik qaz hasilatı 934,2 milyard kubmetr təşkil edir. Potensial qaz ehtiyatlarına görə birinci yerdə yerləşmiş Rusiya illik qaz hasilatına görə ikinci yerdə qərarlaşmışdır. Rusiyanın illik qaz hasilatı 701,7 milyard kubmetr təşkil edir. Yaxud potensial qaz ehtiyatlarına görə 18-ci yerdə olan Norveç təbii qaz hasilatçısı kimi 9-cu yerdədir. Qeyd etmək lazımdır ki, Avropada əsas təbii qaz istehsalçıları olan Norveç, Böyük Britaniya və Niderland arasında yalnız sonuncusu Aİ-yə (Avropa İttifaqına) daxildir. Deməli, Avropa İttifaqı daxili istehlakını təmin etmək üçün daha çox təbii qaz idxal etmək məcburiyyətindədir. İri hasilat sənayesinə malik olan ABŞ, eyni zamanda dünyada ən iri təbii qaz istehlakçısıdır. İstehsal etdiyi təbii qazın 88%-i elə ABŞ-ın özündə istehlak olunur. Dünya üzrə təbii qaz istehlakının 20,5%-i ABŞ-ın payına düşür. İstehlaka görə də ikinci yerdə Rusiya qərarlaşıb. Onun istehlakı dünya istehlakının 11,8% və özünün hasil etdiyi təbii qazın 67,6%-ni təşkil edir. Göründüyü kimi, Rusiyada ABŞ-dan fərqli olaraq hasilatın 32%-i ixracat üçün qalır. Belə olduğu halda Rusiya dünya üzrə ən iri qaz tədarükçüsünə çevrilir.

Təbii qazın idxalında Avropa İttifaqının (Aİ) Rusiyadan yüksək asılılığının əsas səbəbləri:

• *Aİ-ə daxil olan ölkələrin potensial qaz ehtiyatlarının zəif olması.*

• *Rusiyanın ən iri qaz ehtiyatlarına malik olması.*

• *Rusiyanın Avropa İttifaqı ölkələrinə təbii qaz ehtiyatları çox olan ölkələrdən daha yaxın olması.*

• *Rusiyanın təbii qaz hasilatının Avropa İttifaqı ölkələrinə yaxın ölkələrdəkindən çox olması və s.*

Avropada Rusiya qazına mövcud alternativlər

Burada hər bir üzv ölkə öz variantını seçir. Məsələn, Almaniya təbii qaz idxalında Norveçin payını 27%-dən 38%-dək, Niderlandın payını isə 19%-dən 24%-dək artırıb. Norveç hazırda bütün istehsal gücünü səfərbər edib Avropanı qazla təchiz etməyə çalışır. Buna baxmayaraq onun imkanları indikindən sadəcə 21 milyard kubmetr daha çox təbii qaz ixrac etməyə imkan verir. Bu isə Avropa İttifaqının Rusiyadan idxal etdiyi qazın cəmi 13%-nə bərabərdir. Əlavə imkan istifadəyə verilmiş Norveçlə Polşa arasındakı Baltic Pipe qaz borusu hesabına yarana bilər. Polşa Rusiyadan ildə 10-11 milyard kubmetr qaz idxal edirdi. Bu boru isə illik 6-10 milyard (2023-cü ildə 6,5, 2024-cü ildə 7,7) kubmetr təbii qaz nəql edərək ölkənin Rusiya qazından asılılığını azalda bilər.

Avropa İttifaqı daxili mənbələrə də müraciət edir. Avropa Qaz Ötürmə Sistemləri Operatorları Şəbəkəsinin (ENTSOG) hesablamalarına görə, Niderland qaz ixracatını maksimallaşdırmağa çalışır. Bunun üçün Qroninqendə yerləşən mədəndə hasilat həcmlərini artırmaq lazımdır (bu mədən indi 2,8 milyard istehsal etdiyi halda, illik 40 milyard kubmetr qaz hasil etmək imkanına malikdir). Lakin yerli əhali hasilatın nəticəsində baş verən zəlzələlərə görə hasilatın artırılmasına qarşı çıxış edir. Nəticədə mədənin bağlanması reallaşır.

Göründüyü kimi, boru qazı hesabına Avropa Rusiyadan əldə etdiyi həcmləri əvəz etmək iqtidarında deyil. Ona görə Avropa sıxılmış qaz idxalatına üz tutdu. Sıxılmış qaz tankerlər vasitəsilə limanlara çatdırılır. Lakin sıxılmış qaz bazarında Avropa İttifaqının iri istehlakçı kimi tanınmaması, yəni sıxılmış qazın 64%-nin uzunmüddətli, cəmi 36%-nin birdəfəlik (spot) müqavilələr əsasında satılması, əlavə olaraq, boru qazı ilə müqayisədə sıxılmış qazın qiymətlərinin yüksək olması bu imkanları məhdudlaşdırır. Çünki yüksək qaz qiymətləri sənaye və enerji istehsalçılarını da öz məhsullarının qiymətlərini kəskin artırmağa məcbur edir, bu da bazarı məhdudlaşdırır. Deməli, Avropa İttifaqının çıxış yolu yenə qaz idxalını digər ölkələrdən, o cümlədən Azərbaycandan boru qazı hesabına artırmaqdır.

Azərbaycanın təbii qaz ehtiyatları

Azərbaycan müxtəlif növ təbii ehtiyatlarla zəngin olsa da, hazırda ən mühümü neft-qaz ehtiyatları hesab edilir. Respublika ərazisinin 70%-i neft-qaz ehtiyatlarına malikdir. Xəzərin şelfi, Abşeron yarımadası, Qobustan, Cənub-Şərqi Şirvan neft və qazla daha zəngindir. Dünya ölkələrinin potensial qaz ehtiyatları (https://www.eia.gov) məlumatına görə, Azərbaycanın təbii qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Azərbaycan "Şahdəniz", "Abşeron", "Şəfəq-Asiman", "Naxçıvan", "Ümid-Babək", "Qarabağ", "Əşrəfi" kimi işlənilmiş və perspektiv qaz yataqlarına malikdir.

Xəzər şelfində dənizdə böyük həcmdə təbii qaz ehtiyatları vardır. Xəzərin karbohidrogen ehtiyatlarının çıxarılmasında sərhədyanı dövlətlər və xarici korporasiyalar fəal şəkildə iştirak edirlər. Bu gün Xəzər dənizi dünyada enerji təhlükəsizliyində əsas rol oynayan regionlardan biridir. Xəzərdə hasil olunan enerji resursları həm sahil ölkələrinin, həm də sərhəd regiona daxil olan ölkələrin inkişafında vacib rol oynayır. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şəfəq-Asiman" blokunda qazılan kəşfiyyat quyusunda 7189 metr dərinlikdə kompleks tədqiqat işləri aparılıb və ilk qaz-kondensat ehtiyatları aşkar edilib. Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağından ilk qaz hasilatına başlanılıb.

İşlənilməsini gözləyən başqa bir zəngin qaz yatağı "Qarabağ"dır. Onun ehtiyatları 13 milyard kubmetr qiymətləndirilir. Burada hasilata 2025-ci ildə başlanılması planlaşdırılır və birinci mərhələdə yataqdan ildə təqribən 1,5-1,8 milyard kubmetr əldə etmək mümkündür.

Şaxələndirilən təbii qaz mənbələri

Əsası Ümummilli lider Heydər Əliyev tərə-

findən qoyulan neft strategiyasının həyata keçirilməsində ilk böyük addım olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından sonra dünyada neft ölkəsi kimi tanınan Azərbaycan son illərdə qaz hasilatı imkanları ilə də beynəlxalq diqqət mərkəzindədir. Bu səbəbdən Avropa regionu ölkələri qaz idxalı mənbələrinin şaxələndirilməsi siyasəti çərçivəsində ölkəmizin qaz ehtiyatlarına böyük maraq göstərir. Ölkədə hasil olunan neftin və qazın dünya bazarlarına çıxarılması məqsədi ilə şaxələndirilən boru kəmərləri sisteminin yaradılması və müvəffəqiyyətlə istismar olunması Azərbaycanın neft-qaz sənayesinin mühüm üstünlüklərindəndir.

Fəal enerji siyasəti Azərbaycanın milli maraqlarının təmin olunmasında da xüsusi çəkiyə malikdir. Bu istiqamətdə Azərbaycan da daxil olmaqla bütün tərəflərin ardıcıl fəaliyyətinin nəticəsi olaraq Bakıda "Cənub Qaz Dəhlizi"nin təməli qoyuldu. Bu dəhliz 30 il əvvəl bağlanılmış "Əsrin müqaviləsi"nin məntiqi davamıdır. Bununla da Asiya ilə Avropanı birləşdirəcək nəhəng qaz dəhlizinin reallaşdırılması yönündə mühüm mərhələyə qədəm qoyuldu. Təbii ki, "Cənub Qaz Dəhlizi"nin təməlinin qoyulması bu layihənin əsas iştirakçısı olan Azərbaycanın zəngin "mavi yanacaq" mənbələrinin işlənilməsi üzrə illərlə həyata keçirdiyi fəaliyyətinin nəticəsidir. "Cənub Qaz Dəhlizi"nin icrası Azərbaycanın zəngin "Şahdəniz" yatağının işlənilməsini zəruri etdi.

"Şahdəniz" yatağında zəngin qaz ehtiyatlarının aşkar olunması bir çox ölkələri, xüsusən də Qərb dövlətlərini ölkəmizlə bu sahədə əməkdaşlığa cəlb etdi. Yuxarıda qeyd edildiyi kimi, Avropanın böyük bir hissəsi qaz təchizatına görə məhdud sayda mənbədən asılıdır. Dövlətin enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyan enerji təchizatının əsasən məhdud çərçivədə cəmləşməsi Avropa ölkələrini istər-istəməz alternativ mənbələrin axtarışına sövq edir. Bu baxımdan, etibarlı tərəfdaş imicinə sahib olan Azərbaycanla əməkdaşlıq region dövlətlərinin maraqlarına uyğundur. Bu, həm də, Prezident İlham Əliyevin söylədiyi kimi, ölkəmizin qaz resurslarının Avropa üçün yeganə yeni mənbə olması ilə əlaqədardır: ***"Xəzər qazı Avropa üçün yeganə yeni mənbədir. Digər mənbələr də var. Avropa o mənbələrdən qidalanır. O mənbələrin həcmi arta bilər, ancaq yeni mənbə hazırda Azərbaycandır".***

Uğurlu beynəlxalq əməkdaşlığın nəticəsi olaraq 2007-ci il fevral ayından etibarən Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından hasil olunan təbii qaz "Bakı-Tbilisi-Ərzurum" (BTƏ) vasitəsilə Gürcüstana nəql olunmağa başlanıb. 2007-ci il iyul ayının 3-də isə "Şahdəniz" qaz-kondensat yatağından hasil edilən təbii qaz Bakı-Tbilisi-Ərzurum marşrutu üzrə Cənubi Qafqaz Boru Kəməri ilə Türkiyə sərhədlərini aşaraq, qardaş ölkənin qaz kəmərləri sisteminə qoşulub. Cənubi Qafqaz qaz boru kəmərinin ötürücülük qabiliyyəti ildə 20 milyard kubmetr həcmindədir. Bir çox Avropa ölkələrinin Türkiyə vasitəsilə Azərbaycan qazını almaqda maraqlı olması, eləcə də Azərbaycanın iqtisadi maraqları başlanan işin davam etdirilməsini və daha da genişləndirilməsini zəruri edir. 2013-cü ilin iyun ayında Bakıda XX Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransının açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bu barədə deyib: "Şahdəniz" qaz yatağı və layihəsi dünya miqyasında ən böyük enerji layihəsidir. ***"Şahdəniz"in birinci fazası uğurla icra edilir. Biz ikinci fazanın reallaşmasına yaxınıq".*** Həqiqətən çox keçmədən layihənin ikinci fazasının uğurlu başlanğıcı qoyuldu. Belə ki, 2013-cü il dekabr ayının 17-də Bakıda Prezident İlham Əliyevin iştirakı ilə "Şahdəniz-2" qaz yatağı üzrə yekun investisiya qərarının imzalanması mərasimi baş tutdu. Qeyd edək ki, "Şahdəniz-2" layihəsinin təsdiq edilməsi, artıq layihənin reallaşdırılma mərhələsinə qədəm qoymasından xəbər verir. Xatırladaq ki, qərarın imzalanması mərasimindəki çıxışında Prezident İlham Əliyev "Şahdəniz-2" layihəsini "XXI əsrin layihəsi" adlandırdı.

2012-ci ildə Türkiyə ilə Azərbaycan arasında "TANAP" layihəsi, Trans-Anadolu Boru Kəmərinin tikintisi ilə bağlı razılıq əldə edilmişdir. Məhz bu layihənin razılaşdırılmasından sonra artıq "Cənub Qaz Dəhlizi"nin konturları görünməyə başlandı. 2013-cü ildə "TAP" layihəsi – Trans-Adriatik Boru Kəmərinin əsas ixrac marşrutu kimi seçilməsi də tarixi hadisə oldu. Azərbaycan qazının Avropaya çatdırılmasını nəzərdə tutan "TANAP" layihəsi həm ölkəmizin, həm də qitə dövlətlərinin enerji maraqlarına cavab verir.

"TANAP" layihəsi (İF) "Transxəzər" Qaz Kəmərinin gerçəkləşməsi üçün də yeni imkanlar yaratdı. Qazaxıstan və Türkmənistanın da bu kəmərə qoşulması Azərbaycanı, həm də qaz nəqlində mühüm tranzit ölkəyə çevirir. TAP kəməri isə Azərbaycan qazını Yunanıstan və Albaniya vasitəsilə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəql edir. Boru kəmərinin ilkin gücü 20 milyard kubmetrdir.

Bakı-Tbilisi-Ərzurum Qaz Xətti (BTƏ) Azərbaycan qazını Gürcüstandan keçməklə Türkiyənin şərq hissəsinə daşıyır. TANAP kəməri qazı Türkiyənin şərqindən qərbinə, yəni Avropa ilə sərhədə gətirir. TAP boru kəməri isə qazın buradan Avropa ölkələrinə paylanmasına imkan verir. Bu, Avropada "mavi yanacaq" bazarını genişləndirir, istehlakçı ölkələr isə enerji mənbələrinin çoxaldılması yolu ilə öz təhlükəsizliklərini daha etibarlı təmin edə bilirlər. Dövlət başçısının söylədiyi kimi, "Cənub Qaz Dəhlizi"nin reallaşması ilə artıq, layihə üç ölkə səviyyəsindən çıxaraq çoxlu sayda ölkəyə bu prosesdə iştirak etmək imkanı yaradır: ***"Bugünə qədər bizim qaz və neft layihələrimizdə ancaq 3 ölkə iştirak edirdi – Azərbaycan, Gürcüstan və Türkiyə. Bu gündən sonra biz geniş beynəlxalq əməkdaşlıq prosesinə qədəm qoyuruq. Azərbaycan qaz istehsalçısı kimi öz resurslarını dünya bazarına çıxaracaq. Ondan sonra Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, gələcək mərhələdə Monteneqro, Xorvatiya və digər ölkələr bu layihəyə qoşula bilərlər".***

Prezidentin uzaqgörənliklə söylədiyi bu fikirlər artıq reallıqdır. Düzgün enerji siyasəti sayəsində Azərbaycan özünün inkişafını təmin edir, eyni zamanda çoxsaylı tərəfdaşlar qazanmaqla beynəlxalq aləmdəki nüfuzunu və mövqelərini durmadan gücləndirir. Azərbaycanın enerji siyasətinin regional və qitə miqyaslı rolu da bunu təsdiq edir.

Müasir dövrün ən böyük infrastrukturu sayılan "Cənub Qaz Dəhlizi" layihəsinin bir hissəsi olan TAP kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan – 550 kilometr, Albaniya – 215 kilometr, Adriatik dənizi – 105 kilometr, İtaliya – 8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə – 37 düym). Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdən, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir.

Azərbaycanın neft və qazının dünya bazarlarına nəqli

- *Bakı-Qroznı-Novorossiysk Neft Kəməri (Şimal marşrutu);*
- *Bakı-Supsa neft kəməri (Qərb İxrac Boru Kəməri);*
- *Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri;*
- *Bakı-Tbilisi-Ərzurum Boru Xətti (Qaz Kəməri) və Cənub Qaz Dəhlizi;*
- *TANAP (Trans-Anadolu Qaz Boru Kəməri);*
- *TAP (Trans Adriatik Boru Kəməri).*

Beləliklə, Azərbaycanın köməyi ilə təbii qaz təchizatı mənbələrinin şaxələndirilməsi ölkəmizin qüdrətini, həm də beynəlxalq aləmdə nüfuzunu durmadan artırır. Elə buna görə də COP29 kimi genişmiqyaslı tədbirin keçirilməsi Azərbaycana etimad edilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikası ilə Gürcüstan arasında neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. 15 aprel 1997-ci il.

2. AZƏRTAC: COP29 Azərbaycanın iqtisadi imkanlarını daha yaxından təqdim etməyə şərait yaradacaq. Açıqlama (27.01.2024-cü il).

3. "Azərbaycan təbii qazının dünya bazarına Cənub Qaz Dəhlizi vasitəsilə nəqli ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 29 oktyabr 2013-cü il.

4. "Azərbaycan təbii qazının dünya bazarına Cənub Qaz Dəhlizi vasitəsilə nəqli ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 oktyabr tarixli, 15 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (13 dekabr 2019-cu il).

5. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) rəsmi səhifəsi.

6. Bakı-Supsa neft kəmərinin açılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi (17 aprel 1999-cu il).

7. Bakı-Tbilisi-Ceyhan marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan Ankara bəyan-

naməsinin imzalanması mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı (29 oktyabr 1998-ci il).

8. Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin tikintisi və istismara verilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (29 dekabr 1999-cu il).

9. Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru təməlinin qoyulması mərasimi (18 sentyabr 2002ci il).

10. Bakı-Tbilisi-Ərzurum Boru Xətti (Qaz kəməri).

11. Bakıda "Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub Qaz Dəhlizi" təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasimdə Prezident İlham Əliyevin çıxışı (20 sentyabr 2014-cü il).

12. Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısında Prezident İlham Əliyevin nitqi (29 fevral 2016-cı il).

13. "Cənub Qaz Dəhlizi" haqqında Birgə Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (4 mart 2011-ci il).

14. COP29-un ölkəmizdə keçirilməsinin siyasi əhəmiyyəti (20 dekabr 2023-cü il).

15. Sadıqlı F. Azərbaycanın COP29-a hazırlıq səviyyəsi yüksək dəyərləndirilir. "Azərbaycan" qəzeti, 31 mart 2024-cü il.

16.https://ereforms.gov.az/az.

17.https://oxu.az/politics/815941?ysclid=lvwnrni7zr662231034

18. Hülya Məmmədli. "Şahdəniz" qaz yatağı və layihəsi dünya miqyasında ən böyük enerji layihəsidir.

https://www.yeniazerbaycan.com/Iqtisadiyyat_e18018_az.html.

19. "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarının işlənilməsi, "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri" və "Şahdəniz" yatağından təbii qazın ixrac boru kəmərinin layihələrinin həyata keçirilməsi ilə əlaqədar təxirəsalınmaz tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 15 may 2001-ci il.

20. "Xəzər dənizinin Azərbaycan sektorunda "Şahdəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in və "Cənubi Qafqaz boru kəməri" (Bakı-Tbilisi-Ərzurum) layihəsinin həyata keçirilməsində operativ idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (7 mart 2007-ci il).

21. Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində Prezident İlham Əliyevin nitqi (29 may 2018-ci il).

22. Hacıyeva S. COP29 və elmi-texniki tərəqqi. AZƏRTAC, 18 mart 2024-cü il.

23. "Şahdəniz" yatağından əldə olunacaq təbii qazın "Bakı-Tbilisi-Ərzurum" marşrutu ilə nəqlinə dair Azərbaycan Respublikası ilə Gürcüstan arasında sazişin imzalanma mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı (26 oktyabr 2001-ci il).

24. "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və "Cənub Qaz Dəhlizi"nin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (25 fevral 2014-cü il).

25. Türkiyənin Əskişəhər şəhərində "TANAP" layihəsinin açılış mərasimində Prezident İlham Əliyevin çıxışı (12 iyun 2018-ci il).

26. Türkiyənin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimində Prezident İlham Əliyevin çıxışı (30 noyabr 2019-cu il).

27. Vəliyev T. Avropanın qaz təchizatında Azərbaycanın rolu.

28. Səfərova V. COP29 Azərbaycanın iqtisadi imkanlarını daha yaxından təqdim etməyə şərait yaradacaq. AZƏRTAC, 27 yanvar 2024 cü il.

Peşə təhsili və insan kapitalı. Cild 7, №4, 2024, s.56-63

AZƏRBAYCANDA QUŞÇULUQ: PROBLEMLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Şahmar Məmmədov,
ARKTN-nin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun,
Abşeron Heyvandarlıq Təcrübə Stansiyasının direktoru,
aqrar elmləri üzrə fəlsəfə doktoru
e-mail: shahmar56@mail.ru
https://doi.org/10.30546/2706-7858.7.4.2024.025

ORCİD İD: 0000-0002-4982-0371
UOT: 636.5.034.087.7

Xülasə. *Quşçuluq kənd təsərrüfatının ən dinamik inkişaf edən sahələrindən biri olmaqla ölkə əhalisini zülal tərkibli qidalar olan yumurta və quş əti ilə təmin edir. Bu qida növlərinin yüksək pəhriz keyfiyyətləri quşçuluğu prioritet, iqtisadi səmərəliliyin yüksək səviyyəsi isə kənd təsərrüfatının strateji sahəsinə çevirir. Məqalədə dünya və yerli quşçuluğun inkişafında prioritet istiqamətlər, eləcə də quşçuluğun mövcud vəziyyətinin təhlili aparılmış və bu sahənin müasir mərhələdə problemləri müəyyənləşdirilmiş, inkişafı üçün proqnoz verilmişdir.*

Açar sözlər: *quşçuluq sahəsinin vəziyyəti, səmərəlilik, istehsalın artması, böyümə sürəti.*
Key words: *the situation of the poultry industry, efficiency, production growth, growth rate.*
Ключевые слова: *положение птицеводческой отрасли, эффективность, прирост производства, темп роста.*

Müasir şəraitdə quşçuluq cəmiyyətin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edən sahələrdən biri kimi çıxış edir. Bu sahə insanları vacib qida elementi olan zülal tərkibli müxtəlif ərzaq məhsulları ilə təmin etməsi ilə izah olunur. Ona görə də hazırda kənd təsərrüfatının bir sahəsi kimi quşçuluğa xüsusi diqqət yetirilir. Toyuq yumurtasının tərkibində insan üçün lazım olan bütün qida maddələri və bioloji aktiv maddələr vardır ki, bunlar optimal nisbətdədir: 12-15% zülal, 11-15% yağ, 1% karbohidrat, 74% su və təxminən 1%-ə yaxın qeyri-üzvi maddələr. Quş yumurtası zülallarının bioloji dəyəri insanlar tərəfindən 96-98% həzm olunan əvəzolunmaz amin turşularının toplanması və nisbəti ilə müəyyən edilir. Yumurtada 20-dən çox mineral, vitamin, əvəzolunmaz amin turşusu – lizozim vardır. Toyuq yumurtasının qidalılıq dəyəri təxminən 75 kaloridir.

Ən yüksək keyfiyyətli broyler əti bütün növ ətlik istiqamətli hibrid quşların cavanlarının xüsusi yetişdirmə üsulu ilə əldə edilir. Broylerlərin ağ ətində 20%-dən çox tam dəyərli zülal, 1-2% yağ, 92% amin turşuları var. Ona görə də ölkələrin böyük əksəriyyəti məhdud yem bazası ilə bu ətin istehsalını sürətlə inkişaf etdirir. Bununla belə, quşların digər məhsullarından da geniş istifadə olunur. Belə ki, lələk və tüklərdən müxtəlif məişət əşyaları, balıqçılıq alətləri hazırlanır. Quş peyninin xam şəkildə olması tərkibinə və qida maddələrinin bitkilər tərəfindən

mənimsənilmə dərəcəsinə görə qiymətli üzvi gübrədir. İnkubasiya və kəsim tullantıları yem unun hazırlanmasında istifadə olunur.

Quşçuluq sənayesində hazırkı səviyyədə əsas anlayışlar istehsal olunan məhsulların səmərəliliyi və təhlükəsizliyidir. Eyni zamanda quşçuluq istehsalı sisteminin əsas zənciri olan kənd təsərrüfatı quşlarına tələblərdə dəyişir:. Bu tələblər – inkişaf etmiş immun sistemi, quş əti və yumurta istehsalı üçün intensiv texnologiyalara yaxşı uyğunlaşma, yüksək reproduktiv keyfiyyətlər və uzun müddət məhsuldar istifadə, yüksək keyfiyyətli və qida dəyəri olan məhsullar istehsal etmək bacarığı, yem enerjisinin və qida maddələrinin səmərəli konversiyasından ibarətdir. Bu məqsədlərə nail olmağın yolu genetiklərin və seleksionerlərin, genişprofilli zootexnik və baytar mütəxəssislərinin kompleks yanaşması və işinin sistemli şəkildə əlaqələndirilməsi ilə mümkündür.

Quşçuluğun inkişaf tarixi

Quşçuluq zəngin tarixə və mühüm iqtisadi əhəmiyyətə malik kənd təsərrüfatının əsas və dinamik inkişaf edən sahələrindən biridir. Bu sahənin mənşəyi qədim dövrlərə, ilk məskunlaşanların vəhşi quşları əhliləşdirməyə başladığı vaxtlara gedib çıxır. Ev quşlarının mədəni cinsləri Fransa, İngiltərə, İtaliya, ABŞ, Çin və Rusiyada yaradılmışdır. Bu quşların yetişdirilməsi ilə əsasən kəndli təsərrüfatlarında torpaq mülkiyyətçiləri məşğul olurdular. Uzun əsrlər boyu quşların sayının az olması və məhsuldarlığının aşağı olması səbəbindən quş əti istehsalı və istehlakı cüzi idi. Zaman keçdikcə, xüsusən sovet dövründə sənaye yetişdirmə metodlarının fəal tətbiqi baş verdi ki, bu da istehsal həcmini əhəmiyyətli dərəcədə artırmağa və məhsulun keyfiyyətini yaxşılaşdırmağa imkan verdi.

Quşçuluğun inkişaf mərhələləri

Quşçuluq 1930-cu ildən sonra "Sənaye Quşçuluğunun İnkişafı haqqında" SSRİ Xalq Komissarları Sovetinin Qərarı qəbul edildikdən sonra geniş şəkildə inkişaf etdi. 30-cu illərin əvvəllərində iri sənaye və damazlıq quşçuluq sovxozları, iri quşçuluq fermaları, inkubator quşçuluq stansiyaları və quşçuluq fabrikləri təşkil edildi. XX əsrin 40-50-ci illərində seleksiya əsasında geniş miqyasda hibrid quşların yetişdirilməsinə başlanıldı. Çarpazlaşma üsulu yaxşılaşdırılmış cinslərin yetişdirilməsinə imkan verdi. Bu mərhələdə Damazlıq zavodları da meydana çıxdı. Hər bir tarixi mərhələnin məqsədi XX əsr ərzində onun səmərəliliyini artırmaq əsasında quş əti və yumurta istehsalının həcmini artırmaqdan ibarət idi. XX əsrin ikinci yarısında quşçuluq texnoloji proseslərin tam mexanikləşdirilməsi ilə sənaye əsasına keçdi. Yeni avadanlıq növləri yaranmağa başladı. Quşçuluq getdikcə daha az iqlim şəraitindən asılı oldu, tam qapalı, qəfəs şəraitində saxlanılmağa üstünlük verildi. Bu illərdə quşçuluq yüksək rentabelliyə çevrilmiş, onun məhsuldarlığı yüksəlmiş, quşçuluq məhsullarının maya dəyəri aşağı düşmüşdür. Azərbaycanda da quşçuluq 1930-cu illərdən sonra inkişaf etməyə başladı. Bu zaman ilk kolxoz və sovxozlar yaradıldı, burada ev quşlarının yetişdirilməsi və bəslənilməsi ilə fəal məşğul olurdular. Əvvəllər quşçuluq ciddi gəlir gətirmirdi. Sovet dövründə böyük quşçuluq təsərrüfatlarının və elmi-tədqiqat institutlarının yaradılması da daxil olmaqla sənaye quşçuluğunun əsası qoyuldu. XX əsrin 90-cı illərinin keçid dövrü bu sahənin özəlləşdirilməsi və yenidən qurulması ilə əlamətdar oldu ki, bu da çox sayda fərdi təsərrüfatın yaranmasına səbəb oldu. XXI əsrin əvvəlləri müasir texnologiyaların fəal tətbiqi, məhsulların keyfiyyət və təhlükəsizlik standartlarının artırılması, daxili və beynəlxalq bazarlarda mövqelərin möhkəmləndirilməsi ilə xarakterizə olunur.

Ölkəmizdə quşçuluğun inkişafı üçün 1964-cü ilin sentyabr ayında qəbul edilmiş "Yumurta və quş əti istehsalının sənaye əsasında təşkili haqqında" Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin Qərarı güclü stimul verdi. Bu Qərara əsasən yüzlərlə yeni quşçuluq fabrikləri tikilməyə başladı. Bu, sahənin intensiv inkişaf yoluna genişmiqyaslı keçidinin başlanğıcı oldu. 1961-1963-cü illərdə xaricdən SSRİ-yə ən yaxşı cinslərdən olan ətlik və yumurtalıq istiqamətli toyuqlar, Pekin ördəkləri, ağ, enli sinəli hindquşları gətirilirdi, xətti və hibrid quşçuluqdan istifadə mərhələsi başlandı. Həmin illərdə Azərbaycanda da yumurta istehsal edən "Bakı", Giləzi", "Gəncə", "Biləsuvar", "Naxçıvan" quşçuluq fabrikləri tikildi. Respublikamızda 1970-ci ildə yumurta istehsalı 1960-cı ildəki yumurta istehsalı ilə müqayisədə 79,1 mln. ədəd artaraq 412,5 milyona çatdı (cədvəl 1).

Cədvəl 1.
1940-1970-ci illərdə bütün kateqoriyalı təsərrüfatlarda quşların baş sayı, yumurta və quş əti istehsalı

Göstəricilər	1940	1950	1960	1970
Quşların baş sayı, mln. baş	-	2,7	7,2	8,6
Yumurta istehsalı, mln, ədəd	158,4	105,2	333,4	412,5
Quş əti istehsalı, kəsilmiş çəkidə, min ton	2,5	3,0	6,6	13,1

Mənbə: *"Azərbaycanın kənd təsərrüfatı" statistik məcmuəsi, Bakı, 2020, Az.STAT*

Sənaye quşçuluğunun maddi-texniki bazasının möhkəmləndirilməsi prosesində 1971-ci ildə müxtəliftipli qəfəs batareyalarının və digər texniki avadanlıqların seriyalı istehsalı təşkil edilmiş, tam dəyərli qarışıq yem istehsalı genişləndirilmişdir ki, bu, qəfəslərdə olan toyuqların sayını artırmağa şərait yaratmışdır. Beləliklə, ölkədə keçirilən tədbirlər – quşların quru yemləmə növünə keçməsi, il ərzində damazlıq və sənaye toyuq sürülərinin təkrar istehsalı üçün bir neçə dəfə komplektləşdirilməsini həyata keçirməyə başlamaq və nəhayət, bütün dövr ərzində quşları işıqlandırma, temperatur və rütubət parametrləri tənzimlənən damlarda saxlamaq hər növ quş sayını xeyli artırmağa imkan verdi.

1965-ci ilədək SSRİ-də qida zülalının əsas mənbəyi mal əti idi və quşçuluq birinci yerdə deyildi. Bunu əsas rəqəmlər sübut edir: yumurta istehsalı 16,8 milyard (adambaşına 133 yumurta) olub. Azərbaycanda isə müvafiq olaraq yumurta istehsalı 290,1 mln. (adambaşına 64 ədəd yumurta) olub. 1965-ci ildə ölkədə "Sənaye Quşçuluğunun Yaradılması haqqında" Hökumət Qərarı qəbul edildi. Bu qərarı həyata keçirmək üçün SSRİ Quşçuluq Sənayesi, o cümlədən Azərbaycanda da Nazirlər Soveti yanında Quşçuluq Sənaye Birliyi yaradıldı. Bu, intensiv texnologiyalara yiyələnməyə imkan verdi. Beləliklə, quşların qəfəs batareyalarında saxlanılması güclü bir irəliləyiş əldə etməyə imkan verdi: 1988-ci ildə 1076,7 mln. yumurta, yəni adambaşına 155 ədəd səviyyəsinə çatdırıldı. Fizioloji cəhətdən əsaslandırılmış adambaşına illik yumurta istehlakı norması 290 ədədə yaxın olduğunu nəzərə alsaq, demək olar ki, 70-ci illərin sonu 80-ci illərin əvvəllərində Azərbaycan quşçuluq sənayesi ölkənin yumurta tələbatının 52-55 faizini ödəməyə qabil olub. Dövlət Proqramına əsasən, 1995-ci ildə ölkəmizdə yumurta istehsalı 1,2-1,5 mlrd. ədədə, toyuq əti istehsalı 95-110 min tona çatdırılmalı idi. Lakin SSRİ-nin süqutundan sonrakı zəruri ictimai-siyasi formasiyaya keçid istehsal münasibətlərinin məcburi dəyişkənliyi, keçid dövrünün qanunauyğunluqlarına mütənasib şəkildə iqtisadiyyatın bütün sahələri kimi quşçuluq sənayesi də böhranla üzləşdi və məhsul istehsalı kəskin şəkildə azaldı. 1997-ci ildə Quşçuluq Sənaye Birliyi ləğv edilərək quşçuluq təsərrüfatları özəlləşdirmə ilə əlaqədar olaraq Dövlət Əmlak Komitəsinin tabeçiliyinə verildi.

"Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 mart 1999-cu il tarixli Fərmanı ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının torpaq vergisi istisna olmaqla, bütün vergilərdən və əvvəlki vergi borclarından 5 il müddətinə azad edilməsi və bu Fərmanın 2023-cü ilədək uzadılması respublikada quşçuluq təsərrüfatlarının da yenidən inkişafına böyük təkan vermişdir. Belə ki, sahibkarlığın inkişafına geniş şərait yaradıldıqdan sonra respublikada mövcud olan çoxsaylı quşçuluq təsərrüfatlarının fəaliyyətini bərpa etmək mümkün olmuşdur. Xüsusilə yumurta istehsal edən "Giləzi", "Hacıqabul", "Məhəmmədli" və s. ətlik istiqamətli Siyəzən, Şabran rayonunda "Səba broyler", İmişli, Neftçala rayonunda "Şəfa broyler" və s. fəaliyyətdə olan təsərrüfatlar məhsul istehsalını ildən-ilə artırırlar.

1990-2020-ci illərdə respublika üzrə bütün kateqoriyalı təsərrüfatlarda quşların baş sayı və məhsuldarlığı aşağıdakı kimi olmuşdur:

Cədvəl 2.
1990-2020-ci illərdə bütün kateqoriyalı təsərrüfatlarda quşların baş sayı, yumurta və quş əti istehsalı

Göstəricilər	1990	1995	2000	2005	2010	2015	2020
Əhalinin sayı, min nəfər	7131,9	7643,5	8032,8	8447,4	8997,6	9593,0	9974,0
Quşların baş sayı, min baş	30343,2	14417,8	14711,8	18253,3	22041,6	28851,7	32230,2
Yumurta istehsalı, mln. ədəd	985,3	455,8	542,6	874,6	1178,6	1552,9	1906,2
Quş əti istehsalı, kəsilmiş çəkidə, min ton	53,6	19,1	24,3	46,3	61,07	97,2	115,4
Adambaşına quş əti istehsalı. kq	7,3	2,5	3,0	5,5	6,7	10,1	11,6
Adambaşına yumurta, ədəd	138	60	67	103	137	162	191

Mənbə: *"Azərbaycanın kənd təsərrüfatı" statistik məcmuəsi Bakı, 2020, Az.STAT*

Keçid dövründə buraxılmış səhvlər nəticəsində ölkə iqtisadiyyatının tənəzzülünün dayandırılma dövrü kimi xarakterizə olunan 1997-ci ildən başlayaraq, üç il gərgin zəhmət sayəsində 2000-ci ildə ölkəmizdə yumurta istehsalı 542,6 mln. ədədə, quş əti istehsalı 24,3 min tona çatdırıldı. Bu 1995-ci il ilə müqayisədə müvafiq olaraq 19,0 və 27,2% çox təşkil edir. Quşçuluq uzunmüddətli inkişaf prosesi nəticəsində aqrar-sənaye kompleksinin sənaye sahəsinə çevrildi, onun xarakterik xüsusiyyəti elmi nailiyyətlərin, qabaqcıl texnologiyanın, yeni texnoloji avadanlıq, istehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması vasitələrindən geniş istifadə etməklə xüsusi ixtisaslaşmış bir sahə oldu. Bütün dövrlərdə quşçuluğun əsas vəzifələri yumurta və quş əti istehsalını elmi əsaslandırılmış qidalanma normalarına uyğun olaraq onların istehlakını təmin edən səviyyəyə çatdırılması, quşçuluq müəssisələrinin istehsalının iqtisadi səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılmasından ibarətdir.

Quşçuluğun hazırkı vəziyyəti

Ölkədə istehsal potensialı fəal şəkildə artır, bu da quşçuluq məhsullarına daxili tələbatı ödəməyə imkan verir. Quşçuluq məhsulları bazarının öyrənilməsi göstərir ki, quş əti və yumurtasına istehlak və tələbat daim artır. Bu artım əhalinin sayının artması, həyat və qidalanma səviyyəsinin yaxşılaşdırılması, həmçinin daha ucuz və əlverişli zülal mənbələrinə artan ehtiyaclarla əlaqəli ola bilər. Quşçuluq kənd təsərrüfatının ən səmərəli və iqtisadi cəhətdən sərfəli sahələrindən biri olaraq gələcəkdə böyüməyə və inkişaf etməyə davam edəcəkdir. Quşçuluq sahəsi Azərbaycanda ərzaq təhlükəsizliyini təmin edən əsas sahələrdən biridir. Respublikanın istehsalının strukturunda mal ətindən sonra quş əti ən böyük paya malikdir (cədvəl 3).

Cədvəl 3.
Ətin növlər üzrə istehsalı, kəsilmiş çəkidə, min ton

Ətin növləri	İllər					
	2018	2019	2020	2021	2022	2023
Mal əti	135,6	137,9	143,1	145,0	148,6	152,8
Quş əti	109,1	112,0	115,4	124,4	130,1	137,5
Qoyun və keçi əti	80,8	85,3	87,0	87,7	89,0	88,9
Donuz əti	0,5	0,5	0,5	0,5	0,5	0,5
Cəmi:	**326,0**	**335,7**	**346,0**	**357,6**	**368,2**	**379,7**

Mənbə: *"Azərbaycanın kənd təsərrüfatı" statistik məcmuəsi, Bakı, 2023, Az.STAT*

Yerli broyler əti istehsalında idxal olunan xarici krosların payı 100%-dir. Bazarın iki əsas lideri – "Ross 308" və "Kobb 500" ətlik krosları təşkil edir. ABŞ-dan "Kobb", Fransadan "IZA" və Şotlandiyadan "Ross" kimi dünyanın aparıcı şirkətlələri Azərbaycanın şəraitinə uyğunlaşdırılmış krosları uğurla inkişaf etdirmişlər.

Dünyada və Azərbaycanda quşçuluq

Dünyada quş əti istehsalı (FAO-nun məlumatları, 2020 133,35 milyon ton təşkil edib, ondan broyler əti – 119,5 milyon ton, hindquşu əti – 5,99 milyon ton, ördək – 4,99 milyon ton, qazlar və firəng toyuqları – 2,84 milyon ton olub. Quş ətinin əsas istehsalçıları Çin, ABŞ, Braziliya, Rusiya, Meksika, Yaponiyadır. 2023-cü ildə Azərbaycanda 137,5 min ton quş əti istehsal edilib. Ən böyük hindquşu əti istehsalçıları ABŞ, Almaniya, Braziliya, Rusiya, ördək istehsalçıları Çin, Fransa, Macarıstan, qaz və firəng toyuqları istehsalçıları Çin, Fransa və Macarıstandır. Dünyada yumurta istehsalı (FAO-nun məlumatları əsasında, 2020) 1,6 trilyon, toyuq yumurtası da daxil olmaqla 1,7 trilyon təşkil edib. Dünyanın əsas yumurta istehsalçıları Çin, ABŞ, Hindistan, Meksika, Rusiya və Yaponiyadır. 2023-cü ildə Azərbaycanda 2188,2 mln. ədəd yumurta istehsal edilmişdir.

Cədvəl 4.
Təsərrüfat kateqoriyaları üzrə yumurta istehsalı, milyon ədəd

Göstəricilər	illər						
	2003	2018	2019	2020	2021	2022	2023
Bütün təsərrüfat kateqoriyaları	681.9	1676,2	1827,1	1906,2	1838,8	2018,1	2188,2
Kənd təsərrüfatı müəssisələri	249.3	644,1	771,6	802,8	666,1	894,6	1057,5
Fərdi sahibkar, kəndli və ev təsərrüfatları	432.6	1032,1	1055,5	1103,4	1172,7	1123,5	1130,7

Mənbə: *"Azərbaycanın kənd təsərrüfatı" statistik məcmuəsi, Bakı, 2023, Az.STAT*

Dünyada quşçuluğun liderləri

Quşçuluq üzrə lider ölkələr arasında Çin, ABŞ, Yaponiya və Rusiya kimi ölkələri göstərmək olar. Hazırda dünyada bir trilyon üç yüz altmış min yumurta istehsal olunur. Reytinqdə birinci yeri Çin tutur və ümumi istehsalın 40%-ni təşkil edir. Hazırda dünyanın bir çox ölkələrində maliyyə böhranı yaşandığı bir vaxtda ərzaq məhsullarının qiyməti kəskin artıb, xüsusilə quş ətinə olan tələbatda kəskin artım var. Donuz əti hələ də ümumi bazarda liderdir, ikinci yeri quş əti tutur. Ümumilikdə dünyada 296 milyon ton

quş əti istehsal olunur. Əgər donuz əti istehlakı 37% təşkil edirsə, o zaman quş əti 34% təşkil edir. Ekspertlərin fikrincə, 7 ildən sonra vəziyyət dəyişəcək və quş əti birinci yeri tutacaqdır.

Quşçuluqda müasir texnologiyalar

Son zamanlar qabıqsız yumurtaların, yəni emal edilmiş yumurtaların, xüsusən də yumurta tozunun istehsalı və satışı tez-tez həyata keçirilir. Belə bir məhsulun üstünlüyü onun uzun saxlanılma müddətidir. Yaponiya isə bu sahədə liderdir. Hazırda quşçuluq üzrə lider ölkələr tərəfindən toyuqların məhsuldarlıq yaşının artırılması məsələsini həll edirlər. Alimlər toyuqların təbiətə sərbəst buraxılmasını təklif ediblər, lakin təcrübələrin göstərdiyi kimi, bu yolla əldə edilən yumurtaların qida dəyəri bir qədər azalır. Ona görə də bu seçim hələ istifadə edilmir. Bu problemə əlavə olaraq kifayət qədər vacib bir məsələ məhsulun dərin emalıdır. Gəlirlilik, məhz bu göstəricidən asılıdır. Ölkəmizdə quşçuluq geniş yayılmış sahə olsa da, onun əksəriyyətini broylerlər təşkil edir. Onlar bütün toyuqçuluğun 90%-ni təşkil edir.

Hazırda mütəxəssislər hindquşu yetişdirmək imkanı üzərində işləyirlər, onlar üçün artıq xüsusi mərkəzlər tikilib və tezliklə istifadəyə veriləcəkdir. Burada ördək yetişdirilməsi də planlaşdırılır. Hazırda yeni bir quş populyasiyasını inkişaf etdirən yalnız bir şirkət yetişdirmə ilə məşğuldur. Böyümə dövrü 38 gündür, dövrün sonunda ördək 3,3 kq ağırlığında olacaqdır.

Müasir dünyada bütün ölkələr, o cümlədən Azərbaycan da mikroelementlərlə zənginləşdirilmiş ekoloji təmiz məhsul yaratmağa çalışır. Mikroelementlərin normalaşdırılmasına yönəlmiş innovativ inkişaflar da daim davam etdirilir. Hazırda mikroelementlərdə qeyri-üzvi duzdan istifadə olunur, onların bir hissəsi istehlak edildikdən sonra daxili orqanlarda qalır. Mütəxəssislər üzvi duzlar əsasında elementlər yaratmaq üçün araşdırmalar aparırlar, belə ki, onlar orqanizm üçün daha təhlükəsiz olacaqdır. Bundan əlavə, bu cür mikroelementlərin mənimsənilmə dərəcəsi daha yüksəkdir, yəni quşlara onları daha az miqdarda vermək lazım olacaqdır.

İnkişaf etmiş ölkələrdə quşçuluq sahəsində damazlıq işinin təşkili

Müasir quşçuluq sistemi yaşama qabiliyyətinə malik, uzun müddət istifadə oluna bilər və yüksək məhsuldarlıq səviyyəsinə cavab verən quşlar əsasında yaradılmışdır. Damazlıq işində başlıca məsələ ət və yumurta istehsalı üzrə ixtisaslaşmaqla bu gün fəaliyyət göstərən cins və cins qrupundan olan quşların, hibridlərin, xətlərin damazlıq və məhsuldarlıq keyfiyyətinə görə təkmilləşdirilməsindən ibarətdir. Bununla əlaqədar olaraq, xüsusiləşdirilmiş damazlıq və sənaye təsərrüfatları ilə qarşılıqlı elmi-idarəetmə sistemi təşkil edilmişdir. Heyvandarlığın digər sahələrində olduğu kimi quşçuluq sektorunda da damazlıq-seleksiya işləri zootexniki tədbirlərin vahid sistemi olmaqla damazlıq quşların elmi əsaslarla yetişdirilməsini təmin etdiyi üçün bu sahədə fəaliyyət göstərən müəssisələrin idxaldan asılılığının azalmasına imkan yaradır.

İnkişaf etmiş ölkələr genetik material istehsal etmək, damazlıq quşçuluq müəssisələrini yüksək məhsuldar damazlıq yumurta və birgünlük cücə ilə təmin etmək üçün elmi əsaslarla idarə edilən və dövlət nəzarəti altında fəaliyyət göstərən ixtisaslaşmış pilləli sistemə malikdirlər. Damazlıq-seleksiya işinin funksiyaları və metodologiyası bu sistem çərçivəsində aşağıdakı qaydada reallaşdırılır:

Genetika-Seleksiya Mərkəzi (GSM) və Elmi-Tədqiqat İnstitutlarının təcrübə təsərrüfatları kross (hibrid), yeni xətt və kroslarının yaradılması, mövcud xətt və krosların təkmilləşdirilməsi, onların genefondunun qorunması işini həyata keçirir. GSM yeni və təkmilləşdirilmiş krosları ***Dövlət Damazlıq Zavodlarına (DDZ)*** verir. Burada quşlarının baş sayı çoxaldılır və onların göstəriciləri təkmilləşdirilir. Damazlıq zavodları damazlıq məhsullarını **I qayda üzrə reproduktor təsərrüfatlarına (R_1)** göndərir. I qayda üzrə reproduktor təsərrüfatları broylerlərin ulu valideyn sürüsü ilə iş aparılır və damazlıq məhsulu **II qayda üzrə reproduktor təsərrüfatına (R_2)** verilir. R_2 təsərrüfatları broylerlərin valideyn sürüləri ilə işləyir və final hibrid kroslarının yetişdirilməsi üçün məhsulunu ***broyler təsərrüfatlarına*** və əhalini birgünlük cücə ilə təmin edə bilən ***inkubator quşçuluq stansiyalarına*** verir.

Quşçuluq müəssisələrində (fermalarında) və inkubatorlarda hibrid yumurtalardan inkubasiya yolu ilə broyler və yumurtlayan quşlar yetişdirilərək quş əti və ərzaq üçün yumurta istehsal olunur.

Damazlıq quşçuluğun strukturu və inkişaf potensialı

Azərbaycan Respublikasında 2024-cü il 1 yanvar tarixinə bütün təsərrüfat kateqoriyaları üzrə quşların sayı cəmi 28,7 milyon, o cümlədən sənaye müəssisələri üzrə 11,7 milyon baş təşkil etmişdir (Diaqram 1). Mövcud quşların yalnız 40,8%-i kənd təsərrüfatı müəssisələrində, qalan 59,2%-i isə fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarında cəmləşmişdir.



Ayrı-ayrı müəssisə və təsərrüfatlarda quşların sayı, məhsuldarlığı və biomüxtəlifliyi təsərrüfatların həcmi və fəaliyyət istiqamətləri üzrə fərqlənsələr də, ümumilikdə quşçuluq sənayesi ölkəmizdə intensiv inkişaf etmiş sahələrdən biri hesab edilir. Bu sahənin əhəmiyyəti quşların yüksək sürətlə yetişməsi və istehsal olunan məhsullara yem məsrəfinin aşağı olması ilə əlaqədardır. Müasir ətlik kroslarının bir yumurtlayan toyuğundan broyler cücə çıxımı 130 baş təşkil edir. Kəsim çəkisinə qədər (2 kq) broylerlər 38-40 gün ərzində yetişdirilir. Bir il ərzində bir yumurtlayan toyuqda ət məhsulu təxminən 260 kq-dır. Eyni zamanda cavan mal-qarada 1 kq diri çəki artımı əldə etmək üçün 7-8 yem vahidi, broylerlərdə isə 1,6-1,8 vahid sərf edilir. Ona görə də quşçuluq məhsulları ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsində kənd təsərrüfatının dayanıqlı inkişafı üçün əsasdır. Bu səbəbdən quşçuluq sənayesi, xüsusilə də damazlıq quşçuluq sahəsinin dayanıqlı durumu və gələcək inkişafı müxtəlif amillərin (daxili və xarici) təsirlərindən asılı olduğu üçün daim diqqət və qayğı tələb edir.

2023-cü ildə ölkəmizdə quş əti istehsalının həcmi 110,8 min ton səviyyəsində olmuşdur. Eyni zamanda bütün növ ətlərin yerli istehsalında (379,7 min ton) mal ətindən (154,1 min ton



və ya 40.6%) sonra ən böyük payı 29,2%-ni quş əti təşkil edir. Hazırda ölkədə 36 quşçuluq təsərrüfatları mövcuddur. Onlardan 10-u damazlıq təsərrüfatı kimi fəaliyyət göstərir: "Azərquşçuluq" MMC, "Aqropol" MMC, "Araz Damazlıq Quşçuluq" MMC, "Xəmsə" MMC, "Nəzər" KTMİ, "Giləzi Quşçuluq" MMC, "MMZ" MMC, "Qaraqaşlı Broyler" ASC, "Abşeron" KTMİ və hazırda yeni "Azərbrood" MMC ölkədə damazlıq yumurta və birgünlük broyler cücələrinin istehsalı ilə məşğul olan iri istehsal müəssisələridir. Nəzərə almaq lazımdır ki, respublikamızda damazlıq quşçuluğun istehsal bazasının yaradılmasında **I qayda ilə işləyən** xüsusi əhəmiyyət daşıyan təmizqanlı xətt və əcdad (ulu valideyn) sürülərinin yetişdirilməsi ilə məşğul olan damazlıq təsərrüfatları mövcud deyildir və yaxın gələcəkdə belə təsərrüfatların yaradılması və fəaliyyət göstərməsi qeyri-real görünür, çünki yuxarıda qeyd edildiyi kimi, bunun üçün güclü və uzunmüddətli elmi-tədqiqat işləri, genişhəcmli maliyyə vəsaitləri və texnoloji-istehsal resursları tələb edilir. Hələlik isə digər ölkələrdən idxal edilmiş damazlıq birgünlük cücə alınaraq **II qayda ilə işləyən** təsərrüfatlara gətirilir. Burada quşların yetişdirilməsindən alınan yumurtalar broyler təsərrüfatlarına və inkubator quşçuluq stansiyalarına verilir. Bu gün ölkədə fəaliyyər göstərən quşçuluq təsərrüfatlarının əksəriyyəti **II qayda** üzrə, yəni "Aviagen", "Cobb", "Hubbard", "Hirh Line" şirkətlərindən birgünlük cücə gətirərək ana sürüsu yetişdirir. Bu məsələnin həlli və **I qayda ilə işləyən** reproduktor təsərrüfatlarının yaradılması üçün əcdad sürülərinə malik olan və dünyada genetik material üzrə monopolist sayılan məşhur "Aviagen", "Cobb", "Hubbard" və digər şirkətlərlə broyler və yumurtlayan quşlar üzrə müştərək işbirliyinin qurulmasıdır. Buna nail olmaq üçün həmin şirkətlərlə qarşılıqlı əlaqələrin qurulması, irihəcmli investisiya qoyuluşu, güclü kadr potensialı və s. kimi məsələlərin həll olunması məqsədəmüvafiq hesab edilir.

Nəticə. Beləliklə, ölkənin quş əti və yumurtaya olan tələbatının davamlı ödənilməsi, yerli istehsalın idxaldan asılılığının azaldılması, quşçuluq sahəsində fəaliyyət göstərən fermerlərin bu sahəyə marağının və quşların məhsuldarlıq göstəricilərinin artırılması, quş məhsullarının ixrac potensialının yaradılması və digər məsələlərin həllində damazlıq quşçuluğun inkişafında əhəmiyyətli rol oynayır. Damazlıq quşçuluğun zəruri tələblər səviyyəsində inkişafına nail olunması bu sahədə istehsal bazasının genişləndirilməsi ilə yanaşı, tənzimləmə və stimullaşdırma mexanizmlərinin ardıcıl yeniləşdirilməsi ilə bağlıdır. İnanırıq ki, bu gün ölkəmizdə damazlıq işinin strukturunda damazlıq işinə məsul olan əlaqədar qurumların fəaliyyət mexanizminin təkmilləşdirilməsi, bunların nəticəsində müasir çağırışlara cavab verən yeni və daha çevik mexanizm və strukturların yaradılması, onların fəaliyyətinin dünya təcrübəsinə müvafiq olaraq qurulması mümkündür. Eyni zamanda quşçuluqda damazlıq işlərinin keyfiyyətinin yüksəldilməsi, məhsuldarlığın və keyfiyyətin artırılmasına yönəldilmiş məqsədli elmi-tədqiqat işlərinin genişləndirilməsi də zəruridir.

İstifadə edilmiş ədəbiyyat

1. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 25 avqust 2008-ci il, №3004.

2. ARDSK AKT "Azərbaycanın kənd təsərrüfatı" statistik məcmuəsi. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Bakı, 2020, 650 s.

3. Аронов Э.Л. Как обеспечить население планеты продовольствием к 2050 г. Техника и оборудование для села, 2009 (12), с.46.

4. Жилина И.Ю. Как прокормить население мира в 2050 г. Рим: ФАО, 2009, 30 с. Режим доступа:
http://www. FAO.

5. Жиляков Д.И. Роль птицеводства в обеспечении продовольственной безопасности

страны. Национальные интересы: приоритеты и безопасность, 2010, (13).
https://cyberleninka.ru/article/n/rol-ptitsevodstva-v-obespechenii-prodovolstvennoybezopasnosti-strany-1/viewer

6. Михалѐва Е.В., Дьячков А.Я., Шарафеева А.С. Технология переработки мяса птицы, яиц и яйцепродуктов (учебное пособие). Пермь, ИПЦ. "Прокростъ" 2016, 107 с. ISBN978-5-94279-287-9.
https://docplayer.ru/28835199-Tehnologiya-pererabotki-myasa-pticy-yaic-i-yayceproduktov.html

7. Обеспечение населения мира продовольствием в 2050 году. FAO. Всемирный саммит по продовольственной безопасности. Рим, 16-18 ноября 2009 года.
http://www.fao.org/tempref/docrep/fao/meeting/018/k6021r.pdf

8. Особенности племенной работы в птицеводстве.
http://www.kgau.ru/distance/zif_03/razvedenie-111201/20.html

9. Ройтер Я.С., Егорова А.В., Коноплева А.П., Тяпугин Е.Е., Шашина Г.В., Ройтер Л.М., Щербакова Н.Г. Селекционно-племенная работа в птицеводстве. 2016.

10. Dhaliwal A.P.S., Shelly M., Grover J. 19 october 2019 Role of poultry farming for socioeconomic development of Punjab farmers. The Poultry Punch. Retrieved from:
https://thepoultrypunch.com/2019/10/role-of-poultry-farming-for-socio-economicdevelopment-of-punjab-farmers/

11. Scanes C.G., Butler L.D., Kidd M.T. Reproductive management of poultry. In Animal Agriculture, pp.349-366, Academic Press, 2020.
https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC7153309/

Sh.Mammadov

Poultry farming in Azerbaijan: problems and development prospects

Abstract

Poultry, being one of the most dynamically developing branches of agriculture, provides the country's population with protein-containing foods, eggs and poultry meat. The high dietary qualities of these food types make poultry farming a priority, and the high level of economic efficiency makes it a strategic area of agriculture. Priority directions in the development of world and local poultry in the article as well as the analysis of the current situation of poultry farming was carried out and the problems of this field at the modern stage were identified and a forecast was given for its development.

Ш.Мамедов

Птицеводство в Азербайджане: проблемы и перспективы развития

Аннотация

Птицеводство, являясь одной из наиболее динамично развивающихся отраслей сельского хозяйства, обеспечивает население страны белковосодержащими продуктами питания, яйцами и мясом птицы. Высокие диетические качества этих видов продуктов питания делают птицеводство приоритетным, а высокий уровень экономической эффективности – стратегическим направлением сельского хозяйства. Приоритетные направления развития мирового и отечественного птицеводства в статье а также проведен анализ текущего положения птицеводства и выявлены проблемы данной отрасли на современном этапе и дан прогноз ее развития.

Peşə təhsili və insan kapitalı. Cild 7, №4, 2024, s.64-69

REGİONAL SİYASƏT STRATEGİYASININ ƏSAS İSTİQAMƏTLƏRİ

Eltun İbrahimov,
Naxçıvan Dövlət Universitetinin
İqtisadiyyat və marketinq kafedrasının müdiri,
iqtisad üzrə fəlsəfə doktoru, dosent
e-mail: ibrahimoveltun@ndu.edu.az
https://doi.org/10.30546/2706-7858.7.4.2024.027

ORCİD: 0009-0001-9936-3295
UOT: 33; 338

Xülasə. *Ölkəmizdə həyata keçirilən son illərin məqsədyönlü siyasətinə uyğun olaraq regionlarımızda da sosial-iqtisadi inkişaf istiqamətində mühüm işlər görülməkdədir. İqtisadiyyatın hərtərəfli inkişafı, idarəetmə mexanizminin düzgün qurulması ayrı-ayrı ərazilərin və bölgələrin inkişaf etdirilməsini zəruri edir. Bu baxımdan bölgələrdə iqtisadi artımın əldə olunması mühüm prioritet məsələ kimi dövlətin daim diqqət mərkəzindədir. Çünki bu, iqtisadi inkişafa ümumi təsir göstərən başlıca amildir və getdikcə də daha aktuallıq kəsb etməkdədir. Məqalədə regionlar üçün həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasından bəhs edilir.*

Açar sözlər: *regional siyasət, sosial-iqtisadi inkişaf, dövlət proqramları, region.*
Key words: *regional policy, socio-economic development, state programs, region.*
Ключевые слова: *региональная политика, социально-экономическое развитие, государственные программы, регион.*

Regional siyasət regional bərabərsizliyi aradan qaldırmaq və müxtəlif bölgələr arasında balanslaşdırılmış inkişafı təşviq etmək üçün həyata keçirilən strategiya və tədbirlər kimi başa düşülür. Bu siyasətlər istehlakla bağlı müdaxilələr, böyümənin mərkəzdən ətraf bölgələrə yayılması, infrastrukturun inkişafı, özünü formalaşdıran təşəbbüslər və rəqabətqabiliyyətliliyi təşviq etmək üçün üst struktur dəstəyini əhatə edə bilər.

Qərb dövlətlərinin təcrübələrinə nəzər salmaq regional siyasətin reallaşdırılması baxımından xeyli önəmlidir. Bu ölkələrdə iqtisadi baxımdan problemli olan rayonlara dövlət tərəfindən müxtəlif cür yardımlar edilir: vergilərin dərəcələri azaldılır, yeni təsis olunan şirkətlərə, firmalara və sahibkarlara maliyyə yardımları göstərilir, texniki heyətin və ixtisaslı kadrların hazırlığı üçün xərclər qarşılanır, uzunmüddətli və aşağı faizlərlə, güzəştli şərtlərlə kreditlər verilir, nəqliyyat və enerjinin qiymətləri aşağı salınır. Bütün bunlar isə, həmin ərazilərdə yerləşən müəssisə və təşkilatların müxtəlifyönlü fəaliyyətinə stimul verən başlıca amillərdir. Bu cür yardımların köməyi ilə müxtəlif zamanlarda Qərb dövlətlərinin iqtisadiyyatlarına xeyli töhfələr verilmişdir. Bu gün isə bu işlər digər ölkələr tərəfindən mühüm təcrübələr kimi öyrənilməkdədir.

Keçən əsrin ortalarından başlayaraq hökumətlər tərəfindən müəyyən olunmuş siyasətlər, həm dövlət səviyyəsində, həm də özəl sektorun cəlb olunması ilə həyata keçirilməyə başlandı. Qəbul olunmuş inkişaf proqramları resursların, layihələrin və işlərin ən çox aqrar ərazilərə yönəldilməsini nəzərdə tuturdu. Məsələn, Amerikada Apalachia Ərazi İnkişaf Proqramı, İngiltərədə Liverpul və Glasqov qədim sənaye bölgələrinin yeni ərazilərə çevrilməsində istifadə olunan Sənaye Mərkəzləşdirmə Proqramı zəif inkişaf edən bölgələr üçün inkişaf planları kimi göstərilə bilər [7, s.53]. Bu strateji layihələr regionların sənaye bölgələrinə çevrilməsini nəzərdə tutur, hazırda dünya dövlətləri tərəfindən bu təcrübələr başlıca istiqamət kimi izlənilməkdədir. Bu siyasətlə əlaqədar məsələlər müzakirə edilərkən qeyd etmək lazımdır ki, əgər ölkədə regionların hər biri ayrıca inkişaf etməsə, ümumi inkişafdan danışmaq qeyri-mümkündür. İqtisadi inkişafı olmayan ölkələr müstəqil ola bilməz. Ona görə də ölkəmizdə iqtisadiyyatın davamlı olaraq inkişaf etdirilməsi bu günümüz və gələcək üçün əsas prioritet məsələlərdən hesab edilir.

Uzun illərdir ki, respublikamızın sovet imperiyasının tərkibində olması iqtisadiyyatımızda bir sıra təzadlar yaratmışdır ki, bu da ölkəmizin regionları arasında nəzərəçarpacaq uyğunsuzluqları meydana çıxartmışdır. Araşdırmalara görə, belə bərabərsizliklər keçmişdən qalmadır, olduqca kökləri dərindir və aradan qaldırılması uzunmüddətli və davamlı səylər tələb edir. Burada əsas vacib məqam ondan ibarətdir ki, iqtisadi tarazlığın bərpa olunmasında qarşıya qoyulan işlərin mahiyyətindən meydana gələn vəzifələr yerinə yetirilsin. Hər şeydən öncə vətəndaşlar, müəssisələr, yerli və xarici sahibkarlar dövlətin müəyyən etdiyi istiqamətdə strategiyaları nəzərdən keçirməli, əlverişli biznes mühitindən düzgün istifadə etməlidirlər. Aydındır ki, regionlarda sosial-iqtisadi proseslərin həyata keçirilməsi zamanı onlar arasında mövcud makroiqtisadi göstəricilərin səviyyəsinə görə fərqlərin olmasını da inkar etmək mümkün deyil. Ətraf regionlarla Bakı şəhəri arasında nəzərə çarpan fərqlərin həqiqi mahiyyəti odur ki, bəzi sahələri hökumət imperiya dövründə məqsədlərinə uyğun irəli çəkmiş, bununla da məhsuldar qüvvələrin inkişafında bölgələrə görə fərqlər meydana gəlmişdir. Məsələn, Abşeron rayonunda təbii xüsusiyyətlərinə və iqtisadi imkanlara uyğun olmayan müəssisələr yerləşdirilmişdir ki, bu da nəticədə regionun inkişaf etməsində müəyyən problemlər meydana gətirmişdir [4, s.229-230]. Bunu belə əsaslandıra bilərik ki, xeyli sayda görülən tədbirlərə baxmayaraq, regionlar arasında müəyyən göstəricilərdə həmişə fərqlər olacaq və bu hal da, təbii qəbul olunmalıdır.

Müstəqilliyimizi qazandıqdan sonra həyata keçirilən neft strategiyaları hesabına iqtisadi siyasət zaman keçdikcə qeyri-neft sənayesinin də inkişaf etdirilməsi istiqamətlərinə yönəldilmişdir. Bununla əlaqədar ölkəmizdə müxtəlif sahələr üçün proqramlar qəbul edilmiş və iqtisadi siyasətin düzgün icra edilməsinin istiqamətləri müəyyən olunmuşdur.

Regional sosial-iqtisadi inkişafla bağlı artıq dörd dövlət proqramı başa çatmışdır. Birinci proqram, "Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"dır. Bu Proqrama daxil olan tədbirlərin başlıca məqsədi iqtisadi infrastrukturun möhkəmləndirilməsi, makroiqtisadi tənzimləmə siyasətinin təşkil edilməsi, yerli istehsalın həcminin artırılması, daxili bazarın gücləndirilməsi, ixracın təşviq edilməsi və digər önəmli məsələlər olmuşdur. Proqram daxilində hər bir bölgə üçün ayrıca tədbirlər planı hazırlanmışdır. Bakı şəhərindən kənar regionların inkişafını stimullaşdırmaq məqsədi ilə investisiya layihələri və planlar tərtib olunmuşdur. Təmir və yenidənqurma tədbirlərinin icra edilməsi, dağlıq bölgələrdə investisiya işlərinin həyata keçirilməsi, xidmət mərkəzlərinin açılması və kənd təsərrüfatına investisiya qoyulması əsas diqqət mərkəzində saxlanılmışdır.

Görülən işlərin yekunu olaraq qeyd etmək olar ki, infrastruktur tədbirlərinin həcmində, yeni açılan müəssisələrin sayında, sosial mərkəzlərin yaradılmasında, sahibkarlıq obyektlərinin qurulmasında, nəqliyyat qovşaqlarının açılmasında, əhalinin məşğulluğunun təmin olunmasında ciddi irəliləyişlər nəzərə çarpmışdır. Belə ki, ərazilərdə beynəlxalq hava limanları tikilib istifadəyə verilmiş, yollar çəkilmiş, məktəblər, sağlamlıq və sanitariya mərkəzləri, olimpiya-

idman kompleksləri yaradılmış və yoxsulluğun səviyyəsi 14%-ədək azalmışdır.

Müasir şəraitdə regionlarda aqrar-sənaye və başqa sahələrdə də mühüm təkmilləşmələr fonunda, eləcə də özəl mülkiyyət formalarının sayında və yüksəliş dinamikasında ciddi irəliləyişlər meydana çıxmış, ərzaq məhsullarına olan tələbatın yerli istehsal müqabilində ödənilməsində müsbət meyillər müşahidə olunmuşdur. Müşahidələr göstərir ki, regionların sosial-iqtisadi inkişafını sürətləndirmək üçün qəbul olunan proqramların böyük əksəriyyəti şəhərdənkənar ərazilərlə bağlı olmuşdur ki, bu da aqrar sektorun dirçəldilməsinin və sahibkarlıq fəaliyyətinin gücləndirilməsinin, diqqətdə saxlanılmasının başlıca sübutudur.

Davamlı inkişaf tempinin qorunması və genişləndirilməsi məqsədi ilə ilkin dövlət proqramı yekunlaşdırıldıqdan sonra "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq olunmuşdur. Bu Proqramda əsas nəzərdə tutulan işlər ölkəmizin iqtisadi qüdrətinin daha da artırılması, əvvəlki proqramdan qalan tamamlanmamış işlərin yerinə yetirilməsi, ən xırda problemlərin belə həll olunması, Qərb ölkələrinə inteqrasiya işlərinin sürətləndirilməsi və digər məsələlər olmuşdur. 2004-2013-cü illər ərzində əməkhaqları və pensiyalar 5 dəfədən çox, büdcə gəlirləri 16 dəfə artmış, yoxsulluq 5,2%-ədək geriləmişdir. Qeyd edək ki, yoxsulluq səviyyəsi 2003-cü ildə 45% təşkil etmişdir. Yeni açılan iş yerlərinin böyük bir hissəsi regionlarda olmuşdur. Bu dövr ərzində regionlara təqribən 51 milyard manat həcmində investisiya qoyuluşu həyata keçirilmişdir [5].

Görülən işlərin səmərəsini daha da yüksəltmək üçün "Azərbaycan Respublikası regionlarının "2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" növbəti regional inkişaf proqramı olmuş və burada nəzərdə tutulan vacib məsələlər aşağıdakı kimi ümumiləşdirilmişdir:

– milli valyutamızın məzənnəsinin nəzarət olunan çərçivədə saxlanılması (bu makroiqtisadi tarazlığın bərpa olunması və inflyasiyanın səviyyəsinin aşağı salınması üçün önəmli hesab olunur);

– gənclərin əmək bazarında məşğulluq problemlərinin həll olunması;

– texnoloji və innovativ əsaslı ixracyönümlü sənaye məhsul istehsalının təşviq edilməsi;

– aqrar sektora maliyyə yardımlarının artırılması;

– ərazilərdə torpaqların və ondan istifadə edənlərin elektron qaydada uçotunun aparılması;

– elektron ticarət imkanlarının öyrənilməsi;

– alternativ enerji mənbələrinə əlçatanlığın təmini;

– əlverişli vergi mühitinin qurulması;

– turizm infrastrukturunun beynəlxalq tələblərə uyğun qurulması;

– lizinq və françayzinq xidmətlərinin təkmilləşdirilməsi;

– "yaşıl iqtisadiyyat" üzrə fəaliyyətlərin stimullaşdırılması;

– taxıl istehsalının artırılması;

– ixracın təşviqi və s.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı hazırda yekunlaşmaqda olan sonuncu proqram 2019-cu ildə qəbul edilmişdir. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" 2023-cü ildə başa çatmış və 2019, 2020, 2021, 2022-ci illərin nəticələrinə dair əhəmiyyətli göstəricilər qeydə alınmışdır.

Respublikamızın ekoloji siyasəti, ilk növbədə, ətraf mühitin sağlamlaşdırılması və ekoloji təhlükəsizliyin təminatına yönəlmişdir. Qeyd olunan məqsədə nail olmaq üçün prioritet ekoloji problemlər müəyyənləşdirilmiş və bu problemlər Azərbaycan Hökuməti tərəfindən 1998-ci ildə təsdiq edilmiş "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Proqramı"nda öz əksini tapmışdır. Bu il COP29 tədbirinin də ölkəmizdə, Bakı şəhərində keçirilməsi bizdə qürur hissi doğurmaqla yanaşı, həm də hər bir vətəndaşın üzərinə böyük məsuliyyət qoyur. Qeyd edək ki, ölkənin yaşayış-kommunal təsərrüfatında yanacaq və enerjidən istifadənin effektivliyinin artırılması Azərbaycan Respublikası Nazirlər Kabinetinin fəaliyyətinin prioritet istiqamətlərindəndir. Son vaxtlar respublikamızda, eləcə də bütün dünyada bina və qurğuların enerji effektivliyinin artırılması sahəsində böyük elmi-tədqiqat işləri aparılır. Bu tədqiqatların nəticələrinə əsaslanaraq, Azərbaycanda enerjidən istifadənin yaxşılaşdırılması sahəsində kompleks proqramın həyata keçirilməsinə başlamaq olar. Enerjiyə qənaət olunmasının vacibliyini aşağıdakı altı səbəblə ümumiləşdirmək olar:

– *üzvi yanacaq mənbələrinin tükənməsi;*
– *üzvi yanacağın qiymətinin qalxması;*
– *ətraf mühitin qorunması;*
– *ölkənin energetik təhlükəsizliyinin təminatı;*
– *əhalinin artımı və enerji çatışmazlığı;*
– *obyektiv iqtisadi səbəblər.*

Dünyanın bütün ölkələrində enerji təchizatının yaxşılaşdırılmasına istiqamətlənmiş proqramların iki əsas bölməsi vardır:

1. Alternativ bərpa olunan enerji mənbələrindən istifadə etməklə energetikanın inkişafı.

2. İstifadə olunan enerjinin effektivliyinin artırılması [1].

Karbohidrogen ehtiyatlarının tükənməsi, eyni zamanda onların ətraf mühitə mənfi təsiri bütün dünyada olduğu kimi, Azərbaycanda da bərpa olunan enerji istehlakı zərurətini gündəmə gətirmişdir. Artıq bu istiqamətdə ölkədə müsbət təcrübələrdə vardır ki, günəş, külək, digər ekoloji təmiz enerji mənbələrindən istifadə edilir. Azərbaycan iqtisadiyyatının neft-qaz sektorundan əhəmiyyətli dərəcədə asılı olmasına baxmayaraq, bütün dünyada gedən "yaşıl enerji" təchizatı tendensiyası Azərbaycanda da sürətlə inkişaf etdirilir.

İnsan gün ərzində 1,5-2 kq yemək, 2-3 litr su və 25-30 kq hava qəbul edir. Yeməyin və suyun təmiz olmasını tənzimləsək də havanın təmizliyinə nail ola bilmirik. Aparılan araşdırmalar göstərir ki, müasir mənzillərin və ofislərin havası xarici havadan 4-6 dəfə çirkli, 8-10 dəfə toksikdir. Artıq 15 ildən çoxdur ki, bütün dünyada "xəstə binalar sindromu" adlı termin işlədilir. Ekspertlərin qiymətləndirməsinə görə, ABŞ-da

20-30% binalarda bu sindrom hökm sürür [2]. Təəssüf ki, (bəlkə də xoşbəxtlikdən) bu sindromun respublikamızda hansı vəziyyətdə olması barədə heç bir məlumat yoxdur. Lakin bu sindromun əlamətlərini araşdırsaq (mənzillərdə nəfəsalma problemləri, oynaqlarda ağrılar, yuxusuzluq, immun sisteminin pozulması və s.) görərik ki, binalarımızda faiz göstəricisi aşağı deyil. "Xəstə binalar sindromu"nun əsas səbəbi otaqlar daxilindəki havanın keyfiyyətinin pis olması, tozluluq dərəcəsinin yüksək olmasıdır (təqribi hesablamalara görə insan gün ərzində mənzildə bir xörək qaşığı miqdarında toz udur).

1992-1997-ci illərdə ABŞ, İtaliya və Rusiya alimləri birlikdə yaşayış və ictimai binalarda havanın keyfiyyətini yoxlamaq üçün xüsusi tədqiqatlar aparmışdılar. Tədqiqatların nəticələri müasir binalarda xəstəlik sindromunun yaranmasına səbəb olan risk faktorlarını müəyyənləşdirmişdir. Bu siyahıya yanma məhsulları (məsələn, qazın yanmasından alınan), zəhərli inşaat materialları, otaqlar daxilində yüksək nisbi nəmlik və s. daxildir [3]. Müasir binaları layihələndirərkən qarşıya qoyulan əsas tələblərdən biri də ondan ibarət olmalıdır ki, insanların yaşayış, istirahət və iş yerlərində onların fizioloji, mədəni və məişət tələbatları üçün əlverişli şərait və mikroiqlim yaradılsın. Nəzərə almaq lazımdır ki, yaşayış şəraiti insan sağlamığına təsiretmə dərəcəsinə görə yemək və əmək şəraitindən sonra üçüncü yeri tutur [4].

Müasir dövrdə insanlar öz həyatlarının 90%-ni qapalı yerdə (evdə, işdə, nəqliyyatda və s.) keçirirlər. Rusiya Tibb Elmləri Akademiyasının A.N.Sısin adına İnsanın ekologiyası və ətraf mühitin gigiyenası Elmi-Tədqiqat İnstitutunda aparılan araşdırmalar göstərir ki, qapalı yerlərdə kimyəvi və bakterioloji çirklənmələrin səviyyəsi atmosfer havasının çirklənmə səviyyəsindən beş və daha çox artıqdır. Eyni zamanda cəmiyyətdə aparılan bütün tədbirlərə baxmayaraq, ətraf mühitin ekoloji vəziyyəti durmadan pisləşməkdədir. Nəfəs aldığımız havanın tərkibində sənaye tullantıları, avtomobillərin buraxdığı qazlar, üzvi yanacaqların (qaz, neft, daş kömür və s.) yandırılmasından alınan zəhərli tullantılar və s. vardır. Həmin tullantıların miqdarı isə dəhşətli səviyyəyə çatmışdır. Buradan belə nəticəyə gəlmək olur ki, belə halda qapalı yerlərdə olmaq ətraf mühitdə olmaqdan daha təhlükəsizdir. Bu məsələni araşdırmağa çalışacağıq [5].

2003-cü ildə dünyada 6 mlrd., o cümlədən Çində 1,5 mlrd., Hindistanda 1 mlrd., ABŞ-da 300 mln., Rusiyada 140 mln. adam yaşayırdı. Dünyanın əhalisi hər il 60-70 mln. artır. Bu gün dünya əhalisinin sayı 7 milyardı keçib. XX əsrin ikinci yarısında bütün dünyada urbanizasiya prosesi artmağa başladı və əhalinin kəndlərdən şəhərlərə axını gücləndi. Əgər 1980-ci ildə dünyada əhalisinin sayı bir milyondan artıq olan 4 şəhər vardırsa, hazırda onların sayı 220-ni ötüb. Vaşinqton-Bostonda 40 mln., Mexiko, Tokio, Şanxayda 20 mln.-dan çox əhali yaşayır. Bakı şəhərinin əhalisinin sayı isə 3 milyonu ötüb. Urbanizasiya prosesinin bütün müsbət cəhətləri ilə yanaşı, mənfi cəhətləri də az deyildir. Bu sırada birinci yeri sanitar-gigiyenik və ekoloji problemlər tutur [6]. Hava, su və torpağın çirklənməsi, səs, informasiya bolluğu və s. şəhər mühitində yaşayan insanların sağlamlığına ciddi təsir edir. Nəqliyyat vasitələrinin, sənaye müəssisələrinin kommunal tullantılarının, yol və bina tikintisinin ətraf mühitə vurduğu zərər ölçüyəgəlməzdir. Bu tullantılar əhalinin yaşayış şəraitini aşağı salır, havanın şəffaflığını pisləşdirir, təbii işıqlanmanı azaldır, çən və duman əmələ gəlməsini artırır. Bütün bu faktorlar şəhərin ekoloji əsasını və onun makroiqlimini (makroiqlim dedikdə, şəhər ərazisində temperatur, nisbi nəmlik və havanın hərəkət sürətinin vəhdəti nəzərdə tutulur) müəyyən edir:

1. Havadakı toza görə insolyasiya kəndə nisbətən 15-20% az olur, bu isə şəhər mühiti üçün günəş enerjisinin yer səthinə düşməsini azaldır (dumanlı havada isə 40-120 dəfə).

2. Daşdan tikilmiş hündür binalar gündüzlər günəş enerjisini udur və havanın temperaturunu artırır. Nəticədə orta illik temperatur şəhərətrafı ərazinin temperaturundan 1,5ºC çox olur.

3. Şəhərdəki nisbətən isti havaya görə şəhərətrafı ərazilərdəki daha soyuq hava yer səthi boyunca şəhərə axır və şəhər üzərində şarabənzər duman əmələ gətirir (ona görə də şəhərlərdə daha çox duman və atmosfer çöküntüləri olur).

4. Asfalt örtüyünün çox olmasına görə yağış suları torpağa çökmür, borularla ətraflara axıdılır və torpağın özünütəmizləmə prosesi pozulur.

5. Bitkilərin məsamələri tozla örtülür, foto-

sintez çətinləşir, nəticədə ağacların yarpaqları saralaraq tökülür və ağaclar məhv olur. Bu isə şəhərləri oksigendən məhrum edir.

6. Şəhərlərdə beton konstruksiyalar, metal örtüklər və hasarlar tez dağılır.

7. Ətraf mühitin havasının çirkli olması və səs problemlərinə görə mənzillərin havasını vaxtaşırı dəyişmək mümkün olmur.

Qeyd etmək lazımdır ki, insanlar qapalı şəraitdə optimal temperatur şəraitində yaşamalı və ya işləməlidirlər. Soyuq şəraitdə optimal temperatur 20-23ºC, mülayim şəraitdə 20-22ºC, isti şəraitdə isə 23-25ºC olmalıdır. Otağın hündürlüyü boyu temperatur qradiyenti 2ºC-dən çox olmamalıdır. Əgər temperatur qradiyenti 2ºC-dən çox olarsa, ətrafların soyuması və yuxarı tənəffüs orqanlarının temperaturunun reflektor dəyişməsi baş verə bilər. Otaqların divarlarının səthlərindəki temperatur otaq temperaturundan 3ºC-dən aşağı olmamalıdır [8]. Otaqlarda havanın hərəkət sürəti vacib mikroiqlim göstəricisidir. Belə ki, hərəkət edən hava insana fiziki və fizioloji təsir edir. İnsanların çox olduğu, yaşadığı və zehni işlə məşğul olduğu otaqlarda havanın sürətinin normativ qiyməti 0,10-0,25 m/san olmalıdır. Nisbi nəmliyin normativdən fərqli olması isə insan orqanizminin ətraf mühitlə adaptasiya imkanlarının gərginləşməsinə səbəb olur. İnsanın yaşayışı və normal iş şəraiti üçün nisbi nəmliyin normativ qiyməti 40-60% intervalında olmalıdır.

İnsanların normal həyat fəaliyyəti və orqanizmin vacib funksiyalarının tənzimlənməsi üçün əsas faktorlardan biri də təbii işıqlanmadır. Yaşayış binaları üçün təbii işıqlanmanın gündəlik norması 3 saat olmalıdır. Otaqların təbii işıqlanması isə birbaşa paylanmış və əks olunmuş günəş işığının hesabına yaranır. Otaqların təbii işıqlanması otaqların cəhətindən (binanın pəncərələrinin cəhətə görə yerləşdirilməsindən), pəncərələrin və otağın ölçülərindən, qonşu binalar arasındakı məsafədən (binalar arasındakı məsafə binaların hündürlüyündən 1,5 dəfədən az olmamalıdır), şüşələrin keyfiyyəti və təmizliyindən, divar və tavan rənglərinin xarakterindən (açıq rənglər işığı əks edir və işıqlanmanı artırır) və s. asılıdır. Gigiyenik nöqteyi-nəzərindən pəncərələrin cəhəti cənuba və cənub-şərqə yönəlməlidir. Azərbaycanın şəraiti üçün yaşayış binalarında pəncərələrin optimal yerləşməsi cənub-qərb və cənub-şərq, məktəblər üçün isə şərq hesab olunur.

Son iki onillikdə apardığımız tədqiqat işlərinin nəticələri göstərir ki, Bakı şəhərində tikilən yaşayış və inzibati binaların isitmə, ventilyasiya və kondisioner sistemləri otaqlar daxilində insan həyatı üçün təhlükəli olan bakteriya və virusların inkişafı, artması üçün optimal mühit yaradır. Belə ki, otaqlara verilən xarici hava təhlükəli viruslardan lazım olan dərəcədə təmizlənmir, əksər hallarda isə tam dövretmə aparılır və otaqlara xarici hava vurulmur (qeyd edək ki, qüvvədə olan inşaat norma və qaydalarına görə əqli əməklə məşğul olan və ya sakit vəziyyətdə olan insanların normal fəaliyyəti üçün bir saat ərzində 25-30 m^3, ağır fiziki işlə və ya idmanla məşğul olanlar üçün isə 80 m^3 təmiz hava lazımdır) [7]. Son zamanlar müasir binaların tikintisində əsasən plastik pəncərələrdən istifadə olunur, enerji effektivliyini yüksəltmək məqsədi ilə xarici qoruyucu konstruksiyalar hermetikləşdirilir, onlarda olan istilik və soyuqluq körpüləri ləğv olunur, infiltrasiya və eksfiltrasiya prosesləri mümkün qədər minimuma endirilir. Nəticədə otaqlar daxilində havanın keyfiyyəti aşağı düşür. Bu isə ağır nəticələrə gətirib çıxara bilər.

Onu da nəzərə almaq lazımdır ki, müasir binalarda pəncərə təkcə xarici qoruyucu konstruksiyanın hər hansı bir elementi kimi deyil, həm də binanın ventilyasiya sisteminin əsas hissəsidir. Xarici pəncərələrdən otaqlara təmiz hava daxil olmalıdır. Əks halda isə mənzillərdə yaşayanlar daxili havanın keyfiyyəti aşağı olduğundan müntəzəm olaraq pəncərəni açıq saxlayacaqlar və nəticədə enerji səmərəliliyinin effekti heçə enəcək.

Enerji qoruyucu tədbirlər sanitar normalarında nəzərdə tutulan daxili mikroiqlim parametrlərini pisləşdirməməlidir. Enerji qoruyucu tədbirlər dedikdə, istilik enerjisinin sərfinin minimuma endirilməsi yox, minimal enerji sərf etməklə otaqlar daxilində tələb olunan komfort şəraitin yaradılması nəzərdə tutulur. Xarici qoruyucu konstruksiyaların tam termomodernizasiyası, onların qalınlığının artırılması, istilik və soyuqluq körpülərinin minimuma endirilməsi və

s. tədbirlər binanın tam hermetik olmasına gətirib çıxarır və binaya xarici hava praktik olaraq daxil olmur. Nəticədə daxili havanın keyfiyyəti aşağı düşür və binada xəstəlik sindromu yaranır [8].

Nəticə. Sonda yazılanlardan belə nəticəyə gəlmək olar ki, otaqlar daxilində havanın keyfiyyətini tələb olunan normalar səviyyəsində saxlamaq şərti ilə binaların enerji effektivliyini yüksəltmək üçün kompleks tədbirlərin həyata keçirilməsi daha məqsədəuyğun hesab edilir. Təbiidir ki, xarici qoruyucu konstruksiyaların, xarici pəncərə və qapıların istilikötürmə əmsallarının qiymətlərini Avropa standartlarına yaxınlaşdırmaq vacibdir. Bu yolla binaların ümumi istilik tələbatını iki dəfə azaltmaq mümkündür. Lakin təkcə xarici konstruksiyalarda infiltrasiya və eksfiltrasiya proseslərini minimuma endirməklə enerji effektivliyini artırmaq düzgün yol hesab edilə bilməz. Eyni zamanda binaları hakim küləklərə nəzərən optimal yerləşdirmək, eləcə də şəhərin Baş planı hazırlanarkən binalar arasındakı məsafəni normalara uyğun tənzimləmək, binaların isitmə sisteminin effektivliyini artırmaq, istilik kəmərlərinin bina daxilində optimal paylanmasını təmin etmək, açıq yerləşdirilmiş istilik borularını izolyasiya etmək, istiliyin otaqlara verilmə üsulunu normalara uyğunlaşdırmaq və s. yollarla istilik enerjisinin yüksək effektivliyini əldə etmək mümkündür.

İstifadə edilmiş ədəbiyyat

1. Lindberq M., Markard J., Andersen A. Siyasətlər, aktyorlar və davamlılığa keçid yolları: Aİ-nin enerji siyasəti qarışığının tədqiqi. Araşdırma siyasəti, 2019, 48(10), 103668.
https://doi.org/10.1016/j.respol.2018.09.003.

2. Əlverişli və ədalətli təmiz enerji keçidləri üçün strategiyalar. "Dünya Enerji Keçidi Görünüşü" xüsusi hesabatı. 2024, 210 s.

3. Quliyev F. Ənənəvi neft istehsalçı ölkələrdə bərpa olunan enerji hədəfləri və siyasətləri: Azərbaycan və Qazaxıstanın müqayisəsi. Jurnal of Eurasian Studies, 2024, 15(1), s.110-124.
https://doi.org/10.1177/18793665231177720.

4. Məmmədov N., Əkbərova S. Azərbaycanda binaların multidissilinar enerji auditinin yeni metodologiyası. Mühəndislik və elmdə innovativ texnologiyalar üzrə beynəlxalq simpoziumun materialları. 2011, s.210-219.

5. LiW. Dünya miqyasında bərpa olunan enerjiyə keçidin xəritəsi: cazibə trayektoriyası, töhfənin parçalanması və gəlir səviyyələri. Bərpa olunan enerji. 2023, 206, s.1265-1274.
https://doi.org/10.1016/j.renene.2023.02.119.

6. Ren X., Li J., He F., Lucey B. İqlim siyasətinin qeyri-müəyyənliyinin ənənəvi enerji və yaşıl bazarlara təsiri: zamanla dəyişən Qrancer testlərindən sübut. Bərpa olunan və davamlı enerji icmalı. 2024, 173, s.114-220,
https://doi.org/10.1016/j.rser.2022.113058.

7. Liu W., Shen W., Razzaq A. Bərpa olunan enerji sərmayəsi, ətraf mühit qaydaları və maliyyə inkişafı bərpa olunan enerjiyə keçidi necə əldə edir: G7 ölkələrindən sübutlar. Ren. En., 2023, 206, s.1188-1197,
https://doi.org/10.1016/j.renene.2023.02.017.

8. Мамедов Н.Я. Качественное моделирование режима потребления тепловой энергии для современных зданий. Экоэнергетика, 2009, №2, с.24-28.

9. Мамедов Н.Я. Анализ проблем энергосбережения в зданиях. Материалы Международной конференции на тему "Müasir şəhərlərin davamlı inkişaf problemləri", Баку, 6-7 декабря 2013 г., с.92-96.

Peşə təhsili və insan kapitalı. Cild 7, №4, 2024, s.84-87

İNTELLEKTUAL AVTOMOBİL NƏQLİYYAT SİSTEMLƏRİNİN TƏHLÜKƏSİZLİK TƏLƏBLƏRİNİN AKTUALLIĞI

Naridə Zülfüqarova,
Azərbaycan Texniki Universitetinin Nəqliyyat logistikası və hərəkətin təhlükəsizliyi kafedrasının baş müəllimi, Qabaqcıl təhsil işçisi
e-mail: naridezulfuqarova@gmail.com

Aysel İsayeva,
"Smart Digital Solutions" MMC-nin köməkçi proqramçısı, layihə üzrə mütəxəssis
e-mail: isayeva.aysel@gmail.com

https://doi.org/10.30546/2706-7858.7.4.2024.041

UOT: 656.5

Xülasə. *Məqalədə nəqliyyatda beynəlxalq yük daşımalarda təhlükəsizliyin təmin olunması üçün nəqliyyat vasitələrinin sürücülərinə çətin yol şəraitində məlumatları əldə etməyə kömək edən siqnallar və yol nişanlarından, müasir intellektual nəqliyyat sistemləri (İNS) texnologiyaları vasitəsilə yol infrastrukturundan avtomobilə ötürülən məlumatlardan, avtomobilin qarşısındakı yol nişanlarını tanıyan, məhdudiyyət nişanının şəklini proyeksiya edərək sürücüyə çatdıran xüsusi videokameralardan bəhs edilir. Həmçinin arxadan toqquşma zamanı avtomobil nəqliyyat vasitələrinə quraşdırılmış təhlükəsizlik sistemlərini qəza nəticələrinin şiddətini necə azaltdığı, oturacaqlara nəzarəti aktivləşdirdiyi və təhlükəsiz vəziyyətə gətirməyə necə kömək etdiyi də qeyd olunur.*

Açar sözlər: *avtomobil nəqliyyatı, təhlükəsizlik, infrastruktur subyektləri, informasiya texnologiyaları, videokameralar.*
Key words: *motor transport, security, infrastructure subjects, information technologies, video cameras.*
Ключевые слова: *автотранспорт, безопасность, объекты инфраструктуры, информационные технологии, видеокамеры.*

Müasir cəmiyyətin inkişafı elmi-texniki tərəqqinin tətbiqində mühüm rol oynayır. Beynəlxalq münasibətlərin aktual problemi müxtəlif sferalarda təhlükəsizliyi təmin etməkdir. Təhlükəsizlik siyasi kateqoriya olub, sosial anlayışdır. Müasir avtomobillər isə artan təhlükəni təşkil edir. Avtomobil nəqliyyatı güclü iqtisadiyyatın və dinamik cəmiyyətin əsası olub, harada yaşamasından asılı olmayaraq, hər bir insanın həyat keyfiyyətini yüksəltməyə imkan verir. Avtomobil nəqliyyatı olmadan iqtisadi cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr iqtisadi inkişaf, sosial yüksəliş və tərəqqi əldə edə bilməz. Bu gün avtomobil nəqliyyatı daha effektiv, təmiz, təhlükəsiz və səssiz olmuşdur. Digər nəqliyyat növlərindən fərqli olaraq avtomobil nəqliyyatı müasir həyatın bütün

sahələrinə nüfuz etmiş və "qapıdan-qapıya" yük daşımalarda unikal çevikliyi təmin etmişdir. İnsanlar istər şəhər, istərsə də kənd yerlərində hər hansı digər nəqliyyat növündən istifadə etmədən rahat şəkildə yaşaya bilər, lakin avtomobil nəqliyyatı haqqında bunu demək olmaz və bu səbəbdən də dünyada avtonəqliyyat vasitələrinin sayı durmadan artmaqdadır. Avtomobil nəqliyyatının istehsal prosesi yüklərin və sərnişinlərin daşınmasıdır ki, bu da avtomobil daşımaları adlanır. Müasir cəmiyyətdə texnologiyalardan geniş istifadə olunur və avtomobil daşımalarında yük və sərnişinlərin təhlükəsizliyini artıran bir çox intellektual nəqliyyat sistemləri aktuallığını gündən-günə inkişaf etdirir.

İntellektual nəqliyyat sistemləri (İNS) avtomobilin sosial əhəmiyyətini və potensial təhlükəsini nəzərə alaraq, avtomobillərin təhlükəsiz işləməsini asanlaşdırmaq üçün təchiz edilir. Kompüterləşdirilmiş avtomobil yol bələdçiləri olan naviqasiya kommunikasiya texnologiyaları iş və şəxsi həyatımızda əvəzolunmazdır.

Nəqliyyatın intellektual təhlükəsizlik sistemləri nəqliyyat vasitələrinə və ya yol infrastrukturuna quraşdırılmış informasiya, kommunikasiya və idarəetmə texnologiyalarından istifadə etməklə nəqliyyatın səmərəli işləməsini mümkün edən alt sistemlər toplusudur. "Ağıllı nəqliyyat"ın fəaliyyətini təmin edən, mütəxəssislərin həll etdiyi əsas vəzifələr məlumatların toplanılması, emalı, inteqrasiyası və yayılmasıdır. İntellektual nəqliyyat sistemlərinə daxil olan funksional mühəndis texnoloji avadanlıq kompleksləri məlumat toplayır, nəqliyyat axınını tənzimləyir və hər bir yol istifadəçisinə lazımi məlumatları çatdırır. İnteqrasiya edilmiş nəqliyyat təhlükəsizliyi sistemlərinin səmərəli işləməsini təmin etmək üçün təchizatla ən müasir avadanlıq və onun səriştəli işləməsini birləşdirmək lazımdır.

İnformasiya texnologiya sisteminin düzgün işləməsi istənilən müasir intellektual nəqliyyat sisteminin "gözü" olan yüksək ayırdetmə qabiliyyətinə malik kameralar sayəsində mümkündür. Bu kameralar nəqliyyat axınını, hərəkət edən obyektləri müəyyən edir və izləyir, avtomobilin qeydiyyat nişanlarını çəkir və tanımaq üçün göstərir.

Ağıllı işıqforlar daxil olan məlumatları və sistemin digər elementlərindən oxunuşları təhlil edərək, xüsusi proqram təminatı ilə idarə olunan işiqforlara ötürür və **üç** rejimdə işləyir:

1. *Yerli cihazın işləməsi, məsələn, səhər və axşam pik saatlarını nəzərə alan bir sxemə əsaslanaraq işləyir.*
2. *Əlaqələndirilmiş bir neçə işiqfor məlumat mübadiləsi aparır və birlikdə işləyir.*
3. *Adaptiv avtomatik rejimdə müstəqil işləyən işıqforlar yoldakı vəziyyət haqqında məlumatı xüsusi sensorlardan istifadə edərək əldə edir və onun əsasında qərar qəbul edir.*

Kor nöqtələrin aşkarlanması sistemi (BLIS) saniyədə 25 kadr təşkil edən, kənar arxa görünüş güzgülərində quraşdırılmış videokameralardan və hər biri 3x9,5 m ölçüdə obyektlərin bu zonalara daxil olmasını tanıyan kompüterdən ibarətdir. Ağıllı avtomobilin qapalı sistemlərinə kiçik telematika, ətraf mühitlə əlaqəsinə isə böyük telematika deyilir. Sürücülüyə Dəstək Sistemləri nəqliyyat vasitələrinin sürücülərinə çətin yol şəraitində başa düşülməsi çətin olan məlumatları əldə etməyə kömək edir (siqnallar, yol nişanları və s.). Məlumat müasir İNS texnologiyaları vasitəsilə yol infrastrukturundan avtomobilə ötürülür.

Sürücülərə işıqforun qırmızı işığını vaxtında görməyə kömək edən "smartway" sistemi magistral yollarda qəzaların başvermə ehtimalını azaldır, sürücüləri tıxaclar, yol qəzaları və s. barədə xəbərdar etmək üçün sensorlardan, yol-nəqliyyat vasitələri və digər qabaqcıl İNS texnologiyalarından istifadə edir. Xüsusi videokamera avtomobilin qarşısındakı təsviri emal edir, yol nişanlarını tanıyır və məhdudiyyət nişanının şəklini proyeksiya edərək sürücüyə çatdırır. Gecə-görmə sistemi isə ən müasir texniki həllər əsasında qaranlıqda yaxşı görünməni təmin etməyə imkan verir. Belə sistemlərin əsasını optik siqnal yox, obyektlərin temperaturu haqqında məlumat alan termal kameralar təşkil edir və



piyada, heyvan və ya digər yaşayış maneələrini etibarlı şəkildə tanıyır.

Piyadaların aşkarlanması üçün "gecəgörmə" sistemi "toqquşmadan yayınma" sistemindən, millimetr dalğalı radarlar və kameralardan istifadə edir. Radar avtomobilin qarşısındakı ərazini skan edir, elektron blokun maneəyə yaxınlaşma sürətini hesablayır. Hazırda bir neçə radarı olan sistemlər mövcuddur. Sürücü sistemi əl ilə deaktiv etsə belə, maşın onun qarşısında təhlükəli maneə yaradarsa və ya sürücü "yuxuda" olarsa, avtomobil özü lazımi əmri verir. Məsələn, təhlükəli məsafədə olan avtomobilə yaxınlaşdıqda cihaz tormoz etməyə başlayır. Sistem avtomobili təyin olunan sürətə qədər saxlayır və təhlükə aradan qalxdıqdan sonra onu yenidən müəyyən edilmiş sürətə çatdırır. Ötürmə qutusu GPS peykləri ilə əlaqələndirilir və bu zaman sistem yolun bir hissəsindəki sürət həddini nəzərə alaraq avtomatik olaraq müəyyən ötürməyə keçir. Avtomobilin arxa və ön buferlərinə quraşdırılmış 12-ə qədər sensorlu "parktronic" ən çox yayılmış sistemdir. "Sonar" sistemi maneənin ölçüsünü, məsafəsini təyin edir və sürücünü xəbərdar edir. Bu sistem ağıllı qapı kilidləri vasitəsilə mexanizmi açmaq və bağlamaq üçün smartfon və ya fitnes qolbağı kimi yaxınlıq cihazları və portativ cihazlar vasitəsilə avtomobilin qapılarını açıb-bağlamağa imkan verən sistemdir. Sürücü avtomobilin yaxınlığında olduqda avtomatik açılan və uzaqlaşdıqda avtomatik bağlanan qapı kilid sistemi sayəsində onun hərəkət istiqamətindəki maneəni vaxtında müəyyən etməyə imkan verir. Həmçinin çətin şəraitdə təhlükəsiz park etməyə kömək edir.

"Ekran-kamera təhlükəsizlik" sistemi qəbul edilən görüntülərə baxmaq, görüntüləri yazmaq, səsləndirmək, uzaqdan görüntüləmək və digər bu kimi əməliyyatları təmin edən X-ray, kamera, lens, ayaq, mühafizə, kabel, monitor, qeyd, nəzarət cihazı və digər materiallardan ibarət məhsul və xidmət birləşməsidir.

Texniki təhlükəsizlik tələbləri qanunla, Azərbaycan Respublikasının digər normativ-hüquqi aktları və texniki-normativ sənədləri ilə müəyyənləşdirilən, qəbul olunan və texniki təhlükəsizliyi təmin edən şərtlər, qadağalar, məhdudiyyətlər və yerinə yetirilməsi məcburi olan tələblərdən ibarətdir. Texniki təhlükəsizlik tələbləri dövlət standartlarına, əməyin mühafizəsi qaydalarına, ekoloji və yanğın təhlükəsizliyi, ətraf mühitin mühafizəsi, sənaye və tikinti, sanitar-epidemioloji, əhalinin və ərazinin fövqəladə hallardan müdafiəsi normalarına uyğun olmalıdır.

Təhlükəsizliyin tələb və qaydaları. Nəqliyyat infrastruktur obyektlərində təlimatlandırma ümumi təhlükəsizlik qaydalarını öyrətmək istehsalatın təhlükəsizlik dərəcəsindən, xarakterindən, eləcə də işçilərin peşələri və dərəcələrindən asılı olmayaraq bütün sexlərdəki işçilərin təhlükəsiz iş metodlarını mənimsətmək məqsədi ilə aparılır.

İnformasiya təhlükəsizliyi yazılı, şifahi və ya elektron mediada məlumatların qorunması və doğru məlumatların doğru zamanda lazımi şəxsə çatdırılmasıdır. İnformasiya texnologiyaları təhlükəsizliyi informasiya cihazları və proqram təminatlarının istifadəsi nəticəsində yarana biləcək risk və təhlükələri araşdıran informasiya texnologiyaları şöbəsidir.

Fiziki təhlükəsizlik təcavüzkarların bir qurğu, qaynaq və ya fiziki məlumat əldə etməsinin qarşısını almaq və ya yayındırmaq üçün görülən tədbirdir.

Qida təhlükəsizliyi iki konsepsiyanı özündə birləşdirir. Beynəlxalq münasibətlər sahəsində insanlar aclıq və qıtlıq içində yaşamamalıdırlar. Qidanın istehsal mərhələsindən son istehlakçıya çatana qədər insan sağlamlığı üçün uyğun şərtlərdə qida istehsalı, saxlanılması, qablaşdırılması və daşınması üçün düzgün nəqliyyat vasitələrinin seçilməsi təmin edilməlidir.

İnsan təhlükəsizliyi milli təhlükəsizlik, suverenlik və insan hüquqları sahəsində konseptual bir problemi göstərən beynəlxalq münasibətlər toplusudur. Əməyin mühafizəsi iş proseslərində hər hansı bir iş xəttində çalışan işçilər üçün sağlamlıq və təhlükəsizlik tədbirlərinin görülməsidir. Təhlükəsizlik tədbirləri infrastruktur subyektləri və işçilər üçün iş şəraitinin yaxşı-

laşdırılmasına səbəb olur, işçilərin fiziki səmərəliliyini artırır və həyatlarını qoruyur.

Normal əmək və istirahət rejiminə riayət edilməsi Azərbaycan Respublikasının ərazisində yerləşən nəqliyyat müəssisələrində norma və qaydalara uyğun müəyyənləşdirilir.

Ulu öndər Heydər Əliyev demişdir: "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır". Doğrudan da, təhlükəsizliyin düzgün təşkil olunmaması, insan diqqətsizliyi, ehtiyatsız yanaşma, qeyri-kafi bacarıq və düzgün nəzarət olunmaması bir çox xoşagəlməz hadisələrin yaranmasına səbəb olur.

Nəticə. Araşdırmalarımızdan belə bir nəticəyə gəlmək olar ki, avtomobil nəqliyyat vasitələrinin istismarında bir çox səbəblərdən yaranan qəzaların nəticəsini minimuma endirmək, nəqliyyat infrastruktur obyektləri və nəqliyyat vasitələrinin təhlükəsizliyini təmin etmək, yük və sərnişinlərin sağlam təyinat məntəqəsinə çatdırılmasına nail olmaq, yol hərəkət qaydalarına düzgün riayət etməklə qəzaları aradan qaldırmaq mümkündür. Nəqliyyat sahəsində idarəetmə prosesləri səviyyəsinin artması əməliyyat zamanı potensial təhlükələrin və müxtəlif qəzaların yaranmasına səbəb olduğundan təhlükəsizlik sistemlərinin köməyi ilə tədbirlər görülməsi, nəzarətin gücləndirilməsi üçün avtomobil nəqliyyat vasitələrinə, nəqliyyat infrastruktur obyektlərinə və yol infrastrukturuna quraşdırılmış informasiya-kommunikasiya, intellektual idarəetmə texnologiyalarından, kameralarından və nəqliyyatın səmərəli işləməsini mümkün edən ağıllı sistemlərdən (məlumatların toplanılması, emalı, inteqrasiyası və yayılması) istifadə edən bütün alt sistemlər toplusunun vasitəsilə ölkənin nəqliyyat sahəsində səmərəli nəticələr əldə edilir.

İstifadə edilmiş ədəbiyyat

1. Прохоренко В.А. Развитие автомобильного транспорта и повышение безопасности дорожного движения, автомобильный транспорт. 2012, №5, с.3-6.

2. Андрейцев М.В., Антипова О.В., Режанова Л.Ю. Концепция устойчивого развития транспортного комплекса. Вестник ИрГУПС, 2015, №2, с.62-67.

3. Горбачева Т.В. Роль инноваций в развитии транспортной системы Российской Федерации. Инновации. 2014, №1 (187), с.95-99.

4. Егоров С.В. Совершенствование транспортных услуг и повышение их качества. Вопросы инновационной экономики. 2016, №2, с.79-85.

N.Zulfugarova, A.Isayeva

Relevance of safety requirements of intelligent vehicle transport systems

Abstract

In the article, in order to ensure safety in international transportation, from signals and traffic signs that help vehicle drivers to obtain information in difficult road conditions, from the information transmitted from the road infrastructure to the car through modern INS (intellegent transport systems) technologies, processing the image in front of the car, recognizing road signs, projecting the image of the restriction sign, describes special videocameras that communicate to the driver, how the safety system installed in motor vehicles can reduce the severity of the crash, activate seat control and help to make it safe in the event of a rear-end collision.

Н.Зульфугарова, А.Исаева

Актуальность требований безопасности интеллектуальных транспортных систем транспортных средств

Аннотация

В статье в целях обеспечения безопасности при международных грузовых перевозках из сигналов и дорожных знаков, помогающих водителям транспортных средств получать информацию в сложных дорожных условиях, осуществляется передача информации от дорожной инфраструктуры к автомобилю посредством современных технологий интеллектуальных транспортных систем ИНС (интеллектуальных транспортных систем) для распознавания дорожных знаков перед автомобилем, проецирования изображения запрещающего знака упоминаются специальные видеокамеры, которые доставляют водителю. В нем также упоминается, как системы безопасности, установленные в автомобилях, снижают тяжесть аварии, активируют органы управления сиденьями и помогают перевести систему безопасности в безопасное положение во время удара сзади.

Peşə təhsili və insan kapitalı. Cild 7, №4, 2024, s.88-92

GÜNƏŞİN FİZİKİ XASSƏLƏRİ VƏ GÜNƏŞ ENERJİSİNDƏN ELEKTRİK ENERJİSİNİN ALINMASI YOLLARI

Sevinc Rzayeva,
Naxçıvan Dövlət Universitetinin Elektroenergetika kafedrasının baş müəllimi
e-mail:sevincrzayeva1969@gmail.com
https://doi.org/10.30546/2706-7858.7.4.2024.047

UOT: 523; 621

Xülasə. *Məqalədə günəşin quruluşu, onun tərkibindəki elementlər, həcmi, yerdən olan məsafəsi, yer kürəsindəki yaşam üçün əhəmiyyəti və vacibliyindən danışılır. Günəşin əsas və fiziki xüsusiyyətləri cədvəl şəklində göstərilmişdir. Bunlara nəzər saldıqda görürük ki, Günəş tükənməz və ekoloji cəhətdən nəhəng enerji mənbəyi olub, təbiətdə baş verən inkişaf prosesləri ilə əlaqədardır. Bundan başqa, məqalədə günəş radiasiyası, onun elektromaqnit və korpuskulyar şüalanması haqqında danışılır. Günəş radiasiyasının yer səthində bərabər və qeyri-bərabərliyinə aydınlıq gətirilərək qeyd edilmişdir ki, günəş şüalarının yer səthinə düşmə bucağı nə qədər böyük olarsa, yer səthində də bir o qədər çox istilik alar. İlin müxtəlif fəsillərində günün uzunluğu da Yerin enliyindən asılıdır. Məqalədə, həmçinin Yerin şüalanma enerjisinin balansı və müxtəlif coğrafi enliklərdə açıq havada üfüqi qəbuledici sahənin şüalanmasının mövsümi dəyişilmələri göstərilmişdir.*

Açar sözlər: *günəş, şüalanma enerjisi, radiasiya, mövsüm dəyişmələri, yaşıl enerji, kollektor, fotoelement, p-n keçidi.*
Key words: *sun, radiant energy, radiation, seasonal changes, green energy, collector, photocell, p-n junction.*
Ключевые слова: *солнце, лучистая энергия, радиация, сезонные изменения, зеленая энергия, коллектор, фотоэлемент, p-n переход.*

Günəş ətrafında dövr edən böyük planetlər və onların peykləri (asteroidlər, kometlər, meteoritlər), kiçik planetlərin xırda hissəcikləri (meteoritlər, kosmik toz) kimi fəza cismlərindən ibarət olan yeganə planetdir. Günəşin həcmi bütün günəş siseminin 99,866%-ni təşkil edir. Günəş şüalarının yerdə həyatın olması (fotonlar fotosintezin ilkin mərhələləri üçün) həyat və iqlim üçün vacibdir. Günəş əsasən hidrogen, helium və az-konsentrasiyalı digər elementlərdən (nikel, dəmir, oksigen, kremnium, kükürd, maqnezium, azot, karbon, neon, kalsium, xrom) ibarətdir. Bir milyon hidrogen atomuna 98000 helium, 851 oksigen, 398 karbon, 123 neon, 100 azot, 47 dəmir, 38 maqnezium, 35 kremnium, 16 kükürd, 4 arqon, 3 aliminium, 2 nikel atomu və çox az bir miqdarda digər elementlərin atomları düşür.

Günəş sistemi də digər planetləri kimi enerjini istilik-nüvə sintezi nəticəsində hasil edir və Günəşdə enerjinin əsas hissəsi hidrogendən heliumun sintezi nəticəsində alınır. Yerin günəşdən olan məsafəsi 149,6 milyon kilometr, təqribən astronomik vahidə, görünən bucaq diametri isə ayda olduğu kimi

yarım dərəcəyə (31-32 dəqiqə) bərabərdir. Günəşin orbital sürəti 217 km/san-ə bərabərdir. Beləliklə, o bir işıq ilini 1400 yer ilinə, bir astronomik vahidi isə 8 yer sutkasına keçir.

Cədvəl 1.
Günəşin əsas xarakteristikaları

Əsas xarakteristikalar	
Yerdən olan orta məsafə	$1{,}496\times10^{11}$ m (8,31işıq dəqiqəsi)
Görünən ulduz böyüklüyü	−26,74 m
Mütləq ulduz böyüklüyü	4,83 m
Spektral dərərcə	G2V
Orbitinin parametrləri	
Qalaktikanın mərkəzindən olan məsafə	$\sim2{,}5\times10^{20}$ m (26 000 işıq ili)
Qalqktikanın müstəvisindən olan məsafə	$\sim4{,}6\times10^{17}$ m (48 işıq ili)
Qalaktik fırlanma periodu	$2{,}25\text{-}2{,}50\times10^{8}$ il
Sürət	$\sim2{,}2\times10^{5}$ m/s (orbitdə qalaktikanın mərkəzi ətrafında) 2×10^{4} m/s (qonşu ulduzlara nisbətdə)
Fiziki xarakteristikalar	
Orta diametr	$1{,}392\times10^{9}$ m (109 yer diametri)
Ekvatorial radius	$6{,}955\times10^{8}$ m
Ekvatorun uzunluğu	$4{,}379\times10^{9}$ m
Yastılıq	9×10^{-6}
Səthinin sahəsi	$6{,}088\times10^{18}$ m^2 (11 900 yer səthi)
Həcmi	$1{,}4122\times10^{27}m^3$ (1, 303 600 yer həcmi)
Kütləsi	$1{,}9891\times10^{30}$ kq (332, 946 yer kütləsi)
Orta sıxlıq	1409 kq/ m^3
Ekvator boyunca təcil	274,0 m/san^2 (27,94 g)
İkinci kosmik sürət (səth üçün)	617,7 km/ s (55 yer)
Səthin effektiv temperaturu	5778 K
Tacın temperaturu	~ 1, 500 000 K
Nüvənin temperaturu	~ 13, 500 000 K
İşıqlılıq	$3{,}846\times10^{26}$ Vt $\sim3{,}75\times10^{28}$ Lm
Parlaqlıq	$2{,}009\times10^{7}$ Vt/m^2/steradian

Günəş də şimal və cənub qütbünə malikdir və Yer kimi öz oxu ətrafında eyni istiqamətdə fırlanır. Günəş öz oxu ətrafında tam dövrü 22 il 59 gün 3 saata başa vurur (±10 gün). Tərkibinə görə günəş bərk maye cisim olub, bərk nüvə, onun ətrafında isti maye mantiya və bərk qabıqdan ibarətdir.

Günəş tükənməz və ekoloji cəhətdən nəhəng enerji mənbəyi olub təbiətdə baş verən inkişaf prosesləri ilə əlaqədardır. Günəşin tərkibi 82% hidrogen, 17% helium və 1% başqa elementlərdən ibarətdir. Onun daxilində başqa ulduzlarda olduğu kimi, termonüvə reaksiyaları gedir. Bu reaksiyalardan ayrılan küllü miqdarda enerji 4 protonun birləşərək helium nüvəsinin əmələ gəlməsi nəticəsində yaranır. Günəşin daxilində temperatur 15-20 mln. dərəcə kelvinə çatır və saniyədə 3,8·1033 erq (3,8·1023 KVt) enerji şüalandırır.

Günəş radiasiyasının yer səthində paylanması coğrafi enlikdən asılıdır. Qütbdən ekvatora doğru getdikdə radiasiya artır. Yerin enliyindən asılı olaraq ilin bu və ya digər vaxtında günorta çağı günəşin üfüq üzərindəki hündürlüyü dəyişir. Günəş, eyni zamanda görünən və görünməyən şüalar, yəni işıq və istiliyini şüalandırır. Onun istilik və işıq şüalandırması günəş radiasiyası (günəşin şüalanma enerjisi) adlanır. Həmçinin günəş radiasiyası dedikdə, onun elektromaqnit və korpuskulyar şüalanması başa düşülür. Korpuskulyar şüalanmanı, əsasən protonlar təşkil edir. Günəş γ-dan radiodiapazonadək bütün elektromaqnit dalğalarında enerji şüalandırır. Radiasiya enerjisinin əsas hissəsi görünən oblastda

düşür. Bu oblastda yer atmosferinə daxil olan radiasiya seli 1,36 kVt/m^2-dır. Rentgen və ultrabənövşəyi şüalanmanı yer atmosferi udduğundan bu oblast atmosferdən kənarda müşahidə edilir. Yer səthinin qeyri-bərabər qızması nəticəsində müxtəlif təzyiqli sahələr yaranır. Havanın yüksək təzyiqli sahələrdən alçaq təzyiqli sahələrə doğru üfüqi istiqamətdə hərəkətinə külək deyilir. Hava axınında küllü miqdarda enerji vardır. Əgər küləyin verə biləcəyi enerjinin yalnız yüzdə bir hissəsindən istifadə edilsəydi onda Azərbaycan ərazisində bir ilə təxminən 450 min ton maye yanacağın verdiyi qədər enerji almaq olardı.

Nəzərə almaq lazımdır ki, günəş radiasiyasının Yer səthinə gəlməsi müəyyən yerdə təkcə coğrafi enlikdən asılı olmur. İstilik və işıq yerin atmosferində əks olunur, udulur, onun tərkibindəki su buxarları, toz, həmçinin buludlar onları səpələyir və atmosferdə səpələnən radiasiya əmələ gəlir. Yer səthinə düz günəş şüalarından (düz radiasiyadan) başqa, radiasiyanın atmosferdə səpələnmiş hissəsi də gəlir. Yer səthinə gəlib çatan düz və səpələnmiş radiasiya ümumi radiasiya adlanır. Ümumi radiasiya qismən yer səthi tərəfindən udulur və onu qızdırır. Yer səthi tərəfindən udulan radiasiyaya udulan radiasiya deyilir. Ümumi radiasiyanın bir hissəsi isə yer səthi tərəfindən əks olunur ki, belə radiasiya əks olunan radiasiya adlanır.

Atmosfer təbəqəsinə çatan şüa enerjisinin ümumi gücü 180 mln GVt-dır. Lakin bir il ərzində atmosferə daxil olan günəş şüası enerjisinin miqdarı 181,5710 kVt saat təşkil edir. Bu həcmə daxil olan enerjinin 45%-i görünən işıq (dalğanın uzunluğu 0,4...0,75 mkm), 45%-i infraqırmızı şüalanma (istilik şüaları), 10%-i isə ultrabənövşəyi şüalardır.

Yerin şüalanma enerjisinin balansı şəkil 1-də göstərilmişdir. Günəşdən yer səthinə gələn radiasiyanı şüalanma enerjisi 100% qəbul edir. Şüalanma enerjisinin 28%-i buludlar vasitəsilə kosmosda əks etdirilir. Yerdən ayrılan istilik (infraqırmızı) şüaları günəşdən gələn şüalara nisbətən 114% təşkil edir ki, bunlardan da 42%-i atmosfer tərəfindən udulur, qalanları isə kosmosa qayıdır. Daxil olan enerji planetin səthi üzrə okean axınları və küləklər vasitəsilə müxtəlif istiqamətlərə paylanılır. Nəticədə günəşin atmosferdə udulan və yer səthinə çatan şüalanma enerjisi (birlikdə 66%) infraqırmızı şüalanma şəklində yenidən fəzaya qayıdır. Həqiqi radiasiya balansını tərtib etmək çətin olsa da nəzərə almaq lazımdır ki, yerin günəşdən aldığı enerjinin hamısı son nəticədə fəzaya səpələnir. Əgər belə olmasaydı, yer fasiləsiz olaraq ya soyuyar, ya da əksinə, qızardı.

Əksər mənbələrdə il ərzində günəşdən Yer kürəsinə gələn şüalanma enerjisi təxminən 1,57·1018 kVt·saat (və ya 178,6·1012 kVt) kimi göstərilir. Bu qədər enerjinin 7,5·1017 kVt·saatı (və ya 85,6·1012 kVt) Yer səthinə çatır.



Şəkil 1. Yerin şüalanma enerjisinin balansı

Məlumdur ki, yer səthinin ümumi sahəsi 5·1014 m^2-dır. Onda Yer kürəsinin hər 1m^2 düşən şüalanma seli gücünün 170 Vt olduğunu alarıq. Qeyd etdiyimiz kimi, bu qiymət yerin coğrafi enliklərində asılı olaraq dəyişir. Belə ki, yuxarı enliklərdə 80-130 Vt/m^2, mülayim qurşaqda 130-210 Vt/m^2, tropik qurşaq səhralıqlarında isə 210-250 Vt/m^2 qiymətlərini alır. Nəzərə alsaq ki, 2002-ci ildə dünyada 15289,76·109 kVt·saat elektrik enerjisi hasil edilmişdir. Onda yer səthinə çatan günəş radiasiyasının nə qədər böyük enerjiyə malik olduğunu aydın təsəvvür etmək olar.



Şəkil 2. Müxtəlif coğrafi enliklərdə açıq havada üfüqi qəbuledici sahənin şüalanmasının Hh mövsümi dəyişilmələri

Yayda gün ərzində bütün enliklərdə – H_h= 25MCm^{-2} olur. Mövsüm dəyişmələri 3 əsas faktorla müəyyən olunur:

1. *Günün uzunluğunun dəyişməsi ilə.* Günəşin çıxması və batması arasındakı gün aşağıdakı kimi təyin olunur:

$$N = (2/15)\cos^{-1}(-tg\varphi tg\delta) \qquad (1)$$

2. *Qəbul sahəsinin orientasiyası ilə.*

Şəkil 3-də Yer kürəsi təsvir olunmuşdur. Onun şimal və cənub qütb nöqtələri uyğun olaraq N və S kimi işarə olunmuş və o öz oxu ətrafında 24 saata fırlanır.



Şəkil 3. Günorta zamanı qəbuledicinin işıqlanması sxemi

P nöqtəsində qəbuledicinin φ enliyi, δ meyli və β əyilmə bucağı göstərilmişdir. θ bucağı cənub yarımkürəsindən şimala istiqamətlənmiş şüaların qəbulediciyə düşmə bucağına müvafiqdir.

3. Atmosferdə udulmanın dəyişməsi ilə. Günəş şüalarının aydın səmada və şəkil 2-də olduğu kimi yer səthinə çatması atmosfer tərəfindən şüalanmanın kosmik təsirindən azdır. Bu zəifləmə θ bucağının artması ilə əks olunur.

Bu gün ölkəmizdə alternativ və bərpaolunan enerji mənbələri inkişaf edir. "Yaşıl enerji"yə keçidin təmin edilməsi istiqamətində mühüm addımlar atılır. Hazırda bəşəriyyətin iqlim dəyişikliyinə qarşı mübarizəsi gündən-günə güclənir və qloballaşır. Artıq ənənəvi enerji mənbələrinin "yaşıl enerji" ilə əvəz edilməsi dünya gündəliyindədir. Bu məqsədlə də alternativ enerji mənbələrindən istilik və elektrik enerjisinin əldə edilməsi enerji təhlükəsizliyi baxımından mühüm əhəmiyyətə malikdir. Günəş enerjisindən elektrik və istilik enerjisinin alınması yolları aşağıda verilmişdir.

Hazırda günəş enerjisini istiliyə çevirmək üçün müxtəlif növ kollektorlardan istifadə edilir. Yüksək temperatur yaradan kollektorlarda günəş işığını əks etdirən, toplayan və günəşin istiqaməti üzrə hərəkət edən parabolik güzgülərdən istifadə olunur. Bu kollektor sisteminə xüsusi maye üçün nəzərdə tutulan istilikdəyişmə sistemi də daxildir. Səmərəliliyinə görə günəş kollektorlarından istifadə mərkəzləşdirilmiş enerji sistemlərindən uzaq olan ərazilərdə özünü doğruldur. Günəş enerjisinin daha səmərəli istifadəsi onun fotoelementlərdə elektrik enerjisinə çevrilməsi ilə həyata keçirilir. Fotoelementlər işığa həssas yarımkeçirici materiallardan – selen, silisium, qallium arsenidi, kadmium sulfidi və s. materiallardan hazırlanır.



Şəkil 4. Günəş enerjisindən elektrik enerjisinin alınması

Burada, p-n tip yarımkeçiricilərin bir-birinə təmas hissəsində elektron-dəlik keçidi və ya p-n keçidi yaranır. Günəş şüalarının təsiri nəticəsində n-tip yarımkeçiricidəki sərbəst elektronların bir hissəsi p-tip yarımkeçiriciyə doğru hərəkət edir. Bu elektronların hərəkəti nəticəsində elektrik sahəsi əmələ gəlir. Günəş şüaları n-tip yarımkeçiricidən keçərək p-n keçidindəki elektronları rahatlıqla atomdan ayırır. Elektrik sahəsinin təsiri ilə n-tip yarımkeçiricidə elektronlar, p-tip yarımkeçiricidə isə boşluqların konsentrasiyası o qədər yüksək olur ki, nəticədə bu iki hissə arasında potensiallar fərqi – gərginlik əmələ gəlir. Fotoelementin yuxarı və aşağı hissəsinə metal naqil birləşdirsək, yaranan gərginlik nəticəsində sərbəst elektronlar bir istiqamət üzrə naqillərlə hərəkət edərək elektrik enerjisi yaradacaqdır. Günəş panelləri ərazidə olan stansiyalara birləşdirilir. Günəşdən gələn enerji daimi enerjidir. Onu birbaşa şəbəkəyə vermək olmaz. Ona görə bu enerjini dəyişən cərəyana çevirmək lazımdır. Stansiyalarda xüsusi invertorlar vardır ki, daimi günəş panellərindən gələn enerjini dəyişən cərəyana çevirir, sonra isə həmin enerji şəbəkəyə,

tələbatçılara verilir.

Fotoelementlərdən minlərlə kvadrat metr sahəni əhatə edən müxtəlif gücdə elektrik stansiyaları qurmaq mümkündür. Günəş enerjisinin günəşin sutkalıq və mövsümi dövriyyəsindən asılı olmaması üçün alınan elektrik enerjisini elektrik akkumulyatorları ilə və ya metalhidrid akkumulyatorlarında hidrogen şəklində toplamaq mümkündür. Belə fotoelementlər əsasında yaradılan stansiyaların tutduğu ərazi 1 MVt üçün 2 hektar təşkil edir. Dünyanın inkişaf etmiş ölkələrində bu fotoelementlərin sahə tutumlarının azaldılması istiqamətində geniş elmi-tədqiqat işləri aparılır.

Nəticə. Aparılan təhlillərə əsasən demək olar ki, alternativ enerji mənbələrindən istilik və elektrik enerjisinin əldə edilməsi enerji təhlükəsizliyi baxımından çox əhəmiyyətlidir. Günəş enerjisindən elektrik enerjisinin alınmasını həyata keçirən fotoelementlər iqtisadi və ekoloji cəhətdən üstünlüklərə malik olmaqla bərabər, həm də ölkənin istilik və elektrik enerjisinə olan tələbatını ödəyir.

İstifadə edilmiş ədəbiyyat

1. Məmmədov F.F. Azərbaycanda günəş enerjisindən istifadə və müasir günəş energetik qurğuları (dərs vəsaiti). Bakı, “Proqres” nəşriyyatı, 2011.

2. Bəşirov M.M., Həcənov V.N. Bərpa olunan enerji mənbələri və qurğuları. Bakı, 2011.

3. Cəlilov F.M. Alternativ regenerativ enerji mənbələri. Bakı, 2009.

4. Abdullayev K.M., Lətifov Y.İ., Abdullayeva G.K. Enerji ehtiyatları, elektrik enerjisi istehsalı və ətraf mühit. Bakı, 2005.

5. Kazımov Ş.K., Novruzova S.Y. Günəş şüalarının fiziki-bioloji xassələri və tətbiq sahələri. “Peşə təhsili və insan kapitalı” jurnalı, cild 4, №2, Bakı, 2021.

6.https://kayzen.az/blog/fizika/3123/alternativ-enerji-%C9%99nb%C9%99l%C9%99ri.html

S.Rzayeva

Physical properties of the Sun and the ways of obtaining solar energy

Abstract

The structure of the Sun, its elements, volume, distance from the Earth, the importance and importance of life on Earth are discussed in the article. The main and physical characteristics of the Sun are shown in a table. When we look at the characteristics, we see that the Sun is an inexhaustible and ecologically huge source of energy and is related to the development processes occurring in nature. In addition, the article talks about solar radiation, its electromagnetic and corpuscular radiation. In particular, the article clarified the uneven distribution of solar radiation on the earth's surface and noted that the greater the angle of incidence of the sun's rays on the earth's surface, the more heat the earth's surface receives. The length of the day in different seasons of the year also depends on the latitude of the Earth. The article also shows balance of the Earth's radiation energy and the seasonal variations of outdoor horizontal receiving field radiation at different geographic latitudes are shown.

С.Рзаева

Физические свойства Солнца и способы получения солнечной энергии

Аннотация

В статье рассмотрено строение Солнца, его элементов, объём, расстояние от Земли, значение и значение жизни на Земле. Основные и физические характеристики Солнца приведены в таблице. Когда мы смотрим на характеристики, мы видим, что Солнце является неисчерпаемым и экологически огромным источником энергии и связано с процессами развития, происходящими в природе. Кроме того, в статье говорится о солнечном излучении, его электромагнитном и корпускулярном излучении. В частности, в статье выяснена неравномерность распределения солнечной радиации по земной поверхности и отмечено, что чем больше угол падения солнечных лучей на земную поверхность, тем больше тепла получает земная поверхность. Продолжительность дня в разные сезоны года зависит также от широты земли. Также в статье показан баланс радиационной энергии земли и сезонные изменения излучения наружного горизонтального приемного поля на разных географических широтах.

"QİDA MƏHSULLARININ İSTEHSALI ÜZRƏ TEXNİK-TEXNOLOQ" İXTİSASININ KURİKULUMUNUN HAZIRLANMASI İLƏ BAĞLI BELARUS TƏCRÜBƏSİ

Gülnar Əhmədova,
Peşə Təhsili üzrə Dövlət Agentliyinin Peşə təhsilinin təşkili və təhsilverənlərlə iş şöbəsinin Peşə təhsilinin təşkili sektorunun baş məsləhətçisi
e-mail: Gulnar.Ahmadova@ptda.edu.az

Kifayət Bayramova,
Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru
e-mail: kifayat.bayramova@vet.edu.az

https://doi.org/10.30546/2706-7858.7.4.2024.048

Son illərdə xarici ölkələrə təşkil edilmiş təlim səfərlərinin bu ölkələrin təcrübəsini öyrənmək baxımından çox böyük əhəmiyyəti vardır. Bu, həm də təhsilimizin dünya təhsilinə inteqrasiyası istiqamətində görülən işlərin tərkib hissəsidir. Peşə təhsilinin məzmununu yeniləndirmək, inkişaf etdirmək, xarici ölkələrdə təcrübə mübadiləsi aparmaq, eləcə də bu sahədəki müasir yanaşmaları mövcud şəraitə uyğunlaşdıraraq tətbiq etmək məqsədi ilə Fəaliyyət Planına uyğun olaraq bu il də təlim səfəri həyata keçirilib. Bu məqsədlə Peşə Təhsili üzrə Dövlət Agentliyinin Tərəfdaşlarla iş və kommunikasiya şöbəsinin müdiri Yusif Axundov, Peşə təhsilinin təşkili və təhsilverənlərlə iş şöbəsinin Peşə təhsilinin təşkili sektorunun baş məsləhətçisi Gülnar Əhmədova, eləcə də Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Kifayət Bayramova, Mərkəzin ixtisas fənn müəllimləri Nərmin Həsənova, Ləman Rüstəmli və Gülay Quliyeva 20-26 oktyabr tarixlərində Belarus Respublikasının Minsk şəhərində təlim səfərində iştirak ediblər.

Təlim səfərinin məqsədi "qida məhsullarının istehsalı üzrə texnik-texnoloq" ixtisasının kurikulumunun hazırlanması ilə bağlı təcrübənin öyrənilməsi və təcrübə mübadiləsi aparmaq olmuşdur. Səfər çərçivəsində təlim heyətinin nümayəndələri üçün Respublika Peşə Təhsili İnstitutunda (RİPO) ixtisasartırma təlimi kursları da keçirilmişdir.

Təlim mövzuları Belarus təhsil sistemi, Belarus Respublikasında peşə təhsili və təlimi, peşə təhsili sisteminin modernləşdirilməsi mexanizmləri, müasir şəraitdə peşə təhsilinin inkişaf tendensiyaları, kadr hazırlığı sisteminin təkmilləşdirilməsi metodologiyası, sənaye tərəfdaşlarının tələblərinə uyğun olaraq peşə təhsili proqramlarının təcrübə mübadiləsindən ibarət olmuşdur.

Səfər müddətində təşkil olunan tədbirlər

Belarus Respublikasında tədris prosesinin təşkili ilə tanışlıq və praktik məşğələlərin keçirilməsi üçün Smiloviç Dövlət Kolleci, RİPO-nun nəzdindəki Molodeçno Dövlət Politexnik Kolleci və Maşınqayırma və Avtoservis üzrə Müasir Texnologiyalar Kollecinə səfərlər təşkil edilmişdir. Belarusda peşə təhsili kollec və texniki-peşə məktəblərində təhsil əyani, qiyabi (praktiki bacarıq əyani olaraq tələb olunmayan peşələr üzrə) və axşam formasında həyata keçirilir.

Təlimin ilk günündə RİPO-nun direktoru Valeri Nikolayeviç Qolubovskiy İnstitutun fəaliyyəti, peşə təhsilində tədris prosesi, kurikulumların hazırlanması, yeni ixtisasların yaradılması, dünya təcrübəsində peşə təhsilinin inkişafının əsas problemləri və dövlət siyasətinin istiqamətləri haqqında məlumat verərək qeyd edib ki, ixtisaslı işçi qüvvəsinə ehtiyac çoxdur, peşəkar kadr çatışmazlığı ölkədə zamanla artır. Bunun qarşısının alınması üçün insan kapitalına sərmayə qoyulmasına, təhsil və təlimin inteqrasiyasına diqqət verilməsinə və sosial tərəfdaşların çoxalmasına, rollarının gücləndirilməsinə ehtiyac vardır. Müasir texnologiyalardan istifadəyə sürətlə keçidin metodlarını, həmçinin texnoloji inkişaf amillərinin təsiri altında yeni inkişaf trayektoriyalarının müəyyən edilməsi prosesini, rəqəmsallaşdırma, avtomatlaşdırma, robotlaşdırma, süni intellektin tətbiqi və s. bu kimi amillərin vacibliyindən danışan direktor peşə təhsilində yeni ixtisasların yaradılması ilə yanaşı, müəllimlərin, pedaqoqların və digər işçilərin davamlı inkişafı üçün ixtisasartırma təlimlərinin və müxtəlif seminarların təşkil olunması, kurikulumların, proqramların və kvalifikasiyaların yaradılması məqsədi ilə hər cür şəraitin təmin olunduğunu da bildirib.

Texniki-peşə məktəbi və kolleclərdə mühəndislik, maşınqayırma, qida sənayesi, İT, elektronika, mexatronika və xidmət sənayesi, kənd təsərrüfatıyönümlü ixtisaslar tədris olunur. İxtisasdan asılı olaraq texniki-peşə məktəblərində təhsil müddəti 1-3 il 5 ay arasında dəyişir. Təhsilalanlar müxtəlif peşə təhsili və təlimi proqramları seçə bilirlər. Subbakalavr təhsili səviyyəsində kredit sistemi tətbiq olunmur. Qiymətləndirmə 10 ballıq şkala üzərindən aparılır. Təhsil, əsasən dövlət hesabına həyata keçirilir.

Qiymətləndirmə prosesində tələbə 1 kəsrlə kursdan-kursa keçirilir. Davamlı olaraq 30 gün dərsə gəlmədikdə və 3-4 fənn üzrə "qeyri-kafi" qiymət aldıqda tələbə xaric olunur.

Ölkədə qısamüddətli təlim kursları, əsasən ödənişli olmaqla 1 aylıq təşkil olunur. Təhsilin sonunda sertifikat və şəhadətnamə verilir. Qısamüddətli təlimlər həm fərdi, həm də qrup şəklində (4-9 nəfərlik) təşkil olunur, imtahandan keçən iştirakçılar kvalifikasiya əldə edirlər.

Texniki-peşə kollecləri, eyni zamanda təlim mərkəzləri kimi də fəaliyyət göstərirlər. Hər hansı bir kollecin maddi-texniki bazası yüksək olduğu halda tədris prosesinə mane olmadan digər kolleclərdə təhsil alan tələbələrin də bu maddi-texniki bazadan, istehsalat emalatxanalarından istifadəsinə şərait yaradılır. Bununla bağlı tədris ilinin əvvəlində dərs qrafikinə uyğun planlaşdırma aparılaraq Təhsil İnstitutuna məlumat verilir. Digər peşə təhsili müəssisələrinin tələbələrinin maddi-texniki bazadan yararlanaraq istehsalat təlimi keçmələrinə şərait yaradılır. Həmçinin tələbələrlə birlikdə onların üzərində qrup rəhbərlərinin təlim çərçivəsində məsul şəxs olaraq iştirakı təmin olunur. Təlim dərsləri maddi-texniki bazası olan müəssisənin müəllimləri tərəfindən təşkil olunur. Bunun üçün həmin müəllimlərə əlavə əməkhaqqı hesablanır.

Peşə məktəbləri üçün keyfiyyət çərçivəsi məktəbin güclü tərəflərini müəyyən edir, həm də təkmilləşdirmə potensialını inkişaf etdirir. Məktəbin keyfiyyəti üzərində işləmək tədrisin uğurlu nəticəsi sayılır. Məktəbin inkişafının planlaşdırılması, onun səmərəli həyata keçirilməsi və müntəzəm olaraq qiymətləndirilməsi üçün müvafiq qiymətləndirmə alətlərindən istifadə olunur. Qiymətləndirmə nəticələri təhlil edilərək öyrədənlərin və öyrənənlərin arasında məm-

nunluq sorğusu aparılmaqla keyfiyyət göstəriciləri məyyən edilir.

Səfər çərçivəsində Respublika Peşə Təhsili İnstitutunun (RİPO) Peşə Təhsilinin Elmi-Metodik Təlimat Mərkəzinin rəhbəri Natalya İvanovna Qolubovskaya təqdimatında müasir şəraitdə peşə təhsilinin inkişaf tendensiyaları, ixtisas kurikulumları, kurikulumlarda tədris olunan mövcud ixtisas və baza modulları, onların saatlarla bölgüsü, peşə xarakteristikası, qiymətləndirmə meyarları, təhsilin səviyyələri və formaları haqqında məlumat verərək bildirib ki, hər bir ixtisas üzrə təhsil sənədində peşənin ixtisas üzrə spesifik sahəsi qeyd olunur (nümunə olaraq "texnik-texnoloq"un və un məmulatları üzrə).

Təlim çərçivəsində Azərbaycanda peşə təhsili müəssisələrində keçirilən tədris prosesi, kurikulumlar, qiymətləndirmə və s. bu kimi mövzular ətrafında da qarşılıqlı müzakirələr aparılıb. Təlim zamanı dərs prosesində istifadə olunan kitablarla (onlayn kitabxana hər bir kəs üçün əlçatandır), həmçinin sayt vasitəsilə (Ripo.by) peşə təhsilinə məxsus bütün məlumatlarla (kurikulumlar, tədris proqramları, tədris materialları, dərsliklər və s.) tanışlıq həyata keçirilib. Saytın bütün məlumatlarla davamlı yenilənməsi və hər kəs üçün əlçatan olması müsbət hal kimi qiymətləndirilib. Bundan əlavə, kvalifikasiyaların yaradılması və dəyişdirilməsi üçün bir çox aspektlər üzərində peşələr üzrə ixtisas tələblərinin dəyişməsində əmək bazarının rolunun böyük olması yeni ixtisaslara ehtiyac olduğunu, bunun üçün həm maddi-texniki bazanın, həm də ixtisaslaşdırılmış kadrlar hazırlamaq üçün maksimum potensiala malik təhsil proqramlarının düzgün tərtib olunması vurğulanaraq müzakirələr aparılıb.

Səfər çərçivəsində, eyni zamanda Molodeçno Dövlət Politexnik Kollecinə səfər həyata keçirilmiş, mərkəzin maddi-texniki bazasına baxış olmuş, mövcud imkanlar, tədris olunan ixtisaslar haqqında məlumatlar verilmişdir. Molodeçno Dövlət Politexnik Kollecində iki təlim korpusunda 37 tədris kabineti, 29 laboratoriya, 7 istehsalat emalatxanası, 620 nəfərlik yataqxana, akt zalı, konfrans zalı, idman kompleksi, kitabxana və oxu zalı, 4 kompüter otağı mövcuddur. *Kollecdə 15 ixtisas – "bitki mənşəli qida xammalı emalı", "çörək, makaron, qənnadı məmulatlarının istehsalı", "məhsul və içkilərin istehsalı", "süd məhsulları istehsalı", "qida istehsalı", "biotexnoloji məhsulların istehsalı", "qida isehsalı avadanlıqlarının texniki istismarı", "elektrik avadanlıqlarının texniki istismarı", "maşınqayırma", "elektron cihazların texniki istismarı", "bina və tikililərin istismarı", "bina və tikililərin tikintisi", "taxılın saxlanılması və emalı", "avadanlıqların quraşdırılması və istismarı", "avadanlıqların tənzimlənməsi və texniki istismarı"* üzrə kadr hazırlığı həyata keçirilir. Praktiki dərslərin təşkili üçün mövcud imkanlar, emalatxanalar, laboratoriyalar tələblərə uyğundur.

Kollecdə səfər çərçivəsində tədris prosesinin təşkili, maddi-texniki təchizat, yeyinti sənayesi üçün yeni ixtisasların işlənilib hazırlanması, şəbəkə sistemi ilə tanışlıq, müasir təhsil mühitinin yaradılması, yeni ixtisasların açılması haqqında seminar da keçirilib. Beləliklə, ərzaq və qeyri-ərzaq məhsullarının fiziki, kimyəvi göstəricilərinin yoxlanılması müşahidə olundu, eyni zamanda laboratoriyalara baxış zamanı geniş və müasir texnologiyalara cavab verən infrastrukturun olduğu da müəyyən edildi.

Molodeçno Dövlət Politexnik Kollecində hər il yeni ixtisas üzrə kadr hazırlığının təşkili üçün planlaşdırma alqoritmi aşağıdakı formada həyata keçirilir:

– əmək bazarının monitorinqi;

– sənaye inkişafı proqramlarının öyrənilməsi;

– iş yerlərinin analizi və təhlili;

– ixtisas üzrə tələblərin təhlili;

– kurikulumların və proqramların məzmununun təhlili;

– yeni ixtisasların açılması üçün əsaslandırmanın işlənilməsi;

– təhsil standartlarının hazırlanması;

– akademik fənlər üzrə nümunəvi kurikulumların hazırlanması;

– yeni ixtisasın açılması üzrə Təhsil İnstitutuna təklifin göndərilməsi.

Kollecin əsas hədəfləri:

– yeni ixtisaslar üzrə kadr hazırlığının aparılması;

– əmək bazarının tələblərinə uyğun kadr hazırlığınn təşkili;

– qısamüddətli təlimlərin təşkili (14 ixtisas üzrə hazırda kurslar təşkil olunur);

– məşğulluğun təmin olunması.

Kollecdə davamlı olaraq, əsasən bu ixtisaslar üzrə qısamüddətli kurslar təşkil olunur: "laborant-mikrobioloq", "kimyəvi analiz üzrə laborant", "qida istehsalında avadanlıq tənzimləyicisi", "təmirçi", "taxıl emalı operatoru", "qida nəzarətçisi", "qablaşdırma operatoru", "şərab emalçısı", "çörəkçi".

Təlim səfəri çərçivəsində tanış olduğumuz növbəti peşə təhsili müəssisəsi Maşınqayırma və Avtomobil Xidmətləri üzrə Müasir Texnologiyalar Kolleci oldu. Adı çəkilən kollec Sənaye və texnologiyalar üzrə ixtisaslaşdırılmış kollecdir. Əsas ixtisaslara "maşın mühəndisliyi", "çilingər", "sənayedə quraşdırma", "İT", "mexatronika", "elektronika" və s. aiddir. Burada təhsilalanların hər biri üçün iş imkanları yaradılır. Məzunların sayı vakansiya sayından azlıq təşkil edir. Kollecdə 5 müasir sənaye laboratoriyası, 3 təlim emalatxanası, 700 nəfərlik tədris kabinetləri, yataqxana, idman zalı mövcuddur.

Kollec tərəfdaşlarla sıx əməkdaşlıq edir. Tərəfdaşlıq dövlət və özəl sektorla 3 istiqamət üzrə aparılır:

– əsas tərəfdaşlar – tələbələrin təcrübə proqramları üçün platforma kimi işləri təmin edir, ərizələr vasitəsilə qəbul hədəflərini formalaşdırır.

– sosial tərəfdaşlar – kollecin maddi-texniki bazasının yenilənməsinə, maliyyə dəstəyinin verilməsinə və tədbirlərin təşkilinə dəstək göstərir.

– beynəlxalq tərəfdaşlar – kollec müəllimləri üçün stajların, eləcə də xarici ölkələr üçün qısamüddətli təlimlərin təşkili sahəsində əməkdaşlıq yaradır.

Səfər çərçivəsində 24 oktyabr 2024-cü ildə Belarus Respublikası Təhsil Nazirliyinin Təhsilin Keyfiyyətinə Nəzarət Departamenti ilə birgə RİPO tərəfindən təşkil olunan "Təhsilin keyfiyyətinin təmin edilməsi: vəziyyət, problemlər və perspektivlər" adlı II Beynəlxalq Elmi-Metodik Konfransda iştirakımız təmin edildi. Konfransda bir çox ölkələrin nümayəndə heyəti iştirak edirdi. Konfrans zamanı təhsildə yeniliklər, müasir texnologiyalar və ölkələrin tədris prosesi ilə bağlı müzakirələri dinlənildi. Səfər çərçivəsində ümumilikdə 36 saatlıq proqram üzrə təlim həyata keçirildi. Təlimin sonunda təlimi uğurla başa vuran nümayəndə heyətinə Respublika Peşə Təhsili (RİPO) tərəfindən sertifikat və dövlət nümunəli şəhadətnamə təqdim olundu.

Nəticə. Azərbaycanda tətbiq olunması təklif olunan məsələlərə aşağıdakılar aiddir:

1. "Texnik-texnoloq" (qida sektoru) ixtisası üzrə kurikulumun hazırlanması;
2. 2025-2026-cı tədris ili üzrə "texnik-texnoloq" (qida sektoru üzrə) ixtisası üzrə kadr hazırlığının yüksək texniki-peşə təhsili səviyyəsində (səviyyə 5) təşkili;
3. "Texnik-texnoloq" ixtisası üzrə baza müəssisələrinin müəyyən olunması istiqamətində əmək bazarının araşdırılması, mümkün işəgötürənlərlə əməkdaşlığa dair memorandumun imzalanması;
4. "Texnik-texnoloq" (qida sektoru üzrə) ixtisası üzrə mümkün laboratoriyaların (qida üzrə kimyəvi analiz və s.) yaradılması;
5. "Texnik-texnoloq" (qida sektoru üzrə) ixtisası üzrə təhsil alacaq tələbələrin Belarusda mümkün kolleclərdə təcrübə proqramlarında iştirakının dəstəklənməsi (2 həftə olmaqla);
6. Belarus təcrübəsində mövcud olduğu kimi, maddi-texniki bazası olan peşə təhsili müəssisələrinin (əvvəlcədən razılaşdırılmaqla) təlim mərkəzi kimi fəaliyyətinin təşviqi (nümunə, oxşar ixtisaslar üzrə kadr hazırlığı aparan, lakin maddi-texniki bazası praktiki dərslərin təşkili üçün imkan verməyən müəssisələrdə təhsil alan tələbələrin praktiki təlim dərslərinin keçirilmə-sinə şərait yaradılması, bölgələrdə fəaliyyət göstərən Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi, Bərdə Peşə Liseyi kimi mövcud bazası olan peşə təhsili mərkəzlərinin bazasında yaxın bölgələr və ya müəssisələr üzrə təhsil alan peşə təhsilli tələbələrin (minimum 2 həftə və ya daha çox) praktiki bacarıqlarının təkmilləşdirilməsi məqsədi ilə öyrənmə prosesinə dəstəyin verilməsinin təşviqi);
7. Peşə təhsili müəssisələrində təhsil alan tələbələrin istehsalat təcrübələrini müvafiq ixtisasla Belarus kolleclərində keçirtmək (minimum 1 həftə olmaqla) imkanının əldə edilməsi.

KİÇİK VƏ ORTA BİZNESİN MALİYYƏLƏŞDİRİLMƏSİNDƏ DÜNYA TƏCRÜBƏSİ

Təranə Əliyeva,
Azərbaycan Dövlət Aqrar Universitetinin Maliyyə və mühasibat uçotu kafedrasının baş müəllimi
e-mail: terane.aliyeva64.bk.ru
https://doi.org/10.30546/2706-7858.7.4.2024.051

UOT: 334

Xülasə. *Bazar iqtisadiyyatı şəraitində hər bir ölkənin iqtisadiyyatının əsasını kiçik və orta sahibkarlıq təşkil edir, çünki kiçik və orta biznesin inkişaf səviyyəsi bütövlükdə ölkə iqtisadiyyatının nə qədər inkişaf etdiyini göstərir. Kiçik və orta biznesin səmərəli inkişafı birbaşa onların maliyyə dəstəyindən asılıdır. KOB-un maliyyəsinin təşkilinin əsas xüsusiyyətlərindən biri maliyyə resurslarına çıxış imkanlarının məhdud olmasıdır. Ona görə də kiçik və orta biznesin maliyyələşdirilməsində xarici ölkələrin təcrübəsinin öyrənilməsi çox vacibdir.*

Açar sözlər: *kiçik və orta biznes, sahibkarlıq, maliyyə dəstəyi, subsidiyalar, dəstək proqramları, dövlət dəstəyi.*
Key words: *small and medium-sized businesses, entrepreneurship, financial support, subsidies, support programs, government support.*
Ключевые слова: *малый и средний бизнес, предпринимательство, финансовое обеспечение, субсидии, программы поддержки, государственная поддержка.*

Milli iqtisadiyyatın inkişaf səviyyəsi əsasən ölkədə kiçik və orta biznesin nə dərəcədə inkişaf etdiyi ilə müəyyən edilir. Ölkə iqtisadiyyatında kiçik və orta biznesin yüksək payı iqtisadiyyatı inkişaf etmiş ölkələr üçün xarakterik olan xüsusiyyətdir. Aİ ölkələrində hər 1000 nəfərə otuzdan çox sahibkar düşür və müəssisələrin ümumi sayında KOB-ların payı orta hesabla 90% təşkil edir. Sürətli inkişaf edən Tayvan, Sinqapur və İndoneziyada da iqtisadiyyat kiçik və orta biznesə əsaslanır. Bu, kiçik və orta biznesin ölkənin inkişafında xüsusi rolundan xəbər verir.

Azərbaycanda da kiçik və orta biznesin səmərəli inkişafı sabit və əhəmiyyətli iqtisadi artımın əsası kimi nəzərdən keçirilə bilər. Kiçik və orta biznesin səmərəli inkişafı bilavasitə onların maliyyə dəstəyindən asılıdır. Belə ki, bu biznesin maliyyəsinin təşkilinin əsas xüsusiyyətlərindən biri maliyyə resurslarına çıxış imkanlarının məhdud olmasıdır. KOB-un maliyyə resurslarına çıxışını məhdudlaşdıran əsas amil bazar şəraitində onların maliyyə vəziyyətinin qeyri-sabitliyidir. Ona görə də kiçik və orta sahibkarlar daim maliyyə mənbələri axtarmağa məcbur olurlar. Kiçik və orta sahibkarlıqda maliyyə bazarında maliyyə resurslarının formalaşdırılmasının nəzəri təhlili göstərir ki, bu sahədə mövcud problemlər xalis mənfəət hesabına öz maliyyə resurslarının yaradılmasının, eləcə də cəlb edilməsi imkanlarının məhdudlaşdırılması ilə

əlaqədardır [1].

Kiçik və orta biznesin iqtisadi potensialının reallaşdırılmasında əsas amil müxtəlif inteqrasiya alətləri vasitəsilə sabit maliyyələşdirmənin mümkünlüyüdür. Əgər iri müəssisələr fəaliyyətlərini inkişaf etdirmək və genişləndirmək üçün əlavə maliyyə vəsaitindən istifadə edirlərsə, o zaman kiçik və orta biznes üçün maliyyə resurslarının tapılması və cəlb edilməsi də həyati vacib məsələdir. Kiçik və orta biznes üçün xüsusilə vacib problem dövriyyə kapitalının olmamasıdır ki, bu da əlavə maliyyə mənbələrinin cəlb edilməsinə böyük ehtiyac yaradır [2]. Bu problemlər kiçik və orta sahibkarlığın fəaliyyətinin stimullaşdırılması zərurətini müəyyən edir. Çünki ölkədə kiçik və orta sahibkarlığın məqsədyönlü inkişafını stimullaşdırmadan yalnız az sayda kiçik və orta sahibkarlıq subyektləri iqtisadi fəaliyyət göstərəcək və onların fəaliyyəti yalnız əhalinin ilkin tələbatının, ticarət və məişət xidmətlərinə ehtiyacının ödənilməsinə yönəldiləcək [3].

Azərbaycanda kiçik və orta sahibkarlığın maliyyə resurslarına olan tələbatın maliyyə təminatında problemlərin həlli və onların maliyyələşdirilməsi üçün əlavə maliyyə mənbələrinin axtarışı, onların praktiki tətbiqi üçün proqramların işlənilib hazırlanması zəruridir. Bu proses isə bu sahədə inkişaf etmiş ölkələrin şirkətlərinin təcrübəsinin öyrənilməsini tələb edir. Xarici ölkələrin təcrübəsinin təhlili və tədqiqi göstərir ki, kiçik və orta biznesin sabit inkişafı üçün fəal maliyyə dəstəyi lazımdır. Maliyyə dəstəyinin köməyi ilə kiçik və orta biznesin maliyyələşdirilməsinin əsas yolları və sxemləri müəyyən edilir. Qeyd edək ki, bunun üçün təkcə dövlətin səyi deyil, həm də sahibkarların və kommersiya banklarının köməyi də lazımdır. Bundan başqa, kiçik və orta sahibkarlığın maliyyə təminatının yaxşılaşdırılmasının əsas yollarından biri də bir sıra digər məsələlərin həllində dövlət dəstəyinin göstərilməsidir. Bazar iqtisadiyyatı olan ölkələrdə kiçik və orta biznesə dövlət dəstəyi müxtəlif istiqamətlərdə həyata keçirilir [4]. Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə KOB-ların mövcud vəziyyəti təkamül prosesinin nəticəsidir və yaxın keçmişdə dövlət KOB-ların iqtisadi inkişafda əhəmiyyətini və zəruriliyini dərk edərək dövlət dəstəyi ilə onlara kömək etməyə başladı. Eyni zamanda KOB-lar bütün səviyyələrdə dövlət strukturları ilə qarşılıqlı əlaqədə olmaqla inkişaf edir [5].

Xarici ölkələrdə dövlət səviyyəsində strukturlar kiçik və orta biznesə dəstək verir. Bunun sayəsində Qərbdə KOB-ların inkişafı sürətlənmiş templə davam edir və ÜDM və ÜMM-ə müsbət təsir göstərir. Qərb ölkələrində, o cümlədən Avropa ölkələrində KOB-ların bütün müəssisələrin sayında payı 90%-ə yaxındır. Bu ölkələrdə kiçik və orta sahibkarlar əhalinin məşğulluğunu təmin edir, sosial vəziyyəti sabitləşdirir. Məsələn, Avropa ölkələrində KOB-lar məşğulluğun 70%, ABŞ-da 50%, Yaponiyada isə 71%-ni məşğulluqla təmin edir. Bu gün ABŞ-da 30 milyondan çox KOB subyektləri fəaliyyət göstərir və hər il 1 milyona yaxın yeni kiçik və orta biznes yaradılır. Bu seqmentdə sahibkarların 90%-i öz vəsaiti hesabına biznes qurmağa üstünlük verir [6]. Avropa İttifaqı ölkələrində 25 milyondan çox sahibkarlıq subyekti fəaliyyət göstərir ki, bunun da 99,8%-ni kiçik və orta biznes təşkil edir. Bu da iqtisadiyyatın rəqabət qabiliyyətini xeyli artırır. Almaniyada 97 müxtəlif fəaliyyət növü ilə məşğul olan və ölkə müəssisələrinin təxminən 75%-ni təşkil edən məşğulluğun 60%-ni və vergi daxilolmalarının 40%-ni təmin edən 2,3 milyondan çox kiçik və orta sahibkarlıq subyekti vardır [7]. Dövlətin subsidiya şəklində maliyyə yardımı, kiçik və orta biznesə güzəştli kredit verilməsi, onlar üçün ofis qiymətlərinin aşağı olması nəticəsində alman sahibkarlarının investisiya cəlbediciliyi artır [8].

Xarici ölkələrdə kiçik və orta sahibkarlığa dövlət dəstəyinin əsas istiqamətlərinə maliyyə dəstəyi, inzibati maneələrin aradan qaldırılması, normativ-hüquqi bazanın sadələşdirilməsi, kiçik və orta sahibkarlığın maraqlarını ifadə edən assosiasiyaların yaradılması və s. aiddir.

İnkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlıq subyektləri üçün vergi güzəştlərinin əsas xüsusiyyəti mütərəqqi vergi miqyasının tətbiqi və biznesin növündən asılı olaraq vergi dərəcələrinin diferensiallaşdırılmasıdır. Bu isə KOB-ların biznes fəaliyyətinə təsir göstərir. Bir çox ölkələrin vergi siyasəti vergi dərəcəsinin azaldılması kimi vergi dəstəyi tədbirini nəzərdə tutur. ABŞ-da kiçik biznes üçün gəlir vergisi 15%, orta biznes üçün 25%, Böyük Britaniyada

35% əsas vergi dərəcəsi ilə kiçik biznes üçün vergi dərəcəsi 25%-dir. Belçikada yüksək texnologiyalar inkişaf etdirən kiçik vençur kapitalı firmaları 10 il müddətinə vergilərdən azaddırlar. Kanadada əsas vergi dərəcəsi 28%, kiçik və orta biznes üçün gəlir vergisi isə 15% müəyyən edilib. Almaniyada isə korporativ vergi dərəcəsi 15%-dir. Avropa İttifaqında kiçik və orta sahibkarlığı stimullaşdırmaq üçün bu rejim çərçivəsində xüsusi vergi rejimi tətbiq edilir və onlar ƏDV kimi bəzi vergiləri ödəməkdən azad edilir. Avropa İttifaqı, həmçinin sadələşdirilmiş vergi və mühasibat uçotu metodlarını tətbiq edir ki, bu da KOB-ların fəaliyyətini xeyli asanlaşdırır. İnkişaf etmiş ölkələrdə vergitutma sistemi kiçik və orta sahibkarlığın fəaliyyətinin stimullaşdırılmasına yönəldilib [9].

Araşdırma nəticəsində müəyyən etdik ki, kiçik və orta sahibkarlığın fəaliyyətinin stimullaşdırılması üçün aşağıdakı vergi güzəştlərindən istifadə olunur:

– *vergi dərəcələrinin azaldılması;*

– *sosial və sığorta fondlarına ödənişlərin azaldılması;*

– *xüsusi vergi rejiminin tətbiqi;*

– *sadələşdirilmiş vergi və mühasibat uçotu sisteminin tətbiqi və s.*

Tədqiqat zamanı müxtəlif Qərb ölkələrində kiçik və orta biznesin dəstəklənməsinin üsul və vasitələrini araşdıraraq belə qənaətə gəldik ki, Amerika Birləşmiş Ştatları bu məsələlərdə liderdir. ABŞ-da KOB-lara dövlət dəstəyi kiçik və orta biznesə hərtərəfli maliyyə dəstəyinin təmin edilməsinə yönəldilib. 1953-cü ildə yaradılmış Kiçik Biznes İdarəsi bu sahədə dövlət siyasətinin həyata keçirilməsinə və KOB sektorunun inkişafına cavabdehdir. Bu struktur Prezident və Konqresə tabedir. Kiçik və orta sahibkarlığın inkişafı üzrə dövlət strategiyası "Kiçik sahibkarlıq haqqında" Qanunla müəyyən edilir. Bu strategiya kiçik və orta biznes üçün bütün dövlət qurumları tərəfindən tam dəstəklənir. Strategiya *"Zəmanətli kreditlər" proqramı* (Loan Guaranty, 7a) vasitəsilə həyata keçirilir ki, bu da kiçik və orta biznes üçün dövlət kredit dəstəyinin əsas alətidir. Bu proqram yeni başlayan və adi kredit qabiliyyətinə malik maliyyə mənbələrindən məqbul şərtlərlə maliyyə ala bilməyən bizneslərə qısamüddətli və uzunmüddətli kreditlər verir. Proqramın bir hissəsi olaraq Kiçik Biznes İdarəsi tərəfdaş kredit təşkilatlarının köməyi ilə KOB-lara maliyyə dəstəyi verir. Hər il bu proqrama 20-30 milyard dollar ayrılır, kiçik və orta biznes subyektləri maksimum 750 min dollara qədər kredit ala bilirlər. Bu halda zəmanət səviyyəsi kredit məbləğinin 80%-ni, kredit 100.000 ABŞ dollarından yuxarı olduqda isə 75%-ni təşkil edir. Bundan əlavə, 100.000 ABŞ dollarından yuxarı kreditlər üçün zəmanət səviyyəsi 90%-ə qədər, 50.000 ABŞ dollarından aşağı kreditlər üçün isə kredit faiz dərəcəsi daha yüksək ola bilən *"İxrac edilən dövriyyə kapitalı" Proqramı* mövcuddur. Dövriyyə vəsaitləri üçün kredit 10 ilə qədər, əsas vəsaitlərin əldə edilməsi üçün isə 25 ilədək müddətə verilir. Kiçik və orta biznesin maliyyələşdirilməsi üçün əsas proqramın resurslarından istifadə edən başqa xüsusi proqramlar da mövcuddur. Bura *"Mikrokredit" proqramı* da daxildir. Burada orta kredit məbləği təxminən 13.000 dollar, maksimum isə 35.000 dollardır. Bu kredit məhsuldar kapitalın əldə edilməsi üçün ayrılır, lakin bu kreditdən cari borcları ödəmək və ya daşınmaz əmlak almaq üçün istifadə edilə bilməz. Qeyd edək ki, 7a proqramına ayrılan bütün vəsaitin 46%-i mikrokreditə ayrılır [10]. Bundan əlavə, onlar kiçik və orta sahibkarlığın xarici ticarət əməliyyatlarını da maliyyələşdirir [6].

Böyük Britaniyada KOB-lara ümummilli dəstək 1970-ci illərin sonlarına doğru başladı. Hazırda Böyük Britaniya hökuməti KOB-lara bank kreditləri üçün hökumət zəmanətlərinə 20 milyard funt sterlinq xərcləyir. Dövlət bu kreditlərin hər birinin 50%-ə qədərinin qaytarılmasını təmin etməyə hazırdır. Eyni zamanda hökumət kiçik və orta biznesə verilən kreditlərə dövlət zəmanəti vermək üçün hər il 1 milyard funt-sterlinqə qədər vəsait ayırır və verilən kreditlərin 75%-nin qaytarılmasına zəmanət verməyə hazırdır. Hökumət yalnız məhdud maliyyə dəstəyi göstərir və mövcud maliyyə mənbələrinin (banklar, maliyyə fondları və s.) dairəsini genişləndirmək üçün bir sıra tədbirlər həyata keçirir. Bu məqsədlə də Böyük Britaniyada aşağıdakı proqramlar hazırlanır:

- *"Qrant sxemi" proqramı məqsədli layihələrin həyata keçirilməsi üçün əvəzsiz kreditlərdir (inkişaf etməkdə olan texnologiyalar üzrə*

texniki-iqtisadi əsaslandırmalar üçün maksimum 45000).

- *"Yeni biznesə yardım sxemi" proqramı biznes qurmaqda maraqlı olan şəxslərə maliyyə dəstəyi verir.*
- *"Kredit zəmanətləri" proqramı kiçik və orta biznes üçün nəzərdə tutulan kreditlərə dövlət zəmanətinin verilməsinə yönəlmişdir.*

Onu da qeyd edək ki, Böyük Britaniyada faiz dərəcələri subsidiyalaşdırılmır. Kiçik və orta biznesi dəstəkləyən müxtəlif strukturları birləşdirmək üçün 2000-ci ildə Ticarət və Sənaye Nazirliyinin nəzdində Kiçik Biznesə Xidmətlər üzrə Milli Agentlik yaradılmışdır. Agentlik kiçik və orta sahibkarlığın inkişaf strategiyasını müəyyən edir, dövləti idarə edən bütün səviyyələrdə dövlət orqanları ilə əlaqə saxlayır, kiçik və orta biznesin dəstəklənməsi üzrə dövlət infrastrukturunun fəaliyyətini əlaqələndirir və tərəfdaş təşkilatlarla fəal əməkdaşlıq edir [11].

Almaniyada kiçik və orta biznesə maliyyə və texnoloji dəstək hökumətin bütün səviyyələrində həyata keçirilir. Kiçik və orta sahibkarlığın inkişafı üçün bir neçə proqramı nümunə kimi göstərmək olar: "Kiçik və orta bizneslə bağlı elmi-texniki siyasətin inkişafı konsepsiyası" və "Öz biznesinizi qurmaq üçün əmanətlərin stimullaşdırılması" proqramı. Birinci proqram kiçik və orta biznesə maliyyə dəstəyini təmin edir, ikinci proqram isə əhalinin startapların həyata keçirilməsinə və öz biznesini açmasına kömək edir. Hökumət orqanlarının yükünü azaltmaq, kiçik və orta biznesi dəstəkləmək üçün bəzi funksiyalar "Kreditanshtalt für Videraufbau" kimi ixtisaslaşmış banklara, eləcə də ticarət və sənaye palatalarına verilib. Bərabər paylarla maliyyə dəstəyi federal və əyalət səviyyələrində ayrılır. Bu, əsasən, xüsusi dövlət maliyyə institutlarının sığortası və təminatı ilə həyata keçirilir [12]. Almaniyada kiçik və orta biznesə dövlət dəstəyinin əsas aləti mikrokreditlərin stimullaşdırılmasıdır. Bu məqsədlə kredit təşkilatları, banklar və ixracın maliyyələşdirilməsi agentliklərinin funksiyalarını yerinə yetirən "KfW-Group" adlı maliyyə qrupu yaradılmışdır. Belə ki, uzunmüddətli kreditlərin verilməsini, kreditlər üzrə ən aşağı faiz dərəcələrini (5-8%), ilk iki ildə aşağı kredit ödənişlərini, uzunmüddətli kreditlərin qaytarılması və paylı maliyyələşdirmə imkanlarını nəzərdə tutur.

İsraildə biznesləri dəstəkləmək üçün Dəstək fondları yaradılır. Bu fondların vəzifələri bilavasitə güzəştli kreditlərin verilməsi və layihə xərclərinin 75%-nin ödənilməsi, habelə sahibkarlara ayrılan kreditin 40%-nə dövlət zəmanətinin verilməsidir. KOB-ların inkişafı üçün maliyyə resurslarının daha intensiv cəlb edilməsi məqsədi ilə özəl banklara kiçik və orta sahibkarlığa kreditlər verilərkən zəmanət verilir. Dövlət zəmanəti borc məbləğinin 80%-ni və ümumi kredit portfelinin 30%-ni təşkil edir [10].

Nəticə. Müxtəlif ölkələrdə biznesin inkişaf səviyyəsinin təhlili göstərir ki, Azərbaycan bu məsələdə hələ uzun yol qət etməlidir. Azərbaycanda da kiçik və orta biznesin inkişafında bu ölkələrə bənzər maliyyə resurslarının çatışmazlığı problemləri vardır. Araşdırılan ölkələrin təcrübəsindən aydın olur ki, kiçik və orta sahibkarlığa dövlət maliyyə dəstəyi sistemi onların inkişafında böyük rol oynayır və ona həvalə edilmiş funksiyaları uğurla yerinə yetirir. Biz də ölkəmizdə kiçik və orta biznesin inkişaf xüsusiyyətlərini nəzərə alaraq bu ölkələrin təcrübəsindən istifadə edə bilərik.

İstifadə edilmiş ədəbiyyat

1. Vorobyev Y.N. Kiçik biznesin maliyyə resursları, elmi bülleten: Maliyyə, banklar, investisiyalar. 2019.

2. Qoldina A.A., Fateyeva E.A. Kiçik və orta biznesin prioritet inkişafının maliyyələşdirilməsi. İqtisadiyyatda, texnologiyada, təbiətdə və cəmiyyətdə modellər, sistemlər, şəbəkələr. 2016, №3 (19), s.32-42.

3. Moskvina V.V., Ulas O.V. Şimal ölkələrində kiçik və orta biznesə dövlət dəstəyi: Kanada, ABŞ, Finlandiya, İsveç. Rusiya sahibkarlığı. 2015, 16 (21).

4. Versotski R.R. Kiçik və orta biznesin dəstəklənməsi üzrə xarici təcrübə və onun müasir Rusiya İdarəetmə konsaltinqində tətbiqi imkanları. 2019, №7.

5. Kuprin A.A. Rusiyanın transformasiya olunmuş iqtisadiyyatında kiçik biznesin formalaşması və rolu (monoqrafiya). RANEPA-nın Sosnovoborski filialı, Sankt-Peterburq, Asterion. 2017, s.280.

6. Yusupova N.A. ABŞ-da kiçik biznesə dəstək. Dünya iqtisadiyyatı və beynəlxalq münasibətlər. 2017, №5, s.87.

7. Kaqanova İ.U. Kiçik biznesə dəstək. "Maliyyə" qəzeti, Regional buraxılış, 2017, №35.

8. Tuskayevav M.R., Tuskayev T.R., Tekoyeva E.R. Kiçik və orta biznesin dəstəklənməsi üzrə xarici təcrübə, (audit hesabatları), 2021, №4, s.186-189.

DOİ: 10.24411/1727-8058-2021-4-186-189

9. Filonova E.A., Yuxnovets L., Gladuşa B.V. Kiçik və orta biznes üçün vergi güzəştləri: xarici təcrübə. XXI əsrdə idarəetmə və iqtisadiyyat. 2018, №1, s.24-29.

10. İvanov V.V., Şturbabina Y.S. Kiçik və orta biznesə dəstək üçün beynəlxalq proqramlar. Rusiya Xarici İqtisadi Bülleteni. 2017, №10.

11. Zyuban S.E. Kiçik və orta biznesə maliyyə dəstəyi üzrə qlobal təcrübə. "İqtisadiyyat və cəmiyyət", 2019, №3(58).

12. Mashkeviç A.V., Şalneva M.S. Kiçik biznesin maliyyələşdirilməsi: Rusiya və xarici təcrübənin müqayisəli təhlili, (maliyyə bülleteni), 2014, №6.

T.Aliyeva

World experience in financing small and medium businesses

Abstract

In a market economy, the basis of the economy of any country is small and medium-sized businesses, since the level of development of small and medium-sized businesses shows how developed the country's economy is as a whole. The effective development of small and medium-sized businesses directly depends on their financial support. One of the main features of the organization of finances of SME is limited access to financial resources. Therefore, it is very important to study the experience of foreign countries in financing small and medium-sized businesses.

Т.Алиева

Мировой опыт финансирования малого и среднего бизнеса

Аннотация

В рыночной экономике основу экономики любой страны составляет малый и средний бизнес, так как уровень развития малого и среднего бизнеса показывает, насколько развита экономика страны в целом. Эффективное развитие субъектов малого и среднего бизнеса непосредственно зависит от их финансового обеспечения. Одной из главных особенностей организации финансирования МСП является ограниченность выхода на финансовые ресурсы. Поэтому весьма важное значение имеет изучение опыта зарубежных стран в финансировании малого и среднего бизнеса.

Peşə təhsili və insan kapitalı. Cild 7, №4, 2024, s.102-105

YÜKSƏK TEXNİKİ-PEŞƏ TƏHSİLİ İSTİQAMƏTİNDƏ ESTETİK TƏRBİYƏNİN FORMALAŞDIRILMASINDA MÜVAFİQ FƏNLƏRİN TƏDRİSİ MƏSƏLƏLƏRİ

Leyla Vahabova,
Azərbaycan Respublikası Təhsil İnistitutunun Peşə və ömürboyu təhsil şöbəsinin baş mütəxəssisi, Emal sənayesində bacarıqların inkişaf etdirilməsi, Nəqliyyat və logistika sahəsində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyalarının üzvü, Peşə və Kvalifikasiya Standartları üzrə ekspert, BƏT-in Azərbaycandakı daimi eksperti, kurikulum üzrə ekspert
e-mail: l.vahabova@arti.edu.az

https://doi.org/10.30546/2706-7858.7.4.2024.054

Məlumdur ki, Yüksək Texniki-Peşə (YTP) təhsili əmək bazarı ilə real əlaqəsinin aktuallaşdığı hazırkı şəraitdə tələbələrin əməksevərlik ruhunda tərbiyə olunması ilə yanaşı, onların estetik zövqünün formalaşdırılması, milli zəmində inkişaf etdirilməsi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən mühüm vəzifə kimi qarşıya qoyulmuşdur.

YTP təhsili müxtəlif peşə istiqamətlərinə aid fəaliyyətin spesifik sahəsi üzrə həyata keçiriləcək işlərin planlaşdırılması, təşkili və idarə edilməsi daxil olmaqla, sadə, xüsusi və mürəkkəb işləri müstəqil yerinə yetirməyə imkan verən yüksək nəzəri, metodiki və praktiki hazırlıqdır. YTP təhsili almış şəxs subbakalavr sayılır və heç bir imtahanda iştirak etmədən universitetə qəbul ola bilir. Çünki subbakalavr yüksək texniki-peşə təhsili səviyyəsində orta ixtisas təhsili pilləsində məzunlara verilən peşə-ixtisas dərəcəsidir. Yəni YTP təhsili kollec təhsilinə bərabər tutulur. Bu məsələ "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda təsdiqini tapıb.

Gənc nəsildə əməyə münasibət formalaşdırmağın mühüm şərtlərindən biri təcrübəni nəzəri təlimlə əlaqələndirməkdən ibarətdir. Tələbələrin (təhsilalanların) istehsalat təcrübəsinin düzgün təşkil edilməsi onlarda öyrənilən peşəyə müsbət münasibət formalaşdırır. Ona görə də peşə təhsili müəssisələrində tədris-metodiki işləri həll edərkən təhsilin yeni texnologiyalarla bərabər, istehsalatın təşkilində müasir metodlardan və yeni qiymətləndirmə formalarından istifadə edilməsi, təkmilləşdirilməsi, kompüterləşdirilməsi, düzgün təşkili və s. çox faydalı nəticə verə bilər.

Peşə təhsili müəssisələrində metodiki komissiyalarda (fənn birləşmələrində) ixtisas fənn müəllimləri ilə ötən tədris ilinin yekunları təhlil olunmalı və qarşıda duran vəzifələr müəyyən edilməlidir. Onu da qeyd edək ki, peşə təhsili müəssisələrində təhsilalanların hərtərəfli inkişafında ən mühüm komponentlərindən biri onlarda estetik tərbiyənin formalaşdırılması və inkişafında əsas rol oynayan *rəsm, rəngkarlıq, kompozisiya, xüsusi rəsm, çertyojun oxunması, rəsmxət, texniki rəsm* fənləri böyük əhəmiyyətə malikdir. Tələbələrdə gözəllik hissini tərbiyə etmək, tətbiqi sənət nümunələri vasitəsilə onları həyata hazırlamaq peşə təhsili müəssisələrinin mühüm vəzifələrindəndir. Məhz tələbələr sinif-təlim, təcrübə yolu ilə ətraf aləmin dərk olunmasının spesifik formaları ilə tanış olur və həyatı bədii obrazlarla, rənglərlə dərk etməyə istiqamətləndirilir, onların estetik zövqü, yaradıcı təxəyyülü,

mənəvi hisləri tərbiyə olunur, formalaşdırılır və bununla da gələcək inkişafın əlverişli təməli qoyulur.

Təşkil olunmuş seminarlarda, metodbirləşmənin iclaslarında mütəmadi olaraq qeyd edilməlidir ki, təlim yolu ilə təhsilalanların estetik mədəniyyətinin inkişafı qeyd olunan dərslərin təşkili və quruluşundan, öyrədiləcək materialın məzmun və xarakterindən, tələbələrin yaş və hazırlıq səviyyəsindən, tətbiq olunan üsul və vasitələrin pedaqoji səmərəsindən çox asılıdır. Ona görə də istehsalat təlimi ustaları və fənn müəllimlərinin nəzərinə çatdırılmalıdır ki, onlar yeni təlim texnologiyalarının dərslərdə yeri gəldikcə tətbiq edilməsinə xüsusi fikir verməli, bunun üçün dövri pedaqoji ədəbiyyatı izləməli, qabaqcıl pedaqoji təcrübəni öyrənməlidirlər.

metrlərini rənglərin dili ilə təsvir etməyi canlandırmağı məqsədyönlü və hərtərəfli mənimsəyir. Əlbəttə, qarşıya bütün tələbələrin rəssam kimi hazırlanması məqsədi qoyulmur və bu, adətən müvafiq peşəni seçənlərin sonrakı fəaliyyətində zəhmətin nəticəsi kimi meydana çıxır.

Məlumdur ki, rəsm və kompozisiya prosesində təsvir obyektini – əşyaları bir-birindən cizgilər ayırır. Bu cizgilər vasitəsilə əşyanın fəza hüdudu, forma və ölçüsü müəyyənləşdirilir və bunlar kağıza (materiala) köçürülür. Naturadan rəsm məqsədyönlü müşahidəyə, fikri fəallığa əsaslandığı üçün naturaya maraq oyadır və tələbələri sonrakı təlim işlərinə hazırlayır.

Təsviri başa düşmək, qiymətləndirmək üçün tələbələrdə müəyyən bilik, bacarıq və vərdişlərin, zövq və marağın formalaşdırılması tələb olunur.



Tələbələrin bədii-estetik qavramaları, incəsənət əsərlərinin təhlili, qiymətləndirilməsi, rəngkarlıq, kompozisiya, rəsm və rəsmxət nümunələri ilə praktik tanışlığı onların seçdikləri ixtisası dərindən mənimsəmələri üçün vacibdir.

Tədris prosesində bir sıra təlim və tərbiyə işləri reallaşdırılır. Belə ki, rəsm, rəngkarlıq və kompozisiya insanın inkişafı üçün zəngin imkanlar yaradır, tələbələrin məntiqi təfəkkürünü, yaddaşlarını, cisimlərin səciyyəvi əlamətlərini fərqləndirmək duyğusunu formalaşdırır və onlarda əməyə yaradıcı münasibət hisləri tərbiyə edir. Müəllimlər tələbələrin nəzərinə çatdırmalıdırlar ki, onlar əşya və anlayışların təsvirini çəkməklə, bizi əhatə edən aləmi daha dərindən dərk edir, cisimlərin formasını əşyalar arasındakı əlaqəni, onların oxşar və fərqli cəhətlərini, fəza para-

Bu bilik, bacarıq və vərdişlər tələbələrin yaş səviyyəsindən asılı olaraq sadədən mürəkkəbə doğru ardıcıl, sistemli və şüurlu təlim yolu ilə mənimsədilir. Estetik əşyaların mənimsədilməsi və qiymətləndirilməsi estetik zövq və hislərin inkişafına təkan verir. Rəsm və kompozisiyada oxşarlığa can atmağa çalışan tələbənin təsvirində əşyanın forması, onun böyüklüyü, quruluşu və fəzada yerləşdirilməsi əks olunmalıdır. Əşyanın təsvirində uyğunluğu tapmağa kömək edən əşyanın formasıdır ki, bunun da düzgün təsvirinə tələbələr tədricən nail olurlar. Təsviri fəaliyyətdə formanın verilməsində əl hərəkətləri göz qavrayışı ilə əlaqəli eyni vaxtda inkişaf edir. İlk təsvirlər sadə və ümumiləşmiş olur. Bu, analitik qavrayışın, əl hərəkətlərinin zəifliyi və məhdudluğu ilə təyin olunur.

İncəsənətin və etikanın bir qolu sayılan bu amillər öyrədilən peşələr üçün xüsusi əhəmiyyət kəsb edir. Bu amillər təkcə rəssama, incəsənət adamlarına lazım deyil, həm də bütün peşə-ixtisas

kadrlarına – xalçaçıya, qrafik-dizaynerə, oyma ixtisaslarına, zərgərə, inşaat, daş və ağac bərpaçılarına, bərbərə, reklam işçisinə, hətta iaşə xidməti peşələri üzrə təhsilalan tələbələrə də lazımdır, həm də vacibdir. Hər bir qənnadıçı, aşpaz, şirniyyatçı hazırladığı təamları zövqlə bəzəyib, kompozisiya qurub, süfrəyə düzür. Yeməyin qoyulduğu boşqabların tərtibatı və rəng seçimi qoyulan yeməyin çalarları ilə, relyeflərin düzgünlüyü, zövq oxşaması yenə də tələbələrdə rəng çalarlarının bir-biri ilə uyğunlaşmasıda, bənzər kollajlardan düzgün istifadə, bu ixtisaslarda rəngkarlıq, rəsm, kompozisiyanın keçirilməsini vacib sayır. Həmçinin hər bir peşə üzrə bunları tədris edən müəllim öz işinə yaradıcılıqla yanaşmalı, uyğun forma və metod tapmalı, xüsusi model və əyani vasitələr hazırlamalıdır. İxtisas modulları ilə qeyd edilənlərin əlaqəli tədris olunmasına daha çox diqqət yetirilməlidir.

Spesifik modullar və istehsalat təlimi arasında əlaqə tədris zamanı böyük əhəmiyyət kəsb edir. İstehsalat təlimi ustaları və spesifik modullar üzrə müəllimlər öz dərslərində bu fənlər arasındakı əlaqədən geniş istifadə etməlidirlər. Məsələn, "Bərbər" ixtisasında "xüsusi rəsm"də başın ümumi formasının qurulması, başın, üzün əsas mütənasibliyi, saç düzümlərinin sxem əsasında rəsminin çəkilməsi, "Xalçaçı" ixtisasında "rəsm"də simmetrik ornament rəsminin çəkilməsi, üstündə meyvəsi olan ağac budağının çəkilməsi, şar, ellips, kub, piramida fiqurlarının işlənilməsi, "Rəngkarlıq"da bağ güllərindən ibarət natürmortun rənglə təsvir edilməsi, heyvan və quş müqəvvalarının rənglə işlənilməsi, rənglərin xüsusiyyətləri, onların qarışdırılması, "Kompozisiya"da isə ornamentin xüsusiyyətləri, növləri, formaları, həndəsi və nəbati ornamentin bir-biri ilə vəhdəti, həndəsi və (nəbati ornamentin) fiqurdan ibarət xalça kompozisiyasının qurulması, kilim ornament kompozisiyasının qurulması və s. kimi mövzular bu peşələrdə ixtisas fənlərində müvafiq mövzularla əlaqəli tədris olunmalıdır.

"Xalq bədii yaradıcılığı", "kino-video nümayişi", "fotoqraf işi", "qrafik dizayner", "florist", "eksteryer və interyer işi", "oyma", "musiqi alətlərinin bərpası", "daş, ağac, memarlıq abidələrinin bərpası", "xalça məmulatlarının bərpası", "bərbər", "qrim işi", "zərgər" və s. kimi ixtisaslar incəsənətə daha çox yaxındır, yəni incəsənətin bir qoludur. Əgər zərgərin, fotoqrafın işini rəssamın işi ilə müqayisə etsək görərik ki, bu peşə sahiblərinin işi rəssamın işi qədər məsuliyyətlidir. Bu peşə sahiblərinin işinin nəticəsi əvvəlcədən ölçülüb biçilməsə, sonradan onu düzəltmək çox çətindir. Bununla yanaşı, onlar rəssam kimi yüksək intellektə, emosional statusa və ən yüksək əxlaqi keyfiyyətlərə də malik olmalıdırlar.

Bu peşələri tədris edən ixtisas fənn müəllimləri öz bilik və bacarıqlarını ötəri olaraq tələbələrə aşılasalar, nəticə uğursuz olar. Yaxşı olar ki, bu ixtisasları tədris edən müəllimlər öz ixtisaslarını ürəkdən sevərək tələbələrə çatdırsınlar. Uğurlu nəticə əldə etmək üçün dərsin tədrisində rəsm müəllimlərinin rolu böyükdür. Onlar həmin qrupda işləyən digər fənn müəllimləri ilə əlaqəli şəkildə işləməli, təcrübə ilə nəzəriyyəni əlaqələndirməyi bacarmalıdırlar. Rəsm müəllimi tələbələrə obyekti, onun rənglərini, cizgilərdə nisbətləri düzgün seçməyi, ona başqalarının görüb seçə bilmədiyi, lakin görünməsi və seçilməsi vacib olan hissələri seçə bilmək hislərini aşılamalıdır. Hər şeydən əvvəl tələbələrə rəsm haqqında ilkin anlayışlar verilməli, onlarda ən sadə və bizə çoxdan məlum olan kalka vasitəsilə köçürmə vərdişləri öyrədilməlidir. Bu metodun üstün cəhəti ondan ibarətdir ki, tələbələrdə rəsm

çəkmək həvəsi yaradır, həm də bu, praktik iş dəfələrlə inkişaf etdirilir və kompozisiya, rəngkarlıq, rəsimxət və s. kimi fənlərdə istifadə olunur. Bu iş, işıq vasitəsilə köçürmə dəfələrlə təkrar olunduqda tələbələrdə sərbəst olaraq əl ilə rəsm çəkmək vərdişləri yaranır.

Təlim üsullarına təlimin tərkib hissəsinin ayrı-ayrı detalları kimi baxaq. Məsələn, təsviri proses zamanı tələbənin təsəvvürünü genişləndirmək məqsədi ilə əşyanın və ya onun illüstrasiyasının nümayiş etdirilməsi təlim üsulu adlanır. Təlimin üsul və vasitələri dialektik vəhdət daşıyır və biri digərinə keçə bilir. Tətbiq edilən təlim üsulları tələbələrdə təsviri fəaliyyətin inkişafına və müəllimin qarşısında duran vəzifələrin icrasının təmin edilməsinə yönəlməlidir. Tədris edilən, müasir tələblərə uyğunlaşan daha dəqiq-inkişafetdirici, yaradıcı effektiv və məqbul sayılan təlim üsulları aşağıdakılardır:

Əyani məlumat (sözlü-izahlı təlim); Təkrarlama məşq (möhkəmləndirmə); Nəzəri araşdırma (tədqiqat); Evristik (həqiqətin müvafiq köməkçi suallar vasitəsilə aşkar edilməsini nəzərdə tutan tədqiqat və ya təlim üsulu; Problemli (təlim).

Bu üsulların hər birinin tətbiq edilməsi zamanı müəllim hər şeydən əvvəl məlumatı elə çatdırmalıdır ki, tələbələrdə estetik hislər oyanmış olsun. Öncədən aparılan təhlilin böyük əhəmiyyəti vardır. Təhlilin mahiyyəti ondadır ki, bu proses zamanı təsvir ediləcək əşyanın əlamət və xüsusiyyətləri dəqiq təyin olunmuş ardıcıllıqla aydınlaşdırılır və nəticədə tələbələrdə əşyanın əlamətləri (forma, rəng və s.) haqqında konkret təsəvvürlər formalaşır. Təhlilin sözlə, izahla aparılması daha yüksək nəticə verir. Belə ki, nəyə baxmaq, necə baxmaq izah edilərkən tələbələr əşyanın xüsusiyyəti haqqında əvvəlcə forması, rəngi, daha sonra quruluşu, hissələri və hissələrin bir-birinə nisbəti haqqında daha dəqiq və aydın məlumat əldə edirlər. Müəllim işin icrasına qədər müşahidə və təhlili ardıcıllıqla təyin olunmuş qaydada apararsa, məşğələdə effektiv nəticə əldə etmiş olar.

Nəticə. Vəzifə öhdəliklərini nəzərə alaraq onu söyləyə bilərik ki, təhsilverən (müəllim) tələbələrə fərdi yanaşmaqla, onların müstəqil praktiki işini təşkil etməklə bütün bunlara nail ola bilər. Bu işdə müəllimin hər bir tələbəyə bir subyekt kimi yanaşması, onun fərdi və psixoloji xüsusiyyətlərinin nəzərə alınması təlimin keyfiyyətinin yüksəldilməsinə, son nəticədə isə ixtisasın tələbələr tərəfindən sevilərək mənimsənilməsinə gətirib çıxarır.

Müasir təlim sistemində müəllimin qarşısında yeni tələblər durur. Müəllim yaradıcı, fəallaşdırıcı, düşünməyə, axtarışa sövq edən iş üsulu tətbiq edərkən öncədən mənimsənilmiş işin icrasına əsaslanaraq tələbələrə yeni təsvirin icra ardıcıllığı üzrə yönəldici suallar verməli, tələbələri istiqamətləndirməli, nəticəni, onları yeniliyi tələbələr özləri düşünərək tapmalı və iş prosesi yaradıcı xarakter daşımalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Hüseynzadə R., Əliyev S., Verdiyeva Ü., Əzizova Z. Pedaqogika (dərslik). Bakı, “Mütərcim” nəşriyyatı, 2021.

2. Sadıqov A. Müasir dərs necə olmalıdır. Bakı, 2017.

3. Allahverdiyev H. İnteraktiv dərslərdə istifadə edilən metod və texnikalar. “Hədəf” nəşriyyatı, 2013.

4. Əliyeva F., Məmmədova Ü. Müasir təlim texnologiyaları. Bakı, 2014.

Peşə təhsili və insan kapitalı. Cild 7, №4, 2024, s.106-109

HƏR KƏS ÜÇÜN İNKLÜZİV VƏ KEYFİYYƏTLİ TƏHSİL – BMT-NİN DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNİN HƏDƏFLƏRİNDƏN BİRİ KİMİ

Röya Qarayeva,
Bakı Slavyan Universitetinin müəllimi, Azərbaycan Respublikası Təhsil İnstitutunun doktorantı
e-mail: royagarayeva@gmail.com
https://doi.org/10.30546/2706-7858.7.4.2024.056

UOT: 342; 37

Xülasə. *Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri (DİM) yenilənmiş qlobal əməkdaşlıq dövrünə keçidi təmin edir. Məqsədlər iqlim dəyişikliyi, əzilən insan hüquqları standartları və geniş yayılmış yoxsulluq kimi təcili və həyəcanverici çağırışlara qarşı irəliləyişlər əldə etmək üçün səyləri birləşdirir. Bu səylər arasında yeni nəsil davamlı inkişaf üzrə təcrübələrin və qlobal miqyasda məlumatlı vətəndaşların təhsili və təlimi üçün fəaliyyət planları da yer almışdır. Bu baxımdan təhsil müəssisələri DİM-lərə töhfə vermək üçün əhəmiyyətli potensiala malikdirlər. Bilik və innovasiyaların mühərrikləri olaraq, bu müəssisələr tərəqqiyə nəzarət etmək, mürəkkəb problemlər üçün praktiki həllər hazırlamaq, öyrənməni və dəyərləri təşviq etmək, eləcə də Birləşmiş Millətlər Təşkilatının qlobal inkişaf gündəliyinə milli səviyyədə aktuallıq gətirmək üçün tədqiqatları inkişaf etdirmək iqtidarındadırlar.*

Açar sözlər: *təhsil, dayanıqlı inkişaf, inklüziv təhsil, keyfiyyətli təhsil, bərabər imkanlar.*
Key words: *education, sustainable development, inclusive education, quality education, equal opportunities.*
Ключевые слова: *образование, устойчивое развитие, инклюзивное образование, качественное образование, равные возможности.*

Müasir dövrdə icbari təhsilin tarixini öyrənərkən, ilk növbədə diqqət, vətəndaşlıq lehinə maarifçilik fəlsəfəsindən miras qalmış hər kəsin təhsillə təmin olunmasının humanist aspektinə yönəldilir. Qərbdə icbari formal təhsil XIX əsrin sonlarında milli-mədəni vahidlik sistemi kimi tədricən bütün Avropaya yayılmağa başladı. Dövlət məktəbi güclü regional müxtəliflik nümayiş etdirən cəmiyyətlərdə siyasi, mədəni və dil səviyyələrində birləşməyə cavabdeh olan qurumlardan biri idi. Kilsə ilə fasilə əsasında yaradılan, maarifçilik irsi olan ictimai məktəb əslində müstəqil olaraq insanların və sosial qrupların birləşmə və dərin transformasiya sistemini öz üzərinə götürdü. Kütləvi savad getdikcə dini təhsili əvəz etdi [1]. Maarifçilik dövründə təhsil ictimai tərəqqi və siyasi azadlıq vasitəsi oldu. Bu, bəşəriyyəti özünəməxsus mədəni və sosial təcriddən çıxararaq milli, məsuliyyətli və zəkalı bir varlıq yaratmağa imkan verdi.

Formal təhsil öz legitimliyini üç əsas mənbədən – dini institutlardan, pozitivizmdən və millət-

çilikdən alır ki, bu da üçqat irəliləyişlə nəticələnir. Məktəb sayəsində "fərdin bütün qabiliyyətləri təkmilləşir, o öz növbəsində cəmiyyətin inkişafına töhfə verir, cəmiyyət sivilləşərək və təkmilləşərək bəşəriyyəti irəli aparır" [2]. Məktəb, həm də gələcək vətəndaşlarda millətçiliyin güclənməsinə, vətənpərvərlik ruhunun formalaşmasına xidmət etmək məqsədi ilə yaradılmışdır.

Dayanıqlı İnkişaf Məqsədi 4 – Hər kəs üçün inklüziv və keyfiyyətli təhsil

BMT-nin Dayanıqlı İnkişaf Məqsədi – 2030 gündəliyinin 4-cüsü təhsilin keyfiyyətindən bəhs edir. BMT öz gündəliyi ilə gələcəkdə hərtərəfli, ədalətli və keyfiyyətli təhsili təmin etmək və hamı üçün ömürboyu təhsil imkanlarını təşviq etmək istəyir. DİM gündəliyində 4-ün məqsədi uşaqlara və gənclərə asanlıqla əldə edilə bilən keyfiyyətli təhsil və digər təhsil imkanları təqdim etməkdir. Onun məqsədlərindən biri universal savad və hesablama qabiliyyətinə nail olmaqdır. Bilik və dəyərli bacarıqların mənimsənilməsinin mühüm komponenti təlim mühitidir. Nəticə etibarilə, hamı üçün təhlükəsiz, inklüziv və səmərəli təhsil mühitini təmin etmək üçün daha çox təhsil müəssisələrinin tikilməsinə, eləcə də mövcud olanların modernləşdirilməsinə təcili ehtiyac vardır.

Təhsil davamlı inkişafın, dövlət quruculuğunun və sülhün arxasında duran hərəkətverici qüvvə kimi qəbul edilir. Oxuma, yazma və ya hesablama kimi müəyyən bacarıqları öyrənən uşaq və gənclərin bu bacarıqlara malik olmayan həmyaşıdlarına nisbətən daha yaxşı gələcəyə sahib olma ehtimalı daha yüksəkdir. Dünya dəyişir və qloballaşma dünya əhalisindən tez uyğunlaşmağı və yeni texnologiyalarla işləməyi öyrənməyi tələb edir.

Həddindən artıq yoxsulluğun, üsyanların, icmalararası münaqişənin və digər amillərin yayılması bir çox inkişaf etməkdə olan ölkələrdə tərəqqini əhəmiyyətli dərəcədə azaltmışdır. Kasıb ailələrin uşaqları varlı ailələrdən olan həmyaşıdlarına nisbətən daha çox hallarda məktəbi tərk edirlər. Kənd və şəhər arasındakı fərq hələ də yüksək olaraq qalmaqdadır. Məsələn, Qərbi Asiya və Şimali Afrikada davam edən silahlı münaqişə məktəbə getməyən uşaqların sayının artmasına səbəb olmuşdur.

Təhsil niyə vacibdir?

Təhsil bir çox digər Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağa imkan verəcək əsas elementdir. İnsanların keyfiyyətli təhsil almaq imkanı olarsa, yoxsulluğun amansız döngəsindən çıxa bilərlər. Ona görə də təhsil bərabərsizliklərin azaldılmasına və gender bərabərliyinə nail olunmasına öz töhfəsini verir. O həmçinin bütün dünyada insanlara daha sağlam və sabit həyat sürmək üçün güc verir. Təhsil insanlar arasında tolerantlığın artırılmasında da mühüm rol oynayır və daha sülhsevər cəmiyyətlərin formalaşmasına, bərabərsizliyin azaldılmasına töhfə verir. Təhsil insanların həyatının sosial-iqtisadi şəraitinin yaxşılaşdırılmasının əsasını qoyur və insanların yoxsulluqdan çıxarılmasında əsas rol oynayır. Son on ildə bütün səviyyələrdə, xüsusən də qızlar üçün təhsilə əlçatanlığın yaxşılaşdırılması istiqamətində mühüm irəliləyişlər əldə edilmişdir. Buna baxmayaraq 2018-ci ildə təxminən 260 milyon uşaq hələ də məktəbə getmirdi ki, bu da bu yaş qrupunda olan dünya əhalisinin təxminən beşdə birini təşkil edir. Bundan əlavə bütün dünyada uşaq və yeniyetmələrin yarıdan çoxu hələ də oxu və riyaziyyat üzrə minimum standartlara cavab vermir. DİM gündəliyinin 4-cüsünün yerinə yetirilməsi hamı üçün inklüziv və keyfiyyətli təhsilin təmin edilməsi və ömürboyu öyrənmənin təşviqi deməkdir.

İnklüziv təhsil nədir?

İnklüziv təhsil ümumi təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və bu təhsilin bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf prosesidir. Bu təhsil, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasını da təmin edir. İnklüziv təhsil uşaqların müstəqil bir fərd olduğunu və təhsil zamanı onların hər birinin öz ehtiyacları olduğunu qəbul edən metodologiyaları inkişaf etdirməyə yönəlib. Eyni zamanda inklüziv təhsil tədris zamanı müxtəlif ehtiyacların ödənilməsinə yönəlmiş yanaşmaların formalaşdırılmasına da çalışır. İnklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir [2]. Əlilliyi olan uşaqların əlilliyi olmayan həmyaşıdları ilə birlikdə təhsili hər kəs üçün səmərəli tədris

formasıdır. Belə ki, bütün uşaqların eyni sinifdə həyata keçirilən tədris prosesində iştirakı təhsilverənləri təhsilalanlara fərdi yanaşmağa sövq edir. Əlavə olaraq, müxtəlif araşdırmaların nəticələri göstərir ki, əlilliyi olan uşaqlarla əlilliyi olmayan uşaqların birgə inklüziv sinifdə oxuması fərqliliyə münasibəti dəyişməyə, özünə hörmətin və həmyaşıdların qəbulunun yaxşılaşdırılmasına səbəb olur ki, bu da sosial yöndən ədalətli və ayrı-seçkiliyə yol verməyən cəmiyyətin qurulmasına töhfə verir.

İnklüziv təhsil istər sağlam, istərsə də əlillərin bərabər təhsilalma hüquqlarını təmin edir və bu, cəmiyyətdə sosial bərabərliyin qorunmasına, əlil uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaratmış olur. İnklüziv təhsillə bağlı beynəlxalq praktikaya görə bir sinifdə təhsil alan xüsusi qayğıya ehtiyacı olan şagirdlərin sayı 5-10% olmalıdır.

Qanunvericilikdə inklüzivlik

Birləşmiş Millətlər Təşkilatının "Əlillərin hüquqları haqqında" Konvensiyası əlilliyi olan şəxslərin təhsil hüquqlarının bir çox tərəflərini əhatə edir və inklüziv təhsilin hər kəs üçün ən yaxşı təhsil mühiti olduğunu təşviq edir [3]. Həmçinin BMT-nin "Uşaq Hüquqları Konvensiyası"nın 28-ci maddəsi hər bir uşağın təhsil hüququnu tanıyır və bərabər imkanlar əsasında bu hüququn həyata keçirilməsini dəstəkləyir [4]. Sözügedən maddədə qeyd olunur ki, təhsil uşağın şəxsiyyətinin, istedadının, əqli və fiziki bacarığının inkişaf etdirilməsi, insan hüquqlarına və əsas azadlıqlara, azad cəmiyyətdə sülh, dostluq, anlaşma, tolerantlıq və bərabərlik içində həyata, ətraf mühitə hörmət tərbiyə edilməsinə yönəldilməlidir. Bu əsasda, əlilliyi olan uşaqların əlilliyi olmayan uşaqlarla birlikdə təhsilə cəlb edilməsi xüsusilə nəzərə alınır. Bundan başqa, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri gündəliyinin 4-cüsü də öz növbəsində, hamı üçün inklüziv və bərabər keyfiyyətli təhsilin təminatını vurğulayır.

Milli qanunvericilikdə "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən, dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanının yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir [5]. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli, 3498 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməyi və onların təhsili üçün maneəsiz mühit yaratmağı əsas məqsəd kimi qəbul edir [6].

Təəssüf ki, hələ də uşaqlara unikal keyfiyyətlərinə görə fərqli yanaşma halları vardır. Heç bir şagird fərqlərinə və ya öyrənmə imkanlarına görə kənarlaşdırılmamalı və ya təcrid edilməməlidir. Təhsilalanların tez-tez ayrı-seçkiliyə məruz qaldıqları bəzi məsələlərə əlillik, irq, cinsiyyət, ailə gəlirləri və ya danışdıqları dil daxildir. İnklüziv təhsil bütün təhsilalanlara qarşı ayrıseçkiliklə mübarizə aparmaq məqsədi daşıyır.

Bu gün Azərbaycanda da DİM-lərin və onlara uyğun olaraq müəyyənləşdirilmiş hədəf və göstəricilərin milliləşdirilməsi və ölkənin inkişaf gündəliyinə daxil edilməsi məqsədi ilə strategiyalar, proqramlar yerinə yetirilməkdədir. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə UNİCEF-in birgə əməkdaşlığı çərçivəsində 2015-2016-cı tədris ilindən ölkəmizdə "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsi, Avropa İttifaqının maliyyə dəstəyi ilə Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi (RİİB) tərəfindən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi, həmçinin UNİCEF tərəfindən "Azərbaycanda əlilliyi olan uşaqlar üçün inklüziv keyfiyyətli təhsilin genişləndirilməsi" layihəsinin icra edilməsi təqdirəlayiq hallardır [7].

Nəticə. Ədalətli və inklüziv mühit xoşbəxt və sağlam bir cəmiyyətin təşkili deməkdir. Təhsil verənlərin hər zaman ən ali amalı, sağlam və savadlı cəmiyyət şəraitinin saxlanılması olmuşdur ki, bunun da ən müsbət yollarından biri inklüziv təhsilin həyata keçirilməsidir. İnklüziv təhsil mühitinin məqsədi bütün təhsilalanlara ədalətli davranılmasını və bərabər imkanların əldə olunmasını təmin etməkdir. İnklüziv təhsil mühitində şagirdlərin müxtəlifliyi və unikallığı ayrı-seçkilik olmadan, fərdi yanaşma ilə qeyd

edilməlidir.

BMT-nin keçmiş Baş katibi Pan Gi Munun da qeyd etdiyi kimi, Dayanıqlı İnkişaf üzrə 17 məqsəd – insanlığın inkişafı üçün ümumi anlayış yolu və millətlər arasında sosial müqavilədir. Bu məqsədlər, insanlar, planetlər və uğur üçün qarşıda duran işlərin siyahısıdır və cəmiyyətin hər bir fərdi bu məqsədlərin həyata keçirilməsi üçün məsuliyyət hiss etməlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Knowledge and Relationship with Knowledge (Spanish Edition) by Jacky Beillerot (1998-09-04).
https://rid.unrn.edu.ar/bitstream/20.500.12049/7292/1/ResumenVercellinoMesa34.docx.pdf

2. Baudry A. Heim M.A. Dubreucq, B.Cabochе M., Weisshaar B., Lepineec L. İlk nəşr: 15 iyun 2004.
https://doi.org/10.1111/j.1365-313X.2004.02138 səh 45

3. Birləşmiş Millətlər Təşkilatının "Əlillərin hüquqları haqqında" Konvensiyası. 13 dekabr 2006.
https://www.coe.int/az/web/compass/convention-on-the-rights-of-persons-with-disabilities9.

4. Birləşmiş Millətlər Təşkilatının "Uşaq Hüquqları Konvensiyası", 20 noyabr 1989.
https://www.coe.int/az/web/compass/convention-on-the-rights-of-the-child

5 "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. 19 iyun 2009.
https://e-qanun.az/framework/18343

6. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli, 3498 nömrəli Sərəncamı. https://president.az/az/articles/view/58579

7. https://edu.gov.az/az/news-and-updates/17670

R.Garayeva

Inclusive and quality education for all – as one of the targets among UN sustainable development goals

Abstract

Sustainable Development Goals (SDGs) of the United Nations provide the transition to a new era of global cooperation. The Goals bring together efforts to make progress on urgent and pressing issues such as climate change, deteriorating human rights standards and widespread poverty. These efforts included action plans to educate and train the next generation and globally informed citizens about sustainable development practices. In this regard, education institutions have significant potential to contribute to the achievement of the SDGs. As engines of knowledge and innovation, these institutions are able to conduct research to monitor progress, develop practical solutions to complex problems, promote learning and values, and bring national relevance to the UN's global development agenda.

Р.Гараева

Инклюзивное и качественное образование для всех – как одна из целей устойчивого развития ООН

Аннотация

Цели устойчивого развития (ЦУР) Организации Объединенных Наций обеспечивают переход в новую эпоху глобального сотрудничества. Цели объединяют усилия, направленные на достижение прогресса в решении срочных и неотложных проблем, таких как изменение климата, ухудшение стандартов прав человека и широко распространенная бедность. Эти усилия включали планы действий по обучению нового поколения и глобально информированных граждан методам устойчивого развития. В этом отношении учебные заведения обладают значительным потенциалом для внесения вклада в достижение ЦУР. Являясь двигателями знаний и инноваций, эти учреждения способны проводить исследования для мониторинга прогресса, разрабатывать практические решения сложных проблем, продвигать обучение и ценности, а также привносить национальную значимость в глобальную повестку дня ООН в области развития.

Peşə təhsili və insan kapitalı. Cild 7, №4, 2024, s.110-114

PEŞƏ TƏHSİLİ SAHƏSİNDƏ ÇALIŞAN MÜƏLLİMLƏRİN RƏQƏMSAL SƏRİŞTƏLƏRİNİN DƏRS PROSESİNDƏ ROLU

Kənan Allahverdiyev,
Azərbaycan Respublikası Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə əyani doktorantı
e-mail: kenan.allahverdi.0@gmail.com
https://doi.org/10.30546/2706-7858.7.4.2024.063

ORCİD: https://orcid.org/0009-0005-2379-4725
UOT: 37; 377

Xülasə. *Pedaqoqların rəqəmsal səriştələri dünyanın bir çox öndə gedən ölkələrində əhəmiyyətli tədqiqat mövzularından biridir. Müəllimin rəqəmsal səriştəsinin inkişafındakı uğuru ona dərsi müasir tələblərə uyğun və effektiv tədris etməsinə imkan verir. Texnologiyanın istifadə dairəsinin günügündən genişləndiyi bir dövrdə rəqəmsal səriştəyə sahib olmaq təkcə informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadəni deyil, eyni zamanda onların köməyi ilə alınacaq biliklərin əldə edilməsini də nəzərdə tutur. Məqalədə göstərilir ki, yaxın gələcəkdə rəqəmsal səriştələr daha yaxşı mütəxəssislərin hazırlanması üçün müəllimlərdən əsas komponentlərdən biri kimi tələb olunacaq.*

Açar sözlər: *müəllim, səriştə, peşə təhsili, İKT, innovasiya, TPACK, DigCompEdu, Heuataqogika.*
Key words: *teacher, competence, vocational education, ICT, innovation, TPACK, DigCompEdu, Heuatagogy.*
Ключевые слова: *учитель, компетентность, профессиональное образование, ИКТ, инновации, TPACK, DigCompEdu, хейтагогик.*

"Səriştə" anlayış olaraq müxtəlif situasiyalarda ortaya çıxan problemlərin həllinə yönəlik bilik, münasibət, bacarıqları özündə cəmləşdirir. Səriştəəsaslı təlimdə müəllimlərə nəyi öyrətməli olduqları göstərilmir, əksinə, sərbəstlik verilərək sonda tələbələrin nəticələrinə diqqət yetirilir. Peşə təhsili müəssisələrinin işi tələbələrə yanlız ixtisasa uyğun təhsil verməkdən ibarət deyil, eyni zamanda pedaqoji çərçivədə onların tərbiyəsi və şəxsiyyət kimi formalaşmasını təmin etməkdir. Buradan belə bir nəticəyə gəlirik ki, tələbələr öz inkişaflarını təmin edən resurslara çata bilməli, müəllimlər də bu yolda onlara kömək edəcək qədər səriştələrə sahib olmalıdırlar. Ona görə də son dövrlərdə aparılan tədqiqatlarda "səriştə deyəndə nə başa düşüldüyü", "nəyin əsas bilik kimi qiymətləndirildiyi" və "bunların pedaqoqlar tərəfindən necə inkişaf etdirildiyi" kimi sualların cavabları araşdırılır [1, s.16; 2, s.3].

Rəqəmsal səriştəni hərtərəfli müəyyənləşdirmək üçün müxtəlif qiymətləndirmə vasitələrindən başqa bir sıra konseptual çərçivələr hazırlanmışdır. Bu qiymətləndirmə vasitələrindən bəziləri məktəb direktorlarının səriştələrini əhatə etsə də, əksər suallar sırf pedaqoji çərçivədə olub, müəllim hazırlığına əsaslanır. Pedaqoqların rəqəmsal səriştəsinə və inkişafına elmi ədəbiyyatda müxtəlif təriflər verilib. Səriştə mürəkkəb

bir termin olmaqla, tədrisin konkekstinə aid texnoloji, pedaqoji, psixoloji və s. bacarıqları özündə əks etdirir. Kompüterlər, mobil cihazlar və tətbiqlərdən istifadə bacarığı rəqəmsal səriştənin texnoloji aspektinə aiddir. Müəllimlər rəqəmsal səriştələrini inkişaf etdirməklə həm kompüter proqramlarının, həm də cihazların dərsdə istifadə edilməsinə geniş yer verməlidirlər. Onlayn təhsilin getdikcə geniş yayıldığı bir dövrdə pedaqoqlar mobil İKT texnologiyalarını da qavramalıdırlar ki, təlim prosesini istənilən yerdə və istənilən zaman həyata keçirə bilsinlər. Aparılan tədqiqatlar peşə təhsili müəssisələrində fəaliyyət göstərən müəllimlərin peşəyə xas olan bacarıqlarla yanaşı, rəqəmsal sahədəki bacarıqlara da ehtiyac duyduqlarını ortaya çıxarmışdır [3, s.2]. Müəllimin ənənəvi tədrisdə nə qədər effektiv olmasına baxmayaraq, o, rəqəmsal bacarıqlara yiyələnməklə öz effektivliyini bir daha nəzərdən keçirməli və müasir tədris üsullarını mənimsəməlidir.

Dördüncü Sənaye İnqilabının yeni tələblərini nəzərə almaqla peşə təhsili işçiləri sadəcə xüsusi fənlərə aid olan səriştələrlə yanaşı, digər ümumi rəqəmsal səriştələrə də hakim olmalıdırlar. Bu sahədə fəaliyyət göstərən təlimçilərin görüşlərinə görə, rəqəmsal səriştələr və ya digər adı ilə rəqəmsal savadlılıq pedaqoqların peşəkar, sosial və şəxsi keyfiyyətlərinə birbaşa olaraq təsir göstərir [4, s.28]. Rol və Ayfenthalerə görə, rəqəmsal səriştələr aşağıdakı **yeddi əsas kateqoriyada** cəmlənir.

– *rəqəmsallaşmaya münasibət;*
– *rəqəmsal alətlərin idarə edilməsi;*
– *informasiya savadlılığı;*
– *rəqəmsal təhlükəsizliyin tətbiqi;*
– *rəqəmsal rabitə vasitəsilə əməkdaşlıq;*
– *rəqəmsal problemlərin həlli;*
-*bir-birinə bağlı və rəqəmsal mühitlər haqqında düşüncə [5].*

Müəllimlərin rəqəmsal səriştələri onlara kurikulumların hazırlanmasında, dərslərin planlaşdırılmasında və onların inkişafında əhəmiyyətli rol oynayır [6, s.2487]. Avropa tədqiqatçıları müəllimlərin rəqəmsal savadlılığının inkişaf etdirilməsini, tələbələrə daha yaxşı öyrənmə mühiti yaratmağa, iş müəssisəsində baş verə biləcək hadisələri və prosesləri əyani şəkildə göstərməyə və ümumi olaraq tələbələrin geniş miqyasdakı ehtiyaclarının aradan qaldırılması üçün müxtəlif öyrənmə vasitələrinə əlçatanlıqlarını təmin etmək düşüncəsindədirlər. Yeni dövr müəllimlərinin pedaqoji bacarıqlarına rəqəmsal tədris materiallarının tərtib olunması və istifadəsi, kifayət qədər zəngin texnoloji təlim mühitinin yaradılması, dərs prosesində tədris üçün zəruri olan mobil telefon və başqa texnoloji vasitələrdən istifadə bacarıqları daxildir [6, s.2487]. Suadad Muammar və həmkarları pedaqoqların rəqəmsal səriştələrini pedaqoji-kurikulum və didaktik-metodoloji olmaqla 2 kateqoriyaya bölüblər [6, s.2491]. *"Pedaqoji-kurikulum kateqoriyası"* adı altında texnologiyadan istifadənin məntiqi, müəssisənin missiyası və kurikulumuna uyğun olan ən optimal şəkildə həyata keçirilməsi, *didaktik-metodoloji səriştə kateqoriyasında* isə tədris prosesində İKT-dən məqsədəuyğun şəkildə istifadə edərək onun zənginləşdirilməsi nəzərdə tutulur. Rəqəmsal səriştənin pedaqoji meyarı interaksiyaya diqqət edilməsi və fəal tədris mühitində İKT-dən istifadədir. Rəqəmsal səriştənin komponentləri bir-birləri ilə bağlı olduğu üçün rəqəmsallaşma ilə əlaqəli işin texnoloji və pedaqoji tərəflərinin düzgün başa düşülməsi çətinlik yarada bilər. Məsələn, rəqəmsal təhlükəsizlik, zərərli proqramların müəyyənləşdirilməsi, şəxsi məlumatların oğurlanması, şifrələrin qorunması, cihazların təhlükəsizliyi və məlumat mübadiləsi kimi fəaliyyətlərin təhlükəsiz idarə edilməsi həm texnoloji, həm də pedaqoji perspektivləri əhatə edir. Bunlardan başqa rəqəmsallaşma tədrisin planlaşdırılması, qiymətləndirilməsi kimi vacib aspektləri əhatə etməklə tədrisin həm texnoloji, həm də pedaqoji tərəfinə müsbət yöndə təsir göstərir. *Texnoloji Pedaqoji Məzmun Biliyi (TPACK)* diaqramında bu texnologiyaların təhsildə tətbiqini açıq şəkildə görmək mümkündür.

TPACK modeli müəllimin texnoloji, pedaqoji və məzmunəsaslı biliyinin bir-birləri ilə əlaqəsinə əsaslanır. Rəqəmsallaşmanı öz dərslərinə uğurlu şəkildə tətbiq etmək istəyən pedaqoqlar, yuxarıda adları sadalanan biliklərin hər üç formasını həm nəzəri, həm də praktiki olaraq tətbiq etməyi bacarmalıdırlar. Lakin bütün müəllimlər rəqəmsallaşmaya eyni dərəcədə uyğunlaşa bilmirlər. Müasir texnologiya vasitəsilə tədris edilən zaman, sistemsiz şəkildə sadəcə texnoloji cihazlardan istifadə nəzərdə tutulmamalı, əksinə, texnoloji imkanlar tədrisin konteksti ilə əlaqələndirilərək vəhdətdə tətbiq edilməlidir. Tədrisin keyfiyyətinin təmin edilməsi üçün müəllimlərdə

rəqəmsal səriştənin yüksəldilməsi üçün təlimlər təşkil edilməlidir.

Tədqiqatlar göstərir ki, yaş, cins, ana dilindən istifadə bacarıqları kimi amillərlə yanaşı, İKT resurslarından istifadə, liderlik, əlavə materiallardan istifadə də tədris prosesində mühüm rol oynayır. Müasir dövrün tələblərinə uyğun kadr hazırlığı üçün müəllimlər rəqəmsal səriştələrə sahib olmalıdırlar. Rəqəmsal səriştələrin inkişaf etdirilməsi məqsədi ilə onlar sadəcə dərs prosesinin yox, eyni zamanda gündəlik həyatın da bir hissəsi olmalıdırlar. Aparılan digər tədqiqatlarda müsbət sosial və kollegial təzyiq müəllimlərin dərsdə İKT-dən istifadə etməsinə maraq yaradır. Bir sıra tədqiqatçılar İKT bacarıqlarını təhsildə kommunikasiya və əməkdaşlıq yaradılmasında mühüm amil kimi qeyd edirlər.

Son dövrlərdə digər Avropa ölkələrində olduğu kimi, Şimali Avropa ölkələrində də bu mövzuda əhəmiyyətli tədqiqatlar aparılır. Mövzumuzla əlaqəli peşə təhsili sahəsində rəqəmsallaşma mövzusu ətrafında isveçrəli alimlər tərəfindən aparılan maraqlı araşdırmalar mövcuddur. Tədqiqatçılar bloqlar, iş yeri simulyasiyaları, videoəsaslı təlimatlar, hiper videolar kimi müxtəlif texnoloji vasitələrin təlim prosesində necə effektiv istifadə oluna biləcəyini araşdırırlar. Bunlardan başqa, bir çox tədqiqatçılar iş dünyası ilə təhsil müəssisələri arasında necə effektiv əlaqələrin yaradıla biləcəyini və müasir texnologiyaların tədris prosesinə necə tədbiq olunacağını araşdırıblar. Tədqiqatın nəticələrindən aydın olur ki, rəqəmsal səriştələrə sahib olan müəllimlər tədrisi fotoşəkillər, videolar və internet materiallarından istifadə edərək daha effektiv şəkildə həyata keçirirlər. Son dövrlərdə aviasiya, səhiyyə kimi önəmli ixtisas sahələrindəki tədrisdə mühüm rol oynayan 3D virtual mühitlərdə təlim iş yerindəki real vəziyyətləri və ssenariləri əks etdirərək tələbələrə ən yaxşı şəkildə təhsil almalarına imkan verir [7, s.345]. 3D sistemlərinin tədrisin keyfiyyətinin yüksəldilməsinə ciddi ölçüdə təsir göstərməsi üçün düzgün kurikulumlar seçilməli, təhsil müəssisələri resurslarla təmin olunmalıdır ki, bunlar da böyük maliyyə tələb edən mürəkkəb proseslərdir. Enochsson və həmkarları (2021) apardıqları tədqiqatda peşə təhsili müəssisələrində fəaliyyət göstərən pedaqoqların əmək bazarının tələblərinə uyğun kadr hazırlamaqda çətinlik çəkdiklərini, bunun da əsas səbəbinin təhsil müəssisələrində mövcud texnoloji bazanın yetərsiz, təcrübə imkanlarının məhdud olması və istehsal müəssisələri ilə əməkdaşlıq qurmaqda çətinlik çəkdiklərini vurğulayırlar [8, s.112]. Aparılan tədqiqatlarda peşə təhsilində rəqəmsallaşmanın çətinlikləri və yaratdığı imkanlar araşdırılarkən tələbələrin dərs zamanı müəllim nəzarəti altında smartfonlardan istifadə etmələrinin onların rəqəmsal biliklərinin yüksəlməsinə xidmət etdiyi aşkar edilib.

Müəllimlərə gərəkli olan rəqəmsal bacarıqlar **DigCompEdu proqramı** çərçivəsində **altı əsas kateqoriya** altında **iyirmi iki səriştə** olaraq müəyyən edilib. Bu proqramın etibarlılığı tədqiqatçılar tərəfindən təsdiqlənib və Avropa ölkələrində müəllimlərin rəqəmsal inkişafı birbaşa olaraq bu səriştələrlə bağlıdır. DigCompEdu proqramında qeyd olunan səriştələr orta, peşə, xüsusi, qeyri-formal təhsil mühitləri də daxil olmaqla, bağça müəllimlərindən ali təhsil müəssisələrində fəaliyyət göstərən müəllimlərə qədər bütün pedaqoqlara aiddir. Bu çərçivə texniki biliyi deyil, təhsilin keyfiyyətinin yüksəldilməsində rəqəmsal texnologiyaların səmərəli şəkildə istifadəsini əsas götürür. DigCompEdu proqramı pedaqoqlara rəqəmsal vasitələri və strategiyaları dərslərinə effektiv şəkildə inteqrasiya etmələrinə dəstək məqsədi ilə bələdçi kimi çıxış etməklə, müxtəlif təhsil kontekstlərində tələbələrə müxtəlif metodlarla xitab edərək öyrənmə təcrübələrini təkmilləşdirməklərinə imkan yaradır. Onu da qeyd edək ki, tematik kurslar və müəllimlər üçün təşkil olunmuş rəqəmsal təlimlər müsbət nəticə göstərir. Sinif otaqları nəzəri bilikləri öyrənilən yer deyil, əksinə, praktiki bilik və bacarıqların da rahatlıqla mənimsəniləcəyi bir yer şəklində təşkil olunmalıdır. Sənaye nümayəndələrinin təcrübəçilərlə təşkil etdiyi görüşlərdə müəllimlər də iştirak etməli və ən son texnologiyalarla yaxından tanış olmalıdırlar. Rəqəmsal kurikulumların hazırlanması müəllimlərin bu səriştələri öyrənməyə təşviq edilməsi yollarından biridir. Pedaqoqların bir çoxu dərslərdə İKT vasitələrindən istifadənin üstünlüklərini qeyd etmələrinə baxmayaraq, dərslərində ona kifayət qədər yer vermirlər.

Apardığımız tədqiqatlardan belə nəticəyə gələ bilərik ki, DigCompEdu proqramı müəllimlərin

rəqəmsal səriştələrinin inkişafına töhfə verən önəmli sistemlərdən biridir. Bu sistemin etibarlılığına baxmayaraq tədrisin effektli olması üçün proqram tələbənin düşüncəsini, etik çərçivəsini və s. nəzərə almaqla tərtib olunmalıdır.

Süni intellektin həyatımıza daxil olması ilə birlikdə təhsil sahəsində hansı dəyişikliklərə yol açacağı maraq doğuran məsələlərdən biridir. Süni intellektin dərslərə tətbiq edilməsi üçün əvvəlcə onun verdiyi məlumatların etibarlılığı gözdən keçirilməlidir. Hazırda süni intellekt proqramlarından istədiyimiz bir çox mövzuda məlumat ala bilməyimizə baxmayaraq, bu məlumatların doğruluğu sual altındadır. İxtisaslarını yaxşı bilən müəllimlər bu proqramlardan istifadə zamanı yanlış məlumatları müəyyən etmək iqtidarında olsalar da, təhsilalanlar bunu edə bilməyəcəklərindən müəllimlərə süni intellekt proqramlarının təşviqini məsləhət görmürük. Süni intellekt proqramlarından ideya almaq məqsədi ilə istifadə oluna bilər, lakin mütləq şəkildə bu məlumatlar etibarlı bir mənbə ilə nəzərdən keçirilməli, onun yazdıqlarına sorğu-sualsız etibar edilməməlidir. Bundan əlavə, rəqəmsallaşmanın günü-gündən genişləndiyi bir dövrdə tələbə mərkəzli təhsili təşviq etmək üçün pedaqoqlara bu mövzularda təlimlərin keçirilməsi ilə yanaşı, təhsildə texnologiyanın istifadəsi ilə tədrisin fərdiləşdirilməsi və inklüziv təhsilə daha çox diqqət yetirilməsi yaxşı olardı. Bunun üçün virtual aləmdə tədris rollarının adekvat idarə olunması ilə birlikdə texniki, prakseoloji, metodoloji, qnoseoloji və sosial-emosional komponentləri nəzərə alaraq rəqəmsal texnologiyalara daha geniş yer verən təlim proqramları hazırlana bilər. Bundan başqa, rəqəmsal texnologiyalara tədris prosesinə inteqrasiya edilməsi prioritet olmalıdır. Müəllimlər işə qəbul zamanı onların rəqəmsal bacarıqları DigiCompEdu proqramı çərçivəsində qiymətləndirilməklə, tələbələrə daha yaxşı təhsil verilməsi təmin edilməlidir. Müəllimlərdən bu imtahanın götürülməsi üçün əvvəlcə proqramlar bu sistem çərçivəsində qurulmalı, təlimlər keçirilməli və ilkin mərhələdə bu proqramla bağlı bir sıra pedaqoji məsələlər nəzərə alınmalıdır.

Müəllimlərin qavrama səviyyələri onların cinslərinə, yaşlarına və əvvəl sahib olduqları biliklərə görə müxtəliflik göstərə bilər. Təlimin effektiv həyata keçirilməsi üçün iştirakçılar əvvəlcə diaqnostik qiymətləndirmədə iştirak etməli və nəticələrə uyğun şəkildə qruplaşdırılaraq təlimdə iştirak etməlidirlər. Müəllimlər rəqəmsal bilik və bacarıqlarına görə müxtəlif qruplarda təlim keçsələr də, tələbələrin təhsildə təkmilləşmələri üçün tədris prosesi zamanı onlar əməkdaşlığa təşviq edilməlidirlər.

Müəllim hazırlığının müəyyən bir strategiyaya uyğunlaşdırılması mütləqdir. Ona görə təhsil müəssisələri peşələrə uyğun rəqəmsal səriştələri müəyyən etməklə, müəllim heyyətini tərtib etdikləri proqram çərçivəsində təlimlərə dəvət etməlidirlər.

Yenilikçi təlim metodlarından biri də tələbə mərkəzli tədrisi dəstəkləyən ***Heuatagogy metodudur.*** Bu metod tələbələrə təkbaşına öyrənməni, konstruktivizmi, effektliyi, proksimal inkişaf zonalarını və tələbə üçün transformativ təhsili formalaşdıran bir modeldir. Bu metod tələbələrə bloqlar, sosial medialar kimi onlayn platformlara daxil olmaq, orada kontent yaratmaq və paylaşmaq, sinif daxilindəki və xaricindəki insanlarla əməkdaşlıq etmək, nəticələrini, öyrəndiklərini bölüşmək və necə öyrəndikləri haqqında müzakirələr etməklə öyrənmə prosesini fərdiləşdirərək gələcəklərini istədikləri şəkildə formalaşdırmağa imkan verir. Digər metodlar kimi bu metodda da müəllimlər yaxından iştirak edərək tələbələrə etibarlı mənbələr tapmaqda, təqdimatları sistemli şəkildə hazırlamaqda və s. istiqamət verəcəkdir.

Nəticə. Müasir dövrün tələblərinə uyğun olaraq müəllimlərin rəqəmsal səriştələrə sahib olması və onu daim inkişaf etdirməsi tədrinin keyfiyyətinin yüksəlməsi üçün olduqca əhəmiyyətlidir. Apardığımız tədqiqatın əsas məqsədi bu səriştənin inkişafını vacib edən amilləri və onu inkişaf etdirmək məqsədilə müəllimlərin şəxsi ehtiyyaclarını, o cümlədən onların peşəkar və metodoloji effektivliyinin tədrisə daha səmərəli inteqrasiya etməsi üçün təkliflər verməkdir. Müəllimlərin rəqəmsal səriştələrini təkmilləşdirmələri üçün bir sıra təlim modellərindən istifadə ilə bağlı sistemli şəkildə aparılmış tədqiqatlara nadir hallarda rast gəlinir. Biz bu tədqiqatda yeni öyrənmə texnologiyalarının və modellərinin tətbiqi ilə müəllimlərin rəqəmsal səriştələrindəki boşluqların aradan qaldırılması üçün yollar təklif edirik. Təlim vasitələrinin və metodlarının müxtəlifliyi müəllimlərə dərslərini

daha yaxşı təşkil etməyə imkan verəcəkdir.

İstifadə edilmiş ədəbiyyat

1. Vidra A.K., Bakos I.M. An Overview of the Digital Competencies of Teachers in the Hungarian Secondary Agricultural Vocational Training System. Technology, Knowledge and Learning, 2024, pp.16.
https://doi.org/10.1007/s10758-024-09766-x

2. Deschênes M., Dionne L., Parent S. Supporting digital competency development for vocational education student teachers in distance education. 2024.
https://doi.org/10.3389/feduc.2024.1452445

3. Pablos V.B.G. Matarranz, M. Aranda L.A.S., Otto A. Teachers' digital competencies in higher education: a systematic literature review. International journal of Education-Technology in higher education, 2022.
https://doi.org/10.1186/s41239-021-00312-8

4. Əhmədov H.H. Təhsil ölkənin milli təhlükəsizliyi və innovativ inkişafının faktoru kimi. "Peşə təhsili və insan kapitalı" jurnalı, 2019, №1, cild 2, s.26-30.

5. Roll M.J.J., Ifenthaler D. Multidisciplinary digital competencies of pre-service vocational teachers. Empirical Res Voc Ed Train 13, 7, 2021.
https://doi.org/10.1186/s40461-021-00112-4

6. Muammar S., Hashim K.F.B., Panthakkan A. Evaluation of digital competence level among educators in UAE Higher Education Institutions using Digital Competence of Educators (DigComEdu) framework. Educ Inf Technol 28, 2485-2508, 2023.
https://doi.org/10.1007/s10639-022-11296-x

7. Dobricki M., Evi-Colombo A., Cattaneo A. Situating Vocational Learning and Teaching Using Digital Technologies - A Mapping Review of Current Research Literature. International Journal for Research in Vocational Education and Training, 2020, 7(3), pp.344-360.
https://doi.org/10.13152/IJRVET.7.3.5

8. Enochsson A.B., Kilbrink N., Andersén A., Ådefors A. Obstacles to progress: Swedish vocational teachers using digital technology to connect school and workplaces. International Journal of Training Research, 2021, 20(2), pp.111–127.
https://doi.org/10.1080/14480220.2021.1979623

K.Allahverdiyev

The role of teacher's digital competences who works in the field of vocational education in the teaching process

Abstract

The digital competence of educators is one of the key research topics in many leading countries. A teacher's success in developing digital competence enables them to teach effectively and in line with modern requirements. In an era where the scope of technology is expanding day by day, digital competence involves not only the use of information and communication technologies (ICT) but also the acquisition of knowledge with their help. The trend shows that in the near future, digital skills will be one of the essential components required from teachers for preparing better professionals.

К.Аллахвердиев

Роль цифровых компетенций преподавателей, работающих в сфере профессионального образования, в учебном процессе

Аннотация

Цифровые компетенции педагогов являются одной из ключевых тем исследований во многих ведущих странах. Успех учителя в развитии цифровой компетентности позволяет ему эффективно преподавать в соответствии с современными требованиями. В эпоху, когда сфера применения технологий с каждым днем расширяется, цифровая компетентность подразумевает не только использование информационно-коммуникационных технологий (ИКТ), но и получение знаний с их помощью. Тенденция показывает, что в ближайшем будущем цифровые навыки станут одним из основных компонентов, необходимых от учителей для подготовки более квалифицированных специалистов.

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

QƏRAR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli, 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli, 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, №10, maddə 977 (Cild I); 2024, №1, maddə 80) ilə təsdiq edilmiş "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "I. "Sənətşünaslıq, mədəniyyət və incəsənət" peşə istiqaməti üzrə" hissənin "030102 Kargüzarlıq" ixtisas qrupuna "Kargüzar" ixtisasından sonra "Kargüzarlıq və ofis xidmətləri üzrə mütəxəssis" ixtisası əlavə edilsin.

2. "II. "İqtisadiyyat, xidmət, avtomatika və idarəetmə" peşə istiqaməti üzrə" hissədə:

2.1. "030206 Qaz avadanlıqlarının təmiri və istismarı" ixtisas qrupuna "Yeraltı qaz kəmərlərinin təmiri və istismarı üzrə çilingər" ixtisasından sonra "Qaz təsərrüfatı qurğularının istismarı" ixtisası əlavə edilsin;

2.2. "030208 İaşə xidməti" ixtisas qrupuna "Barista" ixtisasından sonra "Qida və içki üzrə nəzarətçi" ixtisası əlavə edilsin;

2.3. "030213 Bələdçilik" ixtisas qrupuna "Turizm təşkilatçısı" ixtisasından sonra "Turizm bələdçiliyi" ixtisası əlavə edilsin;

2.4. "030214 Avtomatlaşdırılmış texnologiyalar və istehsal" ixtisas qrupuna "Avtomatika üzrə usta" ixtisasından sonra "Robototexnika" ixtisası əlavə edilsin;

2.5. "030219 İnformasiya-kommunikasiya texnologiyası və hesablama texnikasının təmiri və servis xidməti" ixtisas qrupuna "Kompüter ustası" ixtisasından sonra "Veb proqram tərtibatçısı" ixtisası əlavə edilsin.

3. "III. "Kənd təsərrüfatı, balıq və meşə təsərrüfatı" peşə istiqaməti üzrə" hissədə:

3.1. "030301 Bitkiçilik" ixtisas qrupuna "Meyvə ustası" ixtisasından sonra "Bağçılıq və tərəvəzçilik" və "Aqronomluq" ixtisasları əlavə edilsin;

3.2. "030302 Kənd təsərrüfatı nəqliyyatı və elektrik avadanlığına xidmət" ixtisas qrupuna "Kənd təsərrüfatı və inşaat texnikasının (maşınlarının) istismarı" ixtisasından sonra "Aqrar (fermer)

təsərrüfatının təşkili” ixtisası əlavə edilsin;

3.3. “030307 Meliorasiya və çilingər işləri” ixtisas qrupuna “Suvarma sistemlərinin operatoru” ixtisasından sonra “Su təsərrüfatı qurğularının istismarı” ixtisası əlavə edilsin;

3.4. “030321 Ağac emalı qurğuları, mebel sənayesi, ağac məmulatları və yarımfabrikatların hazırlanması” ixtisas qrupuna “Üzlükçü dizayner” ixtisasından sonra “Mebel dizayneri” ixtisası əlavə edilsin.

4. “IV. “Energetika, elektrotexnika, cihazqayırma və optik texnika, radiotexnika, rabitə və informasiya texnologiyaları” peşə istiqaməti üzrə” hissəyə aşağıdakı məzmunda “030433 Geomatika” ixtisas qrupu əlavə edilsin:

030433	Geomatika	Geodeziya üzrə mütəxəssis
		Kartoqrafiya üzrə mütəxəssis

5. “VI. “Aviasiya, kosmik raket, dəniz texnikası və nəqliyyat vasitələri” peşə istiqaməti üzrə” hissədə:

5.1. “030601 Uçan aparatların planer və sistemlərinin təmiri və istismarı” ixtisas qrupuna “Aviasiya yanacaq-sürtkü materiallarının texnoloji avadanlıqları üzrə mexanik” ixtisasından sonra “Dronların texniki xidməti və təmiri üzrə texnik” ixtisası əlavə edilsin;

5.2. “030616 Hərəkət tərkibinin təmiri və xidməti” ixtisas qrupuna “Dəmiryol stansiyası və keçidi növbətçisi” ixtisasından sonra “Qatar elektromexaniki” ixtisası əlavə edilsin;

5.3. “030624 Avtomobillərin təmiri – sürücülük” ixtisas qrupuna “Avtomobil mexatronikası üzrə texnik” ixtisasından sonra “Elektrik və hibrid avtomobillərin texniki qulluğu və təmiri üzrə texnik” ixtisası əlavə edilsin;

5.4. Aşağıdakı məzmunda “030635 Hava nəqliyyatı vasitələrinin texniki vəziyyəti” ixtisas qrupu əlavə edilsin:

030635	Hava nəqliyyatı vasitələrinin texniki vəziyyəti	Nəqliyyat vasitələrinin texniki istismarı (hava nəqliyyatı üzrə)

6. “VIII. “İlkin tələbat və qida məhsullarının texnologiyası” peşə istiqaməti üzrə” hissənin “030802 Çörək məmulatlarının hazırlanması” ixtisas qrupuna “Xəmir qəlibçisi” ixtisasından sonra “Çörək və unlu qənnadı məmulatlarının texnologiyası” ixtisası əlavə edilsin.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, “ 8 ” “ oktyabr ” 2024-cü il
№ 447

MƏQALƏLƏRİN TƏRTİBATI QAYDALARI

Məqalə redaksiyaya elektron formada təqdim olunmalı və bundan əvvəl başqa nəşrlərdə yayımlanmamalıdır.

Məqalə hazırlanarkən aşağıdakı tələblər nəzərə alınmalıdır:

1. Məqalə Azərbaycan, rus və ingilis dillərindən birində hazırlanmalıdır.

2. Məqalə Microsoft Word mətn redaktorunda A4 formatında (soldan, yuxarıda, aşağıdan və sağdan – 2 sm.), Times New Roman şrifti ilə 12 pt. ölçüdə, vahid sətirarası intervalla və mətndaxili yazıda abzas 1 sm. göstərməklə hazırlanmalı və həcmi minimum 5, maksimum 10 səhifə təşkil etməlidir.

3. Məqalənin mətninin aşağıdakı bölmələrdən ibarət olması tövsiyə olunur:

• giriş (məsələnin aktuallığı, problemin hazırkı vəziyyəti);
• tədqiqatın məqsədi, məsələnin qoyuluşu;
• tədqiqat hissəsi;
• dəlillər sistemi və elmi əsaslandırma;
• məsələnin həll üsulları aprobasiyası;
• alınan nəticələrin tətbiqi;
• nəticə;
• istifadə edilmiş ədəbiyyat.

4. Məqalə aşağıdakı ardıcıllıqla hazırlanmalıdır:

– UOT;
– məqalənin adı;
– müəllif haqqında qısa məlumat (elmi dərəcə, vəzifə, iş yeri, elektron poçt ünvanı);
– məqalənin xülasəsi və açar sözlər.

5. Məqalənin sonunda istifadə olunmuş ədəbiyyat siyahısında hər bir istinad olunan mənbənin adı tərcümə olunmadan, məqalədə istifadə olunma ardıcıllığına uyğun olaraq nömrələnir. Mənbənin biblioqrafiq təsviri Ali Attestasiya Komissiyasının dissertasiya işlərində mənbənin biblioqrafik təsvirinə aid irəli sürdüyü tələblərə uyğun olaraq göstərilməlidir.

6. Məqalədə aşağıdakı məlumatlar Azərbaycan, ingilis və rus dilində verilməlidir: məqalənin adı; müəllifin adı, soyadı; məqalənin xülasəsi və açar sözlər.

7. Müəssisədə yerinə yetirilən tədqiqatın nəticələrini açıqlayan məqalənin çap edilməsi üçün müvafiq yazılı razılıq olmalıdır.

8. Məqalədə göstərilən məlumat və faktlara görə müəllif məsuliyyət daşıyır.

9. Məqalələr redaksiyaya rəy alınaraq daxil olur və müsbət rəy almış məqalələr çapa tövsiyə olunur.

10. Redaksiya məqalənin əsas məzmununa xələl gətirməyən redaktə dəyişiklikləri və ixtisarları etmək hüququnu özündə saxlayır.

11. Məqalə çapa verilmədikdə redaksiya heyətinin qərarı barədə müəllifə məlumat verilir və əlyazma müəllifə qaytarılmır. Redaksiyanın məqaləni yenidən işləmək haqqında müraciəti, onun çapa veriləcəyini ehtiva etmir. Belə ki, ona əvvəl rəyçilər, sonra isə redaksiya heyəti yenidən baxır. Çap üçün məqbul sayılmayan məqalə müəllifinin məqalənin çapına yenidən baxılması xahişi ilə redaksiya heyətinə müraciət etmək hüququ var.

12. Məqalənin korrekturası müəllifə göndərilmir.

13. Məqalə sadalanan tələblərə cavab verməzsə, baxılmaq üçün qəbul edilmir və müəllifə qaytarılır. Əlyazmanın daxil olduğu vaxt redaksiyanın mətnin son variantının redaksiyaya daxil olduğu gündən sayılır.

RULES FOR THE LAYOUT OF THE PREMİSES

The paper shall be submitted to the editorial office in electronic form and shall not be published in other editions.

When preparing a paper, please meet the following requirements:

1. The paper shall be drawn up in Azerbaijani, Russian, or English.

2. The paper shall be drawn up in the Microsoft Word text editor in A4 format (with 2 cm left, top, bottom, and right indents), using Times New Roman 12 pt font, single line spacing, and 1 cm paragraph indents within the text, and consist of minimum 5 and maximum 10 pages.

3. The paper text is recommended to comprise the following sections:

• introduction (relevance and current state of the issue);
• the research objective, statement of the problem;
• research;
• proof system and scientific justification;
• approbation of methods to solve the problem;
• application of the obtained results;
• conclusion;
• references.

4. The paper shall be drawn up in the following order:

– UDC;
– the paper title;
– brief information on the author (academic degree, position, place of work, e-mail address);
– the paper abstract and keywords.

5. Each cited source in the references at the end of the paper shall be numbered in the order of its use in the paper and provided without translation. The bibliographic description of the source shall comply with the Higher Attestation Commission's requirements for the bibliographic description of sources in theses.

6. The paper shall provide the following information in Azerbaijani, English, and Russian: the paper title; the author's given name and surname; the paper abstract and keywords.

7. An appropriate written permission shall be obtained for the publication of a paper describing the results of research performed at an institution.

8. The author shall be responsible for the data and facts provided in the paper.

9. Papers shall be sent to the editorial office after receiving reviews, and those with positive reviews shall be recommended for publication.

10. The editors reserve the right to make editorial changes and abbreviations that do not violate the paper's main content.

11. If the paper is rejected, the author shall be informed of the editorial board's decision, and the paper shall not be returned to the author. The editors' request for revision shall not mean that the paper will be published. Thus, it will first be considered by reviewers and then the editors. The rejected paper's author shall be entitled to apply to the editorial board with a request to revise the paper publication issue.

12. The paper's proofreading shall not be sent to the author.

13. If the paper does not meet the aforementioned requirements, it shall not be accepted for consideration and shall be returned to the author. The paper receipt time shall be the date of receipt of the final text version by the editors.

ПРАВИЛА СОСТАВЛЕНИЯ СТАТЕЙ

Статья должна быть представлена в редакцию в электронном виде и не должна быть опубликована в других изданиях.

При подготовке статьи необходимо учитывать следующие требования:

1. Статья должна быть составлена на азербайджанском, русском или английском языке.

2. Статья должна быть составлена в текстовом редакторе Microsoft Word в формате А4 (отступы слева, сверху, снизу и справа - по 2 см), с использованием шрифта Times New Roman 12 pt, с одинарным межстрочным интервалом и 1 см отступами абзаца в тексте, в объеме не менее 5 и не более 10 страниц.

3. Рекомендуется представить текст статьи в составе следующих разделов:

• введение (актуальность и текущее состояние проблемы);
• цель исследования, постановка задачи;
• исследовательская часть;
• система доказательств и научное обоснование;
• апробация методов решения задач;
• применение полученных результатов;
• заключение;
• использованная литература.

4. Статья должна быть составлена в следующем порядке:

– УДК;
– заголовок статьи;
– краткие сведения об авторе (ученая степень, должность, место работы, адрес электронной почты);
– аннотация статьи и ключевые слова.

5. Каждый цитируемый источник в библиографическом списке в конце статьи нумеруется в порядке его использования в статье и приводится без перевода. Библиографическое описание источника должно соответствовать требованиям ВАК к библиографическому описанию источников в диссертациях.

6. В статье должна быть приведена следующая информация на азербайджанском, английском и русском языках: заголовок статьи; имя и фамилия автора; аннотация статьи и ключевые слова.

7. На публикацию статьи, описывающей результаты исследования, выполненного в учреждении, должно быть получено соответствующее письменное разрешение.

8. Автор несет ответственность за приведенные в статье данные и факты.

9. Статьи направляются в редакцию после получения рецензий, и статьи, получившие положительные рецензии, рекомендуются к публикации.

10. Редакция оставляет за собой право вносить редакционные изменения и сокращения, не нарушающие основного содержания статьи.

11. В случае отказа в публикации автору сообщается о решении редколлегии, и статья автору не возвращается. Запрос редакции на доработку статьи не означает, что она будет опубликована. Так, ее сначала рассматривают рецензенты, а затем редакция. Автор статьи, не принятой к публикации, вправе обратиться в редакцию с просьбой о пересмотре вопроса о публикации статьи.

12. Корректура статьи автору не высылается.

13. Если статья не соответствует вышеперечисленным требованиям, она не принимается к рассмотрению и возвращается автору. Временем поступления статьи считается дата получения редакцией окончательного варианта текста.

Yaradıcı heyət

Baş redaktor müavini
Əfsanə Zülfüqarova
məsul katib
Afaq Xanpaşayeva
baş mühasib
Kəmalə Bayramova

şöbə redaktorları
Vüqar Səlimova
Sevinc Məmmədova
Günel Ələsgərova
Pərvanə İbrahimova
Rəna Rüstəmova

müxbir-redaktor
Ziya Balakişiyev
korrektor
Lalə Niyazqızı

Jurnal Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 23.11.2017-ci il tarixli, 416 nömrəli əmri ilə təsis edilmiş və dövlət qeydiyyatına alınmışdır. Qeydiyyat №2000314101

* * *

Jurnalın yaradıcı kollektivi Azərbaycan Jurnalistlər Birliyinin Həsən bəy Zərdabi adına Diplomuna layiq görülmüş və jurnal Azərbaycan Mətbuat Şurasının üzvüdür.

* * *

"Peşə təhsili və insan kapitalı" jurnalı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının TEXNİKA, İQTİSAD və PEDAQOGİKA elm sahələri üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısında yer almışdır.

Redaksiyanın ünvanı: AZ 1033, Bakı şəhəri, Əlicabbar Orucəliyev 61;
Tel./Fax: 566-09-67; 566-09-87;
www.jurnal.vet.edu.az
E-mail: peshetehsili.jurnali@vet.edu.gov.az

Rekvizitlər

Müştəri: "Peşə təhsili və insan kapitalı" jurnalı
VÖEN: 2000314101
H/h: AZ13CTRE00000000000002168904
Bank: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005

VÖEN: 1401555071
M/hesab: AZ41NABZ01360100000000003944
SWIFT: CTREAZ22
D3. Büdcə təsnifatının kodu: 142595
D4. Büdcə səviyyəsinin kodu: 03

Çapa imzalanmışdır: 6.12.2024. Kağız formatı: 60x84 1/8.
Çap vərəqi: 13. Sifariş: 168.
"Peşə təhsili və insan kapitalı" jurnalı redaksiyasında yığılıb və
"Max Ofset" MMC-nin mətbəəsində çap olunub.